MAFİLƏ MÜNTƏZİR

# QƏHRƏMANLIĞIN ELYAR ZİRVƏSİ

(ROMAN)

"Elm və təhsil"
Bakı - 2025

Redaktor: **Məmmədova Arzu Məmmədqızı**
" İNFONEWS" informasiya
Agentliyinin icraçı direktoru

Hərbi məsləhətçilər: **Qənbərov Cəbrayıl Qənbər oğlu**
Vətən Müharibəsi veteranı, hərbi
mütəxəssis

**Ülvi Qədir**
Pedaqoq, hərbi şərhçi

Mafilə Müntəzir, Qəhrəmanlığın Elyar zirvəsi, (Roman)
Bakı, "Elm və təhsil", 2025, 280 səh.

**4702000000** **qrifli nəşr** **TƏKRAR NƏŞR**
**N-98-2025**

**ISBN 978-9952-587-69-2**

**© Mafilə Müntəzir, 2025**

## MÜƏLLİFDƏN

"Qəhrəmanlığın Elyar Zirvəsi" romanı 44 günlük Vətən Müharibəsində qəhrəmancasına həlak olmuş, göstərdiyi igidliyə görə ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layıq görülmüş Elyar Vəliyevə ithaf olunan, real hadisələr əsasında yazılmış bədii əsəridir. Əsərdə qəhrəmanın Vətən Müharibəsi başlayan gündən şəhadətə yüksəldiyi günə kimi, yəni 23 gün müddətində apardığı şanlı döyüşlərdən və 29 illik ömür yolundan bəhs olunur.

Məni Qobustan rayonunun Sədəfli kəndinə, qəhrəmanın doğulub böyüdüyü evə aparan səbəb 44 günlük Vətən Müharibəsindən bəhs edən, hələ tamamlamadığım "Top səsi ilə açılan səhər" romanıma obraz axtarışı idi. Həqiqi hərbi xidməti bitirdikdən sonra Xüsusi Təyinatlı Qüvvələrin tərkibində xidmətini davam etdirmiş qəhrəman şəhidimizin döyüş yolunu araşdırdıqca, bu gənc döyüşçünün hərbi bacarığına, döyüş qabiliyyətinə, qorxmazlığına, vətənpərvərliyinə heyrətlənməyə bilmirdim. Elyar Vəliyevin döyüş yolunu öyrəndikcə ona ayrıca bir əsər ithaf etmədən keçə bilmədim və bu araşdırmalar nə-

ticəsində "Qəhrəmanlığın Elyar zirvəsi" romanı yarandı.

Vətənimizin hər bir guşəsi, torpaqlarımızın hər qarışı bizim üçün müqəddəsdir. İşğal altında olan torpaqlarımız şəhidlərimizin canı bahasına, qazilərimizin sağlamlığını itirməsi bahasına, veteranlarımızın döyüş əzmi sayəsində işğaldan azad olunub. Bu torpaqlara şəhidlərimizin müqəddəs qanı hopub. Qobustan rayonu da bu yolda on yeddi nəfəri Vətən Müharibəsi şəhidi olmaqla, ümumilikdə torpaqlarımızın azadlığı uğrunda gedən müharibələrdə altmış doqquz şəhid verib. Vətən Müharibəsi Qəhrəmanı, Xüsusi Təyinatlı Qüvvələrin giziri Elyar Vəliyevin şəhidlik məqamı isə "Qəhrəmanlığın Elyar Zirvəsi"ndədir. Bu əsərdə qəhrəmanın "Əfsanəvi tabor"un tərkibində döyüş yoldaşlarıyla birgə keçdiyi qəhrəmanlıqlarla dolu döyüş yolunu işıqlandırmağa çalışmışam.

Əsərin ərsəyə gəlməsində müəllifdən köməyini əsirgəməyən, şəhidimiz Vətən Müharibəsi Qəhrəmanı gizir Elyar Vəliyev haqqında öz xatirələrini bölüşən ailə üzvlərinə, qohumlarına, yaxınlarına, onu yaxından tanıyanlara, xüsusi olaraq, qəhrəman şəhidimizlə çiyin-çiyinə döyüşən qazilərimiz Rüstəm Məhsimova, Seyidbala Əliyevə, Səxavət Salmanova dərin təşəkkürümü bildirirəm.

Qeyd edim ki, mənim doğulub boya-başa çatdığım Sabirabad rayonu da torpaqlarımızın azadlığı

uğrunda Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, Xüsusi Təyinatlı Qüvvələrinin zabiti Murad Mirzəyev, Azərbaycanın Milli Qəhrəmanı Mübariz Əhmədov, Azərbaycanın Milli Qəhrəmanı Fərhad Ağayev də daxil olmaqla çox şəhid verən rayonlardan biridir. Rayonumuzda ən çox şəhid isə mənim doğulduğum Qəzli kəndindəndir. Onları xatırlamağı da özümə borc bildim…

Vətənimizin işğal altında olan torpaqlarını azad edərkən canlarını fəda etmiş şəhidlərimizə yüzlərlə kitablar yazılıb. Mənim də qismətimdə qəhrəmanlığına heyrətləndiyim, ruhu qarşısında baş əydiyim, özümü mənən borclu bildiyim Vətən Müharibəsi Qəhrəmanı, gizir Elyar Vəliyevə əsər ithaf etmək varmış. Bundan sonra da bu mövzuda əsərlər yazmağı düşünürəm. İnanıram ki, şəhid Elyar Vəliyevin Vətən Müharibəsində göstərdiyi əfsanəvi qəhrəmanlıq çoxlarına, xüsusən, əsəri oxuyan gənclərimizə örnək olacaq, onların Vətənə olan sevgisini daha da artıracaqdır.

Qəlbimizdə əbədi yurd salan bütün şəhidlərimizin xatirəsi əziz, məqamı ucadır!

Sayəndə ucaldı enən başımız,
Gül-çiçək bitirdi hər dağ-daşımız,
Qurudu torpaqçın axan yaşımız,
Saldın könüllərdə əbədi məskən,
And yerimiz Sənsən, bir də bu Vətən!

Vətən sevgisiylə alışdıq-yandıq,
Döyüşkən ruhundan hey ilhamlandıq,
Səni örnək bildik, nümunə sandıq,
Düşmən ürəyinə saldın qorxu Sən,
And yerimiz Sənsən, bir də bu Vətən!

Şəhidim, çoxları unudulacaq,
Xalqsa Sizi daim yada salacaq,
Min illər keçsə də adın qalacaq,
Ölməzlik zirvəsi fəth eləmisən,
And yerimiz Sənsən, bir də bu Vətən!

## SÜKUTU POZAN ZƏNG

Yenə yemək masası arxasında Arif kişi ilə Səmayə anadan başqa kimsə yox idı. Süfrəyə qoyulan xörək isə çoxdan soyumuşdu. Evin, otağın buz sükutu, sanki yeməyə də hopmuşdu. Hələ heç biri əlini süfrəyə uzatmamışdılar. Hər ikisi nəmli, yol çəkən gözlərindəki nigaranlığı gizlətmək üçün kəsişən baxışlarını bir-birindən qaçırmağa çalışırdı. Onlar bu gün də oğlanlarından səbirsizliklə telefon zəngi gözləyirdilər. Telefon isə hələ ki, susurdu. Hər iki oğulları müharibədə olan ata-ananın təsəlli alacağı, xəbər tutacağı başqa yer də yox idi. Şiddətlə davam edən müharibənin gedişatı haqqında ölkənin rəsmi televiziya kanalı vasitəsilə yayımlanan məlumatlardan xəbər tutsalar da, döyüşlərin od-alovu içində olan hər iki oğlanlarından xəbər tutacaqları vasitə yalnız mobil telefona gələn zənglər idi. Hər dəfə onlardan gələn zəng ata-ana üçün böyük təsəlli olardı.

Sükutu yenə Arif kişi pozdu:

-Fikir eləmə, Elyar peşəkardır, özünü qorumağı bacarar. Aprel döyüşlərindən necə bacarıqla, qəhrəmanlıqla çıxdısa, bu müharibədən də qəhrəmanlıqla çıxar, yenə başımızı uca edər.

-Elədir, ay Arif. Elyardan mən də arxayınam. Amma Elçindən nigaranam. Axı onun Elyar kimi təcrübəsi yoxdur. Əsgər olduğu bu bir ildə qardaşı kimi hərb işinin bütün sirlərinə yiyələnə bilməz.

-Elə demə, Səmayə, Elçin kimin qardaşıdır? Həm də onlara Abdulla kişinin nəvələri deyərlər. Babaları kimi qorxunun nə olduğunu bilmirlər. İnşallah, müharibə də tez qurtarar, görmürsən ordumuz nə edir? Müharibə başlayan gündən düşmənin gözünün odunu alıb.

-Elədir. İnşallah, xalqımızın qisası qiyamətə qalmaz!

-Sən bütün günü, demək olar ki, heç nə yeməmisən. Bir-iki tikə də olsa ye.

-Boğazımdan heç nə keçmir. Xörək də yenə soyuyub buza dönüb. Yenidən isidım?

-Hə isit, görək bir-iki tikə yeyə bilirik?

Səmayə ana soyumuş xörəyi isitmək üçün qalxıb mətbəxə keçdi. Elə bu zaman masa üzərinə qoyulmuş telefona zəng gəldi. Arif kişi telefonu açıb cavab verənə kimi zəng səsinə Səmayə ana da özünü yetirdı.

-Kimdir ay Arif?

-Elyardı.

-Anan qurban, ay bala! Nə bildin boğazımızdan bir tikə çörək də keçmir?

Bir anda elə bil bu kiçik otağa bir istilik, bir sevinc doldu. Hər ikisinin nəmli gözlərində sevinc göz yaşları göründü.

Səmayə ana gəlib Arif kişinin lap yaxınlığında dayandı.

-Qoy telefonun mikrofonunu açım, ikimiz də səsini eşidək.

Xəttin o biri başından Elyarın doğma səsi eşidildi:

-Salam ata. Necəsən? Anam necədi? Bacılar necədi?

-Salam, oğul. Mən də yaxşıyam, anan da yaxşıdır. Bizdən, bacılarından nigaran qalma. Siz yaxşı olun, siz salamat olun, ay oğul.

-Elçindən nə xəbər var? Zəng edib?

-Dünəndən bəri ondan da zəng gözləyirik.

-Darıxmayın, zəng edər. Müharibədir, döyüşdür. Zəng etməyə həmişə imkan olmur. Ata, uşaqlarla əlaqə saxlayırsan? Bilirəm, pandemiya qadağalarına görə gediş-gəliş çətindir. Yenə tez-tez Türkanədən, uşaqlardan xəbər tut. Özüm də imkan düşən kimi telefonla əlaqə saxlayıram. Yenə sənin də nəzərin üzərlərində olsun.

-Uşaqlar da sağ-salamatdır. Hər gün biz də telefonla xəbərləşirik, nigaran qalma. Türkanəni, uşaqları tək qoymuruq, darıxma oğul. Bilirsən ki, Nigar bibiləri gələndən sonra uşaqlara baxmağa kömək etmək üçün Türkanənin anası gedib. İmkan tapan kimi biz də ananla gedəcəyik. Bayaqdan anan da eşidir səsini.

-Ana, sən necəsən? Özünü darıxdırma. Müharibədir. Bizim də peşəmiz döyüşməkdir. İnşallah, düşmənə lazımi dərsi verərik. Dualarını bizdən əsirgəmə.

-Dualarım sizinlədir, can oğul. Anan qurban Elyar, səndən arxayınam. Hərb işi sənin peşəndir. Elçindən xəbər tutmağa çalış. Axı onun sənin kimi təcrübəsi yoxdur.

-Ana, sənin oğulların qurd ürəyi yeyib. Bilirsən ki, heç nədən qorxuları yoxdur. Elçin peşəkar olmasa da, bacarıqlıdır, çevikdir.

-İkinizi də Allaha əmanət vermişəm, mənim yaraşıqlı, ağıllı balalarım.

-Sağ ol, ana. Hələlik, ata. Özünüzə yaxşı baxın.

Telefon danışığı bitər-bitməz ikisi də bir-birinə baxdı və eyni anda dillərindən bu kəlmələr qopdu:

-Çox şükür, səsini eşitdik, ay oğul.

-İndi bəlkə boğazımızdan çörək keçər. Gətir bir tikə çörək yeyək,- deyərək Arif kişi telefonu bir kənara qoydu.

-Bircə Elçindən də xəbər tutsaydıq.

-Səbirsiz olma, ay Səmayə. O da imkan olan kimi zəng edər, müharibədir.

Otağın səssizliyini artıq yemək çəkilmiş boşqablara toxunan qaşıq səsləri pozurdu.

# TƏSƏLLİ

Dünən axşam Elyardan gələn zəng ata-anaya təsəlli olmuşdu. Əhval-ruhiyyələri azacıq da olsa düzəlmişdi. Ev, həyət işləri ilə başlarını qatırdılar. Qonşu kənddə ərdə olan kiçik qızları Nigar da o biri bacıları kimi pandemiya səbəbindən tez-tez gələ bilmirdi. Bu gün o da qardaşlarından xəbər bilmək üçün zəng etmişdi. Atasından Elyarın zəng etdiyini eşidib xeyli sevinmişdi. Elçinin hələ zəng etmədiyini eşidəndə isə səsinin dəyişməsindən qızının məyus olduğunu hiss edən Arif kişi ona ürək-dirək verməyə başladı:

-Darıxma qızım, yəqin Elçin də zəng edər. Müharibədir, hər dəqiqə imkan olmur axı.

-Bir xəbər olan kimi mənə də deyin, ata.

-Yaxşı qızım, özünü darıxdırma.

-Özümdən asılı deyil, ata. Neyləsəm də elə fikrim Elyarla Elçinin yanında qalır.

-Yenə səbrli ol, qızım.

-Çalışaram, ata. Allah bütün əsgərlərimizi qorusun.

-Amin.

Telefon danışığını bitirən Arif kişi fikrini dağıtmaq, vaxtı keçirmək üçün bir az həyətdə gəzişəndən sonra evin arxasındakı bağa keçdi. Ağaclar arasında da xeyli gəzişdi. İllər öncə Elyarla, Elçinlə birlikdə əkdiyi, budaqları meyvəsinin ağırlığından əyilmiş alma ağacına söykənərək, baxışlarını kəndi dövrəyə

alan boz dağlara sarı dikdi. Bu gün hər iki oğlu düşmənə qarşı ön cəbhədə vuruşan atanın fikrindən kim bilir nələr keçirdi. Ürəyindən qopan ahın ağırlığını bir özü bildi, bir də həmişə gəzib-dolaşdığı, ömrünü ətəklərində keçirdiyi dağlar hiss etdi. Çox darıxırdı. Bəzən canını qoymağa yer tapmırdı. Axı iki ciyərparası, Elçinlə Elyar müharibənin odu-alovu içində idi. Həyat yoldaşına, qızlarına, gəlininə təsəlli, təskinlik versə də özü təsəlli alacaq yer axtarırdı. Yenə çarəsi dua etmək, Allahından iki oğul balasının sağ-salamat qayıtmasını diləmək idi.

Yenidən Arif kişinin telefonuna zəng gəldi. Yəqin zəng edən Elçindir,- düşüncəsi ilə tələsik cibindən telefonu çıxararaq açdı. Bu dəfə isə zəng edən uşaqların xalası Sənubər idi. O da başqa qohumlar kimi tez-tez zəng edib Elçinlə Elyardan xəbər tutmağa çalışardı. Bu dəfə də hal-əhval tutandan sonra onlardan nə xəbər olduğunu soruşdu.

-Dünən Elyar zəng vurmuşdu. Yəqin Elçin də bu gün-sabah zəng vurar, ay xalası.

-Təki sağ-salamat olsunlar. İnşallah, müharibə tez qurtarar. Hamımızın nigaranlığı bitər. Uşaqlar sağ-salamat qayıdar. Bacım da rahatlıq tapar. Yenə Səmayəni darıxmağa qoyma, ay Arif. Bacısı qurban, bacıların kiçiyi olsa da iki balası müharibədədi. Allah hər iki balasını öz amanında saxlasın.

-Amin. Çox sağ ol, Sənubər. Soruşan, maraqlanan qohum-əqraba, dost-tanışlar çoxdur. Hamınızdan Allah razı olsun.

-Allah sizi də həmişə var eləsin.

Arif kişi danışığı bitirib yenə telefonu gödəkçəsinin yan cibinə qoydu. Fikri isə Elçindən zəng gələr deyə hələ də telefonda idi.

Artıq qaş qaralırdı. Dağların arxasına keçən günəşin şəfəqləri get-gedə zəifləyirdi. Mal-qaranın da örüşdən dönən vaxtı idi. Arif kişi uzaqdan mal-qaranın kəndə sarı gəldiyini görüb küçəyə tərəf getdi. O, küçəyə çatana kimi inəklər də mal-qaradan ayrılıb sahibinin qapısına sarı döndülər. Küçədə heyvanları həyətə salmaq üçün gözləyən Arif kişini görcək onlardan bir ev aşağıda yaşayan qonşu ona yaxınlaşdı:

-Salam, ay qonşu.

-Əleykümsalam.

-Uşaqlardan nə xəbər var?

-Dünən Elyar zəng eləmişdi. Şükür salamatdı. Elçin də yəqin zəng edər.

-Müharibədir, ay Arif. Özünü darıxdırma. O da bu gün-sabah zəng edər. Yəqin imkan olmur hər gün zəng etməyə.

-Elədir, qonşu. Təki sağ-salamat olsunlar.

-Uşaqlar müharibədən nə deyir?

-Elyar düşmən qarşımızda duruş gətirə bilmir deyir. Onların bütün sədlərini, istehkamlarını dağıda-

dağıda gedirik. Deyir ki, "Ohanyan səddi"ni də yarmışıq.

-"Ohanyan səddi" nədir, ay qonşu?

-Ermənilər işğaldan bəri elə sədd çəkib, elə bunkerlər tikiblər ki, bəlkə başqa ordu olsaydı bu sədləri çətin yarardı. "Ohanyan səddi" də düşmənin öyündüyü, onların təbirincə desək "ən keçilməz maneədir". Amma bizim ordumuz bu səddi də neçə yerdən yararaq darmadağın edib. Ay qonşu, televizora baxmırsan?

Beli azca bükülmüş, yaşı xeyli olan qonşu dikəlib, əli ilə gözünün üstünə düşən kepkasını alnına doğru qaldırdı:

-Mən elə çox televizora baxan deyiləm. Uşaqlar baxır. Elə onlardan soruşuram. Təki sən deyən kimi olsun. Ordumuz tez əzsin bu əfi ilanların başını. Bu qəddar, goreşən xainlərdən, çörəyimizi yeyib bizə qənim çıxan nankorlardan canımız qurtarsın. Sənin də balaların sağ-salamat qayıdıb gəlsin. Qanacaqlı, qabiliyyətli balalardı Elyarla Elçin. Allahın nəzəri həmişə üzərlərində olsun.

-Sağ ol, ay qonşu. Allah köməyin olsun.

-Mən gedim, ay Arif. Heyvanlar qapıya çatıb, gedim salım həyətə.

-Elə mən də heyvanları rahatlamalıyam. Allah bu bəlanı üstümüzdən tez aparsın. Rahat nəfəs alaq.

-Amin.

Arif kişi qapıya çatan heyvanları birbaşa tövlənin həyətinə açılan qapıdan içəri saldı.

Mal-qaranın gəldiyini görən Səmayə ana da eyvanın kənarına qoyduğu sağın vedrəsini götürüb tövləyə tərəf gəldi. Arif kişi heyvanların hərəsini artıq öz yerinə bağlamışdı. Səmayə ana inəklərin südünü sağandan sonra birlikdə həyətə keçdilər. Arif kişi pilləkənləri qalxaraq eyvandakı stullardan birini özünə tərəf çəkib əyləşdi. Səmayə ana isə sağdığı südü bişirmək üçün qazana boşaldıb tok piltəsinin üzərinə qoydu.

Payızın girməsinə baxmayaraq havalar isti keçirdi.

-Görürsən Arif, havalar necə isti keçir? Allah da elə bil yardımını xalqımızdan əsirgəmir. Havalar soyuq olsaydı cəbhədə, səngərlərdə döyüşən əsgərlərimizə çətin olardı. Özüm burdayam, ürəyim orada, balalarımın yanındadı.

-Elədir, Səmayə. Mən də elə sənin günündəyəm. Uşaqların fikri bir an da olsa ürəyimdən çıxmır. Heç işdə də səbrim tutmur. Tez-tələsik işimi bitirib evə dönmək istəyirəm ki, uşaqlar zəng vuranda ikimiz də danışa bilək. Axı onların bu müharibənin odu-alovu içində hərəmizə zəng etməyə vaxtları da yoxdur ki, ikimizlə də ayrı-ayrılıqda danışsınlar. Görəsən bu lənətə gəlmiş düşmənlərin başını ordumuz nə vaxt tamam əzəcək? Xalqımız da nəhayət, bu dərddən qurtularaq rahat nəfəs alacaq?

Müharibə başlayandan hər evdə söhbət demək olar ki, bu mövzuda idi. Təkcə söhbətmi? Əsla! Kimin əlindən nə gəlirdisə cəbhəyə kömək etməyə çalışırdı. Bu birlik bütün dünyanı belə heyrətə salmışdı. Xalqın vətənə, torpağa, dövlətə sevgisinin böyüklüyü ortada idi. Hər kəs onun da bu savaşa qatqısı olmasını istəyirdi. Dağların qoynuna sığınan Qobustan rayonunun Sədəfli kəndinin sakinləri də başqa kəndlərdən, bölgələrdən geri qalmamağa çalışırdı. "Varını verən utanmaz" deyiblər. Bu kiçik kəndin sakinləri də gücü çatandan ərzaq, geyim toplayıb cəbhə bölgəsinə yola salmaq üçün rayon mərkəzinə göndərirdilər. Bu da döyüş bölgəsinə gedə bilməyən, döyüşdə iştirak edə bilməyən insanlar üçün bir təsəlli idi.

Ön cəbhədə iki oğlu döyüşən ata-ana da öz sovqatını bu gün yola salmışdı. Yardım edən kənd sakinlərinin çoxları kimi onların da ürəklərinə bir rahatlıq hopmuşdu. Bu rahatlığın üstünə bir rahatlıq da gəldi. Kiçik oğlanları Elçin də zəng etdi. O da böyük qardaşı Elyar kimi Füzuli istiqamətində döyüşürdü. Döyüşlərə müharibənin elə ilk günü, həqiqi hərbi xidmətin əsgəri kimi qatılmışdı. Müharibə başlayanda Elçin bir il dörd gün idi ki, hərbi xidmətdəydi. Füzuli rayonunun Aşağı Qaraxanbəyli kəndində "Vodoprovod" deyilən yerdə, yəni su anbarının yanında yerləşən postda xidmət edirdi. Bura çox təhlükəli ərazi idi. Erməni postlarına çox yaxın olduğundan ara məsafəyə heç mina basdırmaq da mümkün

deyildi. Postlar arasında cəmi yetmiş-səksən metr məsafə vardı. Müharibə başlayan zaman hücum əmri verilərkən Elçin də hərbi xidmətdə olduğu postdan döyüşə qatıldı. Elə buradan düşmən səddi yarılaraq, düşmənin döyüş mövqeləri darmadağın edildi və döyüşçülər sürətlə irəliləməyə başladılar.

Elçinin də bu gün zəng vurması ondan nigaran qalan ata-ananın sevincinə sevinc qatdı.

Pəncərənin önünə qoyduğu telefona zəng gəldiyini eşidən Arif kişi cəld hərəkətlə oturduğu stuldan qalxıb telefonu əlinə aldı. Telefonun ekranından Elçinin adını oxuyan kimi üzündə bir anda təbəssüm yarandı. Bunu hiss edən Səmayə ana:

-Elçindi? - deyə soruşdu.

Arif kişi başının hərəkəti ilə, təsdiqlədi.

Səmayə ana yenə də gəlib Arif kişinin yanında dayandı. Bunu görən Arif kişi yenə telefonun mikrofonunu açdı.

-Salam, ata. Necəsən? Anam necədi?

-Salam, ay oğul. Yaxşıyam. Anan da yaxşıdır.

-Ata, Elyar zəng etmişdi? Hər ikimiz Füzulidə döyüşsək də, bir-birimizi görmürük. Amma rastlaşsaq sizə deyəcəyik. Narahat olmayın. Anamı darıxmağa qoyma. Bilirəm sizə çox çərindir. Amma müharibədir, hər çür çətinliyi, riski var. Hər şey ola bilər. Möhkəm olun.

-Oğul, siz salamat olun. Bizdən nigaran qalmayın. Anan da elə yanımdadı. Eşidir səsini.

-Səsinə anan qurban, ay Elçin. Özündən muğayat ol. Yenə Elyarın təcrübəsi çoxdur. Sən cəmi bir ildir əsgərlik edirsən. Müharibə zarafat iş deyil. Bizim əlimizdən dua etməkdən başqa heç bir iş gəlmir. Allah qorusun hər ikinizi, ay oğul. Bizim gözümüzü Allah yolda qoymasın. İnşallah, hər şey yaxşı olar. Tez qurtarar müharibə. İkiniz də sağ-salamat evimizə qayıdarsız.

-Sağ ol, ana. Allah dualarını eşidər, inşallah. Özünüzü darıxdırmayın. Səbrli olun.

-Əsas sizsiz, ay oğul. Odun-alovun içindəsiz.

-Ata, bacılar necədi? Türkanə, balacalar necədi?

-Hamısı yaxşıdı. Narahat olma.

-Sağ olun, imkan olan kimi yenə zəng edəcəm.

-Allaha əmanət ol, ay Elçin.

Elçinlə də danışıq belə bitmişdi. Hər ikisi bir az sakitləşmişdi. Telefon vasitəsilə oğlanlarından xəbər tutmaları onlar üçün ən böyük təsəlli idi.

-Nə tez böyüdüz, ay Elyar, ay Elçin. Elə bil dünən idi həyətdə qaçıb, oynadığınız o günlər. Mənim yaraşıqlı, ağıllı balalarım.

Doğrudan da, bu günə kimi hər iki oğula görə həmişə xoş sözlər eşitmişdilər. İstər məktəbdə oxuduqları vaxtlarda, istərsə də ondan sonra.

Səmayə ananın söylədiyi kimi, hər iki oğlu yaraşıqlı, boylu-buxunlu idi. Kəndin, qohum-əqrəbanın cavanları içində seçilirdilər.

Elyar sakit təbiətli olmasına baxmayaraq dediyindən dönməyən, inadkar, həmişə haqqın yanında olan bir gənc idi. Qayğıkeş, diqqətli, mərhəmətli olması ilə də çoxlarından fərqlənərdi. Yanında kimlərinsə imkanı olmamasından, ehtiyacı olmasından söhbət düşəndə mütləq diqqətində saxlayardı. İmkan düşən kimi atasına pul göndərərək, "ata, bu pulu filankəsə verərsən. Onun köməyə ehtiyacı var. Sonra qaytarmaq istəsələr də geri alma" deyirdi. Həm də ibadət əhli olan Elyara Yaradan çox böyük ürək vermişdi. Onun ürəyi Allah sevgisi, ata-ana sevgisi, bacı-qardaş sevgisi, ailə-övlad sevgisi, dost-qohum sevgisi, vətən-millət sevgisi ilə dolu idi. Yaxınlarına, doğmalarına, hərbçi yoldaşlarına da bunu aşılamağa çalışırdı.

Qardaşı Elçinə də bütün bu xüsusiyyətləri, davranışı ilə bir nümunə, örnək idi. Elçin də vətəninə, elinə, obasına, ata-anasına, bacı-qardaşına bağlı bir gənc idi. Ata-anasının başını uca etmək üçün həmişə nümunəvi davranışı ilə fərqləndiyini görmək olardı. Bu gün də əsgər kimi nümunəvi hərbi xidməti ilə seçilirdi. Hərbi xidmətdən Vətən Müharibəsinə qatılan Elçin də qardaşı Elyar kimi verilən bütün tapşırıqlara qüsursuz, vaxtında əməl etməyə çalışırdı.

## BEŞ ÖVLADIN QOXUSU

Övladları üçün darıxan təkcə Arif kişi ilə Səmayə ana deyildi. Onların oğlu - gənc yaşlarında artıq beş övlad atası olan Elyar da bir ata kimi öz övladlarından nigaran idi. Fərq onda idi ki, Arif kişi ilə Səmayə ana müharibədə, odun-alovun içində düşmənlə savaşan oğullarından nigaran idilər. Elyarsa özü müharibənin odu-alovu içində idi. Evdə qoyduğu beş azyaşlı övladlarından və gənc həyat yoldaşından nigaran idi. Tanrı ona bir oğul, bir qızın ardından üçəm əkiz oğul övladları da bəxş etmişdi. Ailə üzvlərinin sayı birdən-birə dörd nəfərdən yeddi nəfərə çatmışdı. Elyar Müdafiə Nazirliyinə tabe olan, "Yaşma" adlanan Xüsusi Təyinatlı Quru Qoşun bölməsində xidmət güstərdiyi üçün onun da ailəsi digər hərbçi ailələri kimi  Sumqayıt şəhəri yaxınlığında yerləşən hərbi şəhərcikdə yaşayırdı. O isə əksər hərbçilər kimi vaxtlı-vaxtında ailəsinin, övladlarının, gənc həyat yoldaşının yanında ola bilmirdi.

Valideynləri ilə telefon danışığından sonra o da öz övladlarını düşündü. Üçəm əkiz olan övladlarından birinin inkişafı daha zəif idi. Heç onun da müalicəsi ilə də vaxtlı-vaxtında məşğul ola bilmirdi. Həyat yoldaşı, valideynləri onu hərbçi kimi başa düşürdülər. Hər ikisinin ailəsi gənc anaya kömək etməklə bu boşluğu doldurmağa çalışırdılar. Növbələşərək uşaqlara baxmaqda yardım edirdilər. Elyarın bacısı Nigar

uşaqlar doğulandan özü ailə qurana qədər bir bibi kimi uşaqlara baxmaq üçün köməyini əsirgəməmişdi. Yalnız müharibənin başlamasına iki ay qalmış ailə qurduğundan onu növbələşərək nənələr əvəz edirdilər.

Müharibə başlayanda isə necə deyərlər "növbə"ni uşaqların ana nənəsi təhvil almışdı. Pandemiya olduğundan, qoyulan qadağalar tez-tez gedib-gəlməyə imkan vermirdi. Odur ki, bu "növbə"ləri də tez-tez dəyişmək mümkün olmurdu.

Elyar sonuncu dəfə onlarla birlikdə keçirdiyi vaxtı xatırladı. Ailəsi ilə birlikdə şəhərə gəzməyə çıxmışdılar. Uşaqların simasındakı sevinc gözləri önündən getmirdi. Xüsusən də qızı Aydə ondan əl çəkmir, əlini buraxmırdı. Nədənsə övladları arasında qızına olan istəyi başqa idi. Ona mütləq ali təhsil verəcəyinə özünə indidən söz vermişdi.

Hərdən onların qoxusu burnuna elə dolurdu ki, bir anda quş kimi uçub yanlarına getmək istəyirdi. Amma reallıq, soyuqqanlı hərbçi düşüncəsi, vətəninə, torpağına olan sonsuz sevgisi, düşmənə nifrət hissi bu körüklənmiş duyğulara bir anda üstün gəlirdi. Onun hərbi sahədə müvəffəqiyyətinin də başlıca səbəbi bu xarakteri, bu xüsusiyyəti idi. Ona tapşırıq verilən zaman hər şeyi unudurdu. Fikri, ağlı verilən tapşırığın səhvsiz, qüsursuz yerinə yetirilməsinə köklənirdi. Xalqının başına bəla olmuş bu problemin övladlarına, gələcək nəsillərə miras qalmaması üçün

bir hərbçi kimi yorulmadan hərb sənətinə mükəmməl yiyələnməyə çalışırdı. İstər ölkə daxilində, istər ölkə xaricində olan hərbi təlimlərə qatılır, qatıldığı bütün təlimləri müvəffəqiyyətlə başa vururdu. Onun Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri sırasına qəbul olunması da bu əzmkarlığın sayəsində mümkün olmuşdu.

Elyar atasına zəng edəndən sonra ailəsindən, övladlarından xəbər tutmaq üçün həyat yoldaşının telefon nömrəsini yığdı. Bir neçə çağrı səsindən sonra həyat yoldaşı telefonu açdı.

-Salam Türkanə, necəsən? Uşaqlar necədir?

-Salam. Yaxşıyam, Elyar. Uşaqlar da yaxşıdır. Nə yaxşı zəng etdin. Uşaqların səsindən zəngin də səsini az qala eşitməyəcəkdim. Birtəhər işlərimin öhdəsindən gəlirəm. Pandemiya qadağalarına görə çətindir gediş-gəliş. Sən də yaxşı bilirsən. Amma yenə bizdən nigaran qalma. Sağ olsunlar, nənələrinin köməkliyi ilə baxıram uşaqlara.

-Bilirəm, sənə çətindir. Darıxma, bu mənfur düşmənlərin axırına çıxmağımıza az qalıb. Budəfəki döyüş həlledici döyüşdür. Müharibə mütləq bizim qələbəmizlə bitəcək. Biz XXI əsrin müharibəsini aparırıq. Düşmən bizim qarşımızda heç cür duruş gətirə bilməyəcək. Bizim nələr etdiyimizi kaş burada birbaşa öz gözlərinlə görə biləydin.

-Sən orada döyüşürsənsə təsəvvür edirəm döyüşü. Sənin əlindən düşmən çətin qurtular.

Xəttin o biri başından Elyarın doğma gülüşü eşidildi.

-Düz deyirsən. Qarşıma çıxan düşmənin birinə də aman vermirəm. Onlar bizi bu müharibədən sonra daha yaxşı tanıyacaqlar. İnanmıram bundan sonra bir daha bizə qarşı savaşmağa cəsarət edələr. Olsa-olsa havadarlarının arxasında gizlənərək hürə bilərlər. Vaxt azdır. İmkan olan kimi zəng edəcəm. Özündən, uşaqlardan muğayat ol. Dörd qardaşın bir bacısı Aydəni lap çoxlu öpərsən mənim adımdan. Deyərsən atan səni lap çox istəyir. Hüseyni, Arifi, Əlini, Rəyanı da öpərsən atalarının adından. Mən onların xoşbəxt gələcəyi üçün vuruşuram. Qızımızın mütləq ali təhsil almasını istəyirəm. Bu mənim ən böyük arzumdur. Müharibədir, hər şey ola bilər. Ona görə bu arzumu söylədim. Qızımız mütləq ali təhsil almalıdır.

-Yenə başlama. Həmişə deyirdin axı, qoy müharibə başlasın, görəcəklər müharibə necə olur. Düşmənə göz açmağa imkan verməyəcək ordumuz. İnşallah, müharibə tez qurtarar. Özün gəlib balalarını doyunca bağrına basarsan. Aydəmizi də birlikdə oxudarıq.

-Elə necə demişəmsə, müharibə elə də gedir. Düşmənə göz açmağa imkan vermirik. Qısa müddətdə bütün torpaqları azad edəcəyik.

-İnşallah. Özündən muğayat ol. Bizi nigaran qoyma. İmkan tapan kimi zəng elə.

-Qoy uşaqların da səsini eşidim. Telefonun mikrofonunu aç.

Telefonun açıq mikrofonundan uşaqların qarışıq səsi gəlirdi.

-Başları oynamağa qarışıb.

-Ata, tez gəl! Sənin üçün çox darıxmışıq.

Bu dəcəl Aydənin səsi idi.

-Qızım, az qalıb. Müharibə bitən kimi gələcəm.

-Gözləyirəm ha. Gecikmə.

-Yaxşı, qızım. Qaqaşları da darıxmağa qoyma. Atasının gözəl qızı, gözlərindən öpürəm.

-Mən də səni öpürəm, ata.

Sonra Aydənin də səsi yenidən evdə o tərəf-bu tərəfə qaçan qardaşlarının səsinə qarışmışdı.

-Allaha əmanət olun, uşaqlardan muğayət ol! Hələlik Türkanə.

-Hələlik. Sən qarışıq Allah bütün əsgərlərimizi, zabitlərimizi qorusun.

Telefon danışığını bitirən kimi Elyar yenə də hərbçi düşüncəsinə döndü. Axı o da döyüş dostları kimi işğal altında qalan torpaqları azad etmək üçün döyüş meydanında ölüm-dirim mübarizəsi aparırdı. Hərbçi peşəsini də ürəyinin istəyi, ağlının diktəsi ilə seçmişdi. Özü Qarabağ bölgəsindən olmasa da, hələ lap kiçik yaşlarından Qarabağda baş verən hadisələr, orada gedən döyüşlər, işğal olunan torpaqlardan zorla qovulan insanlar, onların itirdiyi yaxınları, ev-eşikləri, yurd-yuvaları haqqında ailəsindən, ətrafında olan insanlardan çox eşitmişdi. Məktəb illərində bu hadisələr barədə müəllimlərinin dərs əsnasında,

tədbirlərdə söylədikləri sözlər də yaddaşına həkk olunmuşdu. Bütün bunlar onun gələcək həyatını formalaşdırmış, hərb sənətini seçməsinə səbəb olmuşdu.

Valideynləri bu peşənin ardınca getməsinə xeyir-dua versələr də, çoxları kimi oğul toyu görmək arzusunu, nəvə-nəticə sahibi olmaq arzularını da tez-tez dilə gətirirdilər. Nəhayət, o da ata-anasının ürəyini qırmayaraq, özünün və valideynlərinin seçimi olan Türkanə ilə gənc yaşlarında ailə həyatı qurmuşdu. Hərbçi üçün ailə həyatının çətinlikləri az deyildi. Çünki vaxtının çoxunu hərb işinə sərf etməyə məcbur idi. Buna gənc həyat yoldaşı Türkanə də qatlana biləcəkdimi? Onu bu fikir həmişə narahat edirdi. Çünki peşəsi qədər ailəsinə də diqqət ayırmağa çalışırdı.

İyirmi iki yaşında ailə quran Elyar bir il sonra ata olmuşdu. Onun ilk övladı-oğlu Hüseyn dünyaya gəlmişdi. Övladının dünyaya gəlməsi ailədə olan məsuliyyətini daha da artırmışdı. İki il sonra qızı Aydə doğulmuşdu. Bir il sonra isə üçəm övladları - Arif, Əli, Rəyan dünyaya gəlmişdi.

Ailə üzvlərinin sayının qısa zamanda 7 nəfərə çatması gənc ata, gənc ailə başçısı üçün böyük məsuliyyət idi. Bütün bunlara baxmayaraq, Elyar bir peşəkar hərbçi kimi bu sənətin sirlərinə yiyələnir, təcrübə, bacarıq əldə etmək üçün bütün imkanlarından istifadə edirdi. Axı işğalda olan torpaqlar azad edilməli idi. O, hərbçi peşəsini ona görə seçmişdi. Artıq özü

də beş övlad atası olan Elyar bu problemi gələcək nəsillərə saxlamaq istəmirdi. O, övladları qədər vətəninə də bağlı idi. Ana vətəni bu dərddən azad edilməli idi. Bu gün savaşa qatılan Elyar məhz bu amal uğrunda vuruşurdu.

## XÜSUSİ TƏYİNATLILAR - "YAŞMA"

Elyar gənc hərbçi kimi Aprel döyüşlərində də iştirak etmiş, cəsurluğu, mətanəti ilə fərqlənmişdi. Hətta hərbi xidmətinin ilk illərindən başlayaraq hərbi xidmətdə fərqləndiyinə görə 2013-cü ildə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, 2018- ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" medalı, 2020-ci ilin 26 iyununda "Qüsursuz xidmətinə görə" 3-cü dərəcəli medalı ilə təltif edilmişdi. Bu təltiflər də təsadüfi deyildi. Çünki xidmətə başladığı gündən hərbi xidmətdə əhəmiyyəti böyük olan bir neçə peşəyə və bir neçə xarici dilə yiyələnmişdi. Qüsursuz, peşəkarlıqla xidmət göstəririrdi.

Hələ 2009-cu ildə həqiqi hərbi xidmətə çağrılan Elyar ilk günlərdən nizam-intizamı ilə rəhbərliyin diqqətini cəlb edərək, altı aylıq rabitəçi kursuna yö-

nəldilmiş və sonrakı xidmətini rabitəçi kimi davam etdirməsi üçün Ağdam rayonunun Əhmədağalılar kəndində yerləşən hərbi hissəyə göndərilmişdi. Burada da xüsusi bacarığı, çevikliyi ilə fərqlənən Elyar Xüsusi Təyinatlı Qüvvələrin sıralarına cəlb olunmuşdu.

Bu barədə atasına söyləyəndə Arif kişi də tərəddüdsüz razılıq vermişdi. Özünü yoxlamağı, sınamağı tövsiyyə etmişdi. Çünki uşaq yaşlarından idmanla məşğul olan, hətta respublikasəviyyəli yarışlarda belə yüksək yer tutan oğlunun hərbi sahədə də uğur qazanacağına əmin idi. Həm də işğal altında olan torpaqları azad etmək üçün də peşəkar hərbçilərin lazım olduğunu da yaxşı bilirdi. Odur ki, bir ata kimi oğluna elə o vaxtdan xeyir-dua vermişdi.

Hər bir işdə böyüklərin xeyir-duasının, ata- baba razılığının əhəmiyyətini bilən Elyar Xüsusi Təyinatlı Qüvvələrin sıralarına keçən zaman tələb olunan xasiyyətnaməni əldə etmək üçün təhsil aldığı məktəbə gəlməli olmuşdu.

2011-ci ilin aprel ayı, gözəl bir yaz günü idi. Elyar kəndə günün ikinci yarısı çatmışdı. Doğma məktəbinə çatanda birinci növbədə təhsil alan şagirdlər artıq dərsdən evə dönürdülər. Səs-küylə məktəbin darvazasından çıxan uşaqlara baxdıqca Elyarın da məktəbdə oxuduğu illəri kino lenti kimi gözləri önündən keçdi. Sədəfli kiçik bir kənd olsa da, bu məktəbin müəllimləri şagirdlərə elm və biliklərin tədrisi ilə yanaşı vətənpərvərlik ruhu aşılayırdılar. Hər bir müəl-

lim Vətəninə, torpağına, millətinə olan sevgisini bacardığı qədər yetişən övladlarımıza ötürməyə çalışırdılar.

Elyar ölkəmizin ən təlatümlü illərindən birində, 1991-ci ilin 17 oktyabrında doğulmuşdu. Ermənilərin Qarabağ iddialarına qarşı etirazlar, azadlıq hərəkatı, torpaqlarımızı işğal edən mənfur düşmənlərə qarşı gedən qanlı müharibələr bu illərdə baş vermişdi. Belə ki, o, məktəbə ilk dəfə qanlı-qadalı Birinci Qarabağ Müharibəsindən bir neçə il sonra qədəm qoymuşdu. Vətənə, torpağa, bayrağa sevgisi elə məktəb illərindən qanına, canına, ruhuna hopmuşdu. Elyar həmin dövrün uşaqları kimi dövlət himnimizlə, əsgər marşları ilə böyümüş, əlinə aldığı üç rəngli bayrağımızı boyundan uca dalğalandırıb, yaşıdlarını başına toplayaraq əsgərlər kimi sırayla addımlamağı, "müharibə" oyunları oynamağı çox sevmişdi. Himnimizin sözlərindəki bu misralar onun həyat devizinə çevrilmişdi:

Səndən ötrü can verməyə cümlə hazırız,
Səndən ötrü qan tökməyə cümlə qadiriz,
Üç rəngli bayrağınla məsud yaşa,
Azərbaycan, Azərbaycan, Azərbaycan!

Onun hərb sənətinə olan marağı da elə kiçik yaşlarından başlamışdı.

Elyar tərbiyəsi, nümunəvi davranışı ilə bütün fənn müəllimlərinin rəğbətini qazanmışdı. Bu gün

isə doğma məktəbinə xasiyyətnamə almaq üçün gəlmişdi. Qarşısına çıxanlarla salamlaşaraq "Müəllimlər otağı"na yaxınlaşdı. Qapı açıq idi, Elyar otaqdakı müəllimlərə salam verdi. Onun salamını isə birinci alan tədris işləri üzrə direktor müavini oldu. Elyardan gəlişinin səbəbini soruşdu.

-Müəllim, mənə xasiyyətnamə lazımdır.

-Hara təqdim etmək üçün?

-Xüsusi Təyinatlı Qüvvələr sırasına qəbul edilməm üçün lazımdır.

-Sən bizim vətənpərvər, çalışqan, idmanda nailiyyətləri olan məzunumuzsan. Əlbəttə, sənə layiq olduğun xasiyyətnaməni verəcəyik. Bunun üçün Elşən müəllimə yaxınlaş. Məktəbimizin kargüzarlıq işləri ilə o məşğul olur.

-Çox sağ olun, müəllim.

Elyar müəllimlər otağından ayrılaraq ona istiqamət verilən tərəfə, Elşən müəllimin otağına tərəf getdi. O, otağın qapısının bağlı olduğunu görüb qapını döydü. İçəridən Elşən müəllimin doğma səsi eşidildi:

-Gəlin!

Elyar qapını açaraq salam verdi:

-Salam müəllim, gəlmək olar?

Məktəbdə fiziki tərbiyə fənnini tədris etməklə yanaşı, həm də kargüzarlıq işlərini aparan Elşən müəllim yazı masası arxasında əyləşərək qarşısındakı kağızları nəzərdən keçirirdi. Ona verilən salama başını qaldıran müəllim qarşısında sevimli şagirdini gördü.

Ona sarı gələn şağirdininin salamını alıb təkcə əl görüşməklə kifayətlənmədi. Masa arxasından qalxıb onu qucaqlayıb bağrına basdı. Axı Elyar onun idman sahəsində gözləntilərini doğruldan, ən sevimli şağird olmuşdu. Təlim-tərbiyəsinə, çalışqanlığına da söz ola bilməzdi. Qatıldığı bütün yarışlardan mükafatsız geri dönməmişdi. Sonralar hətta məşğul olduğu idman növündə Respublika miqyaslı yarışlarda ikinci yerə də layiq görülmüşdü. Karatenin"kyokşinkay" növü ilə məşğul olan Elyar OYAMA yarışlarına da qatılmışdı.

-Səndən nə əcəb, Elyar? Səni görməyimə çox sevindim.

-Mənə xasiyyətnamə lazımdır, müəllim. Xüsusi Təyinatlı Qüvvələrə təqdim etmək üçün. Ona görə heç evə baş çəkməmiş birbaşa məktəbə gəldim.

-Sən ki, əsgərliyi başa vurmusan.

-Məni Xüsusi Təyinatlı Qüvvələrin sıralarına qəbul etmək istəyirlər. Mən də hərbçi kimi xidmətimi orada davam etdirmək niyyətindəyəm. Bunun üçün təhsil aldığım məktəbdən xasiyyətnamə tələb olunur. Ona görə gəlmişəm, müəllim.

-Bizim nizam-intizamlı, çalışqan şagirdimiz kimi sənə böyük məmnuniyyətlə xasiyyətnamə verərik. Məktəb rəhbərliyinə deyim, sonra. Qaydalar bunu tələb edir.

-Müəllim, məni sizin yanınıza elə tədris işləri üzrə direktor müavini göndərdi.

-Elədirsə, mən öncə xasiyyətnaməni yazım, sonra sənədlə tanış olmaq üçün rəhbərliyə təqdim edərəm.

-Doğrusunu siz bilirsiz, müəllim.

Elyar barədə həmişə yüksək fikirdə olan digər müəllimlər də Elşən müəllim kimi yekdilliklə onun haqqında xasiyyətnamədə yüksək fikirlərin yazılmasının tərəfdarı idilər. Nəhayət, Elşən müəllim tərəfindən hazırlanmış xasiyyətnamə direktorun imzası və möhürü ilə təsdiqlənərək Elyara təqdim edildi. Təhsil aldığı məktəbin müəllimləri onu xeyir-dua ilə yola saldılar.

Elyar minnətdarlıq dolu sözlərlə müəllimləri ilə vidalaşıb doğma məktəbindən ayrılaraq evlərinə tərəf yollandı. Evləri ilə məktəbin arası elə də uzaq deyildi. Həyətə girəndə atasının bağda ağacları suladığını gördü. Açılan darvaza qapısının səsinə tərəf dönən Arif kişi Elyarı görcək əlindəki su şlankını yerə atdı. Bağrına basıb oğlu ilə görüşərək:

-Oğlum, nə yaxşı gəlmisən?, - deyərək qəfil gəlişinin səbəbini soruşdu.

-Ata, Xüsusi Təyinatlı Qüvvələrə daxil olmağım üçün məktəbdən xasiyyətnamə lazım idi. Sağ olsun Elşən müəllim, deyən kimi hazırlayıb verdi.

-Sağ olsun. Sənin də işlərin avand olsun.

Birlikdə söhbət edə-edə evə tərəf gəldilər. Həyətdəki səsə balkona çıxan ana oğlunu görcək cəld həyətə endi. Oğlunu bağrına basıb üz-gözündən öpdü:

-Xoş gəldin, ay oğul.

-Xoş gördük, ana.

-Nə yaxşı gəldin, can bala. Çox darıxmışdım, Elyar.

-Sənəd üçün bir günlüyə gəlmişəm. Sağ olsun müəllimlərim, deyən kimi hazırlayıb verdilər.

-Sağ olsunlar. Qalxaq evə. Yol gəlmisən, yorğunsan. Gəl hələ əyləş bir-iki tikə çörək ye, çay iç.

Həmin günü evlərində keçirən Elyar səhər tezdən yola düşərək xasiyyətnaməni gətirib lazım olan yerə təqdim etmişdi.

Bütün bunları müntəzəm təlimlərə qatılan Elyar bu gün də çox yaxşı xatırlayırdı. Vaxtilə qazandığı etimad, idman sahəsindəki uğurları onun bugünkü naliyyətlərinə də zəmin yaratmışdı. Sonralar da idmandan ayrılmamışdı. Sumqayıt şəhəri yaxınlığında yerləşən "Yaşma" hərbi şəhərciyində bir hərbçi kimi məşqçisi Sərhəd  Quliyevin rəhbərliyi altında əlbəyaxa döyüş növü üzrə idman fəaliyyətinə müntəzəm davam etmişdi. Burada da müəlliminin ən sevimli tələbəsi ola bilmişdi.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin kod adı "Yaşma"olan Quru Qoşunları Bölməsinin 052 nömrəli hərbi hissəsinə qəbul olunan Elyar Vəliyev burada da bütün hərbi bacarıqlara yiyələnmək üçün verilən tapşırıqları vaxtında, səhvsiz yerinə yetirməyə çalışırdı. Komandanlıq tərəfindən həm çətin, həm də məsuliyyət tələb edən bu tapşırıqlar qeyd-şərtsiz yerinə yetirilməliydi. Yerinə yetirilən

heç bir tapşırıq isə qeydə alınmır. Qeydə almaq, arxada iz buraxmaq deməkdir. Bu isə XTQ-nin qəbul olunmuş bir qanunu idi.

Xüsusi Təyinatlılar keçirdikləri əməliyyatlardan sonra özləri iz buraxmasalar da ayaq ləpirlərinin izlərindən ləpir sahibinin çəkisinin təyin edilməsi, yaralı olub-olmaması, yaxud neçə nəfərin getməsi haqqında fikir yürüdə bilirlər.

Onlar çox çətin coğrafiyalarda uzun müddət - günlərlə, həftələrlə, aylarla ac qala, kilometrlərlə fasiləsiz yol gedə, uzaq məsafəyə sursat daşıya bilirlər.

Onların başlıca xüsusiyyəti isə ağılalmaz səssizliyə sahib olmalarıdır. Düşmən içinə səssizcə sızaraq, həftələrlə deşifrə olunmadan onların arasında qalmağı bacara bilən döyüşçülərdir. Üç-dörd belə xüsusi təyinatlı döyüşçü hərbi əməliyatlar zamanı yüzlərlə düşməni qısa müddətdə zərərsiz hala gətirə bilirlər.

Bütün bu vərdişlərə, bacarıqlara yiyələnmək üçün bu yolu seçən insanda qırılmaz iradə, tükənməz dözüm olmalıdır. Bu yolu seçən hər bir kəs özünün zəif cəhətlərindən uzaqlaşmağı bacarmalı, özündə olan kompleksləri yenə bilməli, duyğulara, hisslərə qapılmamalıdır. Hərbi təlimlərdə onlara öyrədilənləri bütün ciddiyyətiylə mənimsəməyi bacarmalıdırlar. İstər savaşda, ya da hərbi, kəşfiyyat əməliyyatlarında zamanın əhəmiyyətini, hər saniyənin, hər anın necə dəyərli olduğunu dərk etməlidirlər.

Elyar da daxil olmaqla min nəfər hərbçinin qatıldığı Xüsusi Təyinatlı Qüvvələrin təlimlərində, ilkin mərhələdə beş yüz, daha sonrakı mərhələdə iki yüz on altı, nəhayət, kursu başa vuranda cəmi on altı nəfər qalmışdı. Butün təlimlərdə fiziki və psixoloji dözümü ilə seçilən bu on altı nəfərin biri də Elyar Vəliyev idi. O, bu günə qədər çox çətin hərbi təlimləri geridə qoymuşdu. Onun güclü iradəsi, vətən sevgisi, torpaqlarımızı işğal edən düşmənə nifrəti bütün tapşırıqların öhdəsindən bacarıqla gəlməsinə zəmin yaratmışdı. Elyarın kənd mühitində böyüməsinin, doğulduğu torpağa, böyüdüyü ailəyə bağlılığının, vətənə olan böyük sevgisinin, idmanla ciddi məşğul olmasının, onun çətin təlimlərin öhdəsindən bacarıqla gəlməsinə böyük təsiri vardı. Elyarın da qatıldığı təlimlərdə vətən, dövlət naminə nəinki öz canından, hətta ən əziz bildiklərindən də, qan, can bağı ilə bağlandıqlarından da keçməyə hazır olmaq tərbiyə edilirdi.

Ümumiyyətlə, dünya təcrübəsində belə təlimlərdə bu duyğuları aşılamaq üçün ən çox itlərdən istifadə edilir. Təlim boyunca bəslədiyin, həmişə yanında olan, bağlandığın sevimli itini vurmaq əmri də gəlir. Tərəddüd edən, mızıldanan əsgərə həmin anda təlimçidən sərt səslə təpgi gəlir:

-Sən lazım gələndə amansız olmağı bacarmalısan! Öldürməyi bacarmalısan! Uğrunda mübarizə apardı-

ğın amal üçün hər şeyə hazır olmalısan! Qalibiyyət üçün ya ölməlisən, ya da öldürməlisən!

İradəsi azca da olsa zəif olanlar sonrakı təlimlərdən uzaqlaşdırılır. Dəmir iradə, ciddi dissiplin olmadan Xüsusi Təyinatlı ola bilməzsən! Çünki bu təlimlərdə yuxusuz da qalırsan, yorğun da olursan. Buna baxmayaraq təlimlərdə başını qaldırmağa belə imkan verilmir. Təlim keçən əsgəri fiziki, psixoloji olaraq yormağa, sındırmağa çalışırlar. Bu təlimlərdə maksimum müharibə şəraitinə yaxın şərait yaradılır. Məqsəd isə real müharibə zamanı bütün bu çətinlikləri aşan döyüşçü belə bir çətinliyə düşəndə o çətinlikdən çıxmağı bacara bilsin, özgüvəni olsun. Xüsusi Təyinatlı Qüvvələrin döyüşçülərinin belə bir deyimi var: "Çətini bacarırıq, imkansız isə bir qədər vaxt alır". Xüsusi Təyinatlı Qüvvələr ordunun bel sütunu hesab olunur. Xüsusi Təyinatlılar ölüm maşını kimi yetişdirilir.

Belə çətin təlimləri bir-birinin ardınca müvəffəqiyyətlə keçən Elyar bütün bu deyilənləri özündə formalaşdırır, müqəddəs amalı uğrunda bütün çətinlikləri aşmağı bacarırdı. Çünki qarşıda işğal altında qalan vətən torpaqlarını azad etmək vardı. Bu müqəddəs məqsəd üçün hər bir əziyyətə dözməyə hazır idi. Yetər ki, vətəninin işğal altında qalan əraziləri mənfur düşmənlərdən təmizlənsin.

O, Xüsusi Təyinatlılara qatılmaq üçün ən çətin sınaq olan "cəhənnəm həftəsi", "sorğu günü" kimi sı-

naqları da xüsusi əzm və dözümlə keçmişdi. Bu təlimlər xüsusi amansızlığı ilə fərqlənir və müharibə zamanı qarşılaşa biləcəyin həqiqi bir vəziyyətdən heç nə ilə fərqlənmir. Ən çox ələnmə də məhz bu həftələrə təsadüf edir.

Elyar üçün də belə bir sınaq gecə yatdığı yerdə başlamışdı. Birdən içəri daxil olaraq şərti düşmənin açdığı güllələrdən yayınmaq üçün Elyar hövləkan özünü pəncərənin şüşələrini qıraraq çölə atdı. Nə yolla olursa olsun qaçıb canını qurtarmalı idi. Çünki ani hücumdan silahını götürməyə belə imkan tapmamışdı. O, çox az uzaqlaşa bilmişdi ki, şərti düşmən tərəfindən yaxalanıb əli, qolu, gözü bağlı halda bir otağa atılmışdı. Müəyyən saatlardan sonra Elyar artıq gecə, ya gündüz olduğunu təyin etməkdə çətinlik çəkməyə başlamış, zaman, vaxt anlamı onunçün əhəmiyyətini itirmişdi. Buradan xilas olmaq üçün yollar düşünməyə başlamışdı. Amma xilas olan zaman bayırda gecəyləmi, gündüzləmi qarşılaşacağını bilmirdi. O, Xüsusi Təyinatlı fədai kimi ağılagəlməz əziyyət, işgəncə altında "Sədaqətim Şərəfimdir!" şüarına sadiq qalmalı, göstərilən ağır təzyiqlərə, maneələrə baxmayaraq, şərti də olsa "düşmən"in sorğu-sualı zamanı möhkəm iradəyə sahib olmasını göstərməli idi. Altı saat davam edən bu "sorğulama"da Elyardan heç bir hərbi sirr, məlumat almaq yenə mümkün olmamışdı. Təlimin sonrakı hissəsində isə Elyar da digər əsgərlərlə birgə meşəlik əraziyə atılmışdı. Bu-

rada da "şərti düşmən" ilə qarşılaşa bilərdi. Onlar tərəfindən "əsir" götürülərsə yenidən sorğu-suala çəkiləcəyi mütləq idi. Həm də sağ qalmaq mücadiləsi verməli idi. Çünki yanında nə yeməyə bir parça çörəyi, nə də içməyə bir qurtum suyu yox idi.

Beləlklə, artıq üçüncü gün olardı ki, Elyar sıx meşəlikdə dolaşırdı. Aclıq, susuzluq öz təsirini göstərməyə başlamışdi. Susuzluğunu yatırmaq üçün üzərinə səhər şehi düşmüş yarpaqları, otları qıraraq ağzında çeynəyirdi. Qidası isə tapdığı böcəklər, onların tırtılları idi.

Qəfil üzərini alan "şərti düşmən" dəstəsi yanında yalnız döyüş bıçağı olan Elyarı "əsir" götürdü.

Yenidən onun gətirildiyi otaqda işgəncələr altında sorğu-sual başlandı. O, bu çətin sınaqlardan, verilən işgəncələrdən qırılmaz iradəsi, dözümü sayəsində müvəffəqiyyətlə çıxdı.

Elyar xüsusi bacarığı, dözümü, iradəsi ilə bütün tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gələrək nəhayət, təlimlərə cəlb olunmuş min nəfər içərisindən seçilən on altı nəfərdən biri oldu.

Xüsusi Təyinatlı Qüvvələrə qatılan gündən gənc Elyar çevikliyi, hərbi bacarığı ilə həmişə etimadı doğruldurdu. Daha sonralar isə başqa ölkələrdə də keçirilən təlimlərə qatılmaqla peşəkarlığını daha da artırmışdı. Gürcüstanda, Türkiyədə, Amerikada, Rusiyada, Pakistanda keşirilən Xüsusi Təyinatlıların təlimlərində böyük həvəs və çeviklıklə iştirak etmişdi.

Türkiyədə keçirilən "Efes" təlimlərinin davamlı iştirakçısı kimi Elyar Vəliyev hər dəfə bu təlimlərdə böyük hərbi bacarıq nümayiş etdirmişdi.

1998-ci ildən Türkiyə Silahlı Qüvvələrinin irimiqyaslı, ikitərəfli və döyüş atışı təlimləri keçirilməyə başlayır. 2016-cı ildən isə çoxmillətli təlimlər keçirilir. Özünə güvənməyən dövlətlər isə bu tipli təlim-yarışlarda uduzacaqlarını bilərək, yarışlara qatılmayaraq müşahidəçi qismində çıxış edirlər. 2018-ci ildə bu yarışmaya Xüsusi Təyinatlı Qüvvələrlə qatılan ölkəmiz, ordusunun peşəkarlığı ilə iştirakçı və müşahidəçi qismində iştirak edən dövlətləri heyrətdə qoyur.

Sonralar isə ölkəmiz bu yarışlara mütamadi olaraq qatılaraq hər dəfə də peşəkarlıq nümayiş etdirmişdi. Ölkəmizin apardığı Vətən müharibəsindəki dünyanı heyrətləndirən döyüş taktikası, ən modern silahlardan istifadə edərək aparılan XXI əsrin müharibəsi bunun nəticəsi idi. Elyar kimi peşəkar döyüşçülərimiz də müasir hərb məktəbi təlimlərinin yetirmələriydi.

Elyarın qatıldığı təlimlərdən biri də Gürcüstan Respublikası ərazisində Türkiyə, Azərbaycan və Gürcüstanın birgə keçirdikləri "Qafqaz qartalları" təlimi idi. Bu ekstra təlimlərə paraşütlə tullanma, dağçılıq, antiterror, istehkam, amfibiya hazırlığı kursu daxil idi. Azərbaycan Ordusunda elit qüvvələr olan Xüsusi Təyinatlılar daim döyüş hazırlığını artırmaq üçün mütəmadi olaraq belə təlimlərə qatılırlar. Elyar

Vəliyev də həmişə bu təlimlərdə iştirak edənlər sırasında idi. "Qafqaz qartalları" təlimlərində də fərqlənərək paraşütlə tullanmaqda və atıcılıq üzrə də birinci yerə layiq görülmüşdü. Təlim başa çatanda peşəkarlığı, hərbi bilik və bacarığı ilə tanınan gürcü polkovnik Azərbaycan Xüsusi Təyinatlılarının belə bir gücə malik olduğuna heyrətləndiyini etiraf edir.

Bir sözlə Elyar Vəliyev qatıldığı bütün təlimlərdə yüksək göstəriciləri ilə fərqlənirdi.

Elyar Vəliyev Xüsusi Təyinatlı Qüvvələlərin sırasına qəbul edildikdən sonra hərbi tibbi sanitar yardımı üzrə də ixtisaslaşmış, bu sahədə də bacarığı, biliyi ilə fərqlənmişdi. O, 44 günlük Vətən Müharibəsi öncəsi Aprel döyüşlərində də göstərdiyi qüsursuz, peşəkar ilkin tibbi yardım nəticəsində çox sayda döyüşçü yoldaşlarının həyatını xilas etmiş, əlil olmasının qarşısını almışdı.

Aprel döyüşləri qısa müddətli olsa da, Elyar nəinki tibbi sanitar kimi, həm də peşəkar bir hərbçi kimi döyüş meydanında cəsurluğu ilə seçilmişdi.

Elyar Vəliyev bir peşəkar hərbçi kimi Aprel döyüşlərində qənimət kimi əldə edilən silahların incələnməsi və sıfırlanmasında da yaxından iştirak etmişdi. Elyar qırx beş gün ərzində Göranda silahların incələnməsi və sıfırlanması üzrə təlimatçı olmuş, bu sahədə əldə etdiyi məlumatlarını digər hərbçilərə öyrətmək üçün əlindən gələni əsirgəməmişdi. Bu da onun xüsusi peşəkarlığından, Vətənə xidmətinin ali-

liyindən xəbər verirdi. Qeyd edək ki, Elyar Vəliyev Aprel döyüşlərində göstərdiyi xüsusi peşəkarlığına görə fərqlənmə medalı ilə də təltif edilmişdi.

Elyar Vəliyevin qısa müddətdə bir neçə əcnəbi dildə sərbəst danışmağı öyrənməsi isə çoxlarını heyrətdə buraxmışdı. Rus, ingilis, türk, erməni dillərində mükəmməl danışa bilirdi. Hətta həm Ermənistanda, həm Qarabağda yaşayan etnik ermənilərin fərqli ləhcələrində də sərbəst danışırdı. Axı müharibə başlayanda hələ Elyarın 29 yaşı tamam olmamışdı. Bu gəncin fenomen bacarığı, fitri istedadı isə bu yaş üçün heyrətamiz idi. O, hərbçi olmaq üçün doğulmuşdu. Onun xarakteri, qətiyyəti, xüsusi istedadı, fiziki sağlamlığı Xüsusi Təyinatlı Qüvvələrin bütün tələblərinə cavab verirdi. Bir sözlə, o, "Sədaqətim Şərəfimdir!" şüarını hər bir mənada doğruldan gənc olaraq yetişmişdi. Sankı "Yaşma" ləqəbli, qırmızı beretli bir gizir olması, bu adı layiqincə doğrultması üçün dünyamıza göndərilmişdi.

## QƏPİK ƏMƏLİYYATI

Aşotun kafesi kimi tanınan, çox da böyük olmayan məkan Qarabağda, ermənilər tərəfindən işğal olunmuş ərazidə yerləşirdi. Yol kənarında yerləşən kafe heç vaxt müştəri sarıdan qıtlıq çəkmirdi. Yaşıllıqlar arasında yerləşən bu məkanda axşamüstü daha çox qələbəliklər olurdı. İllərdir bu kafeni işlədən Aşot da işindən razı idi. O, gələn müştərini hər vasitə ilə diqqətdən kənarda qoymurdu.

Günortadan xeyli keçmişdi. Bu gün də müştəri bolluğu idi. Aşot kafenin həyətində qoyulmuş masalardan birinin arxasında yenicə əyləşən iki gənc müştərinin sifarişini vaxtında yerinə yetirmək üçün burada çalışan ofisianta onların əyləşdiyi masaya yaxınlaşmasını işarə elədi. Gənc cəld masaya yaxınlaşıb, boşalmış çaydanı, yarıboş stəkanları yığışdırıb kafenin mətbəxinə apardı. Yeni müştərilərdən sifariş götürmək üçün tələsik masaya yaxınlaşdı. Gənclər çay sifariş etdikdən sonra yenə öz aralarındakı söhbətlərini davam etdirdilər. On-on beş dəqiqə sonra sifarişi qəbul edən ofisiant dəm almış çayla dolu çaydanı, stəkan-nəlbəkiləri, doğranmış limonu və qəndlə ağzınacan dolu qəndqabını süfrəyə qoydu. Limon qabının yanına çay qaşıqlarını qoymağı da yaddan çıxarmadı. Gözucu masanın səliqə-səhmanına bir daha göz gəzdirib mətbəxə doğru yollandı.

Növbəti dəfə masaya tərəf gələndə gənclərin xidmət haqqını çaydanın altına qoyub getdiyini gördü. Ofisiant masanın üzərini yığışdıraraq müştərilərin çaydanın altına qoyduğu pulu da götürdü. Pulu kassaya da nəzarət edən Aşota verdikdən sonra əlindəki sini ilə mətbəxə keçdi. Sinidəki stəkan-nəlbəkiləri və çaydanı mətbəxdəki buraya boşaldıb çıxdı. Qabları yuyan qadın masalardan qayıtmış qab-qacağı bir-bir krandan axan suyla yuyaraq kənara yığırdı. Bu zaman mətbəxə daxil olan Aşot qabyuyan qadına yaxınlaşaraq:

-Sonya, bir az əldən iti ol. Müştərilərin artan vaxtıdır.

-Görürsən ki, bacardığım qədər tez yumağa çalışıram.

Sonya  bu sözləri deyərək növbəti boşalmış çaydandan çay yarpaqlarının qalıqlarını təmizləməyə çalışirdı ki, əli çaydanın içində nə isə dairəvi bir metal parçasına toxundu.

İxtiyarsız olaraq:

-Bu nədir belə?- deyərək  səsləndi.

Aşot da ixtiyarsız suala sualla cavab verdi:

-Nədir ki?

Sonya çaydanın içindən çıxardığı dairəvi metal parçasını elə üstü çay yarpaqlarına bulaşmış halda Aşota uzatdı.

Dairəvi metal parçasını əlinə alan Aşot təəccübünü gizlədə bilmədi:

-Bu ki, metal puldur.

Aşot metal pulun üzərini təmizləyəndə gözlərinə inanmadı. Pul sikkəsinin üzərindəki Azərbaycanın xəritəsini görəndə isə Aşotu sanki elektrik cərəyanı vurdu. Əlində saxladığı 50 qəpik - Azərbaycan pulu qeyri-ixtiyari açılan barmaqları arasından yerə düşdü. Nə baş verdiyini anlamadı. Əyilib yerdən pul sikkəsini götürüb yenidən o tərəf-bu tərəfə çevirməyə başladı. Pulun bir üzündə xəritənin yuxarısında Azərbaycan Respublikası, aşağı tərəfində 50 qəpik yazısı, o biri üzündə 50 qəpik yazısı və neft buruqlarının rəsmi basılmışdı.

-Nə pul? Müştəri pulu caydana atıb?

-Bu, Azərbaycan puludur.

-Necə yəni Azərbaycan?

Aşot fikirli halda pulu Sonyaya tərəf uzatdı. Sonya da gördüyünə inanmadı. Doğrudan da, çaydandan çıxardığı metal pul Azərbaycan Respublikasına məxsus idi.

Aşot həyəcan içində müştərilərini xatırlamağa başladı. Tez gənc ofisiantı çağırdı.

-Gələn müştərilər arasında heç rastlaşmadığın birilərini xatırlayırsanmı?

-Az əvvəl masa arxasından qalxan iki gənc deyəsən ilk dəfə idi bura gəlirdilər. Əvvəllər buraya gəldiklərini heç xatırlamıram.

Kafenin əksər müştəriləri yolüstü burada yemək yeyən, çay içən sürücülər, çoxu bu yoldan mütəmadi istifadə edənlər idi.

Bir az əvvəl masa arxasında əyləşən iki yaraşıqlı gənc də bir çaydan çay sifariş etmişdilər. Onlardan biri uzun boylu, qara saçlı, nazik bığı və qısa saqqalı olan iti baxışlı gənc idi. Nədənsə o daha çox yadında qalmışdı. O biri gənc də hündür boylu, təxminən 30-35 yaşlarında, saçları qısa vurulmuş, üzü təmiz təraş olunmuş sağlam cüssəli biri idi. Onların sifarişinin gəlməsi, çay içib masa arxasından qalxması yarım saata kimi çəkmişdi. Qalxıb gedərkən də xidmət haqqını çaydanın altına qoyub getmişdilər.

Aşotu soyuq tər basdı. Çaydanın içindən çıxan Azərbaycan bankına məxsus bu pul sikkəsi " BİZ BURDAYDIQ!" demək idi. Onun ilk ağlına gələn Azərbaycan kəşfiyyatçılarının burada olması idi. İxtiyarsız olaraq ətrafa boylandı. Bir az əvvəl masa arxasında əyləşən yaraşıqlı gənclər gözə dəymirdi. Aşot bir an nə edəcəyini bilmədi. Düşünüb-daşınıb bu barədə lazımi yerlərə məlumat vermək qərarına gəldi. Tez yaxınlıqda yerləşən polis bölməsinə xəbər verdi. Polis şöbəsində isə bu hadisə barədə vaxt itirilmədən rəhbərliyə məruzə edildi. Tez bir zamanda əməliyyat-axtarış qrupu təşkil edilib ətraf ərazi yoxlanılmağa başlanıldı. Amma heç bir iz, heç bir nəticə əldə edilə bilmədi. Belə bir xəbərdarlıqla gedənlərin Azərbaycan kəşfiyyatçıları olmasına artıq şübhə qalmırdı.

Bu isə bizim kəşfiyyatçıların onlara meydan oxuması demək idi. Kəşfiyyatçıların lazım olan məlumatı əldə etməsinə isə artıq şübhə yeri qalmamışdı.

Bu hadisə barədə Ermənistanın aidiyyatı orqanlarına da xəbər verildi.

-"YAŞMA"!!!

Arxasından qalxdığı masaya yumruğunu var gücü ilə vuran yüksək vəzifəli erməni rəsmisi bir anda dəliyə döndü:

-Yenə səssiz-sədasız, heç bir iz qoymadan getməyi bacardılar. Kim bilir neçə vacib məlumat aparıblar. Bunlarla biz bacara bilməyəcəyik. Ara, bunlar uçurlar, görünməz olurlar, yoxa çıxırlar, necə olur ki, heç bir iz qoymadan, səssiz-səmirsiz qeyb olurlar. Bu necə hazırlıqdı?! Bunlar necə edirlər?! Necə bacarırlar?!

Düşmən belə artıq bu gücü, cəsarəti heyrət və qorxu içində etiraf etməyə məcbur qalmışdı.

Elyarla Camal isə artıq sızdıqları düşmən ərazisindən çoxdan uzaqlaşmışdılar. Bu kəşfiyyat zamanı mühüm məlumatlar əldə etmiş, gizli məlumatları rəhbərliyinə məruzə etmişdilər. Budəfəki mühüm tapşırıq da səhvsiz, vaxtında yerinə yetirilmişdi.

Kəşfiyyat taboru bizim nəzarətimizdə olan ərazidəki kənd məktəbini müvəqqəti qərargah və komanda idarəetmə məntəqəsi kimi istifadə edirdi. Həmin kənd Azərbaycan əhalisinə məxsus olsa da, sonralar düşmən tərəfindən zəbt olunaraq erməni nəzarətinə

keçmişdi. İndi isə rəşadətli xüsusi təyinatlılarımız hərbi irəliləyişləri nəticəsində kənd məktəbində məskunlaşmış və müəyyən hərbi taktiki planları burada həyata keçirirdilər.

Kəşfiyyat taboruna rəhbərlik edən mayor rütbəli hazırki komandir qərargahda baş gizir Camal İsmayılov və gizir Elyar Vəliyevə mühüm xidməti əməliyyat tapşırığı verirdi. Hər iki kəşfiyyatçının gözlərində sevinc parlayırdı:

-Cənab mayor, siz bizə coxdan bəri gözlədiyimiz ən sevdiyimiz bir işi tapşırırsız,- deyərək, Camal sol yanında dayanmış Elyara baxaraq dedi:

-Sən necə fikirləşirsən? Əminəm ki, bacaracağıq.

Elyar cavab verdi:

-Bu dəfə də öhdəsindən gələcəyik, müvəffəq qayıdacağıq.

Hər ikisi böyük inamla mayorun üzünə baxdılar. Hərbi salamla AZƏRBAYCAN RESPUBLİKASINA XİDMƏT EDİRƏM!- deyərək mayoru dinlədilər.

-Gedin uşaqlar, bu dəfə də müvəffəqiyyətlə qayıdın!

Budəfəki tapşırıq məktəbdən şimal-qərbdə, buradan təqribi altı kilometrlikdə A-17 kvadratında düşmənin yaşadığı ərazini, hərbi disslokasiyanı, canlı qüvvəsini, döyüş maşınlarını və hərbi texnikasını, istehkam dairəsini, ən əsası isə, radioqəbuledici və ötürücü qurğuların yerinin təyin edilməsindən ibarət idi.

Mayor sözünə davam etdi:

-Birlikdə keçin qonşu otağa (söhbət məktəbin direktor otağından gedir. Qərargah rəisi direktorun otağını özünə kabinet etmişdi). Orada sizinçün ayrılmış idman dəstini geyinərsiniz. Əlavə verilənləri də orada görəcəksiniz.

Tapşırığı alan kimi komandirə "Oldu!" deyib, Camalla Elyar kabinetdən çıxaraq qonşu otağa keçdilər. Otaqda masaların üstündə bir-birindən fərqli olan və bir qədər də geyinilmiş, qollarında Ermənistan bayrağı, erməni dilində və hərflərilə "Ermənistan Respublikası" yazılmış iki dəst idman forması vardı. Bunlardan başqa iki cüt idman ayaqqabıları, iki ədəd cib bloknotu, ortadan bölünmüş hər ikisinin ucunda qələm qapaqları olan ucu yonulmuş karandaş və bir qutu erməni siqareti, həmçinin, erməni pulu - dram da vardı. Camal pulu əlinə götürüb, Elyara baxıb dedi:

-Deyəsən, əməliyyatımız maraqlı olacaq?...

Sol əlilə Camalın sağ qolundan tutaraq, sağ əlində tutduğu milli 50 qəpiyimizi Camala göstərən Elyarın cavabı belə oldu:

-Düz deyirsən dostum, budəfəki əməliyyat da – sözlərini dedikdə də əlindəki 50 qəpiyi silkələyib – mütləq maraqlı olmalıdır. Mənim sözümü bu qəpik deyəcək! Elyarın üzü iradə, inam ifadəsini əks etdirərək gülürdü.

Səhərin alatoranlığında hər iki dost yan-yana gedirdilər. Düşmənin dilini mükəmməl bilən Elyar və

Camal düşmənin yaşadığı bölgəyə hər hansı bir yolla mütləq keçməli idilər. Ancaq necə? Bax bu sual hər ikisini düşündürürdü. Elə ən çətini də bu idi. İşin əsası düşmən ərazisinə keçmək idi. Bu arada onlar meşəyə tərəf gedirdilər. Camal soruşdu:

-Qardaş, biz heç birimiz buralı deyilik. Onunçün də bizə çətin olacaq. Cavabında Elyar dedi:

-Bilirsən nə düşünürəm? Lap "Uzaq sahillərdə" filmi yadıma düşdü. Mehdi Hüseyinzadə də belə kəşfiyyatlara az getməmişdi. Onun ənənəsini isə indi biz davam etdirəcəyik, həm də öz Vətənimizdə.

Onlar artıq meşəyə çatırdılar. Meşəyə girib xeyli getdilər. Meşənin qurtaracağında geniş yamaca rast gəldilər. Uzaqda kimsə bir nəfər xarab olmuş traktoru düzəltməyə çalışırdı.

Camal dedi:

-Görürsən onu? İlk hədəfimiz odur. Getdik!

Traktora tərəf irəlilədilər. 55-60 yaşlarda bir nəfər kişi traktorun mexaniki hissəsiylə məşğul idi. Yavaş-yavaş traktorçuya yaxınlaşdılar. Erməni dilində ilk salamlaşmanı Elyar etdi.

Traktorçu salamı alaraq belə cavab verdi:

-Adı olub ki, müstəqilik. Sovet dağıldı, hər şey dağıldı. Dedilər hər şey gözəl olacaq, amma olmur ki, olmur. Adi bir traktorun əlində qalmışam. Müharibə olsa nə olacaq bilmirəm?

Camal özünü saxlaya bilməyib soruşdu:

-Müharibədə olmusuz?

Traktorçu cavab verdi:

-Əlbəttə olmuşam. Özüm də "Ural" sürürdüm.

Elyar söhbətə qarışdı və ehmalca Camala baxıb göz vurdu. Bu, o demək idi ki- YAXŞI BAŞLAMIŞIQ.

-Döyüş dostlarından tanıdıqlarından varmı indi? Bəs bunun harası xarab olub?

Əlini traktora uzatdı.

Traktorçu:

-Döyüş dostlarım buralardan çıxıb gedib. Kənddə bir mənəm bir də qocalar. Bu zəhrimarın da (əliylə traktora işarə verir) farsunkası xarab olub. Dəyişmişəm, ancaq təkəm, itələyən olsaydı bəlkə işə düşərdi.

Elyarın da Camalın da dizel motorundan gözəl başları çıxırdı. Ürəklərində istəməsələr də məqsədlərinin xatirinə köməkləşib birtəhər traktoru işə saldılar. Traktorçu da sevincək:

-Siz hardan gəlmisiz belə? Cavanları yavaş-yavaş müharibəyə cəlb edəcəklər. Buralarda görünməsəniz yaxşıdır. Ağlım kəsmir bu dəfə müharibə başlasa, biz qələbə çalaq. Kəndin əksər cavanları Rusiyaya üz tutub. Siz nə əcəb burda qalmısız?

Elyar dilləndi:

-Biz vətənimizi əldən verməyəcəyik.

Camal ona dəstək oldu:

-Biz sona qədər vuruşub Vətənimizi qoruyacağıq, sona qədər vuruşub düşməni vurub çıxaracağıq.

Camal bu sözü deyəndə Elyar gözucu Camalı süzdü və ürəyindən sanki tikan çıxdı.

Onlar hər ikisi bu sözləri deyəndə traktorçu başa düşmədi ki, onlar əslində bu sözləri düz deyir. Traktorçu fikrinə davam elədi:

-Bu torpaqlara sizin kimi igid oğlanlar layiqdi.

Elyar ətrafa göz gəzdirirdi. Bir az aralıda, görünən kəndin kənarında gözünə bir kafe sataşdı. Camala işarə vurdu ki,- gedək bir oturaq kafedə çay içək.

Bu yerdə traktorçu dilləndi:

-Gedək bizə, bizdə oturaq, çay içək. Həm də bilmək istəyirəm hardan gəlmisiz?

-Krasnodardan gəlmişik, bir az Cermukda olduq, indi də buraları gəzib-dolaşırıq.

Onlar traktorçuya qoşulub kəndə tərəf getdilər. Məqsədləri o idi ki, kafeyə girsinlər. Yol boyu ətrafda olan hərbi hissənin yerini öyrənsinlər, traktorçunun oradakı tanışlarının adını bilsinlər.

Traktorçu dedi:

-Mənim o hərbi hissə ilə yaxşı əlaqəm var. Komandirlərini də tanıyıram. Yaxşı döyüş maşınları var.

Bu arada Camal soruşdu:

-Batalyondu?

Traktorçu:

-Adı batalyondu. Vur-tut 350 nəfər ola, ya olmaya. Texnika var, amma canlı qüvvəsi azdı.

Elyar söhbətə qarışdı:

-Səbəbi nədir ki?

Traktorçu:

-Heç kim övladını Ermənistandan bura göndərmək istəmir. O səbəbdən də şəxsi heyət azdır.

Artıq traktorçunun evinə çatdılar.

Traktorçu:

-Uşaqlar, gedək oturaq çay içək.

Bu arada Camal sual verdi:

-Dediyiniz hərbi hissə hardadı ki?

-Kafeni keçəndən bir kilometr sonrakı məsafədə.

Camalla Elyar traktorçu ilə sağollaşıb nə vaxtsa onunla bir daha görüşəcəklərinə onu əmin etdilər. Amma traktorçu başa düşmədi ki, onlar nə demək istədi. Yəqin ki, Elyar fikirləşirdi: Ya biz döyüşdə görüşəcəyik, ya da bizə əsir olacaqsan. Beləliklə, yollarına davam etdilər. Kafenin yanından ötüb deyilən istiqamətə yollandılar. Ətrafda heç kim onların kimliyini başa düşməsin deyə yol boyu yalnız ermənicə danışırdılar. Kafeni keçəndən sonra deyilən məsafədə bir hərbi hissəyə rast gəldilər. Mayor onlara hərbi hissənin nömrəsini əvvəldən demişdi. Onlar bu hərbi hissədə iki ədəd QAZ-66 markalı hərbi radioqəbuledici və ötürücü stansiyanın işləməsini gördülər. Onların antennalarının quraşdırılmasından hiss olunurdu ki, həmin avtomaşınlar təyinat üzrə istismar olunur.

Elyar Camala dedi:

-Hərbi hissədən kimisə görsək, maraqlı söhbət etsəydik, içəridən bir xəbərimiz olardı.

Camal cavab verdi:

-Mən bir şeydən ehtiyat edirəm ki, onları duyuq sala bilərik. Həm də mülki paltarda olduğumuz üçün daxili məlumatı bizə verməyə bilərlər.

Elə bu zaman qarşıdan üç nəfər hərbi formalı gənc əsgərlərin gəldiyini gördülər. Onlar yaxınlaşanda Elyar soruşdu:

-Uşaqlar, hara belə gedirsiz?

Əsgərlər cavab verdilər ki,- bu gün şənbə günüdür, bizə buraxılış vərəqəsi verilib. Gedirik kafedə əyləşək, çay işək.

Camal söhbətə qarışdı:

-Təzə gəlmisiz?

Əsgərlərdən biri dedi:

-Biz bir ildir xidmət edirik, bu isə on aydır. Ancaq sözün əsl mənasında biz istəmirdik burda xidmət eləyək.

Elyar soruşdu:

-Siz haradan gəlmisiz ki?

Əsgərlərdən digəri dilləndi:

-Biz ikimiz Kirovakandanıq. Bu oğlan isə Yerevandandır.

Camal söhbətə qarışdı:

-Hə, deməli, heç biriniz buralı deyilsiz.

Əsgərlərdən biri cavab verdi:

-Yox. Heç birimiz buradan deyilik.

Nəhayət, döyüşün başlayıb-başlamayacağı barədə maraqlı sualı Elyar verdi:

-Bəs müharibədən nə deyirlər? Türklər nə deyir? Hücuma keçmək istəyirlərmi?

Əsgərlərdən biri dedi:

-Komandirimizin dediyinə görə, türklər hazırlıq görür, ancaq biz də hazırlıq görmüşük. Maşınlarımız var, təzə silahlar gəlib, təzə maşınlar gəlib.

-Nə maşınlar gəlibki belə?

Camal soruşdu.

-Dörd ədəd təzə ZTR gəlib, dörd ədəd də əlavə təzə PDM.

Camalla Elyar həmin əsgərlərə qoşulub geri qayıtdı. Yəni kafe istiqamətinə. Yol boyu bir qədər də gənc əsgərlərlə onları maraqlandıran mövzularda söhbətlər edib özlərinə lazım olan məlumatları əldə etdilər. Kafeyə girib hərə öz seçdiyi masada əyləşdi. Həm əsgərlər, həm də Elyarla Camal çay sifariş etdilər.

Ən maraqlı hadisə isə bundan sonra baş verdi. Belə ki, Elyar onların adətinə görə kağız pulu çaydanın altına qoyandan sonra özüylə gətirdiyi 50 qəpik Azərbaycan pulunu da ehmalca çaydanın içinə atıb qapağını örtdü, sonra masa arxasından qalxıb kafeni tərk etdilər.

Axşamüstü, alatoranlıq idi. Artıq getdikləri kimi də geri qayıdırdılar. Lakin bu dəfə traktorçuya rast gəldikləri tərəfdən deyil, kəndin sağ tərəfindən keçən yolla gedərək meşəyə girdilər. Onları görən olmadı.

Camal Elyara dedi:

-Hər şeyi yaxşı elədik. Amma sənin qəpik məsələn də yaman oldu ha.

Elyar cavabında:

-Onu bilərəkdən elədim. Qoy canlarına vəlvələ düşsün.

-Elyar, tələsək, qaranlıq düşüncə meşəni tərk edək, yoxsa meşədə irəliləmək çətin olacaq.

Artıq səmada Ay görünürdü. Ayın işığı səmanı və onların irəlilədiyi meşəni işıqlandırırdı. Onlar əsl peşəkar kəşfiyyatçı kimi ayın istiqamətini və bu istiqamətə uyğun yerləşən disslokasiya yerini müəyyən edə bilirdilər. Bu baxımdan istiqaməti səhv salmadan uyğunlaşdırır və doğru mövqe tutaraq, dəqiq istiqamətlə öz məntəqələrinə-qərargah təyin olunmuş məktəbə gəlib çata bildilər.

Bu hadisə sonralar bunu bilənlərin yaddaşında "Qəpik əməliyyatı" kimi qaldı.

# GÖZLƏNİLMƏYƏN ƏKS HƏMLƏ

Həmişə olduğu kimi düşmən yenə də təxribatlarından qalmırdı. 2016-cı il aprel ayının 1-dən 2-sinə keçən gecədən başlayaraq düşmən yenidən mövqelərimizi atəşə tutmağa başladı. Ermənistan silahlı qüvvələrinin Qarabağ və ətraf rayonlarda yerləşdirdiyi hərbi birləşmələrinin aramsız atəşinə Azərbaycan Silahlı Qüvvələri  əks həmlə ilə cavab verdi. Düşmən belə genişmiqyaslı əks-həmləni gözləmirdi. Bu 1994-cü il atəşkəsindən sonra ən şiddətli döyüş idi. Torpaqlarımızın azad olunması üçün hər an hazır olan ordumuzun şəxsi heyəti böyük ruh yüksəkliyi və peşəkar hərbi hazırlığı ilə döyüşlərə başladı.

Xüsusi Təyinatlı Qoşunların tərkibində olan 052-saylı hərbi hissənin 1-ci taborunun  döyüşçüləri sırasında Elyar Vəliyev də vardı. O da, verilən əmri yerinə yetirmək üçün kapitan Nizami Əliyevin komandanlığı altında döyüşə qatılmışdı. Elyar əlində, çiynində silah-sursatla digər döyüşçü yoldaşları ilə birlikdə dar cığırla Barambart meşəsi istiqamətində irəliləyirdi. Əvvəllər apardıqları bir çox kəşfiyyat əməliyyatları sayəsində bu ərazilərdəki düşmən mövqelərindən, yolların, cığırların hara aparmasından o da məlumatlı idi. Gecə olduğundan düşmən mövqeləri aydın görünməsə də, susmayan aramsız atəş səslərindən düşmənin çox da uzaqda olmadığını təyin etmək çətin deyildi. Düşmən tərəfindən açılan

atəşlərə Elyar və döyüş yoldaşları əks atəşlə cavab verirdilər. Atəş getdikcə şiddətlənirdi. İllərdir buradakı mövqelərində möhkəmlənən düşmən tərəfdən mərmilər, güllələr dolu kimi yağırdı. İtkilərin çox ola biləcəyini nəzərə alaraq bu istiqamətdən cəbhəni yarmağın heç də asan başa gəlməyəcəyini yəqin edən komandanlıqdan yeni döyüş əmri alan Elyar və döyüş yoldaşları tapşırığı yerinə yetirmək üçün mövqelərini dəyişdirərək, aprelin 2-dən 3-nə keçən gecə əks istiqamətdən - Tərtər-Goranboy istiqamətindən qarşı mövqelərə girərək, düşmənin ağır artilleriya atəşlərinə baxmayaraq Tapqaraqoyunlu kəndindən keçib işğal altında olan Talış kəndi istiqamətində hücumu davam etdirdilər. Onlar bu istiqamətdə düşmənin güclü müqavimətini dəf edərək xeyli irəliləməyi bacardılar. Cəbhə xəttini keçərək Talış kəndinə yaxınlaşan qrup burada düşmənin növbəti müqaviməti ilə rastlaşdılar. Talış kəndi və burada yerləşən yüksəkliklər uğrunda qanlı döyüşlər başladı. Düşmən bu mövqelərin itirilməsinin nə olduğunu çox yaxşı bilirdi. Odur ki, inadla müqaviməti davam etdirirdi. Döyüş zamanı peşəkarcasına əlverişli mövqe seçən Elyar və döyüş yoldaşları düşmənin xeyli canlı qüvvəsini və silah-sursatını məhv etməyi bacarmışdılar.

Heç bir Xüsusi Təyinatlı döyüş zamanı nə yaralanmış, nə də şəhid olmuş silahdaşını cari şəraitdən asılı olmayaraq, döyüş meydanında qoymazdı. Elyar

da döyüşməklə yanaşı yaralı döyüş yoldaşlarına da peşəkarcasına ilkin tibbi yardım göstərərək, onları döyüş mövqeyindən çıxarıb təxliyə qrupuna çatdırırdı. O, çevikliyi, hərbi biliyi, tibb sanitarı kimi bacarığı sayəsində yaralanmış döyüş yoldaşlarının həyatını xilas etməyə çalışırdı. Elyar qorxmazlığı, hərbi bacarığı ilə də həmişə fərqlənirdi.

Döyüşlərin artıq üçüncü günü idi. Elyar Vəliyev bu gün döyüşə badi*[1] olaraq Səxavət Salmanovla girmişdi. Səxavət də Elyar kimi bir döyüşçüylə badi olaraq, çiyin-çiyinə döyüşməsindən çox məmnun idi. Elyarla bir yerdə döyüşə girmək ilk növbədə qorxunu yenmək, cəsarətlə döyüşə atılmaq idi. Əgər döyüşdə yaralanarsansa sənə peşəkarcasına ilkin tibbi yardımın göstəriləcəyi demək idi.

Səxavətdən azca aralı döyüşən Elyarın səsi eşidildi:

-Səxavət, ehtiyatlı ol, solunu gözlə. Bax yolun o biri tərəfindən, üzbəüz təpənin üstündən də fasiləsiz atırlar. Başını çox qaldırma. İndi mən bu şərəfsizləri susdurum sən də bax.

---

[1] badi*- Hərbi ədəbiyyatda iki silahdaşın həm döyüş meydanında, həm də gündəlik təlimlərdə bir-birinə olan güvənini və sarsılmaz dostluğunu təmsil edən bir anlayışdır. Badi olmaq sadəcə yan-yana addımlamaq deyil, çiyin-çiyinə savaşmaq, bir-birinin həyatını qorumaq, çətin məqamlarda dayaq olmaqdır. Müharibənin qaynar alovunda ölüm və həyat arasında badiyə güvən, bəzən yeganə ümid və güc mənbəyi olur.

Elyar bu sözləri deyib RPK ilə qarşı tərəfdə, təxminən 300-400 m aralıda yerləşən düşmənin aramsız atəş açdığı mövqeyi nişan aldı. Dəqiq atışla düşmənin atəş nöqtəsini susdurmaq üçün silahı işə saldı. RPK-nın işə düşməsiylə düşmənin atəş nöqtəsindən həyəcanlı səslərin gəlməsi, ardınca düşmən mövqeyindəki atəş nöqtəsinin susması hədəfin dəqiqliklə vurulmasından xəbər verirdi. Elyar açdığı aramsız atəşdən sonra bir neçə dəqiqə atəşə ara verərək ətrafı diqqətlə dinlədi.

-Deyəsən səsləri kəsildi şərəfsizlərin. Bayaqdan bizə göz açmağa imkan vermirdilər.

-Yenə sərrast atışla sözünü dedin. Sənə halaldı, Elyar!

-Sən də pis döyüşmürsən, Səxavət. Amma ehtiyatı əldən vermə. Düşmən çox məkrlidi. İllərlə işğal etdikləri torpaqlarımızda necə var möhkəmləniblər. Bunları torpaqlarımızdan süpürüb atmağımıza da çox qalmayıb. Dövlətimizin ordu hazırlığına necə önəm verdiyini biz hərbçilər hamıdan yaxşı bilirik.

-Elədir.

-Səxavət, İrəli!

-Oldu!

Dostlar ehtiyatla mövqeləndiyi yerlərini dəyişərək irəliləməyə başladılar. RPK- nı çiyninə alan Elyar öndə, Səxavət də onun ardınca bir az arxada gəlirdi. Elə bu zaman onların ehtiyat etdiyi düşmənin yerləşdiyi sol mövqedən atəş səsləri yenidən gücləndi.

Düşmən qüvvələri yenidən onların yerləşdiyi mövqeləri mərmi atəşinə tutmağa başladı. Dostların hər ikisi həm düşmən atəşindən yayınmağa, həm də döyüşə-döyüşə irəliləməyə çalışırdılar. Elə bu zaman düşmən tərəfdən atılan mərminin Səxavətin yanına düşməsilə onun yerə yıxılması bir oldu. Yenidən qalxıb döyüşü davam etdirmək istəyən Səxavətin yaralandığını qrup komandiri də görmüşdü. O, arxadan qışqıraraq,-Səxavət, yaralanmısan, irəli getmə!- deyərək xəbərdar etməsinə baxmayaraq Səxavət irəliləmək istəyəndə müvazinətini itirib yerə yıxıldı. Mərmi səsinə dönən Elyar da Səxavətin yerdə qıvrıldığını gördü.

-Səxavət, tərpənmə. Qorxma, indi gəlirəm.

-Deyəsən kürəyimdən yaralanmışam.

Atəş altında olsa da Elyar cəld özünü yaralanmış dostuna yetirdi. Yaxınlıqda partlayan mərmi Səxavəti ağır yaralamışdı. Partlamış mərmi qəlpələrindən biri onun ağ ciyərinə batmışdı. Qanaxma çox güclü idi. Qanaxma dayandırılmasa yaralı ölə bilərdi. Elyar cəld hərəkətlə sanitar çantasını açaraq lazımi dərman və sarğı materiallarını çıxardı. Səxavətin yarasından axan qan paltarını al rəngə boyamışdı.

- Elyar, mən ölürəm, nəfəs ala bilmirəm.

- Səxavət, dözümlü ol! Sənə heç nə olmayacaq. İndi yarana baxacam.

Bunu deyib, cəld hərəkətlə yara nahiyyəsindən Səxavətin paltarını kəsərək yaranın üzərindən kəna-

ra çəkdi. Elyar yaralanmış nahiyyəni geyimdən azad edəndən sonra dostunun ağ ciyərindən ciddi yara aldığını gördü. Güclü qanaxma nəticəsində Səxavətin bənizi getdikcə ağarır, halsızlaşırdı.

- Dözümlü ol, sənə heç nə olmayacaq!

- Gücüm tükənir, gözüm qaralır.

- Hə də, xeyli qan itirmisən. Ona görədir. İndi yaranı sarıyacam.

Elyar Səxavətlə danışa-danışa onun aldığı yaranı gözdən keçirdi. Dostunun ağ ciyərindən aldığı qəlpə yarası çox dərin idi. Güclü qanaxma kəsilməsə yaralı həyatını itirə bilərdi. Elyar vaxt itirmədən qanaxmanı kəsmək üçün yaranı ilkin işləyərək sarğı qoydu. Sonra döyüş yoldaşları ilə birlikdə, ehtiyatla onu döyüş meydanından çıxarmağa nail oldu. Burada isə döyüşçülərdən iki nəfər Səxavəti Tibbi Təxliyə qrupuna təhvil vermək üçün qoluna girərək döyüş meydanından uzaqlaşdırdılar. Elyar isə yenidən döyüş mövqeyinə qayıtdı.

Elyarın peşəkarlığı və cəsurluğu nəticəsində həyatda sağ qalan Səxavət Salmanov sonralar Elyara həyatını borclu olduğunu həmişə minnətdarlıq hissi ilə xatırlayacaqdı. Həkimlər də ona edilən peşəkarcasına ilkin tibbi yardımın nəticəsində sağ qaldığını söyləmişdilər.

Aprelin 1-dən 5-nə kimi davam edən döyüşlərdə Talış kəndi ətrafında strateji yüksəkliklər Azərbaycanın nəzarəti altına keçdi. Qısa müddətli bu döyüşdə,

həmçinin Tərtərin Qazaxlar kəndinə, Goranboy rayonunun Gülüstan kəndinə, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyinə, Cocuq Mərcanlı kəndinə gedən yollar da ordumuz tərəfindən nəzatərə götürüldü. Ümumilikdə bu döyüşlərdə düşmən işğalı altında qalan ərazilərimizdəm 2000 hektarlıq ərazi geri qaytarıldı. Bu döyüşlərdə ordumuzun verdiyi itkilərə baxmayaraq əsgər-zabit heyəti döyüşlərdə Azərbaycan Ordusunun gücünün nə olduğunu göstərə bildi. Sonradan düşmənin cəhdlərinə baxmayaraq ordumuzun burada möhkəmlənən hərbi hissələri geri alınan torpaqların bir qarışından belə geri çəkilmədi.

Azərbaycan Ordusunun peşəkarcasına döyüşməsi, sürətlə irəliləməsi Ermənistanla yanaşı, havadarlarını da narahat etməyə başladı. Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevə edilən zənglərin ardı kəsilmirdi. Zənglərdə əks hücümün dayandırılması tələbi qoyulmağa başladı. Avropa İttifaqı, BMT, Avropa Şurası tərəfləri hərbi əməliyyatlara son qoymağa çağırırdı.

ABŞ isə birbaşa təhdidə keçmişdi. Almaniya da hər iki tərəfi dərhal döyüşü dayandırmağa çağırırdı.

Türkiyə, Pakistan, Gürcüstan, Qazaxıstan, İran, Ukrayna, Belarusiya isə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirir, münaqişənin bu konteksdə həll olunmasına tərəfdar olduğunu bildirirdilər.

Nəhayət, bütün bu yanaşmalar fonunda aprelin 5-də beynəlxalq qurumların iştirakı, hər iki tərəfin razılığı ilə atəşkəs haqqında müqavilə imzalandı.

Tarixi dönüş və Zəfərin ilk müjdəsi sayılan Aprel döyüşlərində həm düşmən, həm bu siyasi münaqişədə maraqlı güclər Azərbaycan Ordusunun nəyə qadir olduğunu gördü.

Elyar və komanda yoldaşları da Aprel döyüşlərində göstərdiyi yüksək döyüş bacarığı və şücaəti ilə fərqlənənlərdən oldu.

Torpaqların bir hissəsinin geri alınması Elyar da daxil olmaqla həm silahlı qüvvələrimizin, həm xalqımızın yaxın zamanlarda torpaqlarımızın işğaldan azad olunacağına, bunun üçün həlledici döyüşlərin olacağına inamı daha da artdı.

Bu hadisələrdən bir neçə il sonra düşmən 2020-ci ilin iyul ayında  növbəti təxribata əl atdı. İyulun 12-si günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Tovuz rayonu istiqamətindən Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin mövqelərini artilleriya qurğularından atəşə tutmağa başladı. Düşmən tərəfindən başladılan atəşə kimi Azərbaycan Ordusunun Silahlı Qüvvələri tərəfindən Ermənistan Silahlı Qüvvələrinə aid zirehli texnika və canlı qüvvələrin yerdəyişmələri müşahidə edilməkdəydi. Erməni tərəfi məlum faktları təkzib etsə də, bu hücumun əvvəlcədən planlaşdırılması danılmaz idi. Və

əlbəttə, bu hücuma qarşı da Azərbaycan Silahlı Qüvvələri tərəfindən adekvat addım atıldı.

Döyüşün ilk saatlarında Azərbaycan Silahlı Qüvvələrinin iki hərbçisi şəhid oldu, bir neçə hərbçisi yaralandı. Düşmən tərəfi isə çoxsaylı itkilər verdi.

İyulun 13-nə keçən gecədə gərginlik davam etdi. Çirkin niyyətlərindən əl çəkməyən düşmənin atəşi davam etdirməsini görən Silahlı Qüvvələrimiz düşmənə layiqli cavab verdi. Ordumuz  artilleriya, minaatan və tankların tətbiqi ilə bu təxribatın da qarşısını almış oldu.

İyunun 13-dən 14-nə keçən gecədə daha da azğınlaşan düşmən ilə şiddətli döyüşlər davam edirdi. Azərbaycan Ordusu döyüş gedən istiqamətdə Ermənistan Ordusuna böyük itkilər verdirərək onların geri çəkilməsinə nail ola bildi. Quduzlaşmış düşmən verdiyi itkilərə baxmayaraq iyinun 14-də də gündüz saatlarında Azərbaycanın Tovuz rayonu istiqamətində mövqelərimizi atəşə tutmağa davam etdirdi. Həmin gün müdafiənin ön xəttindəki Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov və Polkovnik İlqar Mirzəyev kimi yüksək rütbəli hərbi qulluqçuları ilə bərabər ordumuzun ümumilikdə on iki hərbi qulluqçusu qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı. Düşmənin bu təxribatı səbr kasasını daşdıran son damla oldu. Tovuz döyüşlərindən sonra Ali Baş Komandan İlham Əliyev Ermənistana qarşı cəza

əməliyyatının başlamasına hazırlıq üçün göstəriş verdi.

Tovuz döyüşlərindən iki ay sonra gizir Elyar Vəliyevin də qatılacağı Azərbaycan Silahlı Qüvvələrinin düşmənlə həlledici döyüşü başlayacaqdı. Hələlik isə 2020-ci il iyulun 14-dən 15-nə keçən gecə idi. Bu gecə bütün dünyada olduğu kimi bizim də ölkəmizdə ümumbəşəri bəla olan "Covid-19" pandemiyası səbəbindən insanların küçələrə, ictimai yerlərə çıxmasına sərt qadağalar qoyulmasına baxmayaraq on minlərlə insan, o cümlədən, gənclərimiz ölkə paytaxtında yürüş edərək həm Azərbaycan Ordusuna dəstək olduğunu, həm döyüş əzmini, həm də xalqın həmrəyliyini nümayiş etdirməkdən çəkinmədi. Əllərində üç rəngli, ay-ulduzlu müqəddəs dövlət bayrağımızı tutan insan seli Bakı küçələrində irəliləyərək səsləndirdikləri şüarlarda ordusunun yanında olduğunu, qisasın qiyamətə qalmayacağını, lazım gələrsə düşmənə qarşı son damla qanlarına qədər vuruşacaqlarını, torpaqlar işğaldan azad edilməyincə mübarizədən geri durmayacaqlarını vurğulayırdılar. İki ay sonra başlayan Vətən Müharibəsində 44 gündə düşmən üzərində qazanılan qələbə bu sözlərin sadəcə şüar olaraq səsləndirilmədiyini sübut edəcəkdi. Xalq-dövlət-ordu birliyi ilə qazandığımız möhtəşəm qələbə nəinki düşməni, hətta bütün dünyanı heyrətdə qoyacaqdı.

## SÜRƏTLƏ İRƏLİLƏYƏN TABOR

2020-ci il sentyabrin 27-də səhər saat 06:00 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən yenidən genişmiqyaslı təxribat törədilərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri fasiləsiz atəşə tutulmağa və iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından açılan atəşlər nəticəsində ölən və yaralananların olduğu barədə xəbərlər gəlməyə başladı. Son vaxtlar tez-tez təxribat törədən düşmənin bu böyükmiqyaslı təxribatı səbr kasasını daşıran son damla oldu. Təxribat barədə  Ali Baş Komandan məlumatlandırıldı. Bundan sonra düşmənin döyüş fəaliyyətinin qarşısını almaq üçün Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı tərəfindən cəbhəboyu zonada hücum əməliyyatlarına başlamaq barədə qərar verildi. Düşmən işğalı altında olan torpaqların azad edilməsi üçün illərlə gözlənilən hücum əmri də elə həmin gün- 27 sentyabr 2020-ci ildə Ali Baş Komandan İlham Əliyev tərəfindən verildi. Düşmənin basqısına cavab olaraq Azərbaycanın silahlı qüvvələri havadan və qurudan sürətlə əks hücuma başladı. Qarşı tərəfdə isə otuz ilə yaxın bir müddətdə işğal altında saxladığı torpaqlarda möhkəmlənmiş, istehkam qurğuları qurmuş, uzunluğu 200 km-ə yaxın olan işğal altında olan Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonu ərazilərindən keçərək İran sərhədi-

nə-Araz çayına qədər uzanan, öz düşüncələrində mifə çevirdikləri, keçilməz bildikləri "Ohonyan səddi"ni inşa etmiş məkrli bir düşmən vardı.

Əks hücuma keçən ordumuz ildırım sürətli savaş taktikasını seçmişdi. Hücum başlayan kimi hava qüvvələrimiz aldadıcı manevrlərlə düşmənin aviasiya qüvvələrinin yerlərini təyin edərək, elə müharibənin ilk günündə düşmənin aviasiya sisteminin altmış faizinə qədərini məhv edə bildi. Bundan sonra, yəni sərbəst uçuşlar təmin edildikdən sonra Su-25-lər, hücum təyyarələri, helikopterlər, dronlar havaya qalxaraq düşmənin artilleriya sistemlərinə, döyüş maşınlarına, canlı qüvvələrinə dayanmadan zərbələr endirərək quru qoşunlarının irəliləməsi üçün münbit şərait yaratmış oldular. Quru qoşunlar isə müxtəlif istiqamətlərdən hücuma keçərək irəliləməyə başladılar.

Quru qoşunları düşmən üzərinə həm Murovdağ istiqamətindən, həm Lələtəpə istiqamətindən, həm Füzuli istiqamətindən hücuma keçmişdi. Azərbaycan Ordusu irəlilədikcə ermənilərin keçilməz bildiyi mühəndis-istehkam qurğuları, dərin vallar, bunkerlər, çox sıx döşənmiş piyada və tank əleyhinə minalarla rastlaşırdı. Bütün bunlara baxmayaraq Azərbaycan Ordusu bir addım da olsun geri çəkilməmək, tam sürətlə irəliləmək prinsipi ilə döyüşə atılmışdı. Ali Baş Komandanın Azərbaycan Ordusuna hücum əmri verdiyi ana kimi, torpaqlarımızı işğaldan azad etmək üçün uzun illər ordu döyüşə hazırlanmışdı.

Həm də Azərbaycan Ordusunun beş günlük 2016-cı ildəki Aprel döyüşlərindən müasir silahlardan, NATO standartlarına uyğun döyüş taktikasından istifadəsi kimi təcrübəsi vardı. Müharibə təkcə hərbi texnika ilə deyil, həm də döyüşən əsgərlə aparılır.

Hücum əmri verilən gün səhər saatlarında General-mayor Hikmət Mirzəyevin komandanlığı altında olan Xüsusi Təyinatlı Qoşunların Quru Qoşunları Bölməsinin bir neçə taboru da Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində əks hücuma keçdi. "Ohanyan səddi"nin ən mühüm müdafiə qovşaqlarından biri məhz bu ərazidə yerləşirdi. Bu istiqamətdən döyüşə girmək şüurlu surətdə ölümü qəbul etmək demək idi. Çünki bu ərazilərdə təkcə "Ohanyan səddi" qurulmamışdı. Həm də bu səddin ətrafında piyada və tank əleyhinə minalar basdırılmışdı. Düşmən Azərbaycan Ordusu hücuma keçərsə, qarşısını almaq üçün basdırılan minalara öz əsgərlərinin düşməməsi üçün minalanmış ərazilərin ətrafına məftillər çəkilmişdi. Düşmən qüvvələri məhz bu məftilin minalanmamış tərəfi ilə hərəkət edirdi. Bu qədər minanı basdırmaqda düşmənin bir neçə məqsədi var idi. Bu həm hücum zamanı qarşı tərəfin daha çox itki verməsinə səbəb olacaqdı, həm də sızma əməliyyatları zamanı onların partlaması siqnal rolunu oynayaraq, şəxsi heyətin tez bir zamanda döyüş hazırlığı vəziyyətinə gətirilə bilməsinə kömək edəcəkdi. Düzənlik ərazilər olan bu yerləri gecə-gündüz müşahidə et-

mək üçün düşmən tərəfindən müşahidə kameraları da quraşdırılmışdı. Bundan başqa piyadaların irəliləməsini əngəlləmək, ləngitmək üçün "polad dolaşıq məftil maneələri", zirehli texnikaların hərəkətini əngəlləmək üçün "Kirpi" mühəndis maneələri quraşdırılmışdı. Bu ərazilərdə xəndəklərin də qazılması daha bir maneə idi. Ərazinin düzənlik olması da düşmənə əlavə mövqe üstünlüyü veririd. Hakim ərazilərin düşmən əlində olması da onların bütün ərazini müşahidə altında saxlamasına imkan verirdi. Beton-istehkam qurğuları təkcə "Ohanyan səddi"ndə quraşdırılmamışdı. Düşmən hətta təpələrdə qurulan müşahidə məntəqələrində də beton qurğularından istifadə etmişdi. Düşmən eyni zamanda burada bir-birinin ardınca bir neçə dayaq məntəqələri də yaratmışdı. Məqsəd hücum olarsa arxaya çəkilmək məcburiyyətində qaldıqda müdafiə üçün bu dayaq məntəqələrindən istifadə etmək idi. Düşmən bu qədər maneələrin, sədlərin Azərbaycan Ordusu tərəfindən yarılmasını mümkünsüz sayırdı.

Qaraxanbəyli istiqamətindən təmas xəttini yaran ordumuzun qarşısında düşmənin istehkam-müdafiə zolağı vardı. Burada işğalçı düşmənin çox sayda şəxsi heyəti, çoxlu silah-sursatı cəmlənmiş, yüzlərlə atəş nöqtəsində yerləşdirilən silahlar ordumuza sarı tuşlanmışdı. Çoxlu sayda zenit qurğuları, tank əleyhinə raket qurğuları vardı. Müdafiə-istehkam xəttinin önündə isə xəndəklər qazılmışdı. Azərbaycan ordu-

sunun artilleriya və PUA-lardan endirdiyi zərbələr zamanı düşmən əsgərləri buradakı yeraltı bunkerlərdə müdafiə oluna bilirdilər. Bunu nəzərə alan ordu komandanlığı cinahlardan hücuma üstünlük verərək irəliləməyi qərara aldı. Bu yolla düşməni mühasirəyə alıb, silah-sursat təminatının qarşısını almaq olacaqdı.

Xüsusi Təyinatlılardan təşkil olunmuş, gizir Elyar Vəliyevin də tərkibinə daxil olduğu 1-ci tabor da məhz belə bir keçilməsi çətin olan ərazidən əks hücuma başladı. Artıq 2020-ci il sentyabrın 26-da düşmən tərəfindən böyük təxribatın hazırlanması haqqında 1-ci tabora da məlumat verilmişdi. Sentyabrın 27-də isə düşmən qüvvələri bütün istiqamətlərdə təxribat törətməyə başladı. Təxribat törədən düşmənə qarşı Alxanlı kəndindən Qaraxanbəyli kəndi istiqamətində hücuma keçən 1-ci tabora günün sonuna kimi ön xətdən 24 km qabaqda yerləşən yüksəkliyi düşmən qüvvələrindən təmizləmək tapşırığı verilmişdi. Bu istiqamətdə ön xətti keçmək üçün öndə "Dozor" qrupu, onların arxasınca 1-ci tabor irəliləyirdi. Sentyabrın 28-də artıq Qaraxanbəyli kəndinə çatan döyüşçülər düşmən tərəfdən ağır artilleriyadan güclü atəşə məruz qaldı. Buna baxmayaraq 1-ci tabor tapşırığı yerinə yetirmək üçün bütün gücü ilə döyüşü davam etdirirdi.

Taborun "Dozor" qrupunda naryad başçısı gizir Aslan Şərifov köməkçisi ilə birlikdə müşahidə dro-

nundan istifadə edərək qarşıdakı 5 km-ə qədər ərazini müşahidə etdikdən sonra qrup qarşıdakı düşmən mövqelərinə doğru hərəkətə başladı. Arxada isə bizim Xüsusi Təyinatlıların 120 nəfərlik şəxsi heyəti olan bölmə irəliləyirdi. Quru Qoşunlarının xüsusi təyinatlıları ilə bərabər Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlıları da əks hücum əməliyyatında iştirak edirdi.

Relyefinə görə çətin bir ərazi olan Füzuli rayonunda həm də otuz ilə yaxın bir müddətdə ermənilər tərəfindən burada qurulan bunkerlər, qazılan səngərlər, keçilməz dedikləri "Ohanyan səddi" kimi müdafiə sistemlərinin inşa olunması buradakı döyüşlərin çox ağır olacağından xəbər verirdi. Belə bir müdafiə sistemini yararaq düşməni həmin ərazilərdən çıxarmaq o qədər də asan olmayacaqdı. Rayon ərazisi kimi Qaraxanbəyli kəndi də düşmənin yerləşdiyi yüksəkliklərdən ovuc içi kimi görünən açıq bir ərazi idi. Burada yalnız dağıdılmış, xarabalıqları qalmış yaşayış evlərinin qalıqlarını görmək olardı.

Öndə "Dozor" qrupu olmaqla irəliləyən 1-ci tabor düşmənin ön xəttini yararaq yerləşdikləri mövqedən irəliyə doğru 13-14 km məsafə qət etməyə nail olmuşdu. Təkcə "Dozor" qrupunun döyüşçüləri deyil, bölmənin arxada gələn əsgərləri də düşmən hədəfini yarmaq, önə getməklə düşmənlə üzləşmək, mövqelərini daha tez məhv etmək üçün böyük inam, əzm və sürətlə irəliləyirdilər. Döyüşçülər artıq düşmən möv-

qelərinə, içəriyə daxil ola bilmişdilər. "Dozor" qrupunun düşməni doğru zamanda aşkar etdiyi üçün döyüşçülərimiz ayıq tərpənərək atəş açmağa başladı. Düşmən də ağır artilleriyalardan, həmçinin, əllərində olan bütün silahlardan, hətta tanklardan belə atəşə tutmağa başlamışdı. Məqsəd irəliləyən Azərbaycan Ordusunun xüsusi təyinatlılarının hərəkətini ləngitmək, qarşısını almaq idi.

Düşmənin intensiv atəşi nəticəsində xüsusi təyinatlıların 120 nəfərlik şəxsi heyətinin sağa-sola hərəkət etməsi mümkün deyildi. Qarşıda olan qüvvə isə düşmənin bir alayı idi. Ona görə düşmənə qarşı yalnız ön sıradakılar, yəni yalnız səkkiz nəfərdən ibarət "Dozor" qrupu döyüşə bilirdi. Döyüş gedən ərazi həm də şumlanmış ərazi idi. Düşmən bu ərazidə hərəkəti çətinləşdirmək, ləngitmək üçün bilərəkdən bu ərazini şumlamışdı. Hətta bu ərazilərə minalar da basdırılmışdı. Çətinlik həm də bizim qüvvələrin düzənlikdən yüksəkliyə doğru irəliləməsində idi.

Sağ və sol cinahlardan irəliləyən qüvvələr isə 1-ci tabordan xeyli arxada idi. 1-ci taborun döyüşçüləri istifadə olunan kiçik çaplı tabel silahları və qumbaralardan istifadə edərək, dəqiq atışla düşmənin müəyyən mövqelərini susdurmağa çalışırdı. Onlar bu irəliləyişə həm sürətin və çəldliyin sayəsində, həm də həmlənin dinamikasını qorumaqla nail olmuşdular. Xüsusi Təyinatlılar əldə etdikləri bütün təcrübə, bilik

və bacarıqlarından elə döyüşün ilk saatlarından məharətlə istifadə edirdilər.

Qarşı tərəfdən snayperlər də aktiv fəaliyyətdə idi. Düşmənin həm də yüksəklikdə yerləşməsi onlara döyüş zamanı mövqe üstünlüyü verirdi.

Səhər saat 10:00 radələri idi. Döyüş şiddətli formada davam edirdi. Elə bu zaman Murovdağ silsiləsinin ordumuz tərəfindən götürülməsi xəbəri Xüsusi Təyinatlıların bir-biri ilə rabitə əlaqəsində olan bütün heyəti tərəfindən eşidildi. Bu xəbər taborun döyüş ruhunu biz az da artırmış oldu. Bir tərəfdən də düşmən tərəfindən atəş açmaqda aktiv olan üç tankın susdurulması üçün bizim Quru Qoşunlar tərəfindən tankların köməyə göndərilməsi döyüşün gedişatını yəqin ki, dəyişəcəkdi.

Hələ ki, həm düşmən snayperi, həm ağır artilleriyası tərəfindən atəşə ara verilmirdi. Burada isə düşmənin səngərini ələ keçirmək üçün onun mövqelərində olan boşluqları müəyyən edib həmin istiqamətdən səngərə daxil olma prinsipi əsas götürülürdü. Səngərə daxil olandan sonra isə düşməni dinamik hərəkətin, sürətin hesabına düşmənə ondan əvvəl atəş açmaqla məhv etmək olardı. Əl qumbarası, güllələr hesabına sıx atəşi qoruyub saxlamaqla düşmənin qazdığı döngəli səngərdə irəliləmək olardı.

Azərbaycan Quru Qoşunlarının tankları və artilleriyasının düşmən mövqelərindən atəş açan tankları

susdurmaqla dəstək verməsi 1-ci taborun daha da irəliləməsinə imkan yaratmışdı.

Əlverişli mövqe tutmaq üçün yer dəyişdirmək istəyən ″Dozor″ qrupunda naryad başçısı gizir Aslan Şərifov düşmən snayperinin gözündən yayınmadı. Onun açdığı sərrast atəş Şərifovun sağ qolunu ağır yaraladı. Kəşfiyyatçı gizir Şərifov silahını döyüş meydanında qoymamaq üçün sol əliylə silahını özünə tərəf çəkdi. Yaxınlıqda olan 1-ci taborun döyüşçüsü kiçik gizir Kərim Əliyev ona ilkin tibbi yardım göstərərək arxa mövqeyə, nisbətən təhlükəsiz əraziyə çıxarmağa nail oldu. 1-ci taborun ilk yaralılarından biri olan Şərifov Aslan çıxarıldığı mövqedən döyüşü izləyirdi. Artıq günorta saat 14:00 radələri idi. Bu zaman köməyə gələn tankların atəş gələn cinahı bağlaması ilə taborun ani hücuma keçməsi bir oldu.

Gizir Elyar Vəliyev də Xüsusi Təyinatlı Qüvvələrin 1-ci taborunda, kapitan Kamil Şirinovun komandirlik etdiyi qrupun tərkibində döyüşə qatılmışdı. Elə ilk saatlardan qızğın döyüş gedirdi. Hər iki tərəfdən xeyli döyüş texnikası sıradan çıxarılmış, canlı qüvvələrdən itkilər və yaralananlar vardı. Bütün bunlara baxmayaraq Azərbaycan Ordusu geri çəkilməyərək kənddə mövqelənmək üçün bütün döyüş bacarığından istifadə edirdi. Və bunun nəticəsində artıq xeyli irəliləmişdi.

Qaraxanbəyli kəndinə girərək bir qədər də irəliləyən 1-ci tabora qarşı döyüşən düşmən tərəfdən bir-

dən-birə müdaxilənin, atəşin kəsilməsi artıq şübhələr yaratmağa başladı. Halbuki taborun döyüşçülərinə bundan sonra düşmənin hansı istiqamətdən hücum edə biləcəyi barədə məlumat verilmişdi. Vəziyyət belə düşünməyə əsas verirdi ki, düşmən qorxur atmır, çünki onların da bu istiqamətdən Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin girəcəyi haqqında məlumatları olmamış deyildi. Həm də onların "Yaşma" kimi qorxduğu bir kabus vardı. Bəlkə də buna görə qorxub geri çəkilmişdilər, ya da niyyətləri irəliləyən Azərbaycan hərbi bölmələrini pusquya salmaq idi. Hələ ki, suallar cavabsız qalırdı.

Xeyli irəlilədikdən sonra düşmən tərəfindən yenidən atəş açıldı. Beləliklə, növbəti qızğın döyüş başlamış oldu. Düşmənin üç istiqamətdən atəşi nəticəsində 1-ci taborun döyüşçülərindən bir neçəsi yaralandı. Taborun mühasirəyə düşməsi hiss edilirdi. Buna baxmayaraq yüksək hazırlıqlı, peşəkar tabor tez bir zamanda mühasirəni yara bilmişdi.

Döyüşün ikinci günü idi. Füzulinin Qaraxanbəyli kəndində mövqe tutan 1-ci taborun döyüşçüləri şumlanmış bir əraziyə çatmışdılar. Düşmən qarşı tərəfin irəliləmə intensivliyinin qarşısını almaq üçün nəinki bu yerləri şumlamış, hətta şumluq əraziyə su buraxmış, bəzi ərazilərdə hətta keçilməsi çətinlik yaradan sıx əkilmiş günəbaxan sahələri də salmışdı. Kapitan Kamil Şirinovun komandanlığı altında döyüşən 1-ci taborun qrupunun döyüşçüləri düşmənin

hücumunu dəf edərək irəliləmək üçün gecədən mövqelər qazıb möhkəmlənmişdi. 29 sentyabr səhər saat 06:00-dan sonra artıq səhər açıldığından ətrafda baş verənləri gözlə görmək mümkün idi. Kəndin qurtaracağından keçən düşmənlərin istifadə etdiyi yol da artıq aydın görünürdü. Sol tərəfdəki müşahidəçi bu yolla bizə sarı gələn hərbi maşından iyirmiyə yaxın hərbçinin düşdüyünü və qrupun mövqeləndiyi tərəfə gəldiyini xəbər verdi. Amma həmin hərbçilərin formalarının bizim milli ordunun formasına oxşadığını da qeyd etdi. Onlar bizim ordunun da hərbçiləri ola bilərdi, hərçənd düşmən mövqeləri tərəfindən gəlməsi isə bir az şübhə oyadırdı. Bunu görən qrup komandiri kapitan Şirinov dəstənin snayperini çağıraraq nişan almasını tapşırdı. Snayper gizir Rüstəm Məhsimov məsafə uzaq olduğundan bir az gözləmək lazım gəldiyini bildirdi. Beş dəqiqə sonra isə artıq valın arxasına keçən hərbçiləri görmək mümkün olmadı. Bu barədə qrup komandiri kapitan Kamil Şirinov 1-ci taborun komandiri polkovnik-leytenant Nizami Əliyevə rabitə vasitəsilə məruzə etdi. 1-ci taborun  komandiri hələ ki, düşmənin döyüşən bölmə üçün bir təhlükə yaratmadığınına əsaslanaraq "gözləyin!" əmri verdi. Beş dəqiqədən sonra komandir Şirinov təkrar rabitəyə çıxaraq tabor komandirinə düşmənin həmin mövqedə aktiv fəaliyyət göstərdiyini, bömənin mövqeləndiyi ərazidən sağda yerləşən bizim digər bölmələrə qarşı təhlükə yaratdığını, onla-

rın qrupunu isə atıcı və snayper silahları ilə dayanmadan atəşə tutduğunu məruzə etdi. Qrup komandiri gedib həmin ərazini yoxlamaq üçün icazə istədi. Düşmən gəlib mövqelənə bilərdi. Onsuz da düşmənin inadlı müqaviməti 1-ci taborun irəliləməsini ləngidirdi. Tabor komandirindən icazə əmri gəlmədiyini görən qrup komandiri üçüncü dəfə rabitə əlaqəsinə çıxaraq düşmən üzərinə basqın üçün icazə istədi. Artıq həmin mövqelərə düşmənin bir manqadan artıq şəxsi heyətinin toplaşdığını görən 1-ci taborun komandirindən belə bir əmr gəldi:

-Beş nəfərlik bir qrup ilə gedin, ehtiyatla, atəşdəstək altında irəliləyin və mənə məruzə et!

Bu əmri alan kimi kapitan Şirinov:

-Camal, Elyar, Seyidbala, Şamil mənimlə gəlin. Canavarlarım, İRƏLİ!

Sonra üzünü baş gizir Banipaşa Əvəzə tutaraq belə bir tapşırıq verdi:

-Qrupun üzərində nəzarəti sənə tapşırıram. Bir şey olsa müdaxilə edərsən.

-Oldu, komandir!

Banipaşa Əvəz sonra əlavə etdi:

-Komandir, bəlkə getməyəsən? Çox təhlükəlidir.

-Artıq komandanlıq icazə verib, orada cəmləşən düşmən qüvvələri bölmələrimiz üçün təhlükə yaradır.

Ayrılmış beş nəfərlik qrup sürətlə qarşıdakı şumluq ərazini keçərək köhnə səngərə çatdılar. Burada mövqe tutaraq, ətrafı müşahidə etməyə başladılar.

Sol tərəfdə müşahidə aparan snayper elə bu zaman qarşıdakı valın xarabalığa birləşən yerindən bir nəfər erməni hərbçisinin keçdiyini gördü. Bir qədər keçmiş bir-birinin ardınca düşmən tərəfindən olan hərbçilər eyni istiqamətdə hərəkətə başladılar. Hərəkət edən hərbçilərin sayı iyirmi iki nəfərə çatdı. Müşahidəçi dərhal kapitan Şirinova bu barədə məlumat verdi.

Tabor komandiri ilə əlaqəyə çıxan qrup komandiri isə düşmənin manevr etdiyini, bizim mövqelərin arxasına keçmək istədiyini məruzə etdi.

-Başa düşdüm. Qəbul.

Az keçmiş tabor komandiri həmin istiqamətə yeni qrup göndərdi.

Kapitan Şirinov isə kiçik çavuş Seyidbala Əliyev ilə Şamil Məmmədova düşmənin arxasına keçmək üçün qarşıdakı köhnə səngərdə mövqe tutmağı tapşırdı. Buradan həm düşmən səngərinin içini, həm də valın (süni istehkam maneəsi) üstünü görmək mümkün olacaqdı. Özü isə qalan üç nəfər ilə digər tərəfdə mövqe seçmək üçün irəlilədi. Onlar valın sonuna çatmağa az qalmış, sol tərəfdə düşmən əsgərlərinin səsini eşidən gizir Şamil Məmmədov onları geri səslədi:

-Geri qayıdın, sol tərəfdən düşmənlər gəlir.

Bunu eşitcək Kapitan Şirinov, baş gizir Camal İsmayılov və gizir Elyar Vəliyev geri qayıtdılar. Elə bu zaman aldadıcı manevr edərək onların sol cinahına keçən düşmən əsgərləri tərəfindən onlara tərəf atəş açılmağa başladı.

Uzaqdan bütün bunları müşahidə edən Banipaşa Əvəz ixtiyarsız olaraq onlara sarı qaçmağa başladı. Çünki qrup komandiri və digər onunla gedən döyüşçüləri mühasirədən çıxarmaq lazım idi. Kapitan Şirinov və onunla gedən döyüşçülərin mövqeləndiyi yerə az qalmış Banipaşa Əvəz arxaya baxanda gizir Şəhriyar Quliyev, baş gizir Sübhan Cəbrayılov və daha iki döyüşçü yoldaşının da onun arxasınca atışma olan yerə doğru qaçdıqlarını gördü. Artıq ona çatmış yoldaşlarından Şəhriyar dayandıqları istiqamətdən girib döyüş yoldaşlarını atəş mövqeyindən çıxarmaq təklifini verdi. Banipaşa Əvəz isə müşahidə aparmamış, ərazini öyrənməmiş bunun təhlükəli olduğunu söylədi. Və sonra ətrafı qiymətləndirərək üzünü Şəhriyara tutdu:

-Səndə tüstü qumbarası varmı?

-Bəli, var.

-Çıxart, at! Tüstü pərdəsi yaransın ki, açıq ərazidən qarşıdakı vala girə bilək.

Şəhriyarın attığı tüstü qumbasından sonra onlar lazım olan mövqeyə keçə bildilər. Sonra açdıqları atəşlə qarşıdakı düşməni mövqelərini tərk edib valın içinə girməyə məcbur etdilər. Və düşmən qaçmağa başladı. Şəhriyarla Sübhan sol istiqamətə, Banipaşa ilə iki döyüş yoldaşı isə sağ istiqamətə keçdi.

Kapitan Şirinov isə olduqları mövqedə Şamilə atəşdəstəyi saxlamağı tapşırdı. Qalanlara isə bir az

aralıda yerləşən uçuq divarın arxasına keçmək tapşırığını verdi.

Seyidbala tapşırığı yerinə yetirmək üçün ayağa qalxıb tapşırıq verilən istiqamətə hərəkət etmək üçün çevrilən anda elə bil bədənindən elektrik cərəyanı keçdi. Addım ata bilmədiyini görən Seyidbala ayağına baxdıqda hər iki ayağının qırıldığını gördü və müvazinətini saxlaya bilməyib yerə çökdü. Onların boş bildiyi səngərdə maskalanmış düşmən snayperi onun ayaqlarını nişan almışdı. Düşmən snayperi onu dəqiq atəşlə öldürə də bilərdi. Onun Seyidbalanın ayağını nişan almaqda məqsədi ona köməyə gələcək heyəti məhv etmək idi.

Seyidbalanın vurulduğunu görən kapitan Şirinov "Snayper, snayper! Çıxmaq lazımdır!", - deyə qışqırmağa başladı. Başda kapitan Şirinov olmaqla qalan üç nəfər cəld hərəkətlə düşmən snayperinin atəşindən yayınmaq üçün sürünə-sürünə mövqelərindən çıxaraq otuz-qırx metr aralıdakı sökülüb-dağılmış bir evin uçuq divarları arxasına keçdilər. Buradan düşmən mövqelərinə tərəf atəş açmağa başladılar.

Onlardan sonra Şamil də düşmən gülləsindən yayınaraq onların yanına gələ bildi.

Baş gizir Camal İsmayılov Seyidbalanın yaralandığını görcək onu götürmək üçün can atsa da, snayper tərəfindən güllə yarası alan döyüş dostuna anında kömək etməyin nə qədər təhlükəli olduğunu bilən digər döyüşçülər buna imkan vermədilər. Onlar hər-

bi nizamnaməni yaxşı bildiklərindən yaralının mühafizə-müdafiəsinin təşkilinin vacibliyini bilirdilər. Belə vəziyyətdə hissə qapılmaq olmazdı. Əks halda həm yaralını xilas edən döyüşçü, həm də yaralı təhlükə qarşısında qalmış olardı. Erməni snayperin Seyidbalanı ayağından nişan alaraq, bilərəkdən sağ buraxması ona köməyə gələn digər döyüşçüləri tələyə salıb ovlamaq məqsədi güdürdü. Xüsusi təyinatlılar, əlbəttə ki, belə tələlərdən məlumatlı idilər. Ona görə kömək gələnə kimi yaralının müdafiəsi, mühafizəsi təşkil olundu.

Seyidbalanın yaralandığını görən baş leytinant Hidayət Nəcəfov da tez özünü hadisə baş verən yerə yetirdi. Onun atəş altından çıxarılmasına kömək etmək məqsədilə tüstü qumbarasını çıxararaq atmaq istəyəndə kapitan Şirinov tüstü qumbarasını ondan alıb özü ataraq Hidayətə qarşıdakı iki metr dərinlikdə olan vala enib atəşdəstək saxlamaq tapşırığı verdi. Əmri icra etmək üçün vala girən Hidayətə kömək üçün daha iki nəfər verildi. Val dar olduğu üçün öndə Hidayət, ondan arxada  Baba İsrafilov və Nicat Həsənov irəliləyirdi. Hidayət sol tərəfdə altı-yeddi nəfər düşmənin bir yaralını çıxartdığını gördü. Bu düşmənin 022 təyinatlılarının döyüşçüləri idi. Düşmən də Hidayəti və döyüş yoldaşlarını görmüşdü. Onların atəş açdığını görən Baba cəld hərəkətlə Hidayəti arxaya çəkə bildi.

Düşmən PK ilə dayanmadan qrupun yerləşdiyi yeri atəş altında saxlayırdı. Hidayət sərrast atəşlə, PK ilə atəş açan düşməni məhv edərək susdura bildi. Babanın açdığı atəş də daha bir düşmən əsgərini məhv edə bildi. Öldürülən düşmən əsgəri səngərdən asılı vəziyyətdə qaldı. Elə bu zaman düşmən gülləsi Babanı da qolundan yaraladı.

Yaralandığı yerdən götürülməsi hələ ki, mümkün olmayan Seyidbala özünü itirməyərək rabitəçi kimi tabor komandiri ilə əlaqəyə çıxib özünün yaralandığını, digərlərinin də atəş altında qaldığını, ərazidə düşmən snayperinin olduğunu məruzə etdi.

Az keçmədən onlara əlavə kömək göndərildi. Göndərilən dəstə şumluq ərazidə snayperdən yayınmaq üçün saniyələr ərzində yerə yatıb qalxa-qalxa onlara tərəf hərəkət edirdi. Elə bu zaman qrupun döyüşçülərindən daha biri, Eldəniz Əliyev yaralandı. Bunu görən Şamil tez onu atəş altından çıxararaq uçuq divarın arxasına çəkdi. Burada onun yarasına sarğı qoyaraq nisbətən təhlükəsiz yerdə yerləşdirdi.

Düşmən tərəfdən PK-dan açılan atəşlərin ardıarası kəsilmirdi. Köməyə gələnlər güllə yağışı altında yaralı yoldaşlarını döyüş meydanından çıxarmaq, digər döyüşçülərin mövqeyinə çatmaq üçün irəliləməyə çalışırdılar. Gələn kömək yalnız yarım saat sonra tələb olunan əraziyə çata bildi. Köməyə gələnlərdən ikisi Seyidbalaya yaxınlaşıb cəld hərəkətlə onu atəş tutmayan yerə tərəf sürüməyə başladılar. Ağrının

şiddətinə dözə bilməyən Seyidbalanın bağırmasına baxmayaraq vaxt itirmədən onu da döyüş yoldaşlarının daldalandığı uçuq divarın yanına çəkə bildilər. Və azca qaldırıb divara söykədilər.

Bunu görən gizir Elyar Vəliyev uçuq divarlar arxasından çıxaraq Seyidbalaya yaxınlaşdı.

-Ayağımdan vurdular, gizir.

-Qorxma, indi yardım edəcəm.

Bunu deyib, Elyar cəld hərəkətlə Seyidbalanın yaralarını görmək üçün döyüş bıçağı ilə onun şalvarının hər iki balağını kəsərək yuxarıya doğru çəkdi.

-Darıxma, hər şey yaxşıdır. Səni buradan təxliyə edəcəyik.

Elə bu zaman Kamil Şirinov da uçuq divarın arxasından çıxaraq onların yanında mövqe aldı. Üzünü Seyidbalaya tutaraq:

-Canavar qorxma, yaxşı olacaq.

Bunu deyib düşmən mövqeyinə tərəf atəş açmağa başladı. Bir maqazini boşaldandan sonra maqazini dəyişib yenidən atəşi davam etdirməyə başladı. Atəş aça-aça isə əlini Seyidbalanın çiyninə qoyaraq ürəkdirək verirdi:

-Bir az səbr elə, dözümlü ol. Səni buradan çıxaracağıq.

Birdən kapitan Şirinovun səsi kəsildi.

Çevrilib arxaya baxan Elyar kapitan Şirinovun burnundan qan gəldiyini gördü.

-Kamil, Kamil, - deyərək Elyar səsləndi. Kamilin ona cavab vermədiyini görüb, əlini kapitanın boynunun arxasına apardı. Axan isti qana toxunduğunu hiss edib, tez əlini geri çəkdi. Elyarın əli qana boyanmışdı. Güllə Kamilin boynundan keçmişdi.

Pakistan təlimlərində birinci yeri tutmuş, təcrübəli "Sarı komutan" ləqəbli kapitan Kamil Şirinov artıq Vətən uğrunda həlak olmuşdu. Ona artıq heç bir şeylə kömək etmək mümkün olmadığını anlayan Elyar əlini Kamilin üzünə çəkərək,- "Allah rəhmət eləsin",- deyərək onun gözlərini qapadı. Heç bir döyüş vəziyyətində özünü itirməyən Elyar yenə də panikaya qapılmadan yenidən Seyidbalaya ilkin tibbi yardım etməyə davam etdi. Seyidbalanın çaşqınlıq içində artıq şəhidlik zirvəsinə yüksəlmiş komandirinə baxdığını görən Elyar:

-Özünü ələ al, Seyidbala. Müharibə itkisiz olmur. Onsuz da hərəmiz bir can borcluyuq. Özünü ələ al! İndi yaralarını sarıyacam,- deyərək işinə davam etdi.

Qrupun həm də tibb sanitarı olan Elyar vaxt itirmədən Seyidbalanın yaralarına baxaraq necə yardım edəcəyini çevik beyini ilə bir anda müəyyənləşdirdi. Sanitar çantasından sıxacı çıxararaq sağ ayaqdan axan qanı kəsmək üçün bud hissəsini möhkəm bağladı. Çünki axan qanın al rəngdə və sürətli axmasından zədəli damarın arterial damar olduğunu həmin anda təyin etmişdi. Məhz bu səbəbdən sıxacı qan axan nahiyənin yuxarı hissəsindən, bud nahiyəsin-

dən qoymuşdu. Digər ayağa da sıxac qoyub qanı kəsmək lazım idi. Tez Seyidbalanın üzərində olan sıxacı da çıxarıb sol ayağını da sıxaraq qanaxmanı kəsdi.

İndi isə yaraları işləmək, sınıqları fiksasiya etmək lazım idi. Elyar yenə peşəkarcasına, dəqiqliklə ilkin tibbi yardımı davam etdirdi.

-Bax gör sümüklərimdə çox qırıq var? Güllə sol ayağımdan, baldırımdan keçdi. Amma deyəsən sağı da yaralayıb.

-Hə, güllə sol ayağa dəyib, sümüyü dağıdaraq istiqaməti dəyişib sağ ayağına keçib.

-Elyar, qoyma şikəst qalım.

-Sakit ol, yaralarını sarıyım, səni təxliyə edəcəm.

Elyar əlindəki tənzifi aça-aça ətrafına göz gəzdirdi. Xoşbəxtlikdən lap yaxında taxta və ağac parçaları gözünə dəydi. Əli çatan məsafədə idi. Yaranı sarıyandan sonra oturduğu yerdə əyilərək, qolunu uzadıb taxta və ağac parçalarını özünə tərəf çəkdi. Tez şina kimi istifadə etdiyi taxta parçalarını ayağa uyğun hazırlayaraq artıq sarğı qoyduğu sol ayağı fiksasiya etdi.

Elə bu zaman minamyotçu kimi arxada döyüşən Kərim Seyidbalanın yaralandığını eşidən kimi qaçaraq onlara yaxınlaşdı və Seyidbalanın yarasını sarıyan Elyarın yanına çökdü. Azca aralıda şəhid olmuş kapitan Kamil Şirinovu görəndə isə özünü itirmiş halda:

-Sarı komutanıma nə olub?- deyərək sual dolu baxışlarla Elyara baxaraq, ağlamaqdan özünü saxlaya bilmədi.

Gənc döyüşçünün özünü itirdiyini görən Elyarın amiranə səsi eşidildi:

-Özünü ələ al, Kərim! Hər şey yaxşıdı Kərim, özünə gəl! Tez çantanı aç, ağrıkəsici ver! Bu ağrıya dözə bilməz Seyidbala. Tez ol, deyirəm sənə! Şoka düşməmiş ağrıkəsicini ver vurum! Özünə gəl!

Bundan sonra Kərim özünü toplayıb tez çantadan ağrıkəsicini çıxararaq, cəld hərəkətlə ampulanı qırıb məhlulu şprisə çəkərək Elyara uzatdı. Elyar da iynəni Seyidbalanın ağrının təsirindən titrəyən sağ ayağının bud nahiyyəsinə yeritdi. Bu ana kimi Elyar artıq peşəkarlıqla sol ayağa şina qoyaraq ayağı fiksasiya etmiş, sağ ayağa da sarğı qoyaraq qanaxmanı demək olar ki, dayandırmışdı. Amma sağ ayağı fiksasiya etmək üçün şina kimi istifadə etməyə ətrafda heç nə gözə dəymirdi. Yenidən Elyarın səsi eşidildi:

-Ey, Pərvin! İki dənə taxta parçası ver mənə! Tez ol! Əlli santılıq bərk bir şey tap ver mənə! Tez ol deyirəm!

-Heç nə tapmıram.

-Ağayev, gör sən nə tapırsan? Taxta parçası tapın, tez!

Bu sözləri deyə-deyə sağ ayağın aşıq-baldır oynağına yaxın açılan yaranı da bintlə sarıdı. Sarğını bitirən kimi, Pərvinin tapıb gətirdiyi ağac parçaları ilə

sağ ayağı da cəld hərəkətlə fiksasiya edərək təxliyyə etmək üçün hazırladı.

Bütün bu tibbi yardımlar isə mərmi, güllə yağışı altında edilirdi. Hərdən güllələrdən yayınsın deyə Elyar başını aşağı əyir, sonra yenə soyuqqanlılıqla yaralıya yardımını davam etdirirdi.

Heç bir döyüş vəziyyətində özünü itirməyən, çevik zəkası ilə, soyuqqanlılıqla lazımi anda, lazımi qərarı verməyi bacaran Elyar yenə də öz ampulasında idi. Artıq komandiri həlak olmuş qrupun həm döyüş strategiyasını saxlayır, idarə edir, həm də döyüşçülərin ruhdan düşməməsi üçün lazım olan tapşırıq və tövsiyyələrini verirdi.

Elə bu zaman snayper Rüstəm də komandirinin həlak olması xəbərini eşidərək özünü yetirdi. Onun başı açıq, dəbilqəsiz olması da Elyarın gözündən yayınmadı:

-Hanı dəbilqən?! Görmürsən güllə yağış kimi yağır?

Elyar belə deyəndən sonra Rüstəm dəbilqəsini döyüş mövqeyində qoyub gəldiyinin fərqinə vardı. Komandirin ölümü onu da çaşdırmışdı.

Hər kəsin qeydinə qalan Elyarın yenidən səsi eşidildi:

-Tez get, dəbilqəni geyin!

Təhlükənin ciddiliyini anlayan Rüstəm qaçaraq dəbilqəsini geyinib, yenidən onların yanına döndü. Silah-sursatını da Vətən uğrunda həlak olmuş kapitan Kamil Şirinovun yanındakı təpənin arxasına yığ-

dı. Şəhid və yaralıların çıxarılmasına kömək məqsədilə atəş dəstəyini saxlamağa çalışdı.

Səngərdən geri gələn Hidayət də kiçik gizir Ramiqdən kapitan Şirinovun döyüşdə həlak olmasını eşidəndə, bu acı xəbərə inanmaq istəmədi. Çevik qrupun itki verməsi, həm də komandirlərinin həlak olması xəbəri komandanın bütün üzvlərinin düşmənə qarşı qəzəbini daha da artırmışdı.

Qrup komandiri Şirinovun şəhid olmasının, Seyidbalanınsa yaralanmasının döyüşçülər arasında yaratdığı çaşqınlığı aradan qaldırmaq üçün Elyar döyüşçülərə müraciətlə səsləndi:

-Bu müharibədir. Həlak olanımız da olacaq, yaralımız da! Özünüzü ələ alın!

Sonra yaxınlıqda döyüşən Ağadadaşı səslədi:

-Ağa (o, altı aylıq təlimlərdə bir bölükdə olduğu dostunu belə çağırırdı), sən tikilinin arxasına keç, atəşi davam etdir!

-Oldu, komutanım!

Ağadadaş tez deyilən istiqamətdə özünə mövqe seçdi.

Elyar sonra Şamilə üzünü tutaraq:

-Ağac istiqamətində at! Mənim silahımı götür, vur! Qorxma, vur!

O, güllə yağışı altında yaralıya tibbi yardım göstərməsinə baxmayaraq, qorxunu aşmaq üçün gənc döyüşçüləri də cəsarətləndirirdi.

-Bəs məni nəylə təxliyə edəcəksiz? Bütün vətərlər, sümüklər qırılıb. Qırıq sümüklərim bir-birinə dəyib xırçıldayır.

-Seyidbala, indi xərək gətirərlər, çıxardarıq səni. Bir az səbirli ol.

-Xərəklərlə o biri üç yaralını apardılar.

Döyüşçülərdən biri söhbətə müdaxilə etdi.

-Xərək olmasa Seyidbalanı apara bilmərik.

-Burada qalması da təhlükəlidir.

-Bir az da səbr etmək lazımdır. Yəqin kömək göndərəcəklər. Birazdan bəlkə döyüş də səngiyər.

Bunu deyib, Elyar avtomatını əlinə alıb döyüşə qatıldı. Qorxu bilməz döyüşçü yenə də ayaq üstə irəliləyirdi. Qarşısına çıxan, nişangaha tuş gələn heç bir düşmən onun açdığı sərrast atəşlərdən yayına bilmirdi. Əlinin işarəsi ilə döyüşçüləri də irəliləməyə səsləyirdi:

-Qaçırlar, irəli! Görün necə qorxub qaçırlar? Məsafəni azaltmayın! Dağların arxasına sığınırlar. İmkan verməyin qaçsınlar! Tez olun! İrəli!

Elyar bu sözləri deyərək, yenə ayaq üstə əlindəki Kalaşnikov avtomatından atəş aça-aça sürətlə irəliləyirdi. Onun bu çağırışı, döyüş əzmi dostlarını da ürəkləndirdi. Düşmən göz görə biləcəyi qədər yaxınlıqda idi. Həlak olan, yaralanan döyüş yoldaşlarının intiqamını almaq üçün hər kəs düşmənə qarşı daha da nifrətlə, amansızlıqla savaşa atıldı.

Elə bu zaman kapitan Şirinova atəş açılan istiqamətdən bir erməni hərbçisinin hərəkət etdiyi də Elyarın gözlərindən yayınmadı. Vaxt itirmədən açdığı sərrast atəşlə düşməni bir anda yerə sərdi. Həmin istiqamətdə daha bir neçə düşmən əsgərini də sərrast atəşlə məhv etdi. Elyarın belə cəsarətli döyüşündən ürəklənən döyüş yoldaşları da onun kimi qorxmadan düşmənlə döyüşə girmişdilər.

"Sarı komutan"ın şəhadəti ilə barışa bilməyən Kərim də qisas hissi ilə yenidən döyüşə atılmışdı. Qəzəbdən gözü ətrafı görməyən Kərim uçuq divarların arasından görünən düşmənə atəş açmaq istəyəndə onu görən düşmən fürsətdən istifadə edib onu nişan aldı. Bunu görən Şamil cəld özünü yetirərək Kərimi aşağı əyə bildi. Güllə onun üzərindən keçərək divara sancıldı.

-Belə olmaz, Kərim! Səni anlayıram. Amma ehtiyatı əldən versən özünü qoruya bilməzsən. Gəl birlikdə, çiyin-çiyinə verib döyüşərək "Sarı komutan"ımızın qisasını alaq.

Bunu deyib, Şamil solda yerləşən vala tərəf yerini dəyişərək, əli ilə Kərimin də arxasınca gəlməsinə işarə etdi.

Hər ikisi daldalandıqları səngərdən düşmənə qarşı döyüşə başladılar. Qrupun döyüşçüləri düşməni sağdan və soldan sıxışdıraraq geri çəkilməyə məcbur edirdi. Düşmən onların yaxınlığında olan ərazidən geri çəkilməyə başladı.

Şamillə Kərim çiyin-çiyinə verərək düşmənin ona yaxın canlı qüvvəsini məhv etdilər. Cənc döyüşçülər hər bir düşməni məhv etdikcə "Sarı komutanımızın qisasını aldıq!", - deyə qışqırırdılar.

Döyüşün ilk günü olmasına baxmayaraq hər bir döyüşçü bir qəhrəman kimi döyüşürdü. Ətraf düşmənin canlı qüvvələrinin cəsədlərli ilə dolu idi.

Günəş artıq qarşıdakı dağların arxasında qürub etmək üzrə idi. Qarşı tərəfdən açılan atəş xeyli seyrəlmişdi. Düşmən tərəfindən açılan tək-tək atəşlər də əks atəşlə susdurulurdu. Döyüş yavaş-yavaş səngiyirdi.

-Deyəsən bitirdik alçaqları. Axırlarına çıxdıq. Səsləri kəsildi. Bir az dincəlmək lazımdır.

-Elədir. Daha atmırlar.

Döyüşçülərdən biri Elyarın sözünü təsdiqlədi.

Köməyə gələn bölmələr düşmən mövqelərinə tərəf xeyli irəliləyəndən sonra şəhid olan və yaralı döyüşçülərin təxliyəsinə başlandı.

Elyar üzünü yanındakı döyüşçülərə tutdu:

-Yaralımızı və şəhidimizi arxaya təxliyə etmək lazımdır.

-Gizir, xərək yoxdur.

-Xərək olmasa da aparmağa məcburuq. Gəlin uşaqlar, kömək edin.

Bunu eşidən kimi yaxınlıqda olan döyüşçülər tez yaxınlaşdılar.

-Yaralını yalnız üfüqi vəziyyətdə aparmalıyıq. Sınmış sümüklər yerini dəyişməsin. Gəlin uşaqlar, iki nəfər Seyidbalanın çiynindən, iki nəfər belindən, iki nəfər ayaqlarından tutaraq ehtiyatla qaldıraq.

Bunu deyib, Elyar Seyidbalanın baş tərəfinə keçdi. Altı nəfərdən daha biri Elyarla bərabər yaralının çiyin hissəsindən, ikisi bel, ikisi ayaqlarından tutaraq ehtiyatla qaldırdılar. Və arxaya, təxliyə qrupu yerləşən əraziyə doğru irəlilədilər.

Yaralını təxliyə qrupuna təhvil verən döyüşçülər yenidən öz mövqelərinə qayıtdılar.

Kamilin nəşini isə Şamil təxliyə qrupuna çatdırmaq üçün çətinliklə də olsa qaldırıb kürəyinə aldı. Bunu görən başqa bir döyüş yoldaşı ona kömək etmək üçün özünü yetirdi:

-Qoy mən də kömək edim. Tək sənə çətin olar.

Birlikdə kapitan Şirinovun nəşini götürərək təxliyə qrupunun yerləşdiyi istiamətə doğru irəliləməyə başladılar. Bugünki döyüş çox ağır keçmişdi. Komandirlərinin şəhid olmasına görə düşmənə qarşı artan qəzəbin iztiraba qarışması və ağır döyüşdən sonra yorğunluq özünü göstərirdi. Ona görə xeyli məsafə qət etdikdən sonra azca dincəlib güc toplamaq üçün komandirinin nəşini yerə qoydu. Bura açıq ərazi olduğu üçün Şamilin döyüş yoldaşı buranın təhlükəli olduğunu bildirdi:

-Bura çox açıqlıqdır. Bizi vurarlar. Bəlkə səngərə girək?

-Qoy bir qurtum su içim.

Yenə ehtiyatı əldən verməmək üçün çiyin-çiyinə verib yerə oturdular. Belə ətrafı müşahidə etmək nisbətən asan olsa da, ərazi açıqlıq olduğu üçün yenə də təhlükəli idi. Elə bu zaman düşmən tərəfindən açılan güllə Şamilin başı üzərindən keçib dizi üstə durub ətrafa boylanan digər döyüşçünün kürək nahiyəsinə dəydi.

-Məni vurdular.

Bunu eşidən Şamil cəld hərəkətlə yaralı yoldaşını çəkib səngərə saldı, "Narahat olma, indi sənə yardım edəcəm", - deyərək onun yarasına sarğı qoymağa başladı.

Şamil döyüş yoldaşının yarasını sarıdıqdan sonra üzünü ona tutaraq, "yaran elə də ağır deyil. Özün gedə bilərsən. Mən də komutanımın nəşini gətirim",- deyərək, yaralı yoldaşını yaxınlıqdakı təxliyə qrupuna tərəf yola saldı. Özü isə komandirinin nəşini təkbaşına yerdən qaldırıb kürəyinə ala bilməyəcəyini düşünərək, çətinliklə də olsa səngərin kənarına kimi gətirdi. Sonra aşağı enərək kürəyinə aldı və təxliyə qrupuna doğru irəliləməyə başladı. Səngərdə irəliləyən Şamillə rastlaşana kimi onlara yaxın mövqedə döyüşən Banipaşa Əvəz və döyüş yoldaşları kapitan Şirinovun həlak olmasından xəbərsiz idilər. Onlar da yaralanmış döyüş yoldaşlarını təxliyə edərkən Şamilin döyüşdə həlak olmuş komandirlərinin nəşini kürəyində daşıyaraq təxliyə briqadasına doğru irəlilə-

diyini gördülər. Bunu görən Banipaşanı qəhər boğdu və dilində bu sözlər səsləndi:

-Kapitan, mən sənə getmə dedim axı...

Onunla birlikdə irəliləyən döyüş yoldaşları da komandirlərinin həlak olmasından çox təsirlənmiş, düşmənə olan qəzəbləri birə on artmışdı.

Uzaqdan onları  görən təxliyə qrupunun komandiri gizir Qəzənfər Mütəllimov təxliyə qrupundan iki nəfəri tez onlara tərəf köməyə göndərdi.

Əsgərlər sürünərək onlara doğru yaxınlaşdılar. Onlardan biri Kapitan Şirinovun nəşini gətirən Şamilə yardım etməyə tələsdi. Digəri isə Sübhanın gətirdiyi yaralıya yardım etməyə çalışdı.

Şəhid olmuş komandirin nəşini də bir az əvvəl bura gətirilmiş yaralı Seyidbalanın yanına qoydular və üzərini örtdülər. Burada daha üç yaralı da vardı.

Təxliyə qrupunun komandiri Qəzənfər Mütəllimov Seyidbalaya yaxınlaşdı. Zarafatyana danışaraq əhval-ruhiyyəsini qaldırmaq istədi. Sonra təxliyə qrupunun komandiri iki əsgərin köməyi ilə Seyidbala və daha üç yaralını hərbi kvadrosiklə yerləşdirərək arxaya, sanitar bölməsinə təhvil vermək üçün yola çıxdı. Qorxubilməz komandir yaralıları gətirərək lazım olan tibbi-sanitar bölməyə təhvil verdi. Buradan yaralılar təcili yardım maşını ilə Əhmədbəyli hospitalına aparıldı. Seyidbala və digər ağır yaralılar isə həmin gün hərbi vertalyot vasitəsilə birbaşa Bakıya, Travmatologiya İnstitutuna yerləşdirildi.

Qorxmaz təxliyə komandiri döyüşçüləri su-qida təminatından, eləcə də hərbi sursatdan korluq çəkməyə qoymurdu. Rabitə vasitəsilə yaralı, şəhid xəbəri alan kimi heç nəyə baxmayaraq döyüş bölgəsinə gəlir, vaxt itirmədən döyüşlərdə həlak olan və yaralananları arxa cəbhəyə təxliyə edirdi. Hətta bir dəfə qabaq təkəri minaya düşüb sıradan çıxan sanitar maşınını inanılmaz məharətlə işlək vəziyyətə gətirərək yaralanan və həlak olan döyüşçüləri təxliyə etməyi bacarmışdı. Yükü bir tərəfə yığmaqla balansı təmin edərək qabaq təkərlərindən biri sıradan çıxmış kvadrosikli üç təkərli motosiklet kimi idarə edərək minalanmış sahədən çıxarmışdı.

Cəsur təxliyə komandiri döyüş meydanında həlak olana kimi hərbi vəzifəsini belə vicdanla yerinə yetirmişdi. Döyüş meydanından 300-dən çox yaralını və vətən uğrunda həlak olmuş xeyli sayda döyüşçünün nəşini çıxaran "Pələng" ləqəbli qəhrəman, gizir Qəzənfər Mütəllimov 5 noyabr 2020-ci ildə Vətən uğrunda həlak oldu.

"Sarı komutan"ının nəşini təhvil verdikdən sonra yenidən düşməndən qisas almaq üçün Şamil də digər yoldaşları kimi döyüş mövqeyinə qayıtdı.

Döyüşlər isə şiddətli formada davam edirdi. Komandirlərinin müharibənin ilk günlərində həlak olmasına baxmayaraq 1-ci taborun bu qrupu mühasirəni yararaq, xeyli irəli getdiklərindən düşmən onların arxasına keçmiş, mühasirəni yaran döyüşçülər

özləri yenidən mühasirəyə düşmüşdülər. Onlardan on-on beş dəfə çox olan düşmən qüvvəsi hər tərəfdən top mərmiləri, snayperlər, iri çaplı silahlardan fasiləsiz atəşə başlamışdı. Nə qədər atəşə tutsalar da düşmən hərbi qüvvələri qarşı tərəfdə onlara qarşı vuruşan Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin döyüşçüləri ilə bacarmadıqlarını anladılar.

Banipaşa və onunla eyni mövqedə döyüşən yoldaşları düşmənə qarşı qəhrəmancasına vuruşur, hər vasitə ilə ağır zərbələr endirirdilər. Təxliyə etdikləri yoldaşlarının da yaralandığı döyüşlərdə isə bunlar yaşanmışdı: valın içiylə qaçan düşmən tərəfin döyüşçüləri burada mövqelənərək yenidən bizimkilər istiqamətində atəş açmağa başladılar. Bu zaman döyüşçülərdən biri çanaq sümüyündən ağır güllə yarası alaraq hərəkətsiz qaldı. Onu sol tərəfdən açılan snayper atəşi yaralamışdı. Qrupun burada döyüşən döyüşçülərindən beş nəfər isə mühasirədə qalmışdı. Bu mühasirədən çıxmaq şansı az olduğundan, Banipaşa Əvəz yaralanmış döyüş yoldaşına valla sürünərək döyüş mövqeyini tərk etməsini söylədi. Yaralı tərpənə bilmədiyini deyəndə o digər döyüş yoldaşının atdığı  tüstü qumbarasının yaratdığı dumandan istifadə edərək tez vala düşdü və yaralı yoldaşının da çəkib vala saldı.  Burada ona Sübhan Cəbrayılov tibbi yardım göstərə bildi. Və elə Sübhanın köməkliyi ilə həmin yaralının təxliyə edilməsi mümkün oldu. Yol-

daşlarını təxliyə etdikdən sonra Banipaşa yoldaşları ilə yenidən mövqeyinə qayıdaraq döyüşü davam etdirdilər.

Düşmən  qüvvələri həm onları, həm də Azərbaycan Ordusunun digər hissələrini irəliləyib möhkəmləndiyi ərazidən geriyə oturtmaq, vurub çıxarmaq üçün bu dəfə artıq tanklarla hücuma keçdilər. Tankların açdığı atəşdən uçuq divarlar arxasında gizlənmək mümkün olmayacaqdı. Çünki açılan atəşlərin yaratdığı partlayış qarşıdakı canlı qüvvələri bir an içində hərəkətsiz hala gətirmək gücündə idi. Bütün bunları çox yaxşı bilən Banipaşa Əvəz onlara sarı eyni zamanda üzərində şəxsi heyət olan beş tankın gəldiyini gördü. Bunun nə olduğunu o yaxşı anlayırdı.

Döyüşçülər aralarında ən yaşlı olan Banipaşa Əvəzə "rəis" deyə müraciət edirdilər.

-Rəis, biz neyləyəcəyik?

-Kəlimeyi-şəhadətinizi oxuyun. Başqa neyləyə bilərik ki? Artıq sonumuzdur. Bilirsiz ki, mühasirədəyik. Düşmən yolu bağlayıb. Təminat da gəlmir. Ərzaq da, silah-sursat da bitmək üzrədi. Son ümid yeri Allahdır.

Bunu deyib, Banipaşa səngərə çökərək Allaha dua etməyə başladı.

Elə bu an sanki bir möcüzə baş verdi. Deyəsən edilən dualar anında qəbul olmuşdu.

Ən arxada gələn düşmən tankından açılan atəş ən öndə gələn tankın sol bort hissəsini vurdu. Düşmən

səhvən öz tankını vurmuşdu. Tank güclü partlayış nəticəsində yanmağa başladı. Bunu görən digər düşmən tankları hərəkəti dayandırıb, geri dönüb çıxmaq istəyəndə döyüşçülərin gözü önündə daha bir hadisə baş verdi. Bir göz qırpımında içindəki şəxsi heyətlə birlikdə bütün tanklar yanmağa başladı. Banipaşa Əvəz və döyüş yoldaşları, sanki geniş ekranda döyüş filmindən fraqment izləyirdilər. Şahidi olduqları bu gölənilmız partlayış nəticəsində düşmən əsgərlərinin yanmış cəsədləri havaya uçurdu. Sözsüz ki, Azərbaycan Ordusu düşmənin tanklarını ya Spayk, ya da Bayraktar pilotsuz uçuş aparatları ilə vurmuşdu. Beləliklə, son anda döyüşçülərimiz düşmənin atəş hücumundan qurtulmuşdular. Bu da havadan və qurudan Azərbaycan Ordusunun müasir dövr müharibəsi aparmasının təzahürü idi. Elə buna görə düşmən tərəfi nə qədər səy göstərsə də, Azərbaycan Ordusunun əzmini qıra bilmirdi. Dörd gün mühasirədə qalmaqlarına baxmayaraq Qaraxanbəyliyə girən 1-ci tabor tutduqları mövqelərdən bir addım belə geri çəkilmədilər.

Artıq dörd gün idi ki, dayanmadan döyüş gedirdi. Oktyabrın 30-u saat 12:00 radələrində düşmən irəliləyərək mühasirədə qalan 1-ci taboru yenidən artilleriya atəşinə tutmağa başladı. Nəticədə batalyon komandiri polkovnik-leytenant Nizami Əliyev də daxil olmaqla taborun daha 18 döyüşçüsü yaralandı. Köməyə gələn tankların minaya düşdüyünü, silah-sur-

satın da qurtardığını görən yuxarı komandanlıqdan tabora tərtiblənmək üçün arxaya çıxmaq əmri verildi. 1-ci tabor azad etdiyi mövqeləri başqa bir hərbi hissəyə təhvil verərək arxaya çəkilməyə başladı.

Qaraxanbəylidən Fizulinin mərkəzinə isə altı kilometr məsafə qalırdı. 1-ci tabor döyüşə-döyüşə gəlib nisbətən düzənlik əraziyə çıxmışdı. Ətrafda uçuq divarlar gözə dəyirdi. Tərtiblənmək üçün təxminən 400 metr arxaya çıxan döyüşçülər buradakı  xarabalıqları qalmış, nisbətən hündür divarları olan bir uçuq tikilinin içində cəmləndilər. Dörd gün davam edən ağır döyüşlərdən sonra yorulmuş döyüşçülərin çoxu üzərindəki silah-sursatı çıxararaq yerə qoydular. Dincəlmək üçün döyüşçülərdən kimisi kürəyini divara söykəyərək, kimisi də yerdən oturdular. Elyar da üzərindəki silah-sursatdan azad olub, kürəyini divara dayadı. Hamı kimi o da çox yorulmuşdu.

Divarın uçmuş yerlərindən döyüş istiqamətində yüksəkliklər görünürdü. Döyüşçülərdən biri:

-Paşa, o görünən təpələr haradır?

-Qabaqdakı Füzulidi. Artıq rayon mərkəsinə az qalmışıq.

-Altı kilometr qalıb mərkəzə.

-Füzulini götürməliyik.

-Biz dayanmamalıydıq. İrəliləməliydik. Onsuz da bura kimi gəlmişik.

-Füzulini götürməliyik.

Başqa bir döyüşçü əlavə etdi.

-Daha atış səsi gəlmir. Rədd oldular.

-Deyəsən, yaxınlıqda olanların axırına çıxdıq.

Yorğun döyüşçülərin dincəlməsi üçün bu yer çox əlverişli idi. Elyar sakit əyləşsə də, özlüyündə bundan sonra döyüşlərin necə, hansı istiqamətdə davam etdiriləcəyi barədə düşünürdü. Nəyin bahasına olursa-olsun düşməni bu ərazilərdən vurub çıxarmaq lazım idi. Düşmənə vaxt qazandırmaq olmazdı.

Elyar bu düşüncələrdə ikən Hidayət telefonun kamerası ilə bura cəmləşmiş heyəti çəkərək sanki reportaj verirmiş kimi obyektivi döyüşçülərə tərəf yönəltdi:

-Hərə bir- iki kəlmə desin.

Birinci olaraq telefonun obyektivini ona yaxın əyləşmiş gənc döyüşçüyə tuşladı:

-Şəhruz, səndən başlayaq. Nə deyə bilərsən?

Gənc döyüşçü bir az gülümsəyərək utancaqlıqla başını aşağı saldı. Yanındakı döyüşçü onu qabaqlayaraq, "Hər şey Vətən üçün!" şüarını səsləndirdi. O da gülümsəyərək səsləndirilən şüarı təkrar etdi.

Hidayət daha sonra çəkiliş apardığı telefonu onun yanında əyləşən, qumbaraatanı divara söykəyib oturan İlkinə tərəf tutdu:

-Yanındakı "turba" ilə bərabər yaxşı düşürsən kameraya, - deyərək döyüş yoldaşıyla zarafatından da qalmadı.

-Gör, bununla düşmənə necə qan udduracam, - deyə İlkin gülümsəyərək cavab verdi.

Hidayət kameranı telefonuna baxan Elyara tutdu:

-Sən nə deyə bilərsən, gizir?

Elyar gözünü telefondan ayırıb, başını qaldıraraq yenə ciddiliyini pozmadan:

-Yaxşı olacaq, möhkəm olun! İnşallah, tezliklə qalib gələrik, bu əziyyətimizi yaxşı günlərdə, yeyib-içəndə qeyd edərik. Çalışın indi möhkəm olun.

-Füzulidə oturmağa az qalıb.

Daha bir döyüşçü əlavə etdi. Üzündən yorğunluq yağan, onun yanında uzanan döyüşçü isə yalnız obyektivə əl etməklə kifayətləndi.

-Tağı, bilmirəm sənə nə deyim. Bizim PK deyim, NSP deyim, AK deyim? Maşallah olsun, hamısından istifadə edirsən.

Ağzındakı tikəni çeynəyən Tağı bu sözləri gülümsəməklə qarşıladı.

-Rəşko, sən nə deyərsən?

Silah-sursatını üzərindən çıxarmayan, avtomatına söykənərək əyləşən pəhləvən cüssəli döyüşçü Rəşadsa sualı belə cavablandırdı:

-Allah buradakı qardaşları saxlasın.

Əlində tutduğu silaha işarə edərək əlavə etdi:

-Bax, bu mərmilərin hər biri bir düşmən üçündür.

Nəhayət, telefonun kamerasının obyektivi nisbətən gənc döyüşçüyə tuşlandı:

-Sən də bir-iki kəlmə de.

Gənc döyüşçü bıçağını zirehli jiletinin cibindən çıxararaq:

-Brat, bu bıçaqla qarşıma çıxan alçaq düşmənlərin başını kəsəcəm, doğrayacam onları!

Tikilinin uçulub-dağılmış nisbətən alçaq divarının üzərində dayanmış, ətrafı müşahidə edərək, əlindəki plastik butulkadan su içən döyüşçü isə əlavə etdi:

-Hələ görsünlər Füzulidə başlarına nə oyun açacağıq. Oradan da bir çəkiliş apararsan.

-Mütləq.

Nəhayət, "Reportaj" başa çatdı.

Çəkilişi bitirərək Hidayət bu sözləri də əlavə etdi:

-Zaman gələr, gələcək nəsillər bu kadrlara baxıb bizləri xatırlayar, necə döyüşdüyümüzün kamera arxasından da olsa şahidi olarlar. Arada çəkiliş də etmək lazımdır.

Əsgərlərdən bir neçəsi eyni anda səsləndi:

-Əlbəttə! Mütləq!

Bu zarafatyana xatirə çəkilişi döyüşçülərin əhval-ruhiyyəsinə də təsir etmişdi. Hər birinin simasında təbəssüm yaranmışdı. Qorxmaz, igid döyüşçülər döyüşməklə yanaşı, yeri gələndə əylənməyi də, zarafat etməyi də bacarırdılar.

Artıq gecə düşmüşdü. Ətrafa nisbi sakitlik çökmüşdü. Döyüşçülər arasında da bir sakitlik vardı. Birdən Elyarın aralarında olmadığını görən İlkin:

-"Tənha canavar" yenə yoxdur. Nə vaxt getdiyini görən var?

Hamı başını bulayaraq susdu. İlkinin sualına cavab verən olmadı.

-Yüz faiz yenə düşmən içinə sızıb. Allah bilir bu dəfə nə fikirləşib.

Hidayətin bu sözlərini döyüşçü dostları da təsdiqlədi.

-Elədir.

Elyar hiss etdirmədən dayandıqları mövqedən çıxdıqdan sonra düşmən mövqeyinə tərəf üz tutdu. Ətrafda tək-tək güllə səsləri gəlsə də, sakitlik idi. Bütün günü davam edən döyüşlərdə ətrafa yayılan güllə səslərinin, barıt qoxusunun təsirindən ərazidəki heyvanlar, quşlar da susmuşdu. Yəqin ki, qorxudan yuvalarına çəkilmişdilər. Elyar da bu sakitliyi pozmadan, qaranlığı yararaq ağlagəlməz bir səsizliklə artıq düşmənin yerləşdiyi mövqeyə yaxınlaşmışdı. Peşəkar kəşfiyyatçı onun bura gəlişi düşmən tərəfindən hiss olunmasın deyə ovunu izləyən bəbir kimi addımlarını çox ehtiyatla atmağa başladı. Gecə olmasına baxmayaraq səma aydın olduğundan Elyarın iti gözləri düşmənin yerləşdiyi hərbi hissəni, buradakı döyüş maşınlarını da aydın görürdü. O, ara-sıra gələn danışıq səslərini də artıq eşidirdi.

Elyar kəşfiyyatçı həssaslığı ilə ətrafı dinləməyə başladı. Erməni dilini bildiyi üçün gələn danışıq səslərini anlayırdı.

Ətrafı dolaşaraq bütün müdafiə olunan nöqtələri, zəif nöqtələri, haradan hücum etməyi, haradan çıxmağı, texnikalarının, hətta snayperlərin yerləşdiyi nöqtələri, PK-ların dəqiq yerlərini, əsas canlı qüvvə-

lərin harada olduğunu da dəqiqliklə təyin etdi. Əgər hücum zamanı mühasirəyə düşərlərsə, mühasirəni haradan yarmağın mümkün olduğunun planını da beynində cızdı. Amma burada mövqelənən düşmənin hazırkı qüvvəsi ilə öz qüvvələrini müqayisə edəndə, hər cür təchizatı olan düşmənin əlində olan Füzulinin mərkəzini düşmən qüvvələrindən təmizləməyin o qədər də asan olmayacağını anladı. Onların hazırkı mövqelərindən bura hücum etmək böyük itkilər bahasına başa gələ bilərdi. Bəlkə də başqa bir istiqamətdən edilən hücum daha az itki ilə mərkəzi götürmək üçün əlverişli olardı. Hazırda isə hər tərəf düşmən qüvvələri ilə dolu idi.

"Tənha canavar" yenə əliboş dönmək istəmədi. Səssizcə düşmən səngərinə girərək, səngərdə gördüyü erməni zabitinə doğru irəlilədi, cəld hərəkətlə arxadan ağzını qapaması ilə döyüş bıçağını yuxu arteriyası üzərindən boğazına çəkməsi bir oldu. Erməni zabiti çırpınsa da müvazinətini itirib yerə düşdü. Zabitin artıq tərpənmədiyinə əmin olandan sonra Elyar yavaşca bu sözləri deyərək əlini onun ağzından çəkdi:

-Sizin əlləriniz minlərlə döyüşçülərimizin, dinc sakinlərimizin qanına batıb. İndi hesab zamanıdır. Hamısının qanını alacağıq.

Bir az qabaqda səngərdə dayanmış daha bir erməni zabiti də gələn kəşfiyyatçıdan xəbərsiz idi. Onun da ölüm fərmanı artıq verilmişdi. Elyar bəbir cəldliyi ilə bir anda düşmən üzərinə atılaraq tərpən-

məyə belə macal vermədi. Sol əlini caynaq kimi arxadan düşmən zabitinin boğazına keçirərək bir göz qırpımında sağ əlindəki döyüş bıçağını zabitin boğazına yeritdi. Sonra əyilərək qulağına:

-Bax, boğazından axan qan Polad Həşimovun axıdılan qanının əvəzidi. Elə bilirdiz qisas qiyamətə qalacaq? Üstünüzə elə bir tufan gəlir ki, hamınızı bu torpaqlardan süpürüb atacaq.

Bunu söyləyərək öldürdüyü düşmənin boynundan çıxardığı bıçağın qanını elə onun paltarına silərək yenidən zirehli geyiminin cibinə qoydu. Öldürdüyü erməni zabitlərinin şəxsiyyətini təsdiq edən sənədlərini və onlara məxsus xidməti tapançalarını da götürərək necə gəlmişdisə, yenə də eləcə səssiz-sədasız düşmən möveyindən uzaqlaşdı.

Elyar geri dönəndə artıq gecə yarı idi. Döyüşçülərdən heç kim yatmamışdı. Elyarın bacarığına bələd idilər. Yenə də düşmən içinə sızdığını təxmin etdikləri üçün onun dönməsini gözləyirdilər.

Elyarın dönüşü də gedişi kimi qəfil idi. Bir də baxdılar tikilinin uçuq divarının yanında peyda oldu. Nə necə getdiyini, nə də necə geri döndüyünü görən olmamışdu.

Sükutu Elyar pozdu:

-Mərkəzə doğru irəliləsək itkilərimiz çox olacaq. Orada düşmənin lazımi qədər canlı qüvvəsi cəmlənib, silah-sursatları da çoxdur. Görək bizə gələn əmr necə olacaq? Yəqin ki, bizə başqa istiqamətdə hərəkət

etmək əmri veriləcək. Bunu deyib, məhv etdiyi iki erməni zabitinin üzərindən götürdüyü şəxsiyyətlərini təsdiq edən sənədlərini və xidməti tapançalarını döyüş çantasından çıxardaraq döyüş dostlarına da göstərdi:

-Mən hələ ki, bu gecə düşmənin duyuq düşməməsi üçün sakitcə iki zabitini aradan götürdüm. Qoy özlərini məğlubedilməz sanan düşmən acizliyini dərk etsin. Onsuz da sonları yaxınlaşır, məğlub olacaqları gün uzaqda deyil.

Artıq oktyabr ayının 2-də Qaraxanbəyli düşməndən tamamilə azad edilmişdi. 1-ci tabora arxaya çəkilib tərtiblənmək əmri gəldi. Qrupun döyüşçüləri də alınan ərazilləri başqa qrupa təhvil verərək arxaya doğru hərəkət etdilər. Burada bir gün ərzində yenidən özünün döyüş gücünü bərpa edən qrupun döyüşçüləri növbəti tapşırığı gözləyirdi.

## HORADİZ STANSİYASINDA DÖYÜŞ

Horadiz stansiyasının azad edilməsi Füzulunun azad edilməsində mühüm rol oynayacaqdı. Odur ki, düşmənin bu istiqamətdə müqavimətini qırıb irəliləmək lazım idi. Ona görə də bu istiqamətdə döyüşü davam etdirmək üçün 4-cü tabora da döyüş əmri verilmişdi.

Arazboyu düzənlikdə, İranla sərhədə çox yaxın yerləşən bu stansiya strateji əhəmiyyətli bir ərazi olduğundan düşmən qüvvələri də öz gücünü bu istiqamətdə cəmləmişdi. Məqsədləri bu istiqamətdə irəliləyən Azərbaycan ordusunun bölmələrini mühasirəyə salıb məhv etmək idi. Bu məqsədlə düşmən bu əraziyə əlavə olaraq 12 döyüş tankı, xeyli canlı qüvvə toplamışdı. Düşmənlə döyüşə girən 4-cü taborun qəhrəmanlıqla döyüşməsinə baxmayaraq qarşı tərəfin sayca üstünlüyü və çoxlu döyüş texnikasından istifadə etməsi vəziyyəti çətinləşdirmişdi. Odur ki, yuxarı komandanlıqdan onlara kömək göndərilməsinə qərar verilmişdi.

Bu zaman 1-ci taborun döyüşçüləri isə Lələtəpə istiqamətində "Ohanyan səddi"ni yarmağa çalışan qüvvələrə dəstək üçün tapşırıq almışdı. Lələtəpə istiqamətində irəliləyən 1-ci taboron döyüşçülərinə daha bir tapşırıq gəldi. Öncə 4-cü tabora dəstək vermək lazımdır. Tabor döyüş əmri alan kimi vaxt itirmədən Horadiz stansiyası istiqamətdə döyüşən 4-cü tabora

dəstək vermək üçün həmin istiqamətə doğru irəliləməyə başladı. Dəstək üçün gələn qrup oktyabr ayının 2-də şər qarışana yaxın döyüş mövqeyinə çatmış oldular. Köməyə gələn qrup bu istiqamətdə gedən döyüşə dəstək olmaq üçün vaxt itirmədən döyüşə qatılmalı idilər. Qrup komandiri kapitan Kamil Şirinovun müharibənin ilk günlərində qəhrəmancasına şəhid olmasından sonra aparılan döyüşləri qrupun peşəkar, təcrübəli döyüşçüləri birgə idarə edirdi. Döyüşün gedişatına məsul şəxslər baş gizir Camal İsmayılov, baş gizir Sübhan Cəbrayılov, gizir Elyar Vəliyev, gizir Şəhriyar Quliyev idi.

Müharibənin ilk günündən çiyin-çiyinə döyüşən, ən çətin əməliyyatların öhtəsindən qalibiyyətlə gələn igid dostlar digər döyüş yoldaşlarına döyüş tapşırığı verdikdən sonra özləri də relyefi nəzərə alaraq yüksəkliklərdə mövqelənməyi qərara aldılar.

-Planladığımız kimi, mən o yüksəklikdə mövqe tutacam, - deyərək Elyar yaxınlıqdakı yüksəkliyə doğru irəlilədi. Digər döyüşçülər də plan üzrə hərəkət edərək mövqelənmək üçün getdilər. Onların yüksəkliklərdən atəş dəstəyi verməsi 4-cü taborun daha intensiv döyüş aparmasını təmin etmiş olacaqdı.

Elyar seçdiyi məkandan bir daha döyüş gedən ərazini nəzərdən keçirdi. Düşmən tərəfdən isə kiçik çaplı silahlar da daxil olmaqla açılan atəşlərin intensivliyi düşmənin canlı qüvvəsinin də yetərincə olduğundan xəbər verirdi. Elyar bir müddət dayandığı

mövqedən atəş etdikdən sonra açıq döyüş başladı. Elyar artıq gözlə görüləcək qədər yaxın olan düşməni izləyirdi. Belə əlverişli şəraiti əldən vermədən RPQ silahını uzanıqlı vəziyyətdə sağ çiynində hazır etdi və bir neçə düşmənin cəm olduğunu görüb dərhal dizi üstə RPQ silahını (TƏQ- tank əleyhinə qumbaraatan piyada döyüş başlığı) istifadə halına gətirərək açdığı dəqiq atəşlə düşmənin eyni zamanda çoxsaylı canlı qüvvəsini məhv etdi və öz yoldaşları tərəfindən "Əhsəh!" sədaları eşidildi. O, döyüş üstünlüyünün Azərbaycan Ordusu tərəfinə keçməsinə şərait yaratmağa çalışırdı və avtomat silahdan sərrast atəşlə düşməni məhv etməyə başladı.

Camal və Sübhan da əllərində olan RPK (Kalaşnikovun əl pulemyotu) ilə düşmənə aman vermədən ardıcıl atəşlə düşməni məhv edirdilər. Düşmən tərəfdə bir ZTR (Zirehli transportyor) göründü və üzərindəki KPVT pulemyotu ilə bizimkilər istiqamətdə atəş yağdırmağa başladı. Az keçməmiş tank da göründü. Elyar sol tərəfə sürünərək mövqe yerini dəyişdi və RPQ (TƏQ) silahına tank əleyhinə başlıq taxaraq gözləməyə başladı. Elə bu zaman Camalın hündürdən səsi eşidildi, "Salamatsaaann?!"

Elyar "Vuracam indi onu!", - dedi və qəfil diz üstə atış vəziyyəti alaraq silahı birbaşa ZTR-ə tuşladı və tətiyi çəkərək tez yerə yatdı. ZTR od tutub yanaraq dağılan kimi Sübhan "Yaşa, Elyar!", - deyərək, Camalla birgə Elyar olan tərəfə sürünərək davamlı atəş

açdılar. Düşmən tankı üzərindən iriçaplı pulemyotdan da bizim mövqelərə atəş yağdırılırdı. Çevik tərpənən Elyar növbəti tank əleyhinə döyüş başlığını silaha taxıb düşmən tankına tuşladı və anındaca tətiyi çəkdi. Mərmi tank qülləsinin alt hissəsindən tutdu və tank sıradan çıxdı. Şəhriyar da bu məqamdan istifadə edərək düşmənə aman vermədən atəş yağdırdı. Düşmənin canlı qüvvəsi tələf oldu. Beləliklə, qarşı tərəf məhv edildi.

Oktyabrin 2-sində şər qarışan vaxtı döyüş mövqeyinə yetişərək döyüşə başlayan 1-ci taborun Elyarın da qrupu daxil olmaqla bir sutka ərzində düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını yerləyeksan etmişdi. Oktyabrin 3-ü saat 18:00 radələrinə kimi burada aparılan döyüşlərdə düşmənin on iki tankı, iki yüz canlı qüvvəsi məhv edilmişdi. Daha bir neçə tank qənimət kimi ələ keçirilmişdi. 4-cü tabor artıq vəziyyətə tam nəzarəti öz üzərinə götürmüşdü. Bundan sonra 1-ci tabor əvvəlcədən verilən tapşırığı yerinə yetirmək üçün yenidən Lələtəpə istiqamətində irəliləməyə başladılar.

Elə bu zaman yeni bir tapşırıq: "İçərisində rütbəli zabitlər olan düşmənin hərbi maşınını partlatmaq" – gəldi. Bu tapşırığı icra etmək üçün Elyar da daxil olmaqla, bir neçə döyüşçü hərəkətə keçdi. Onlar düşmənin hərbi maşınının hansı trayektoriya ilə hərəkət edəcəyi haqda məlumatlandırıldıqdan sonra, həmin yolda pusqu quraraq yolun üstündəki ağaclıq ərazi-

də gözləməyə başladılar. Ağacların saralmış yarpaqları arasından yol aydın görünürdü. PDM asta hərəkətlə gəlirdi. Ardınca düşmənin növbəti URAL markalı üstörtülü maşını və daha sonra UAZ göründü. Pusqu qurulan yerə yaxınlaşaraq PDM ötüb keçəndən sonra URAL ilə yaxın məsafədə olan Elyar yolun üst tərəfində maskalanaraq gözləməyə başladı, bilirdi ki, belə əməliyyatlarda səbrli olmaq vacibdir və onu göz ilə izləyən yoldaşlarına da əlilə "Gözləyin!" işarəsi verdi. Əvvəlcədən, hazır etdiyi tank əleyhinə qumbaraatandan PDM-in arxa sağ tərəfinə sərrast atəş açaraq maşını sıradan çıxartdı. Ortadakı URAL dərhal dayandı və fürsəti əldən verməyən digər döyüşçülər URAL-a avtomatdan atəş açmağa başladılar. İkinci piyada əleyhinə başlıqlı mərmini qumbaraatana yerləşdirən Elyar URAL-a tuşladı və tətiyi çəkdi. Bir video kamera lazım idi ki, burada baş verənlər lentə alınsın. Gələcək nəsillərə də nümunə olacaq döyüş səhnəsi gedirdi. Atəş nəticəsində yanmağa başlayan URAL-ın arxasındakı UAZ-dan düşən dörd nəfər yüksək rütbəli zabit müqavimət göstərməyə başladılar. Əyilərək, uzanaraq müdafiə olunmağa çalışan düşmən zabitlərini Elyar vaxt uzatmadan gur atəşlə məhv etməyə başladı. Elyarın fikri həm də sağ qalmış sürücüdə idi. UAZ-ın sürücüsü olan əsgər arxaya doğru qaçarkən onu Elyarın döyüş yoldaşlarından biri öldürdü. Atəş dayandı. PDM və URAL-dan heç kim düşmədi. Hər iki maşın yanmışdı. Necə de-

yərlər, əməliyyat tər-təmiz başa çatmışdı. Elyar buna çox sevindi. Maşında daha heç kimin qalmadığına əmin olduqdan sonra məhv etdiyi biri polkovnik olmaqla digər yüksək rütbəli üç zabitin də hər birinin üzərində olan şəxsiyyətlərini təsdiq edən sənədlərini və xidməti tapançalarını götürərək üzünü telefonla çəkiliş aparan döyüş yoldaşına tutdu:

-Bax, bunlar şərəfsizlərin vəsiqəsidir. Çək-çək, qoy baxsınlar görsünlər ki, belə şərəfsiz düşmənlərimiz olub. Az qalıb, axırlarına çıxacağıq!

Video çəkən isə: "Sona qədər gedəcəyik!", - deyərək ətrafı da kameranın yaddaşına həkk etdi.

Elyar UAZ avtomaşınına yaxınlaşdı və içəri baxış keçirdi, işə salmaq istəsə də, mümkün olmadı. Maşın zədələnib yararsız hala düşmüşdü. Maşında olan bəzi ləvazimatları, texniki cihazları, radiorabitə qurğusunu, sənədlər olan zabit çantasını qənimət kimi götürdü.

Elyar məhv etdiyi düşmən zabitlərindən götürdüyü tapançaları və şəxsiyyətlərini təsdiq edən sənədlərini yuxarı komandanlığa təhvil vermək üçün çantasına yerləşdirdi. Komandanlıqdan verilən əməliyyat tapşırığı yerinə yetirilmişdi ki, erməni əsgərləriylə dolu daha bir PDM-in irəlilədiyi məlumatı gəldi. Bu maşın da içindəki canlı qüvvələrlə birlikdə məhv edilməli idi. Elyar və döyüş yoldaşları yenidən hərəkətə keçdilər. Bu dəfə düşmənin gəldiyi yola daha yaxın məsafədə pusqu quraraq növbəti qurbanla-

rını gözləməyə başladılar. Qarşıdan iki PDM pusqu qurulan yerə yaxınlaşan kimi Elyarın və onunla əməliyyatda iştirak edən döyüş dostlarının açdıqları dal-badal RPQ atəşi nəticəsində maşının həm təkərlərinin şinləri, həm də yanacaq çəni alışıb yanmağa başladı. İgidlərin təxmini düz oldu, buradan çətin sağ adam çıxa bilərdi. Elə də oldu. Pusqu quran döyüşçülərin gözü önündə piyadaların döyüş maşını və içindəki düşmənin canlı qüvvəsi yanaraq məhv olmuşdu. Elyarla birlikdə əməliyyatda iştirak edənlərdən Şəhriyar üzünü döyüş yoldaşlarına tutaraq:

-Yuxarı komandanlıqla əlaqəyə girək, hələlik başqa tapşırıq yoxdursa, buradan cəld uzaqlaşaq.

Camal rabitə ilə danışandan sonra:

-Uşaqlar, getməliyik!

Elyar yumruğunu sıxaraq döyüşçü yoldaşları ilə yumruq-qumruğa vuraraq qarşılıqlı sevinclərini bölüşdülər. Sonra Elyar UAZ-dan əlinə keçirdiyi düşmən bayrağını da yerə ataraq ayaqladı. "Pusqu" əməliyyatı beləcə uğurla başa çatmışdı və kəşfiyyat döyüş qrupu öz istehkamlarına qayıtmışdı.

## İSTİQAMƏT CƏBRAYILADIR

İgidlərin qarşısında növbəti döyüş tapşırığını yerinə yetirmək dururdu. 1-ci tabora verilən yeni tapşırıq isə belə idi: Lələtəpə istiqamətində döyüşən digər hərbi birləşmələrə kömək edib, dəstək verərək, "Ohanyan səddi"ni yarmaq. Cəbrayıla girmək.

Azərbaycan Ordusuna hücum əmri verilən gün 2020- ci il sentyabr ayının 27-də Cəbrayıl istiqamətindən də sürətli əks hücuma başlanmışdı. Həmin gün səhər saatlarında əməliyyat hərbi taborunun bir qrupu Cəbrayıl giriş abidəsinin qarşısından hərəkətə keçdi. Azərbaycan Ordusunun hücum etdiyini görən düşmən hər tərəfdən dayanmadan artilleriya, minamyotlardan açılan atəşlərlə hücumun qarşısını almağa çalışırdı. İrəliləyən Azərbaycan hərbi qüvvələrinin ətrafında hər an ya minamyot partlayır, ya da ordumuzun bu istiqamətdə irəliləyən qüvvələri top atəşinə  tutulurdu. Bütün bunlara baxmayaraq hücum sürətlə davam edirdi. Bu istiqamətdə yerləşən körpü ələ keçiriləndən sonra irəliləyən ordu hissələrimiz tərəfindən Cəbrayıl-Horadiz yolunu əlində saxlayan düşmənin yerləşdiyi mövqelər məhv edildi. Bundan sonra döyüş aparan hərbi hissə düşmənin Minbatda yerləşən bölüyü üzərinə kalon şəklində irəliləməyə başladı. Qarşı tərəf çox güclü müqavimət göstərməsinə baxmayaraq Azərbaycan Ordu hissəsinin müqavimətini qıra bilməyəcəyini gördükdə geri

çəkilməyə məcbur oldu. Düşmənin burada yerləşdiyi mövqe müharibənin ilk günü, elə ilk hücumda tamamilə ələ keçirildi. Bundan sonra sürətlə irəliləyən hərbi qüvvələrimiz Arazboyu ərazilərdə düşmənin daha üç mövqeyini ələ keçirdilər. Bununla da düşmənin həm sağdan, həm də soldan manevr etmək imkanlarının qarşısı alınmış oldu. Səhəri gün - sentyabrın 28-də düşmən hərbi qüvvələri onlar üçün çox əhəmiyyətli olan Minbatda yerləşən mövqeyini yenidən geri almaq üçün əks hücuma cəhd etsələr də, buna nail ola bilmədilər. Lələtəpə yüksəkliyinin qarşısında yerləşən bu mövqe Azərbaycan ordusunun irəliləməsi üçün də çox əhəmiyyətli idi. Ona görə hücumu yerinə yetirən hərbi hissəmiz döyüş əzmi nümayiş etdirərək düşmənlərdən təmizlədikləri mövqelərdən bir addım da geri çəkilmədilər. Döyüşlər zamanı burada düşmənin bir bölüyə qədər hərbi qüvvəsi məhv edildi. İstədiyinə nail olan Azərbaycan Ordusu inamla irəliləməyə davam edirdi. Cəbrayıla gedən yol həmin yüksəkliyin sol tərəfindən keçirdi. Təpənin ələ keçirilməsi Cəbrayıla doğru irəliləməyə böyük imkan yaratmış oldu. Bundan sonra Azərbaycan Ordusunun digər bölmələri də bu istiqamətdən Cəbrayıla doğru hücuma başladılar.

Oktyabr ayının 3-də 1-ci tabor verilən tapşırığa əsasən, Lələtəpə istiqamətindən yenidən döyüşlərə qatıldı. Lələtəpəyə çatanda ordumuz artıq düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını sıradan çı-

xarmışdı. Mayor Gündüz Səfərlinin komandanlığı altında döyüşən 4-cü taborun döyüşçüləri 1-ci tabor onlara köməyə gələnə kimi artıq düşmənin yeddi-səkkiz tankını yararsız hala salmışdı. Kömək gələndən sonra isə döyüşlər daha da şiddətləndi, onlardan hər bir  yenidən qorxmadan, qəhrəmanlıqla döyüşə atıldı. Elyar da həmişəki kimi hücum qrupunda idi. Qrupa daxil olanlar bacardıqları qədər vaxt itirmədən qarşı tərəfin həm canlı qüvvəsini, həm hərbi texnikasını zərərsizləşdirməyə çalışırdı. Verilən tapşırıq yerinə yetirilməli, "Ohanyan səddi" bu istiqamətdən də yarılmalı, Cəbrayılın mərkəzi düşmən qüvvələrindən təmizlənməli idi. Bunun üçün isə ilk növbədə "Vışka" deyilən qurğunun yerləşdiyi yüksəkliyi götürmək tapşırığını yerinə yetirmək lazım idi ki, buradan ətrafa nəzarət etmək mümkün olsun.

Artıq axşam düşmüşdü. Döyüşçülər Cəbrayıl istiqamətində Balyan deyilən ərazidə düşmən qüvvələri ilə qarşılaşmışdılar. Yenidən qızğın döyüşlər başlamışdı. Düşmənin yüksəkliklərdə mövqelənməsi, həm də bütün silahlardan istifadə etməsi düşmən eşalonuna qarşı hücumu çox çətinləşdirirdi. Çünki təpədən-dırnağa qədər silahlanmış düşmənə qarşı 1-ci taborun döyüşçüləri yalnız üzərlərində götürə, daşıya bildikləri silahlarla vuruşacaqdılar.

Döyüşün ilk saatlarında zarafatları ilə hamının sevimlisinə çevrilmiş 1-ci tabordan kiçik gizir İlkin Zülfüqarov qəhrəmancasına həlak oldu. Döyüş isə

ara vermədən davam edirdi. Artıq düşmənin 2-ci eşalonuna qarşı döyüşlər gedirdi. Gecənin göz-gözü görməyən qaranlığını yalnız atılan mərmilər işıqlandırırdı. Güllələrin, açılan atəşlərin qulaqbatırıcı səsləri fonunda birdən səslər gəlməyə başladı...

-Beyrək, hanı Beyrək?

-Beyrək!

-Kimdi yaralanan?

-Beyrək yaralanıb.

-Onun yanına gedin.

Bu xəbəri eşidən kimi Elyar da tez özünü yaralanmış döyüş yoldaşına yetirdi. Beyrəyin aldığı yara çox dərin idi. Düşmən postuna basqın edərkən düşmənin açdığı atəşdən ağır yaralamış kiçik gizir Beyrək Feyzullayev az keçmədən torpaqlarımızı işğaldan azad edərkən qəhrəmancasına həlak oldu. Onun şəhid olmasını görən Elyarı və döyüş yoldaşlarını qəhər boğdu. Hələ döyüşə başlamazdan öncə hazırlaşan Beyrəyin hətta ərzaq əvəzinə də silah-sursat götürməsi döyüşçü dostlarına məlum idi. O, döyüş başlayan andan minamyotçu olmasına baxmayaraq hücum qrupunda çox həvəslə, inamla döyüşürdü. Belə bir döyüşçünün şəhid olması yoldaşlarının düşmənə qarşı qəzəbini daha da artırdı.

Elyar xilas edə bilmədiyi, şəhid olmuş döyüş yoldaşının qisasını almaq üçün qrupun digər üzvləri kimi daha amansızlıqla yenidən döyüşə atıldı.

Gecə göydə işıq saçan güllələrin, mərmilərin ardı-arası kəsilmirdi. Bu da döyüşün şiddətindən xəbər verirdi. Azərbaycan Ordusu "Ohanyan səddi"ni yarmaq üçün var gücü ilə hücuma keçmişdi.

Düşmənin atdığı daha bir minamyot mərmisi isə Elyarın yanında partladı. Zərbə dalğasının təsirindən Elyar beyin sarsıntısına məruz qaldı. Kontuziya alan Elyar özünü ələ almaq istəsə də zərbə dalğasının təsirindən başında yaranan uğultu onu narahat etməyə başladı. Ürəkbulanma və qusma da bir yandan başlamışdı. Elyar onda yaranan bu xoşagəlməz hallara baxmayaraq, yorğunluğunu, halsızlığını biruzə verməməyə çalışırdı. O, bu vəziyyətdə də döyüş yoldaşlarından ayrılmaq istəmir, döyüşü davam etdirirdi.

Nəhayət, ermənilərin keçilməz sədd kimi təqdim edib, sinələrinə döyüb öyündükləri "Ohanyan səddi" qəhrəman ordumuz tərəfindən bu istiqamətdən də yarıldı. Demək olar ki, düşmənin onurğa sütunu qırıldı. Bu döyüşdə şəhid olmuş Feyzullayev Beyrək və Zülfüqarov İlkinin qisası kiçik gizir Tağıyev Ramiq tərəfindən elə həmin döyüşdə alındı. O, atəşin hansı istiqamətdən açıldığını görmüşdü. Həmin istiqaməti gözdən qoymayan Ramiq, nəhayət, sərrast atəşlə döyüş yoldaşlarını şəhid edən düşməni məhv etdi.

Buradakı döyüşlər səhərə kimi ara vermədən davam etdi. Nəticədə düşmənin bir eşalonu tamamilə darmadağın edildi.

Səhər açılanda isə düşmən bütün silah-sursatını döyüş meydanında qoyaraq qaçmağa başladı. Onlar yalnız canlarını qurtarmağı düşünürdülər. Döyüş meydanında düşmənin atıb qaçdığı çoxlu silah-sursat, hərbi texnika qalmışdı. Azərbaycanın qəhrəman döyüşçüləri qənimət kimi götürdükləri bu hərbi texnikalardan işlək vəziyyətdə olanları elə düşmənin özünə qarşı istifadə edirdilər. Artıq düşmənin keçilməz bildiyi "Ohanyan səddi"ni bu istiqamətdən də yaran ordumuz düşməni təqib edərək irəliləməyə davam edirdi.

Ordu bölmələri yarılmış səddi gözdən keçirərkən gözlədiklərindən də möhkəm bir səddin inşa edildiyinin şahidi oldular. Yerüstü elə bir tikili, qurğu nəzərə çarpmasa da, düşmən məhv edildikdən sonra tunelə daxil olduqda necə bir möhkəm istehkam qurğusunun inşa edildiyinin şahidi oldular. Bu sədlər eni və hündürlüyü təxminən bir metr olan betonlardan inşa edilmiş uzun məsafəli səngərlər və tunellərdən ibarət idi. Bu tunel və səngərlərə giriş xüsusi hazırlanmış gülləkeşirməz dəmir qapılardan idi. Düşmən bu tunellər vasitəsilə Azərbaycan ordusunun üzbəüz olan atəş nöqtəsinə kimi gələ bilirdi. Xaç şəklində olan bu yeraltı tunellərin girişi vaxtilə Azərbaycan ordusunun görmədiyi arxa tərəfdən başlayaraq önə, sağa və sola doğru uzanırdı. Tunelə daxil olduqda ilk nəzəri cəlb edən eni dörd metr, uzunluğu səkkiz metr olan iki sığınacaq oldu. Bundan sonra uza-

nan tunelin biri sol istiqamətə, Lələ-İlahi dağına doğru çıxırdı. Burada da on səkkiz metr uzunluğunda, üç metr enində bir sığınacaq vardı və tunel səngərə doğru davam edirdi. Səngərlə tuneli yenə də güllə-keçirməz dəmir qapı ayırırdı. Səngərin də divarları və üzəri betondan inşa edilmişdi. Betonun daha da möhkəm olması üçün armaturlarla dəstək verilmişdi. Betonun üzərinə isə əlavə olaraq üç metr hündürlüyündə torpaq tökülmüşdü. Belə bir səngəri hətta aviasiya zərbələri ilə də dağıtmaq çox çətin idi. Buradan bir neçə atəş mövqeyinə çıxışları, həm də qarşı tərəfi uzun müddət atəş altında saxlamaq mümkün idi. Atəş mövqeləri elə hazırlanmışdı ki, bura müxtəlif silahlardan, istər snayper atışı üçün, istər tank əleyhinə raketlər üçün, istərsə də atıcı silahların hər birinin istifadəsi üçün çox əlverişli idi. Bir sözlə, buradan asanlıqla qarşı tərəfə atəş açmaq olsa da, qarşı tərəfin bu nöqtələri görməsi mümkün deyildi.

Digər tunellər də belə möhkəm, müdafiə və qarşı tərəfə atəş açmaq üçün çox əlverişli idı. Tunellər gecə-gündüz rahat hərəkət etmək üçün hətta elektrik xətləri ilə də təchiz olunmuşdu. Tunellərlə irəlilədikcə rast gəlinən bunker tipli yerlərin olması, uzun müddət burada qalmaq üçün əlverişli şəraitin yaradıldığını deməyə əsas verirdi. Tunellərin çıxış qapıları elə düzəldilmişdi ki, qapı içəridən bağlanarsa çöldən açmaq mümkün deyildi. Bu da yəqin ki, qarşı tə-

rəfdən hücum olarsa, tunelə çöldən daxil olmanın qarşısını almaq üçün düşünülmüşdü.

Səddin daha bir tuneli asfalt yola çıxırdı. Bu tunel daha uzun idi. Tunellə irəlilədikcə müəyyən məsafədən sonra ətraf əraziyə çıxan daha bir gülləkeçirməz qapı vardı. Bu qapı həm içəridən, həm də çöldən bağlana bilirdı. Bəlkə də qapıların belə hazırlanması müşahidə aparan əsgərlərin buranı özbaşına tərk etməməsi üçün hesablanmışdı. İrəlilədikcə tuneldən yenə sağa, sola çıxışların olduğunu görmək olurdu. Atəş mövqeyində isə gilizlər atılıb qalmışdı. Buradakı atəş mövqelərinin birindən baxanda Araz çayı, Cocuq Mərcanlı kəndi, Horadiz qəsəbəsi də görünürdü. Nişangahlarda qalaqlanan pulemyot gilizlərindən, daraqlarından, atılmış əl qumbaralarının hissələrindən düşmənin qarşı tərəflə uzun müddət döyüşdüyünü deməyə əsas verirdi. İstifadə edilməmiş güllələrin, konservaların qalması isə düşmənin buraları tələsik tərk etməsini göstərirdi. Tunelin divarına bərkidilmiş xəritədə isə Lələ İlahi təpənin, Azərbaycan tərəfinin bütün mövqelərinin, atəş nöqtələrinin sxemi göstərilmişdi. Sağa-sola çıxışları olan bu tunelin uzunluğu bir kilometrdən artıq olardı.

Belə bir səddi qısa müddətdə yaran Azərbaycan Ordusunun rəşadətini sözlə ifadə etmək çətin idi. Bu, hər bir döyüşçünün qanı, canı bahasına, cəngavər kimi döyüşdüyündən xəbər verirdi. Düşmənin bunkerləri belə tələm-tələsik qoyub qaçması ordumuzun

şücaətindən, döyüşçülərimizin gücündən, Xüsusi Təyinatlı Qüvvələrimizin yüksək döyüş bacarığından, "Yaşma"nın düşməndə yaratdığı xofdan, qorxudan xəbər verirdi.

Oktyabr ayının 3-də Cəbrayıl istiqamətində irəliləyən Xüsusi Təyinatlıların 1-ci taborunun döyüşçüləri axşamüstü hava qaralana yaxın Cəbrayıl rayonunun mərkəzinə çatmış oldular. "Vışka" buradakı hərbi hissənin sağında yerləşirdi. Solunda isə yüksəklik görünürdü. Bu mövqeləri düşməndən təmizləmədən irəliləmək mümkün deyildi. Taborun döyüşçüləri irəlilədikləri bəlli bir nöqtədə yerləşərək ərazinin kəşfiyyatını aparmağa başladılar. Kəşfiyyat nəticəsində düşmən mövqeyi arxasında tankın da olduğu müəyyən edilmişdi. Amma tank əleyhinə silah hələ gəlib çıxmamışdı. Dörd saat həmin mövqedən düşmən mövqelərimizi tank atəşinə tutduqdan sonra nəhayət, tank əleyhinə əldə daşınan Spayk raketi döyüşçülərə çatdırılmış oldu. Və nəhayət, düşmən tankı zərərsizləşdirildi. Bundan sonra taborun döyüşçüləri "Vışka"nı və yüksəkliyi ələ keçirmək üçün hücuma hazırlaşdı. Altmış nəfərdən ibarət döyüşçülərdən iyirmi nəfəri atəşdəstək üçün ayrıldı. Qalan qırx nəfər isə hərəsində 20 nəfər olmaqla iki qrupa bölündü. Bir qrup "Vışka" istiqamətində, digər qrup isə yüksəklik istiqamətində hücuma başladı. Elyar Vəliyev "Vışka" istiqamətində hücuma keçən qrupun tərkibində döyüşürdü.

Elə bu zaman başlayan yağış döyüş vəziyyətini daha da çətinləşdirdi. Düşmən iri çaplı plemyotlardan atəş açmağa başlamışdı. Buna baxmayaraq taborun döyüşçüləri yuxarı istiqamətə, "Vışka"ya və yüksəkliyə doğru qalxmağa davam edirdilər. Yağan yağışın yeri palçıq və sürüşkən etməsi irəliləməyi daha da cətinləşdirirdi. İslanmış və palçığa batmış paltarlar artıq döyüşçülərə ağırlıq edirdi. Bu da onların hərəkətini ləngidirdi. Bir-iki metrə yuxarı qalxa bilənlər islanmış, palçığa bulaşmış paltarın və üzərlərindəki yükün ağırlığından yenidən aşağıya doğru sürüşürdülər. Lakin tabor inadla irəliləyirdi. Nə yağan yağış, nə düşmən tərəfindən yağdırılan güllə yağışı onların əzmini qıra bilmədi. Nəhayət, düşmən qüvvələri hücuma tab gətirə bilməyərək buradakı mövqelərindən də geri çəkilməyə başladılar.

Döyüşlərdə qəhrəmancasına həlak olan və yaralanan döyüşçülərin təxliyə edilməsinə başlandı. 1-ci tabor bu döyüşlərdən 2 şəhid, 9 yaralı ilə çıxdı. Kontuziya almasına baxmayaraq döyüşü sona kimi davam etdirən Elyar döyüş yoldaşlarının israr etməsinə baxmayaraq təxliyə olunmaqdan qəti imtina edərək, döyüşü davam etdirəcəyini söylədi. İsrar edən döyüş yoldaşlarına onun son cavabı isə belə oldu:

-Narahat olmayın, məndə heç bir şey yoxdur, özümü yaxşı hiss edirəm. İsrar etməyin, mən bundan sonra da sizinlə birlikdə döyüşlərə qatılacam. Siz gö-

rəcəksiz, mən yaralanmayacam. Şəhid olsam da elə düşmənin mənə dəyən ilk gülləsindən şəhid olacam.

Artıq söhbət bitmişdi. Odur ki, Elyarın xasiyyətinə bələd olan döyüş dostları daha israr etmədilər.

Oktyabırın 2-dən başlayan yağış hələ də kəsmək bilmirdi. Ayın 2-dən göstərilən mövqelərə doğru irəliləyən qruplar yalnız oktyabrın 3-ü, axşam bu mövqelərə çata bildi.

Yenə düşmən həm canlı qüvvə, həm də ağır çaplı silahlar cəhətdən üstün idi. Mövqe üstünlüyü yenə də düşmən tərəfdə idi.

Yenidən qanlı döyüşlər başladı. 1-ci tabor iki qrupa ayrılaraq çox çətin döyüşə girmişdi. Dayanmadan yağan yağış da bir yandan döyüşü çətinləşdirirdi. Döyüşçülərin islanmış, palçığa batmış geyimlərinin onların sürətlə, cəld hərəkət etməsinə mane olması bir yana, artıq islanmış silahlardan atəş açmaq da çətinləşmişdi. Buna baxmayaraq onlar geri çəkilmir, aramsız yağan yağış altında üç gün idi ki, inadla döyüşü davam etdirirdilər. Bu əzmin nəticəsində yüksəklik istiqamətində döyüşən qrup bir həmlə ilə yüksəkliyi götürə bildi. Elyarın da tərkibində döyüşdüyü digər qrup da artıq "Vışka"ya yaxınlaşmışdı. Onlar da çətin gedən döyüşlərin sonunda nəhayət, "Vışka" yerləşən ərazini düşmən qüvvələrindən tam təmizləyə bildilər.

Artıq oktyabr ayının 4-də çox çətin gedən döyüş nəticəsində alınan mövqelər digər qoşun növünə təh-

vil vermək üçün gözləyən taborun döyüşçüləri yorğunluğa, döyüş yoldaşlarının yaralanmasına və şəhid olmasına baxmayaraq Cəbrayılın "Vışka"sı deyilən strateji əhəmiyyətli ərazisində verilən tapşırığın yerinə yetirilməsinin sevincini yaşayır, düşmən üzərindəki qələbələrini qeyd edirdilər.

Bunu mütləq telefonun yaddaşına köçürmək lazımdır, - deyərək Şəhriyar telefonunu çıxarıb çəkiliş aparmağa başladı.

Bunu görən Sübhan:

-Çək, Şəhriyar, çək! Bunlar bizim ordunun canavarlarıdır!

Şəhriyar isə çəkiliş apara-apara bir-bir döyüş yoldaşlarının adlarını saymağa başladı:

- Sağda baş leytinant Qasımov, Vəliyev Elyar, Cəbrayılov Sübhan, Qaflanov, İsmayılov Camal, Nəvai, baş leytinant Allahverdiyev, Abbasbəyli, Qəmbərli, Əzizov, Bayramov, Məmmədli, Atayev, Həsənov, Əhmədov, Əliyev Kərim, Məmmədov, Kərimov Kənan, Məmmədov Şamil, Tarverdiyev Şəhruz, Cəfərov Sərxan.

Döyüşçülərin adlarını sayandan sonra Şəhriyar sonda bir təkbir də gətirdi:

-Allahu əkbər!

Ürəklərində böyük iman, inam daşıyan bütün döyüşçülər də onun səsinə səs verdilər.

-Bu da Cəbrayılın "Vışka"sıdır. Cəbrayılı almışıq!

Sonra Şəhriyar telefonun kamerasını uzaqda görünən Cəbrayılın mərkəzinə tərəf çevirərək əlavə etdi:

-Bu da Cəbrayıl şəhəridi. Kameraya solğun düşsə də biz artıq şəhəri görürük. Cəbrayıl da bizdədir!

## RİSKLİ ADDIM

Bu günə kimi dayanmadan böyük bacarıqla, qəhrəmanlıqla döyüşən 1-ci taborun döyüşçüləri azad etdikləri əraziləri digər hərbi qruplara təhvil verdikdən sonra oktyabrın 5-ində arxa mövqeyə keçdilər. Məqsəd həm təminatla təchiz olunmaq, həm də üç gün ara vermədən yağan yağış nəticəsində suya, palçığa batmış paltarlarını qurutmaq və imkan olarsa dincəlmək idi. Döyüşçülərin ərzaq ehtiyatı da, demək olar ki, qalmamışdı. Hər kəs çantasından yeməyə nə isə axtarırdı. Kim nə tapırdısa, ortaya qoyurdu. Soyuq havada bir az isinmək üçün bir neçə gənc döyüşçü cəld hərəkətlə ətrafdakı ağac qırıqlarından, çör-çöpdən ocaq qaladılar. Kimisi paltarını qurutmaq, kimi əlini isitmək istəyi ilə alova yaxın oturmağa başlamışdılar. Döyüşçülər böyük həvəslə çay qaynadırdılar. Təzə dəmlənmiş çay dayanmadan döyü-

şən xüsusi təyinatlıların yorğunluğunu azacıq da olsa çıxaracaqdı.

-Çay kimi heç bir içki adamı sakitləşdirmir, yorğunluğunu çıxartmır, - deyə Sübhan dilləndi.

-Elədir, bizim tərəfin içkisi elə çaydır, - deyərək Elyar cavab verdi. Adam hərdən ev xörəyi, çay süfrəsi istəyir. Düzdür, biz artıq belə süfrələrə yadırğamışıq.

- Hə Elyar, düz deyirsən, - Sübhan əlavə etdi.

-İnşallah, o günlər də gələr. Az qalıb. Düşmənin artıq belini qırmışıq. Bu müharibə qurtarsın, evdə, rahat süfrə arxasında da otURarıq. Onda bu çətin günlərimizi yada salarıq, hansı döyüş yollarından keçdiyimizi yaxınlarımıza, dost-tanışlara danışarıq.

-İnşallah, - ətrafda əyləşən əsgərlər də yerbəyerdən səsləndilər.

Sübhan isə əlavə etdi:

-Yeyib-içmək demişkən, ərzağımız tükənmək üzrədir. Arxadan da ərzaq təminatı gətirmək get-gedə çətinləşir. Belə getsə ağır olacaq. Görəsən bizə təminat çatdıra biləcəklərmi?

Elyar:

-Görək necə olacaq. Amma biz nəyin bahasına olursa-olsun irəliləməliyik. Bir-iki günü birtəhər dözmək olar.

Az da olsa yorğunluğunu atan döyüşçülər verilən tapşırığı yerinə yetirmək üçün gecə saat 12:00 -da yenidən irəliləməyə başladılar.

Bir yandan arası kəsilməyən şiddətli döyüşlər, bir yandan yorğunluq, bir yandan aclıq artıq neçə

gün dayanmadan irəliləyən qrupun döyüşçülərini gücdən salmışdı. Bir çıxış yolu tapmaq lazım idi. Yoxsa çətin olacaqdı.

Vəziyyəti belə görən Elyar komandanlıqla rabitə əlaqəsinə çıxaraq erməni hərbçilərinin yerləşdiyi mövqelərin sağını, solunu təmizləyək, ərzaq götürmək üçün icazə verilməsini istədi. Komandanlığın cavabı isə belə oldu:

-Böyük riskdi. İcazə verə bilmərəm. Ərzağa görə itkiyə yol verə bilmərəm.

-Amma hələ ki, başqa çıxış yolu yoxdur, komandir.

-Çox risklidir.

Elyar isə riskli olsa da təklifində israrlı idi.

-Komandir, icazə verin. Gerisini isə mənə buraxın.

-Mən nə səni, nə də digər döyüş yoldaşlarını təhlükəyə ata bilmərəm.

-Ərzaq təminatı olmadan nə qədər davam gətirmək olar? Axı döyüşmək üçün güc lazımdır. Bəlkə neçə gün ərzaq gətirmək mümkün olmadı? Onda nə olsun? Artıq üç gündür döyüşçülər acdır.

-Yenə deyirəm, böyük riskdir. Hər tərəf düşmən qüvvələri ilə doludur. Onlar fürsət gözləyir.

Elyar daha bir söz deməyərək susdu.

Artıq hava qaralmış, gecə düşmüşdü. O, heç kimə bir söz demədən sakitcə düşmənin mövqelǝndiyi istiqamətə tərəf yollandı. "Tənha canavar" yenə təkbaşına ova çıxmışdı. Sakitcə düşmən mövqeyinə sızan Elyar bir qədər ətrafı dinlədikdən sonra düşmən sən-

gərinə tərəf irəliləməyə başladı. Gecə olmasına baxmayaraq Elyarın iti gözləri ətrafı yaxşı seçirdi. Elyar bir az qabaqda, çox da dərin olmayan səngərdə tərpənən insan siluetindən yaxınlıqda erməni hərbçilərinin olduğunu yəqin etdi. Yenə bəbir çəldliyi ilə düşmənin başı üzərini aldı. Güclü əlləriylə bir anda düşmənin boğazından tutaraq var gücü ilə sıxmağa başladı. Düşmən çırpınaraq onun əlindən qurtarmağa cəhd etsə də, bunu bacara bilmədi. Get-gedə düşmənin əlləri boşalaraq yanına düşdü. Elyar onun artıq nəfəs almadığına əmin olduqdan sonra əlini onun boğazınından çəkdi. Ölmüş ermənin hərbi formasını çəld çıxararaq əyninə geyindi. Elyar yenidən səngərlə irəliləməyə başladı. O, gecənin səssizliyində ətrafa diqqət kəsilmişdi. Nəhayət, düşmənin ərzaq təminatının yerləşdiyi əraziyə çatdı. Aralıda ərzaq-təminat maşınının dayanmışdı. İri addımlarla maşına tərəf getdi. Elyar yaxınlaşanda düşmən hərbçisinin maşının yanında dayandığını gördü. Nə baş verdiyini anlamağa imkan verməyərək çəld hərəkətlə əlindəki döyüş bıçağını onun sinəsinə endirdi. Düşmən müvazinətini itirib yerə yıxıldı. O, Elyarın onun ürək nahiyəsinə endirdiyi zərbədən həmin anda ölmüşdü.

Elyar maşının yük yerini açaraq gözdən keçirdi. Yük yerinin ərzaqla dolu olduğunu görən kimi vaxt itirmədəm kabinəyə qalxıb maşını işə saldı. Onun idarə etdiyi maşın gecənin qaranlığını yararaq irəliləyirdi. Yerləşdikləri mövqeyə az qalırdı. Gecənin qa-

ranlığı olsa da koordinatları doğru təyin edən Elyar artıq qrupun yerləşdiyi mövqeyə yaxınlaşırdı.

Uzaqdan maşın səsini eşidən döyüşçülər səsə diqqət kəsildilər. Elyarın aralarında olmadığını görən Sübhan:

-Diqqətli olun, deyəsən, yenə "Tənha canavar" ova çıxıb. Ərzaq gətirməyə icazə verilməsi üçün çox israr edirdi. Gələn o da ola bilər. Yenə diqqəti əldən verməyin. Düşmən də çox uzaqda deyil.

Kamaz yaxınlaşanda erməni hərbi maşını olduğu, maşını idarə edənin də erməni hərbi geyimində olduğunu görən qrupun döyüşçüləri silahlarını maşına doğru tuşladılar. Bunu görən Elyar tez maşını saxlayaraq, başını maşının kabinəsinin pəncərəsindən çıxararaq:

-Mənəm, atmayın, - deyə səsləndi.

Maşına yaxınlaşan Sübhan:

-Yenə nə oyun çıxarmısan?, - deyərək Elyardan zarafatyana soruşdu.

-Düşmənlərin anasını ağlatmışam. Üstəlik bir Kamaz ərzaq da gətirmişəm. Təminat yolunu bağlamaqla deyil ki. Qoy onlar yolu bağlasınlar, biz də təminat üçün lazım olan ərzağı onların elə özündən gətirərik. Yeyib-içib cana gəlmək lazımdır ki, daha çox düşmən qanı tökə bilək.

-Daha sənə mənim sözüm yoxdur! Qəhrəmansan ki, qəhrəman!

Bunu deyib, Sübhan əlini Elyarın çiyninə qoyaraq fəxrlə onu bir daha süzdü:

-Belə cəsur, qorxmaz döyüşçüləri olan Azərbaycan Ordusunun qarşısında indi görək düşmən necə dayanacaq!

Bütün döyüş dostları onların ətrafında cəmləndi.

Elyar üzünü onlara tutaraq:

-Uşaqlar, gəlin ərzaqlardan boşaldaq. Vaxt itirmədən yeyib enerji əldə etmək, güc toplamaq lazımdır. Qarşıda hələ bizi çətin döyüşlər gözləyir. Maşın ərzaqla doludur. Yaxınlıqdakı ordu bölmələrinin yerləşdiyi mövqelərə də yəqin ki, neçə gündür təminat çatdırıla bilmir. Onlara da ərzaq lazımdır. Hamımız təminat yollarının hələ ki, çox təhlükəli olmasını bilirik. Komandanlığa xəbər verək.

Bu hadisədən xəbər tutan komandanlıq da Elyar Vəliyevin  təkbaşına riskli addım ataraq belə bir cəsarət, igidlik göstərərək  döyüşçüləri ərzaqla təmin etməsini yüksək qiymətləndirdi.

# NÖVBƏTİ TAPŞIRIQ : XOCAVƏNDƏ SIZMAQ

Azərbaycan Ordusunun döyüş bölmələri kalon şəklində Xocavənd istiqamətində hərəkətə başladılar. Məqsəd verilən tapşırığı yerinə yetirmək, Xocavəndə sızmaq idi. Elyarın da daxil olduğu 1-ci taborun əlli nəfər döyüşçüsündən təşkil edilən qrupu da bu istiqamətdə irəliləyən hərbi qüvvələr arasında idi. Kalon Horadiz seysmik stansiyasına yaxınlaşırdı. Kapitan İsmayılovun taboru artıq bu mövqedən düşmənə qarşı döyüşməkdəydi. 1-ci tabor ora çatana kimi düşmənin həm canlı qüvvəsinin, həm silah-sursatının xeyli hissəsi məhv edilmişdi. Sıradan çıxarılan düşmən tankların sayı isə on iki idı. Azərbaycan Ordusunun döyüşçüləri artıq bu ərazilərin düşməndən təmizlənməsini qeyd edirdilər. Bu qələbə də neçə-neçə şəhid və yaralı bahasına başa gəlmişdi.

Oktyabrın 4-ü və 5-i tarixində artıq cənub istiqamətində düşmən cəbhəsi tam yarıldığı üçün düşmən təşvişə düşmüşdü. Cəbrayıl azad olunduqdan sonra düşmən qüvvələri Azərbaycan Ordu Birləşmələrinin qarşısını almaq məqsədilə on beş minlik ordu, tank briqadası və yüzlərlə silahlı qruplaşma ilə oktyabrın 6-da cənub istiqamətdə irimiqyaslı əks hücuma keçdilər. Düşmənin bu hücumda məqsədi cəbhəni yarıb irəliləyən Azərbaycan Ordusununun qruplaşmalarına cinahdan zərbə endirərək qarşısını kəsib mühasi-

rəyə almaqla Şərqə doğru irəliləyərək özlərinin təhlükəsizlik kəməri dedikləri əraziləri daha da genişləndirmək idi. Lakin bu istiqamətdə üç gün davam edən döyüşlərdə düşmən məqsədinə nail ola bilmədi. Əksinə ordusunun ən döyüşkən hissələri Azərbaycan Ordusunun bu cəbhədə döyüşən hissələri tərəfindən darmadağın edildi. Bu əhəmiyyətli döyüşdən sonra Azərbaycan  Ordusunun burada yerləşən korpusları, Xüsusi Təyinatlılar da daxil olmaqla Arazboyu istiqamətdən geniş hücuma keçdi. Düşmən əlində olan bəlli nöqtələr, yüksəkliklər ələ keçirilir, ordumuz bu istiqamətdə də sürətlə irəliləyirdi. Döyüş gedən bu ərazidən geniş sızma əməliyyatlarını icra etmək üçün Arazboyu ərazilərdən keçməklə Hadrut istiqamətində hərəkət edən 1-ci tabor düşmənin xəbəri olmadan onların yerləşdikləri mövqelərdən keçməyi bacarmışdılar. Hətta dağın üstündə, irəliləyən qrupun yüz metrliyində yerləşən düşmənin minamyot manqası da onların yaxınlığından keçən 1-ci tabordan xəbər tuta bilməmişdi. Onlar, hətta düşmən səngərinin içindən keçib getmişdi. Düşmənin döyüş səngərindən xüsusi təyinatlıların hiss edilmədən, səssiz keçidi haqqında dedikləri sözlər buna ən tutarlı sübut idi: "Azərbaycanın Xüsusi Təyinatlıları elə səssiz gəlirlər ki, bir də baxırıq başımızın üstündədirlər".

Buradan keçməyi bacaran 1-ci taborun döyüşçüləri verilən tapşırığı icra etmək üçün inamla irəliləyirdi.

Müharibə başlayan gündən bu günə kimi ağır döyüşlərdən keçməsinə baxmayaraq cəmi üç şəhid verən, dayanmadan hücum əməliyyatları keçirən, verilən bütün tapşırıqları yerinə yetirən 1-ci taborun qəhrəmanlığı haqqında artıq yuxarı komandanlığa da məruzə edilmişdi.

Kalon verilən tapşırığı yerinə yetirmək üçün yenidən təyin olunmuş istiqamətə-Xocavəndin dağ yüksəklikləri istiqamətinə doğru irəliləməyə başladı. Məqsəd bu yüksəklikləri aşıb Xocavəndə sızmaq idi. 1-ci taborun döyüşçüləri də bu istiqamətdə irəliləyən kolonla birlikdə dolama yollarllarla düşmən mövqelərinə doğru addımlamaqdaydı.

Artıq gecə düşmüşdü. Saat 22:00 olardı. Ayın işığı ətrafı az da olsa işıqlandırırdı. Ayın işığında silueti görünən məzar daşları bu ərazinin qəbiristanlıq olmasından xəbər verirdi. Ətraf isə meşəlik ərazi idi. Kalon həmin tərəfə istiqamət aldı. Gecənin qaranlığında taboru ilə birlikdə öndə yoxuşa doğru irəliləyən mayor Gündüz Səfərlinin ayağı birdən məzarlardan birinin baş daşına söykənərək yatmış erməni əsgərinə toxundu. Cəld tərpənən mayor anındaca düşməni zərərsizləşdirdi. Açılan atəş səsinə düşmən duyuq düşdü. Bir anda atışma başladı. Qarşı tərəfdən başlayan intensiv atəşdən yayınmaq üçün irəliləyən 500-600 nəfərlik kalonun arxada gələn hissəsi gözləyərək sabit şəkildə yerə oturdu. Bu zaman öndə olanlar isə atəşi davam etdirirdilər. 1-ci taborun

döyüşçüləri də onlara qoşuldu. Elyar yenə də bir qrup döyüş yoldaşları ilə hücum qrupunda düşmənə qarşı mübarizəyə qatılmışdı. Düşmən əsgərlərinin hətta köhnə qəbirlərin içinə girib gizlənməsi, yəni səngər kimi istifadə etməsi belə Azərbaycanın qəhrəman döyüşçüləri tərəfindən onların aşkarlanıb məhv edilməsinin qarşısını ala bilmədi. Bu döyüşdə də yenə Elyar, Camal, Sübhan, Şəhriyar fərqlənərək düşmənə göz açmağa imkan vermədilər. Azərbaycan Ordusunun qarşısında tab gətirməyən düşmən qüvvələri səhərə yaxın silah-sursatını belə ataraq qaçmağa başlamışdılar.

Qarşı tərəf susdurulandan sonra uzun məsafə qət edən, həm də qarşısına çıxan düşmən qüvvələri ilə saatlarla vuruşan kalon yemək, dincəlmək üçün dayanmışdı. Hər kəs çantasında qalan ərzağı, suyu çıxararaq, yerdə əyləşirdi. Taborun snayperi Rüstəm də digərləri kimi fürsətdən istifadə edərək çantasında olan qatılaşdırılmış südü yemək üçün çıxarmaq istəyəndə südün çantaya dağıldığını gördü. Südün dağılması ona çox təəccüblü gəldi. Ağzı bağlı olan qabdan süd necə dağıla bilərdi?

Qatılaşdırılmış südün qabını çıxaranda güllənin qabın altından keçərək üstündən çıxdığını gördü. Onun dağılmış südü əlində olan çörəyə batıraraq tələsik yeməsi döyüş yoldaşlarının gülüşünə səbəb oldu. Süd dağılsa da, Rüstəmin bəxti gətirmişdi. Düşmən gülləsi onu deyil, qabı dəlib keçmişdi.

Bu mənzərəni görən Elyar əli ilə Rüstəmin kürəyinə vura-vura söylədi:

-Allah özü səni qoruyub, Rüstəm!

-Elədir.

Doğrudan da, Azərbaycan xalqının dilindən, qəlbindən göylərə yol alan dualar və bu duaları qəbul edən Allahın lütfü Ordumuzun döyüşçülərini çox vaxt hifz edirdi.

**2015-də XOCALIDA**

Verilən tapşırığı yerinə yetirmək üçün Azərbaycanın hərbi qüvvələri ilə birlikdə irəliləyən Elyar bu ərazilərin yaxınlığında yerləşən, hələ ki düşmən tapdağından azad edilməyən Xocalıya dostları ilə birlikdə necə sızdıqlarını xatırlayaraq üzünü onunla yanaşı irəliləyən Camala tutdu:

-Camal, Xocalı aeroportunun eskiz xəritəsini gətirməyimiz yadındadır? Beş il əvvəl Xocalıya necə sızmışdıq bir biz bilirik. İnşallah, Xocalını da azad edərik. Qoy Xocavənddə düşmənlərin işini bitirək, Xocalıya da növbə çatacaq. Separatçı düşmənlər vax-

tilə Xocalıda törətdikləri soyqrımının cəzasını mütləq alacaqlar.

-Əlbəttə, yadımdadır. Sən, mən, Sübhan, Şəhriyar düşmənin xəbəri olmadan bir həftə o yerləri gəzib dolaşdıq, verilən kəşfiyyat tapşırığını müvəffəqiyyətlə yerinə yetirdik. İllər öncəki fəaliyyətimiz bu günlərə zəmin hazırlamaq üçün idi. Şükürlər olsun, bu gün işğal altında olan kəndlərimizi, şəhərlərimizi bir-bir düşmən işğalından azad edirik, arzularımız reallaşır.

-Elədir, Camal, çəkilən zəhmət bəhrəsini veməli idi. Bu gün bizim torpaqlarımızı addım-addım işğaldan azad edərək irəliləməyimiz illərlə yorulmadan, ağır zəhmət sayəsində aparılan düzgün hərbi taktiki gedişlərin, kəşfiyyat əməliyyatlarının nəticəsidir.

Söhbətə qrupun tərkibində irəliləyən Sübhanla Şəhriyar da qoşuldu. Dostlar öz aralarında bu kəşfiyyat əməliyyatını xatırladıqca çox məmnun görünürdülər. Dörd dostun birlikdə getdiyi kəşfiyyat əməliyyatı isə belə baş tutmuşdu:

Kəşfiyyat qrupunun komandanlığı tərəfindən baş gizir İsmayılov Camal, baş gizir Cəbrayılov Sübhan, gizir Vəliyev Elyar, gizir Quliyev Şəhriyara işğal altında olan Xocalı aeroportunun eskiz xəritəsinini gətirmək üçün tapşırığı verildi.

İşğaldan sonra Azərbaycan tərəfi Xocalı hava limanından uçuşların keçirilməsinə imkan verməsə də, düşmən tərəf aeroportu yeniləmək və uçuşa hazır vəziyyətə gətirmək istiqamətində fəaliyyətini davam

etdirirdi. Nəhayət, separatçı qüvvələr 2012-ci ildə yenilənmiş Xocalı aeroportundan uçuşları bərpa edəcəyini bəyan edən zaman yenidən Azərbaycan Respublikasının dövlət səviyyəsində sərt etirazı ilə qarşılaşdılar. Bunu görən beynəlxalq qurumlar da bu addımın Qarabağ münaqişəsinin miqyasının genişlənməsinə səbəb olacağını qeyd edərək bunun yolverilməz olduğunu bəyan etdilər. Təbii ki, ölkəmiz təkcə sərt etirazla kifayətlənə bilməzdi. Bu yönümdə iş davam etdirilməli idi. Kəşfiyyat xarakterli tapşırıqlar da bu fəaliyyətin bir hissəsi idi. Belə kəşfiyyat xarakterli tapşırıqlardan birinin Elyar və onun üç kəşfiyyatçı dostuna tapşırılması onlara göstərilən böyük etimaddan xəbər verirdi. Kəşfiyyatçı dostlar da bu etimaddan çox məmnun görünürdü. Dostlar tapşırığı qəbul edərək komandanlıq qarşısında hərbi salam verdilər:

-AZƏRBAYCAN RESPUBLİKASINA XİDMƏT EDİRƏM!

Hazırlıqlar tamamlandıqdan sonra dörd dost verilən kəşfiyyat tapşırığını yerinə yetirmək üçün yola çıxdılar. Onlar düşmənin işğal altında saxladığı əraziyə sızaraq fəaliyyətə keçməli idilər. Camal, Elyar, Sübhan və Şəhriyar bir həftə müddətində müşahidələr apararaq Xocalı aeroportunun bütün giriş-çıxış nöqtələrini, idarəedici və ötürücü qurğularını, lazım gələrsə buraya hansı istiqamətdən daxil olma yolları, hansı tərəfdən hərbi qüvvələrin, hərbi silah və sur-

satların daxil ola biləcəyi haqda dolğun məlumat toplamalı idilər.

Kəşfiyyat tapşırığı üçün yollanan dostlar artıq Xocalı şəhərinin yerləşdiyi əraziyə yaxınlaşmışdılar. Dörd dost bundan sonra necə hərəkət edəcəklərini öz aralarında müzakirə edərək, gedəcəkləri istiqamətin koordinatlarını təyin edərək iki qrup şəklində irəliləməyi qərara aldılar. Elyarla Camal bir istiqamətdən, Sübhanla Şəhriyar isə digər istiqamətdən aeroport ərazisinə yaxınlaşacaqdılar. Kəşfiyyatçılar aşkarlanmamaq üçün əsasən gecələr hərəkət edirdilər. Artıq beşinci gün idi ki, düşmən işğalı altında olan ərazilərdə idilər. Yenə gecənin düşməsini gözləyirdilər. Alatoranlıqda hava limanının yerləşdiyi ərazini əhatə edən dağların siluetinin yaratdığı mənzərə bir başqa idi. Düşmən işğalında olan Xocalını əhatə edən dağlar sanki öz əzəli sakinlərinin həsrətiylə ətrafa boylanır, azad olunacaqları günü gözləyirdilər.

Elyar mövqeləndikləri dağın yüksəkliyindən uzaqgörmə cihazı vasitəsilə havanın alatoranlığında artıq işıqlandırma sisteminin aydınlatdığı hava limanının ərazisini nəzərdən keçirməyə başladı. Dağlarla əhatə olunmuş geniş ərazidə yerləşən aeroport binasının üzərində qondarma "Artsax Respublikası"nın bayrağı dalğalanırdı. Ön tərəfdən görünən binaya baxanda ilk baxışdan xunta rejiminin təsis etdiyi qondarma respublikanın bayrağındakı rəmzə oxşar arxitektura elementlərinin işləndiyinini aydın gör-

mək olurdu. Əlbəttə, bütün bunlar kəşfiyyatçılarımızı qəzəbləndirməyə bilməzdi. Amma məqsədə çatmaq üçün soyuqqanlı və səbrli olmaq lazım idi. Onsuz da gec-tez işğal altında qalan torpaqlarımız düşmən qüvvələrindən azad ediləcəkdi.

Camalla Elyar ön tərəfdən, Sübhanla Şəhriyar arxa tərəfdən aeroport binasını artıq müşahidə etməyə başlamışdılar. İlk baxışda hava limanının yaxşı təmir olunduğu nəzərə çarpırdı. Hələ 2012-ci ildə Yerevan-Xocalı reysinin istifadəyə veriləcəyi haqqında xam xəyalda olan Ermənistan rəsmləri üçün, əlbəttə, Xankəndi şəhərinin Şimal-Şərqindən on kilometr məsafədə, Xankəndi-Xocalı-Əsgəran quru yolunun üzərində yerləşən bu hava limanının əhəmiyyəti böyük idi. Vaxtilə həm Bakı, həm də Yerevandan mülkü əhalinin daşınması üçün istifadə edilən bu aeroportun münaqişə başlayan gündən əhəmiyyəti daha da artmışdı. Baxmayaraq ki, Xocalı aeroportu 1992-ci ilin fevral ayında erməni separatçıları tərəfindən işğal olunmuşdu, amma Azərbaycan Respublikasının israrlı təkidləri ilə nə Ermənistastan, nə də separatçı qüvvələr bu arzularına nail ola bilməmişdilər və bu günə kimi hava limanı istifadəsiz qalmışdı. Buna baxmayaraq ərazidə hava limanının əməkdaşları gözə dəyirdi. Binanın sol tərəfində isə qondarma respublikanın və Ermənistan Respublikasının bayraqları dalğalanırdı. Ərazisi 188,5 hektar olan, dəniz sə-

viyyəsindən 575 metr hündürlükdə yerləşən aeroport onların gözləri önündə idi.

Yəqin ki, nəzarət qurğusundan ətraf diqqətlə müşahidə edilirdi. Kəşfiyyatçılar son dərəcə ehtiyatla hərəkət etməli idilər. Camal üzünü Elyara tutdu:

-Elyar, gecə düşən kimi binaya yaxınlaşırıq. Mütləq məlumatları əldə etməliyik. Sübhanla Şəhriyar da işlərini bilirlər. Bir-iki günə işimizi bitirib ərazidən uzaqlaşmalıyıq.

-Darıxma, elə də olacaq. Kəşfiyyata gəldiyimiz birinci dəfə deyil ki?

-Elədir.

-Bu günə kimi bir çox məlumatlar əldə etmişik. Artıq düşmən qüvvələrinin yerləşdiyi koordinatlar, ətrafdakı mühüm obyektlər, məntəqələr, qurğular haqqında zəruri məlumatlar əlimizdədir. Tapşırığın çoxunu yerinə yetirmişik. Bir aeroport binası qalır. Onu da bu gecə həll edəcəyik.

Gecənin qaranlığında Elyarla Camal artıq aeroport binasına yaxınlaşmışdı. Onlar aeroportun eskiz xəritəsini hazırlamaq üçün əldə etdikləri məlumatları yalnız kağız üzərinə qoyulan nöqtələr vasitəsilə qeyd edirdilər. Bütün giriş-çıxışlar, qurğular barədə əldə etdikləri məlumatları da bu yolla qeyd edərək verilən tapşırıqları artıq tamamlamış oldular. Kəşfiyyatçılarımız aeroport ərazisindən heç bir iz qoymadan uzaqlaşdılar. Dörd dost əvvəldən sözləşdikləri yerdə görüşərək Xocalı ərazisini tərk etdilər.

Onlar lazım olan bütün məlumatları əldə edə bilmişdilər. Bircə nöqtələrlə qeyd etdikləri məlumatları xəritə şəklində işləyib yuxarı komandanlığa təqdim etmək qalırdı. Bu iş isə bir-iki gün vaxt aparacaqdı.

Nəhayət, dörd dostun birlikdə kəşfiyyat fəaliyyəti nəticəsində Xocalı aeroportunun eskiz lahiyəsi yuxarı komandanlığa təqdim olunmaq üçün hazır idi. 2170 metr uzunluqda, 45 metr enində uçuş enmə zolağı, iki sürmə yolu, bir perron və bir terminalı olan hava limanı haqqında əldə edilən vacib, hərbi əhəmiyyətli digər məlumatlar yuxarı komandanlığa təqdim olunduqdan sonra artıq kəşfiyyat əməliyyatı müvəffəqiyyətlə tamamlanmış sayılırdı. Kəşfiyyatçılarımızın bu əməliyyatı komandanlıq tərəfindən yüksək qiymətləndirilmişdi.

Bu gün işğal altında olan torpaqlarımızın azad edilməsi üçün aparılan savaşda növbəti döyüş əməliyyatı üçün irəliləyən kəşfiyyatçı döyüşçülərimizin xatırladıqları bu kəşfiyyat əməliyyatı da torpaqlarımızı işğaldan azad etmək üçün illərdir aparılan hazırlığın bir hissəsi idi.

## HADRUT UĞRUNDA DÖYÜŞ

Hadrut qəsəbəsi həm Qarabağ və ətraf ərazilərdə yerləşdirmiş işğalçı Ermənistan ordusu üçün, həm də düşmənin hərbi qüvvələri tərəfindən işğal altında saxlanılan torpaqlarımızı azad etmək üçün əks hücuma keçən Azərbaycan Ordusu üçün strateji mövqe cəhətdən böyük əhəmiyyətə malik çox vacib bir coğrafi ərazidə yerləşir. Hadruta sahiblənmək müharibənin taleyini həll edəcək qədər əhəmiyyətli idi. Odur ki, düşmən ordu qüvvələri nə olursa-olsun otuz ilə yaxın bir müddət ərzində yerləşib möhkəmləndiyi Hadrutu əldən vermək istəmir, Azərbaycan Ordusu isə nəyin bahasına olursa-olsun vaxt itirmədən Hadrutu azad etməyə çalışırdı. Hadrut nə qədər tez azad edilərsə, ordumuzun Şuşa və Laçın istiqamətinə irəliləməsi strateji baxımdan bir o qədər asan olacaqdı.

Hadrut qəsəbəsi hər tərəfdən dağlarla əhatə olunmuş bir ərazidə yerləşdiyindən, qəsəbəni əhatə edən dağ yüksəklikliklikləri təbii istehkam olaraq qəsəbəyə nəzarəti asanlaşdırırdı. Çox gözəl, səfalı təbiəti olan, dağlar arasında yerləşən Hadruta yüksəklikdən baxanda göz önündə əsrarəngiz mənzərə açılırdı. Yaşıllıqlar içində görünən çoxmərtəbəli binalar, fərdi yaşayış evləri düşmənin 30 ilə yaxın bir müddətdə burada çox möhkəmləndiyindən, nə vaxtsa Azərbaycan Ordusunun bu yerləri yenidən düşmənlərdən azad

edə biləcək fikrindən uzaq, arxayın yaşamalarından da xəbər verirdi.

Azərbaycan Ordusu oktyabrın 7-dən ağır artilleriyanın köməyi ilə Hadrut istiqamətində döyüşə başlamışdı. Artıq oktyabrın 9-da Azərbaycan Ordusunun qoşun bölmələri qəsəbə yaxınlığında yerləşən strateji əhəmiyyətli kəndləri və yüksəkliklərdən bir çoxunu düşmən qüvvələrindən təmizləyə bilmişdi. Buna baxmayaraq hər iki tərəfdən ziddiyyətli xəbərlər yayılmaqda idi. Hər iki tərəfdən qəsəbəyə nəzarət etdiyi barədə məlumatlar gəlirdi. Qəsəbənin hakim yüksəklikləri hələ də düşmən nəzarətində olsa da, Azərbaycanın xüsusi təyinatlıları artıq düşmənin müdafiə etdiyi mövqelərdən dərinliklərə sızaraq Hadruta daxil olmağa başlamışdılar. Digər qruplar isə cənub istiqamətdən Hadruta gələn yolları artıq nəzarətə götürmüşdülər. Bütün bunlara baxmayaraq düşmənin illərlə yerləşib möhkəmləndiyi Hadrutun coğrafi mövqeyi də qəsəbəni və ətrafında yerləşən yüksəklik və kəndlərin hamısını düşməndən tam təmizləməyə imkan vermirdi. Çünki, hələ də Hadrutu əhatə edən hakim yüksəkliklərlərdən düşmən əlində olanlar var idi. Və oradan maksimum hərbi güclərdən istifadə edərək fasiləsiz olaraq həm burada yerləşən aviasiya qurğusu vasitəsilə, həm tank əleyhinə vasitələrlə qəsəbəyə giriş nöqtələrini atəş altında saxlaya bilirdi. Hətta bu istiqamətdə irəliləyən Azərbaycan Ordusunun canlı qüvvələrinə də tank əleyhinə vasitələrdən

atəş açılırdı. İstər evlərdə, istərsə meşələrdə gizlənən düşmən koordinatları arxadakı artilleriya bölmələrinə ötürərək Azərbaycan hərbi qüvvələrinin irəliləməsinin qarşısını almasına yardım göstərirdilər. Azərbaycan Ordu Birləşmələrinə isə irəliləmək, Şuşaya gedən yolun kilid nöqtəsi olan Hadrutu düşmən qüvvələrindən təmizləmək tapşırığı verilmişdi .

Cəbrayıl rayon mərkəzini azad etdikdən sonra düşmən qüvvələrinin gözləntilərinin əksinə olaraq ordumuzun bu istiqamətdəki bölmələri Füzuliyə deyil, Hadruta doğru yönəldi. Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri də Hadrutu əhatə edən dağ silsiləsinin cənub istiqamətindəki yüksəklikləri ələ keçirmək məqsədilə azad edilən Daşkəsən kəndindən Hadruta sızma əməliyyatına başlamışdılar. Düşmən qüvvələri hələ də tərk etmədiyi yüksəklikdən həm Füzuliyə gedən yola və Füzulinin Alxanlı, Qaraxanbəyli kəndlərinə, həm də bir az solda yerləşən Qırmızı Bazar qəsəbəsinə, qəsəbənin alt tərəfində yerləşən Edilli, Axullu və digər kəndlərə nəzarət edə bilirdi. Gedən qanlı döyüşlər nəticəsində buradan sıxışdırılan düşmənlə, nəhayət, Edilli kəndində əlbəyaxa döyüşlər başlamışdı. 1-ci taborun burada olan qrupu da bu döyüşlərdə iştirak edirdi.

1-ci taborun döyüşçüləri özünə Edilli kəndinin yaxınlığında, avtomobil yolunun üst tərəfindəki yamacda mövqe seçdilər. Buradan yüksəkliyin ətəyindən keçən avtomobil yolu və düşmən bayrağının

rənglərilə rənglənmiş yol kənarındakı qaya parçası aydın görünürdü. Döyüşçülər hərə öz yerini aldı. Elyar, Sübhan, Camal, Rüstəm, Kərim və daha bir neçə döyüşçü sürünərək yüksəkliyin lap kənarına kimi gəldilər. Silahlarını hazır vəziyyətə gətirərək ətrafı müşahidə etməyə başladılar. Ön tərəfdən fasiləsiz atəş səsləri gəlirdi. Səslər get-gedə yaxınlaşırdı. Bunu görən Elyar üzünü döyüş yoldaşlarına tutaraq:

-Uşaqlar, hazır olun. Bu gedişlə bir-iki dəqiqəyə düşmən buranı da vuracaq.

Bunu deyib Elyar Kalaşnikov pulemyotunun arxasına keçib əli tətikdə hazır vəziyyətdə diqqətini ön tərəfə cəmlədi. Elə bu an aşağıdan, yol tərəfdən düşmənin canlı qüvvəsi göründü. Artıq göz görəcək məsafəyə qədər yaxınlaşmışdılar. Bunu görən Elyar döyüş yoldaşlarına səsləndi:

-Uşaqlar, dayanmayın, onların irəliləməsinə imkan vermək olmaz. Başladıq! - deyərək Elyar güclü qollarıyla silahı möhkəm tutaraq barmağını tətiyə sıxdı və qarşıdan gələn düşmənə tərəf atəş açmağa başladı. O, plemyotun sursat çantasındakı güllələr bitənə kimi barmağını silahının tətiyindən çəkmədi.

Xüsusi Təyinatlılarımız tərəfindən üzərlərinə odalov yağdırılaraq məhv edilən düşmən əsgərləri bir-bir torpağa düşürdü. Bunu görən qrupun döyüşçüləri daha da ruhlanır, daha inamla döyüşürdülər.

-Əhsən, sənə Elyar, leş kimi tökülüb qaldılar yolda. Uşaqlar, görürsüz necə dənləyirik bunları?! Axır-

larına çıxacağıq. Alçaqların izlərini də qazıyacağıq bu torpaqlardan, - deyərək Şəhriyar atəşə ara vermədən sevincək əlavə etdi. Digər döyüşçülər də inamla, ruh yüksəkliyi ilə döyüşü davam etdirirdilər.

Saatlarla fasiləsiz davam edən döyüş zamanı atılan mərmilərdən, açılan atəşlərdən yer od tutub yanır, dərin çuxurlar yaranırdı. Qrup itki verməyərək düşmənin canlı qüvvələrinə isə böyük itkilər yaşadaraq, onları geri oturtdular.

Nəhayət, bu ərazi də düşmən qüvvələrindən azad edildikdən sonra döyüşdə iştirak edən bölmələrin bir qismi Füzuli, Xüsusi Təyinatlılar isə Tuğ, Böyük Tağlar, Azıx istiqamətindən Qırmızı Bazara doğru hərəkətə keçdilər.

Oktyabrın 10-da düşmən tərəfi Azərbaycan hərbi qüvvələrinin cənubdan Hadruta hücumunu bəyan etdi. Həmin gün Cəbrayıl istiqamətindən də hərəkət edən Azərbaycan ordu birləşmələri şimaldan Hadruta daxil olmağa başlamışdı. Qəsəbə uğrunda qızğın döyüşlər gedirdi. Düşmən buradakı mövqelərini əldən verməmək üçün xeyli sayda canlı qüvvələrini və hərbi texnikasını burada cəmləşdirdiyindən irəliləmək çox çətin idi. Kəşfiyyat məlumatlarına görə, Hadrutda düşmənin böyük hərbi qüvvəsi yerləşmişdi. Belə ki, bu istiqamətdə düşmənin 1000- ə yaxın canlı qüvvəsi və çoxlu hərbi texnikası cəmləşmişdi. Bunu bilən Cəbrayılov Sübhan, İsmayılov Camal, Vəliyev Elyar, Quliyev Şəhriyar düşməni pusquya

salmaq üçün plan hazırladılar. Planda düşmənin rabitə sisteminə qoşulub, onların geri çəkilməsinə nail olmaq nəzərdə tutulurdu. Bu məqsədlə Camal İsmayılov əldə etdikləri erməni rabitə qurğusu vasitəsilə Azərbaycan Ordusunun hərbi hissələrinə qarşı döyüşən düşmən ordusunun rabitə sisteminə qoşularaq erməni dilində onlara mövqelərindən geri çəkilmək əmrini verdi. Bununla da düşmən komandanlığı burada cəmləşən hərbi qüvvələrin geri çəkilməsi əmrinin icrasına başladı. Bu fürsətdən istifadə edən 1-ci taborun döyüş-kəşfiyyat qrupu Hadrut qəsəbəsinin içərilərinə doğru sürətlə sızmağı bacardı. Dörd dostun birgə planladığı və baş gizir Camal İsmayılovun düşmənin rabitə sisteminə qoşularaq həyata keçirdiyi pusqu əməliyyatı baş tutmuşdu. Onların hərbi peşəkarlığı sayəsində hazırlanan və özləri tərəfindən yerinə yetirilən əməliyyatın bu istiqamətdə döyüşlərin Azərbaycan Ordusunun xeyirinə dəyişməsində müstəsna rolu oldu. Bu mövqelərin düşmən qüvvələrindən təmizlənməsi Azərbaycan Ordusunun Füzuli istiqamətinə doğru irəliləməsinə də münbit şərait yaratdı. Eyni zamanda ordumuzun Şuşa istiqamətində irəliləməsinə də yol açılmış oldu. Düşmən aldadıldığını başa düşəndə isə artıq gec idi. Düşmən əllərində yalnız döyüş silahı, bir də tank əleyhinə yaxın məsafə üçün RPQ-26, RPQ-7 silahları olan Azərbaycan Xüsusi Təyinatlılarına qarşı tankla, minamyotla, artilleriya ilə hücuma keçdi. Sayca və texnika

cəhətdən çox üstün olan düşmənlə Hadrutda döyüşlər dörd gün davam etdi. Xüsusi Təyinarlılar qruplara bölünərək, qəsəbənin içində təmizləmə əməliyyatına başlamışdılar. Qəsəbədə küçə, bina uğrunda döyüşlər gedirdi. Elyar və döyüş yoldaşları kiçik qruplara ayrılaraq qəsəbənin hər an hər hansı bir nöqtəsindən atəş gözlənilən küçələriylə irəliləyir, evlərə, binalara daxil olaraq orada gizlənən düşmənin canlı qüvvəsini məhv etmək üçün döyüşürdülər. Düşmən içərisində panika yaratmaq üçün bəzən küçələrdə, evlərin, binaların arasında yanğın hadisəsi imitasiya olunurdu. Yanğın çıxdığını görən düşmənin hansı istiqamətdə hərəkət edəcəkləri fikrində qərarsızlıq yaranır, düşmən çaş-baş düşür, mülkü əhali buranı tez tərk etməyə çalışırdı. Eiyar isə döyüşdüyü küçənin birində təkcə yanğın imitasiyası yaratmadı, hətta küçədə yerləşən otel binasını belə yandırdı.

Elyar apardıqları küçə döyüşlərində Xüsusi Təyinatlı həssaslığı ilə ətrafdakı hər bir kiçik hərəkət və dəyişikliyi belə nəzərdən qaçırmırdı. O, gecənin qaranlığında qarşıdakı yolun kənarında yerləşən bir binaya hərbçilərin girib-çıxdığını fərq etmişdi. Elyar vaxt itirmədən binaya yaxınlaşdı. Bina ilə onun dayandığı yeri aradakı yol ayırırdı. Binanın giriş qapısının yuxarı tərəfinə vurulmuş elektrik lampasından süzülən zəif işığın köməyilə lövhədəki yazını oxuya bildi və bu binanın otel binası olduğunu öyrəndi. Yolu keçmədən elə otellə üzbəüz özünə mövqe seçdi.

Yanında tank əleyhinə qumbara vardı. Qumbaranı silahının başlığına yerləşdirib vaxt itirmədən otel binasını nişan aldı. Tətiyi çəkməklə otel binasının alışıb-yanması bir oldu. Partlayış nəticəsində yanan binadan canlarını qurtarmaq üçün tələm-tələsik, çaşqınlıq içində çıxan sağ qalmış düşmən hərbçiləri isə artıq onun ovuna çevrildilər. Onların hər biri Elyarın açdığı atəşin qurbanı oldular. Oteldən daha səs-səda gəlmədiyinə əmin olduqdan sonra, o yolu keçərək binaya yaxınlaşdı. Otellə avtobus dayanacağı arasında qalan boşluq ərazidə gizlənərək, burada düşmən hərbçilərindən kimsənin sağ qalmadığına bir daha əmin olmaq üçün ətrafı xeyli dinlədi. Nə bir hərəkət, nə bir səs hiss etmədi. Daha sonra yenidən Hadrutun küçələrini dolaşaraq qəsəbəni düşmənlərdən təmizləmə əməliyyatınında bir döyüşçü kimi fəaliyyətinə davam etdi.

Hadrutun içində davam edən amansız döyüşlər üç gündən sonra nisbətən səngiməyə başlamışdı. Bu vəziyyətdən istifadə edən Elyar, Kərim, Ayar və Rüstəm də qrupun digər döyüşçüləri kimi axtarış məqsədilə yaxınlıqdakı evlərə daxil oldular. Evləri, həyətləri axtarmağa başladılar. Elyar üzünü dostlarına tutaraq:

-Uşaqlar, yaxşı-yaxşı axtarın. Bəlkə hələ ərzaq təminatı gətirmək mümkün olmadı. Yolları hələ ki, düşmən hərbi qüvvələri atəş altında saxlayırlar. Hamımıza qidalanmaq üçün ərzaq lazımdır.

Elyar və silahdaşları evləri, həyətləri bir-bir gəzdikcə əllərinə keçən ərzaqları toplamağa başladılar. Onlar zarafatlarından da qalmırdılar.

Kərimin səsi eşidildi:

-Kompotlara, şorabalara baxın burda. Banka-banka hazırlayıb yığıblar.

-Rüstəm, hələ burdakı çaxıra, "samoqon"a bax, - deyərək Ayar söhbətə qoşuldu.

-Ayar, içki olmasa da olar. Əsas gündəlik qidalanma üçün yararlı olan ərzaqları götür, - deyə Elyar əlavə etdi.

-Görün, hələ burda necə konservlər tapmışam, - deyən Kərimin yenidən qonşu həyətdən səsi gəldi.

-Burada da xeyli yararlı ərzaq var. Badımcan ikrası, bişmiş pomidorla dolu bankalar. Hələ çay, qənd, konfet, şirniyyatları demirəm.

Elyar bunu deyib bankaları, əlinə keçən digər ərzaqları cəld hərəkətlə bir yerə toplamağa başladı.

-Uşaqlar, bir az cəld olun, su ehtiyatımız da azdır. Bacardıqca su da götürək. Siz ərzaqları bir yerə toplayın, mən bir ətrafı dolaşım, görüm bunları aparmağa nə tapıram, - Elyar bu sözləri söləyib ətrafı dolaşmağa başladı. Xeyli dolaşandan sonra yolun kənarında bir Qaz-53 maşınının qaldığını görən Elyar maşını işə salaraq ərzaq topladıqları evlərin yaxınlığına gətirdi. Dostlar vaxt itirmədən evlərdən topladıqları ərzaqları maşına yüklədilər.

-Uşaqlar, tez qalxın maşına, tərpənmək lazımdır, - deyərək, Elyar maşını işə saldı. Maşını idarə edən Elyar döyüş yoldaşlarının da içində olduğu ərzaq dolu maşını şəxsi heyətin yanına kimi gətirib çıxara bildi. Gətirdikləri ərzağı təhvil verəndən sonra, Elyar yenidən Qaz-53-ü işə saldı. Uşaqlar, mənimlə kim getmək istəyir? Düşmənin yoldan istifadəsinin qarşısını almaq üçün maşını aparıb yolda yandırmaq lazımdır.

Bunu eşidən Ayar cəld maşının kabinəsinə qalxaraq Elyarın yanında əyləşdi. Onlar maşını gəritib Hadrutun erməni qüvvələrinin mövqeləndiyi istiqamətə gedən yolda saxlayaraq düşmənə məxsus maşınların bu yoldan keçməsinin qarşısını almaq üçün yandırdılar.

Hadrutun mərkəzi hissəsi azad edildikdən sonra yeni bir tapşırıq gəldi.

Bu istiqamətdə strateji əhəmiyyət kəsb edən Füzuli şəhəri və Hadrut qəsəbəsi arasında yerləşən Ərgünəş dağı və Məngələnata yüksəkliyi də nəzarətə götürülməlidir. Bu mövqelər nəzarətə götürülərsə, Füzuli rayonunun mərkəzinə doğru irəliləmək daha az itki ilə və daha tez başa gələcəkdi. Həm də Hadrut qəsəbəsində möhkəmlənmək olacaqdı. Odur ki, Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri və digər qruplar tərəfindən Ərgünəş dağı və Məngələnata yüksəkliyi uğrunda döyüş əməliyyatları başlanmışdı.

Qrup yenə də verilən tapşırığı icra etmək üçün bütün döyüş gücünü səfərbər edərək deyilən istiqamətə yollandı. Dağlarda döyüşün çətinliyi Xüsusi Təyinatlı Qüvvələr üçün maneə deyildi. Bütün döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirən 1-ci taborun döyüşçülərini Hadrutun mərkəzinin, bir çox ətraf kəndlərinin və bir neçə ətraf yüksəkliklərin düşməndən azad edilməsi daha da ruhlandırmışdı. Döyüşçülər inamla irəliləyirdi. Hələ də Ərgünəş dağında və Məngələnata yüksəkliyində mövqelərini əldən verməyən düşmən bu yüksəkliklərdən aydın görünən Füzulinin mərkəzini nəzarətdə saxlaya bilirdi. Odur ki, Xüsusi Təyinatlıların bir qrupu Ərgünəş dağını, bir qrupu isə Məngələnata yüksəkliyini azad etmək üçün hərəkətə keçmişdi.

1-ci taborun döyüşçülərinə Ərgünəş dağını düşməndən azad etmək tapşırığı verilmişdi. Xüsusi Təyinatlıların digər qrupu isə Məngələnata yüksəkliyi istiqamətinə doğru hərəkətə keçdi.

Dağ cığırı ilə yüksəkliyə doğru irəliləyən 1-ci taborun döyüşçü qrupu saatlarla yol gəldikdən sonra nəhayət, düşmənin mövqeləndiyi əraziyə yaxınlaşdılar. Əlverişli yüksəklikdə yerləşən düşmən qüvvələrinə qarşı vuruşmaq asan olmayacaqdı. Buna baxmayaraq döyüşçülər bütün çətinliyi gözə almışdı. Hə olursa-olsun bura düşmən qüvvələrindən təmizlənməli idi. Yenə qrupun təcrübəli döyüşçüləri məsləhətləşərək mümkün qədər düşmən içinə sızmaq pla-

nı üzərində dayandılar. Yoxsa bura qaldırdıqları kiçik çaplı silahlarla açıq döyüşlə düşməni məhv etmək asan olmayacaqdı. Qrupun bir hissəsi düşmən içinə sızmaq üçün yüksəkliyə qalxmağa davam etdilər. Bir hissəsi isə yüksəkliyə yaxın mövqe seçərək gözləməyə başladılar.

-Getdik uşaqlar, - deyərək Camal düşmən içinə sızmaq üçün ayrılan qrupu ardınca apardı. Düşmən xəbər tutana kimi artıq xüsusi təyinatlılar onların arasında idi. Qrup düşmənə göz aşmağa imkan verməyərək döyüşə başladı. Elyar və yoldaşları düşmənlə əlbəyaxa döyüşürdülər. Camalın səsi eşidildi:

-Buradan çıxmağa imkan verməyin!

Elyar qarşılaşdığı bir neçə düşmən əsgərini döyüş bıçağı ilə məhv etdi. Çaşqınlıqla qaçıb canlarını qurtarmaq istəyənlər isə kiçik çaplı silahlardan açılan atəşlərə tuş gəlirdi. Mövqelərini tərk etməyə imkan tapan düşmən əsgərləri isə yüksəkliyə yaxın mövqedə gözləyən Xüsusi Təyinatlılar tərəfindən məhv edildi.

Üç gün davam edən şiddətli döyüşlər nəticəsində Ərgünəş dağı və bir neçə strateji yüksəklik də düşmən qüvvələrindən təmizlənmiş oldu. Sonrakı üç gün ərzində isə Bulutan, Xırmancıq da işğalçılardan geri alındı. Azərbaycan Ordusunun silahlı qüvvələri, o cümlədən, Xüsusi Təyinatlı Qüvvələr irəliməyə davam edirdilər.

Erməni hərbi qüvvələri Azərbaycan silahlı qüvvələrini mühasirəyə aldığını desə də, bir neçə gündən sonra ermənilər güclü mərmi atəşinin od-alovuna tab gətirməyərək döyüş mövqelərini kütləvi şəkildə qoyub qaçmağa başlamışdılar. Burada yerləşən çoxlu sayda düşmənin canlı qüvvəsi (müharibə vaxtı erməni tərəfi bu qüvvələrin sayının 500-ə yaxın olduğunu desə də, müharibədən sonra verdiyi müsahibədə Araik Aruturyan bu rəqəmin 1500 olduğunu etiraf etmişdi) Azərbaycanın Ordu Qüvvələrinin öndə irəliləyən, sayı cəmi 50 nəfər olan Xüsusi Təyinatlıları və digər hərbi qüvvələri qarşısında duruş gətirə bilmədi. Panikada olan düşmən əsgərləri hətta döyüş mövqelərini qoyub qaçan öz əsgərlərinə belə atəş açmağa başlamışdılar.

Ermənistan Ordusunun Xüsusi Təyinatlıları da Hadrutu müdafiə etmək üçün buraya yerləşdirilmişdilər. Hadrutun dərinliyinə sızan Azərbaycan Xüsusi Təyinatlılarının qarşısında heç düşmən ordusunun Xüsusi Təyinatlıları belə davam gətirə bilmədilər. Buradakı döyüşlərdə düşmən ordusunun Xüsusi Təyinatlılarının komandirlərindən biri mayor Arutyun Manuçaryan, divizya komandirinin müavini polkovnik Hrayr Davıtyan, kəşfiyyat zabiti Hrant Firəngiyan da öldürülənlər arasında idi. Həmin gün orada yerləşən divizya qərərgahı da ələ keçirildi. Sonrakı günlərdə gedən döyüşlər nəticəsində Hadrut ətrafın-

dakı yüksəkliklər də düşmənin hərbi qüvvələrindən təmizləndi.

Nəhayət, bu döyüşlərdən sonra, oktyabr ayının 15-nə kimi  Hadrut qəsəbəsi tamamilə Azərbaycan Ordusunun nəzarətinə keçmiş oldu. Düşmən çaş-baş qalmışdı. Onları panikaya salan isə Hadrutun içərilərinə doğru irəliləyən Azərbaycan hərbi qüvvələri idi. Bu qüvvələr sırasında Hadrutun alınmasında müstəsna xidməti olan 1-ci taborun döyüşçülərinin yeri danılmaz, əfsanıvidi.

1-ci taborun döyüşçülərinə növbəti hərbi tapşırıq gəldi: buradakı yüksəkliklərin birində yerləşən aviasiya qurğusunu məhv etmək.

## AVİASİYA QURĞUSUNUN MƏHV EDİLMƏSİ

Hadrut istiqamətində irəliləyən 1-ci tabora daha bir tapşırığı icra etmək əmri verilmişdi. Əmrdə düşmənin Hadrut ətrafındakı yüksəkliklərin birində yerləşən Aviasiya qurğusu məntəqəsinin məhv edilməsi tapşırılmışdı. Bu, heç də asan olmayan  tapşırığı icra etmək üçün daha çox bacarığı və təcrübəsi olan Vəli-

yev Elyar, İsmayılov Camal, Cəbrayılov Sübhan, Quliyev Şəhriyar başda olmaqla on iki nəfərlik bir qrup Aviasiya qurğusu məntəqəsinin yerləşdiyi istiqamətə doğru hərəkətə keçmişdi. Ayrılan qrup düşmənə hiss etdirmədən məntəqənin yerləşdiyi yüksəkliyə doğru qalxmağa başladı. Döyüşçülər hər biri altı nəfər olmaqla iki qrupa ayrıldılar. Onlar düşmən qüvvələrinin duyuq düşməməsi üçün daha ehtiyatla əraziyə sızaraq Aviasiya qurğusu məntəqəsinin yerləşdiyi yüksəkliyə yaxınlaşaraq, ərazinin müşahidəsini aparmağa başladılar. Məntəqənin ərazisində birmərtəbəli bina və 10-15 ev gözə dəyirdi. Onların məntəqəyə yaxınlaşdığı istiqamətdən həyətdə iki UAZ maşınının da dayandığını görmək olurdu. Döyüşçülərin bir qrupu sağdan, digəri soldan hərəkətə keçdi. Bizim Xüsusi Təyinatlılar tərəfindən qəfil basqına məruz qalan məntəqənin həyətində gəzişən iki nəfər düşmən hərbçisi onları görcək sol tərəfə doğru qaçmağa başladı. Sol tərəflə irəliləyən Elyar ilə Kərim qaçan düşmən hərbçilərinin arxasınca getdilər. Onlardan birinin yüksək rütbəli zabit olduğu Elyarın gözündən yayınmamışdı. Aşağıya doğru qaçan iki düşmən hərbçisindən biri arxaya dönüb Kərimə tərəf atəş açdı. Bunu görən Elyar bağırdı:

-Kərim, əyil!

Atəş açılan anda Kərim yerə yıxıldı. Döyüş yoldaşları onun vurulduğunu zənn etdilər. Lakin Kərim həmin anda fırlana-fırlana hərəkət etməyə başladı.

Elyar isə sərrast atəşlə Kərimə atəş açan düşmən zabitinin qaçıb uzaqlaşmasına imkan verməyərək anındaca onu zərərsizləşdirdi. Zabitin vurulduğunu görən düşmən əsgəri də nisbətən ona yaxın olan Kərimə atəş açmaq istəyərkən Elyar yenə fürsəti düşmənə verməyərək onu da məhv etməyə nail oldu. Elyarla Kərim kontrol atışı etmək üçün məhv etdikləri düşmən hərbçilərinə yaxınlaşdılar.

-Lənətə gəlmişlərə bir-iki gülləmizi də xərcləyək, - deyərək Elyar kontrol atışı etdi.

Kərim də "sən mənə güllə atırdın....? Sən məni vururdun...?" deyə-deyə az öncə Elyarın məhv etdiyi düşmən zabitinə o da bir neçə atəş açdı.

Elyar isə düşmənə olan sonsuz nifrətlə dişlərini qıcayaraq, hirslə "sənin kimi şərəfsizin nə bu poqonları daşımağa, nə də yaşamağa haqqı yoxdur" deyərək, cəld hərəkətlə vaxt itirmədən polkovnikin xidməti silahını, çiynindən sökdüyü paqonlarını, şəxsiyyətini təsdiq edən sənədini də götürərək, sürətlə qarşıdakı binaya daxil oldu. Kərim də Elyarın ardınca qaçdı. Həyətdəki atəş səsindən duyuq düşən digər düşmən hərbçiləri də Azərbaycan Xüsusi Təyinatlılarının hücumunun qarşısını almaq üçün hərəkətə keçdilər. Həmin birmərtəbəli binada Elyar və Kərim üzüzə gəldikləri iki düşmən əsgərlərinin atəş açmasına fürsət vermədilər. Soldakı əsgər Elyarın bir atışıyla döşəməyə düşdü. Kərim də açdığı atəşlə sağdakı əsgəri məhv etdi. Elyar və ondan bir az arxada gələn

Kərim məhv etdikləri əsgərlərin üzərindən keçərək iti addımlarla dəhliz boyu irəliləməyə davam etdilər. Elyar qarşısına çıxan sağdan birinci qapını təpiklə vurub açaraq içəri daxil oldu. Kərim özünü yetirənə kimi otaqdan dalbadal dörd atəş səsi eşidildi. Nə baş verdiyin görmək üçün özünü otağa atan Kərim Elyarın məhv etdiyi dörd düşmən hərbçisinin dördünün də meyidinin döşəməyə sərildiyini gördü. Kərimin gördüyü bu mənzərə hər hansı filmdən bir səhnə deyildi, Elyar kimi qəhrəman döyüşçünün yaratdığı real döyüş səhnəsi idi.

Qrupun üzvləri Camal, Şəhriyar, Sübhan və digərləri də ərazini təmizləmək, qurğunun idarəetmə pultunu sıradan çıxarmaq üçün hərəkətə keçmişdilər. Onlar da həmin binaya və düşmənin hərbi məqsədlər üçün istifadəsində olan ətrafdakı evlərə bir-bir daxil olaraq, qarşılarına çıxan düşmən əsgərlərinə göz açmağa imkan vermir, sərrast atəşlə anındaca məhv edərək təmizləmə əməliyyatı aparırdılar.

Ayar da digər döyüş yoldaşları kimi ərazidə öz badisi ilə birlikdə hərəkət edərək əməliyyatda fəallıq göstərirdi. O, aviasiya qurğusunun ərazisində yerləşən kunka*[2] daxil olanda bir yaralı erməni əsgəri ilə rastlaşdı. Qapının arxasında gizlənən daha bir düşmən əsgəri isə ona atəş açmaq istəyəndə Ayar ondan cəld tərpənərək, düşməni susdurdu. Yaralı əsgər də

[2] kunk*- müşahidə məntəqəsi

əlini silaha atmaq istəyirdi ki, Ayarla birlikdə kunka daxil olan döyüş yoldaşı da yaralı düşmən əsgərini zərərsizləşdirdi.

Elyarla Kərim isə yoxlamaq üçün daha bir otağa yaxınlaşmışdılar. Kərim qapıda dayanaraq ətrafa diqqət yetirdi. Elyarın daxil olduğu otaq yəqin ki, az əvvəl elə onun öldürdüyü polkovnikin iş otağı idi. Bunu otaqdakı yazı masasından, sənəd qovluqları qoyulmuş dolablardan, masanın üzərinə qoyulmuş bayraqlardan, noutbukdan da bilmək olardı. Elyar otaqda axtarış aparmağa başladı. Divardan xeyli aralı dayanmış dolabın arxasından gələn səs də onun diqqətindən yayınmadı. Cəld dolaba tərəf dönərək dolabı güllə-borana tutdu. Onun açdığı atəşlər nəticəsində otaqdan çıxmağa imkan tapmadığı üçün dolabın arxasında gizlənən və ona atəş açmaq istəyən düşmən zabiti yerə sərildi. Güllə səslərini eşidən Kərim də otağa daxil oldu. Elyarın otaqda bir düşmən zabitini öldürərək otaqda axtarış apardığını görən Kərim yazı masası üzərindəki Ermənistan Respublikasının və separatçıların ərazimizdə yaratmağa çalışdıqları qondarma Artsax Respublikanın bayraqlarını əlindəki avtomatla vurub yerə saldı və bayraqları ayaqlamağa başladı. Divara vurulmuş qondarma respublikanın xəritəsini isə qopararaq cırıq-cırıq etdi. Elyar isə otaqda əlinə keçən düşmənin istifadə etdiyi strateji əhəmiyyətli xəritəni, vacib sənədlər olan çantanı, noutbuku, elektron diskləri və məhv etdiyi düş-

mən zabitinin üzərindəki şəxsiyyətini təsdiq edən sənədi və xidməti tapançasını da götürərək Kərimlə birlikdə otağı cəld tərk etdilər.

Təmizləmə əməliyyatı artıq başa çatmışdı. Ərazidə yerləşən bina və evlər bir-bir düşməndən təmizlənmişdi. Bir qurğununun idarəetmə pultunun yerləşdiyi yeri təyin edib sıradan çıxarmaq qalırdı. Elyar, Camal, Sübhan, Şəhriyar vaxt itirmədən qiyməti bəlkə də milyon dollarla ölçülən aviasiya qurğusunun idarəetmə pultunun yerini təyin edib sıradan çıxarmaq üçün axtarışa başladılar. Aviasiya qurğusunun məhv edilməsi düşmənə çox böyük zərbə olacaqdı. Düşmən ətrafa nəzarəti itirəcəkdi. Çox keçmədən Elyar qurğunun idarəetmə pultunun yerləşdiyi otağı tapa bildi və əvvəlcə, pultu əlləriylə qırıb dağıdaraq, sonra isə silahla lazımi hissələrinə atəş açmaqla tamamilə sıradan çıxartdı. Camal isə əlinə keçən başqa bir rabitə cihazını qənimət kimi götürmüşdü.

Aviasiya qurğusunun idarəetmə pultu ilə bərabər məntəqənin ərazisindəki iki UAZ, bir sanitar maşını, bir Kamaz da əməliyyat zamanı içərisindəki şəxsi heyətlə bir yerdə məhv edildi. UAZ-lardan birini yenə də Elyar içərisindəki daha bir zabit və iki əsgərlə birlikdə partlatmışdı. Verilən tapşırıq bu dəfə də Elyar və döyüş yoldaşları tərəfindən müvəffəqiyyətlə yerinə yetirilmişdi. Artıq düşmən burada heç bir fəaliyyət göstərə bilməyəcəkdi.

Aviasiya qurğusu məntəqəsinin məhv edilməsində müstəsna xidməti olan Elyar Vəliyev və əməliyyatda iştirak edən döyüş yoldaşlarının yerinə yetirdiyi bu əməliyyat barədə yuxarı komandanlığa məruzə olundu. Götürülən xəritə, sənədlər və əşyalar da komandanlığa təhvil verildi. Əməliyyatda iştirak edən qrup heç bir itki vermədən bu tapşırığı vaxtında, müvəffəqiyyətlə yerinə yetirmişdi. Bu əməliyyat nəticəsində əldə olunan çox əhəmiyyətli məlumatlar sonrakı döyüşlərin təşkilində, Azərbaycan Ordusunun irəliləməsində, buradakı döyüşlərin sonrakı gedişində müstəsna əhəmiyyət kəsb edəcəkdi.

Verilən tapşırıq yerinə yetirdikdən sonra qrup yenidən 1-ci taborun digər döyüşçülərinin yanına qayıdaraq, hələ də Hadrut ətrafındakı düşmən əlində qalan kəndləri və yüksəklikləri təmizləmək üçün onlarla birlikdə hərəkətə keçdilər.

## PUSQUYA SALINAN DÜŞMƏN

Verilən növbəti tapşırıq Gorazilli kəndindən Hadrut istiqamətinə tərəf gedən yoldan keçən düşmənin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi hissəsinin kalonunu məhv etmək idi.

Bundan öncəki, Aviasiya qurğusunu məhv edilməsi əməliyyatından sonra Elyar və 12 nəfərlik qrup verilən əmri yerinə yetirmək üçün yenidən Hadruta doğru hərəkətlənmiş taborun digər qrupları ilə birləşmək üçün aşağı istiqamətə - Gorazilli kəndinə doğru irəliləməyə başlamışdılar. Düşmən kalonunun bu yola doğru gəldiyi barədə onlarda artıq kəşfiyyat məlumatı vardı. Füzuli tərəfdən gələn düşmən kalonu isə Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin burada mövqe tutduqlarından xəbərsiz idilər.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri düşmən arxasına sızaraq irəliləyən düşmən kalonunun yol koordinatlarını artıq götürmüşdülər. Axşamdan düşmənin təminatını, silah-sursatını daşıyan maşınların keçdiyi yolun yaxınlığındakı dağın döşündə yerləşən meşədə mövqe seçən 1-ci taborun cəsur döyüşçüləri düşmən qüvvələrinin fəaliyyətini müşahidə edirdi. Eyni zamanda pusqu quraraq uzaqdan irəliləyən düşmənin şəxsi heyətini daşıyan Ural hərbi maşınlarından ibarət kalonun keçəcəyi anı gözləyirdi. Öndə gələn ilk iki Ural maşını Elyargilin qurduğu pusquya düşdü. Onların açdığı atəşlə Ural maşınları vuruldu.

Qalan üç maşın isə atəşdən yayınmaq üçün imkan tapib sürətlə kəndin içərilərinə doğru hərəkət etməyə başladı. Amma 4-cü taborun komandiri mayor Gündüz Səfərlinin ağıllı taktikası nəticəsində düşmən yenidən pusquya salındı. Belə ki, əvvəlcədən kənddə yerləşdirilən qruplar düşmənə göz açmağa aman verməyərək, kalonun qalan maşınlarını da içərisindəki şəxsi heyətlə birlikdə zərərsizləşdirməyi bacardı. Bütün hərbi avtomobillər partladılaraq məhv edildi. İki taborun birgə fəaliyyəti əməliyyatın müvəffəqiyyətlə başa çatdılılmasında öz bəhrəsini verdi.

Bu əməliyyatdan sonra düşmən kod adı "Yaşma" olan Azərbaycan Xüsusi Təyinatlıları ilə bacara bilmədiklərini etiraf etməyə məcbur olmuşdu. Düşmən tərəfi bu döyüşdən çox ağır itkilər verərək çıxmışdı. Belə ki, bu döyüşdə düşmənin 022 deyilən Xüsusi Təyinatlılarının bütün tabotunun şəxsi heyəti məhv edilmişdi.

2-ci Ordu Korpusunun, Xüsusi Təyinatlı Qüvvələrin və Daxili Qoşunların da qatıldığı döyüşlər nəticəsində Azərbaycan Ordusu tərəfindən bu cəbhədə bütün istiqamətlərdə nəzarət tamamilə ələ keçirilmişdi. Nəhayət, oktyabr ayının 17-də Füzuli şəhərinin 27 illik işğalına son qoyulmuş oldu. Ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyev Füzuli şəhərinin düşməndən azad olunduğunu elan edən zaman, Füzuli uğrunda gedən döyüşlərin ağır olduğunu, şəhərin böyük şücaət hesabına alındığını xüsusilə vurğulamışdı.

Uğradıqları böyük məğlubiyyətə baxmayaraq, düşmən qüvvələri yeni təxribatlar törətmək niyyətilə bu dəfə yarımqruplardan ibarət mobil heyətlər yaratmışdılar. Bir ağır silah üzrə mütəxəssis, snayper, tibb işçisi, kəşfiyyatçı və komandirdən ibarət olan bu mobil qrupları yaratmaqda düşmənin məqsədi arxaya keçərək təxribat törətməklə təminatı zəiflətmək idi.

Düşmən qüvvələrini məhv etdikdən sonra irəliləyən bizim döyüşçülərdən ibarət hərbi kalon birdən dayandı. Kalon qarşıda ola biləcək maneəni hiss etmişdi. Ərazinin otluq, kolluq olmasından irəlidəki ərazi o qədər də aydın görünmürdü. Amma erməni dilində danışıqlar aydın eşidilirdi. Baş kəşfiyyatçı əl işarəsi ilə snayperi və erməni dilini bilən Elyarı yanına çağırdı. Sonra snayper Rüstəmə ayaq üstə duran erməni əsgərini nişangahda saxlamağı tapşırdı. Elyar erməni dilində özünü leytenant Akop Petrosyan kimi təqdim edərək qarşıdakı düşmənlə söhbətdə erməni taborunun adını çəkərək həmin tabordan olduğunu söylədi və onları çağırdı. Erməni əsgərləri də ehtiyatla davranaraq qarşı tərəfdəki əsgərləri öz yanlarına çağırmağa başladılar. Danışıqlar xeyli uzandı.

Səbri tükənən snayper Rüstəm nəhayət dilləndi:

-Nə danışdız? Nə qərara gəldiz? Bəlkə bunların işini bitirək?

-Deyəsən, dil tapa bilməyəcəyik bunlarla, - danışıq aparan Elyar əlavə etdi. Elə bu zaman snayper silahı işə saldı. Bir sərrast atışla qarşısındakı nişangah-

da saxladığı düşməni məhv etdi. Bunu görən düşmən qrupunun digər üzvləri ətrafa səpələndilər. Daha bir düşmən əsgəri on beş-iyirmi metr qaçmışdı ki, yenə snayperin sərrat atəşi onu kürəyindən yaralayaraq yerə yıxdı. Düşmən qrupundan üçüncüsü isə özünü snayper gülləsindən qorumaq üçün ziq-zaq şəklli qaçışa başladı.  Buna baxmayaraq o da snayperin atəşindən qurtula bilmədi.

Düşmənin mobil qrupunun qalan iki nəfəri isə qaçıb canını qurtara bilmişdi. Axşamın toranlığı onların sağ qalma şansını artırmış oldu. Bununla belə onlar daha ciddi ziyan verə bilməzdilər.

Düşmən qüvvələrindən təmizlənmiş ərazidən keçən yollar minalandıqdan, ətrafda arama-tarama işləri aparıldıqdan sonra 1-ci tabor yenidən irəliləməyi davam etdirmişdi. Tabor bu istiqamətdə ordumuzun on beş günlük çətin bir döyüşdən sonra düşmən qüvvələrindən təmizlədiyi 720 adlanan yüksəklikdə möhkəmlənməsini təmin etmək üçün sızma əməliyyatı icra etməli idi. Bu mövqelərin sağında düşmənin çox böyük qüvvəsi yerləşmişdi. Odur ki, sızma əməliyyatı bu mövqelərin sol tərəfindən icra ediləcəkdi. Buradakı düşmən qüvvələrindən təmizləmək, bu strateji mövqeyi əldə saxlamaq üçün ayrılan qrup əməliyyata başlamaq üçün artıq əmr almışdı. Oktyabrın 17-də qrup Qırmızı Bazar istiqamətinə doğru irəliləməyə başlamışdı. 1-ci taborun döyüşçüləri düşmənin artilleriyası və canlı qüvvəsinin atəşinə məruz

qaldı. Elyar Vəliyevin də daxil olduğu xüsusi təyinatlılardan ibarət olan 20-23 nəfərlik qrup qarşıdakı düşmən qüvvələrini məhv etmək üçün döyüşə başlamışdı. Çox keçmədən digər qüvvələr də onlara qoşuldu. Qısa müddətdə buradakı düşmən qüvvələri məhv edildi. Lakin döyüşən digər bölmədən şəhid və yaralananlar oldu. Düşmən mövqeyini ələ keçirən cəsur döyüş qrupu burada möhkəmlənərək Qırmızı Bazar istiqamətdə hucuma başladı. Qarşıdakı 720 yüksəkliyi alınmalı idi. Elə ilk hücumla düşmənə ağır zərbə endirildi. Yüksəklik düşməndən təmizləndi. Qrup bu tapşırığın da öhdəsindən məharətlə gəldi. Elyar Vəliyev əlindəki Azərbaycan bayrağını azad etdikləri bu yüksəkliyə taxdı. Bunu görən düşmən Qırmızı Bazar istiqamətindən həm aviasiya, həm artilleriya, bir sözlə uzaqmənzilli bütün silahlardan istifadə edərək bayraq sancılan yüksəkliyi vurmağa başladı. Düşmənlər bu nöqtəni iki gün fasiləsiz vurmasına baxmayaraq haqq savaşı aparan vətənimizin - Azərbaycanın Dövlət Bayrağını endirə bilmədilər. Panikada olan düşmən qüvvələri bütün mövqeləri fasiləsiz atəşə tutaraq, Azərbaycan hərbi qüvvələrinin hər yerdə olduğunu düşünürdülər.

Qırmızı Bazar istiqamətində irəliləyən 1-ci taborun qrupuna daha bir yüksəkliyi almaq tapşırığı verilmişdi. Düşmən mövqeyindən aşağıda yerləşən qrup müşahidə aparmağa başladı. Yüksəkliklə onların arasında yalnız şumlanmış açıq ərazi vardı. Yük-

səklikdə yerləşən düşmən onları görməyə bilməzdi. Düşmən tərəfindən atılan mərmilər də ondan xəbər verirdi. Atılan növbəti mərmi qrupun yerləşdiyi mövqedən iki metr aralı düşdü. Düşmən tərəfindən snayperin açdığı atəş isə mərmi atəşindən qorunmaq üçün yerini dəyişmək istəyən Ayarın sağ qolunu yaraladı. Az keçmədən Ayarın yaxınlığındakı digər döyüşçü də yaralandı. Daldalanacaq olmayan yerdə mövqelənən qrupa düşmən snayperləri atəş açmaqda davam edirdi. Bunu görən Elyar və qrupun digər döyüşçüləri yaxınlıqdakı təpənin arxa tərəfinə keçdilər. Düşmən mövqelərindən açılan atəş isə ara vermədən davam edirdi. Atılan güllələr yenə də Ayardan yan keçmədi. Güllələrdən biri onun dəbilqəsinə dəydi. O, həm də belindən zərbə aldı. Sağına-soluna güllələr yağış kimi yağan Ayar və döyüş yoldaşı da yaralanmaqlarına baxmayaraq, yaxınlıqdakı təpənin arxasına keçməyi bacardılar. Ayarın yaralandığını görən Kərim özünü yetirərək onun yarasından axan qanı kəsmək üçün tez sıxacla qolunu bağladı. Bundan sonra gələn təxliyə qrupu Ayar və yaralı döyüş yoldaşını arxaya təxliyə etdilər.

Qrupun qalan döyüşçüləri isə yüksəkliyi götürmək üçün döyüşü davam etdirirdi. Döyüşə başlamazdan əvvəl həmin dağ yüksəkliyini müşahidə edən Ayar tək bu yüksəklikdə düşmənin iki yüzə qədər canlı qüvvəsinin olduğunu məruzə etmişdi. Dağın arxa tərəfini isə görmək mümkün deyildi. Yəqin

ki, arxa tərəfdə də düşmən qüvvələri yerləşirdi. Qarşı tərəfin həm canlı qüvvəsinin, həm döyüş texnikasının çox olmasına baxmayaraq döyüşçülərimiz geri çəkilmir, əksinə, döyüşü şiddətlə davam etdirirdilər. Elyar seçdiyi mövqedən düşmən tərəfin aktiv atəş nöqtələrini susdurmaq üçün həmin mövqeləri vurmağa çalışırdı. Onun döyüş yoldaşlarının da silahları susmaq bilmirdi. Nəhayət, düşmənin intensiv atəş açdığı nöqtələr susduruldu. Qrup bundan sonra daha bir həmlə ilə yüksəkliyi götürə bilmişdi. Yüksəkliyi düşməndən təmizləyən qrupun döyüşçüləri azad etdikləri bu mövqeni də digər ordu bölməsinə təhvil verərək silah-sursat, ərzaq təminatı üçün bir qədər arxaya çəkildi.

Bu məğlubiyyətə baxmayaraq, erməni hərbi qüvvələri Hadrut ətrafındakı strateji yüksəklikləri geri almaq üçün bu mövqelərə yenidən hərbi qüvvələrini toplamağa başlamışdılar. Onlar yaxşı bilirdilər ki, bu yüksəklikliklləri geri qaytarmasalar, irəliləmək mümkün olmayacaqdı. Azərbaycan tərəfinin əks kəşfiyyatı da düşmənin iki-üç dəfə artıq qüvvə ilə yenidən strateji yüksəklikləri geri qaytarmaq üçün əks hücuma keçəcəyi haqqında məlumat əldə etmişdi. Düşməndən təmizlənən mövqeləri əldə saxlamaq üçün yenidən qanlı döyüşlərin aparılması qaçılmaz idi.

## MƏHV EDİLƏN MUZDLU DİVERSANT

Xocavənd istiqamətində Hadrut da daxil olmaqla bir çox əraziləri düşməndən azad edilməsində qəhrəmanlıqla döyüşən 1-ci taborun bir qrup döyüşçüsü irəliləməkdə davam edirdi. Nəhayət, qrup qarşıda görünən yüksəkliyə çatmışdı. Bura Köndələnçayın keçdiyi gözəl mənzərəsi olan bir yer idi. Mənfur düşmənlərin xəyanəti, torpaq iddiaları 30 ilə yaxın idi ki, xalqımızın dincliyini əlindən almış, bu yerlərdən didərgin salmış, bu gözəllikləri görməkdən məhrum etmişdi. Artıq bu torpağın əzəli, əsl sahibləri qayıdırdılar. Bəlkə də bu gün işğal edilmiş torpaqların azad edilməsi uğrunda yenidən döyüşə atılmış bu gənclərin çoxu torpaqlarımız düşmən tərəfindən işğal ediləndə hələ heç doğulmamışdılar, bəlkə də heç bu yerləri ömründə görməmişdilər. Amma min illərlə bu millətin ruhunda, qanında kodlaşan vətən, torpaq sevgisini nəinki 30 ilə hətta əsrlərlə də unutdurmaq mümkün deyildi. Bunu düşmən hesaba almamışdı. Türk millətinin vətən sevgisini, Azərbaycan xalqının torpağa bağlılığını unutdurmağa heç kimin gücü yetməzdi. Bu gün də vətən torpaqlarının azad edilməsi üçün döyüşə atılan, qorxuya qalib gələn bu gənclərin tezliklə düşmən üzərində tam qələbə çalacaqları da yəqin idi.

Hələ ki, torpaqlarımızın azad olması uğrunda döyüşlər davam edirdi. Sürətlə irəliləyən ordumuz bir-bir işğal olunan torpaqları azad edirdi. Düşmənin

müqavimətini qıraraq bir vaxtlar zor gücünə, havadarlarına arxanalaraq bu yerləri işğal edərək sahiblənmək istəyən düşməni elə silah gücünə torpaqlarımızdan qovurdular. Dünyanı belə heyrətə gətirən bu müharibədə ordumuzun bacarığı, zabit və əsgərlərimizin qəhrəmanlığı, xalq-dövlət-ordu birliyi ortada idi. İlk gündən döyüşlərə qatılan 1-ci taborun əsgər, zabit heyəti göstərdiyi qəhrəmanlıqlarla hər yana səs-səda salmışdı. Artıq 1-ci tabor "Əfsanəvi tabor" adlandırılırdı.

Düşmənin canlı qüvvəsi nə qədər cəhd etsə də, havadarları nə qədər silah-sursatla yardım etsələr də, siyasi baxımdan onların müdafiəsinə qalxsalar da, bu günə kimi nə Ali Baş Komandanın, nə ordumuzun, nə xalqımızın iradəsini, müqavimətini qıra bilməmişdilər. Hamı qələbə ruhuna köklənmişdi. "Əfsanəvi tabor"un döyüşçüləri də bütün çətinlikləri aşaraq verilən bütün tapşırıqları vaxtında, xüsusi hərbçi bacarıqlarıyla yerinə yetirirdilər.

Bu gün də növbəti tapşırığı yerinə yetirmək üçün bu ərazilərə qədər irəliləmişdilər. Qrup Köndələnçayın da axdığı yüksəklikdən aşağıda həm dincəlmək, həm müşahidə aparmaq üçün əlverişli bir yer seçərək aypara şəklində yerləşdi. Belə yerləşmək həm ön tərəfi, həm də sağ və sol tərəfi müşahidə etməyə imkan yaradırdı. Öndə Qırmızı Bazar yaşayış məntəqəsi, sağda Füzuli rayonunun mərkəzi, solda isə Xocavənd rayonunun kəndləri yerləşirdi.

Qrup burada yerləşdikdən sonra Elyar qrupdan digər bir əsgərlə ayıq müşahidə aparmağa başladı. Elə bu zaman bir nəfərin Köndələnçayın əks sahili ilə hərəkət etdiyi Elyarın diqqətini çəkdi. O, vaxt itirmədən bu barədə rabitə vasitəsilə şəxsi heyətə və yuxarı komandanlığa xəbər verdi. Onlara heç kimin özünü biruzə verməməsi tapşırığı gəldi.

Elyar hiss etdirmədən gördüyü adamın hər hərəkətini izləməyə davam etdi. Adam ehtiyatla ətrafa boylanaraq çay yuxarı qalxırdı. Onun hərəkətlərindən, ətrafı müşahidə etmə tərzindən diversantın düşmən tərəfdən olduğunu yəqin etmişdi. Elyar onun uzaqlaşmasına imkan verməyərək çayın bir sahilindən digər sahilinə açdığı sərrast atəşlə gözündən qoymadığı adamı ayağından yaraladı. Yaralanan adam yerə çökərək çaşqın nəzərlərlə ətrafa boylanmağa başladı. Ətraf sakitlik idi, heç kim gözə dəymirdi. Güllə isə çay axan tərəfdən açılmışdı. Amma çayın yatağı elə də ensiz deyildi. Odur ki, onu yaralayan güllənin çayın əks sahilindən atılması ağlına gəlmədi. Sağ ayağından dəyən güllə baldır nahiyəsinin sümüklərini dağıtmışdı. O, sürünərək uzaqlaşmaq istəsə də şiddətli ağrının təsirindən yerindən tərpənə bilmədi. Ağrıdan yerindəcə qıvrılan diversant Elyarın çayı keçərək artıq ona çatdığını görən kimi belə sərrast atıcının əlindən qurtara bilməyəcəyini anladı. Ələ keçməmək üçün qumbara ilə özünü partlatmaq istəyəndə Elyar daha bir sərrast atəşlə diversantı məhv etdi. Elyar bir

anda özünü üz-gözü, üst-başı qana boyanan məhv etdiyi diversantın yanına yetirdi. Vaxt itirmədən onun üst-başını axtararaq üzərində daşıdığı silahı, xarici passportu, xəritəni götürdü. Diversantın xarici passportunu vərəqlədikcə Suriyadan olan bu diversantın nə qədər ölkələri gəzdiyi məlum oldu. Suriya, Livan, Misir kimi ölkələr də daxil olmaqla onun passportuna son altı ay ərzində 25 ölkəyə giriş-çıxış üçün möhür vurulmuşdu. Bu onun necə bir təhlükəli muzdlu döyüşçü olduğundan xəbər verirdi. Bu həm də erməni ordusu tərkibində muzdluların döyüşdüyünün sübutu idi.

Elyar məhv etdiyi erməni diversantın silah və sənədləri götürərək döyüş yoldaşlarının yanına qayıtdı. Bu hadisə barədə yuxarı komandanlığa məruzə edilib, əldə edilən silah, passport və xəritə lazım olan yerə təhvil verildi. Bu həm də Elyarın xüsusi təyinatlı kimi nə qədər peşəkar kəşfiyyatçı, döyüşçü olmasının da göstəricisi idi. Bu günə kimi onlarla belə müvəffəqiyyətlə əməliyyatlar yerinə yetirən Elyarın bu da növbəti bir uğurlu əməliyyatı idi. Elyarın müharibə başlayan gündən bu günə kimi məhv etdiyi erməni zabitlərindən götürərək təhvil verdiyi xidməti tapançaların sayı qırxa çatmaq üzrə idi.

Burada bir neçə saat dincələn, həm də müşahidə aparan ayıq-sayıq Xüsusi Təyinatlılar Hadrutun ətraf kəndlərini düşmən qüvvələrindən təmizləmək üçün yenidən irəliləməyə başlamışdılar.

# CƏBHƏDƏ AD GÜNÜ

Hadrut qəsəbəsi işğalçı qüvvələrdən təmizlənəndən sonra düşmən əlində qalan ətraf kəndlərin və yüksəkliklərin azad olunmasına başlanılmışdı. İrəliləyən 1-ci tabor Gorazilli kəndinə yaxınlaşmışdı. Gorazillidə hələ də düşmən qüvvələri qalmaqda idi. Onlarla Azərbaycan Ordu Qüvvələri arasındakı məsafə 150-200 metr olardı. Amma Azərbaycan döyüşçülərinin harada mövqeləndiklərindən xəbərsiz idilər. 1-ci taborun döyüşçüləri kəndə çox yaxın olan meşəlik ərazidə mövqeləndilər. Qrup burada iki gün müşahidə apararaq düşmənin hərəkətini, mövqelərini izləmək imkanından yararlandı. Kənddə yerləşən düşmən qüvvələri məhv edilməli idi.

Həmin gün oktyabr ayının 17-si Elyarın ad günü idi. Hələ ki, nə həyat yoldaşı ilə, nə də ata-anası ilə telefon əlaqəsi saxlamamışdı. Elyar əsasən döyüşdən sonra təminat-təchizat üçün arxa mövqeyə çıxdıqda evlə telefon əlaqəsi saxlayırdı.

Yenə də bir-neşə gün aparılan fasiləsiz döyüşlərdən sonra döyüşçülərin qidalanması üçün ərzaq tükənmişdi. Yollar hələ də təhlükəli olduğundan, həm də qrup düşmən içərisinə çox irəlilədiyindən onları ərzaqla təmin etmək də çətinləşmişdi. Qrupun döyüşçüləri gücünü itirməmək üçün qidalanmalı idi. Ətrafı dolaşan Elyarla Sübhan hazırda müşahidə

aparan Rüstəmə yaxınlaşmışdılar. Sübhan zarafatla dedi:

-Müşahidəçi, necədir? Nə isə görə bilirsən? Gör danadan-zaddan gəlmir bu tərəflərə? Bu gün ad günü qeyd etməliyik axı.

Döyüşçülərin gülüşü ətrafa yayıldı. Bu sözlər zarafatla deyilsə də, həqiqətən, onların yerləşdiyi əraziyə güllə səslərindən hürkərək ətrafa dağılmış bir neçə iribuynuzlu heyvan gəlib çıxmışdı. Bunu görcək qrupdan iki nəfər-Şəhriyarla Şamil heyvanlardan birini tutaraq kəsməyə nail oldular. Vaxt itirmədən kəsdikləri dananı soymağa başladılar. Rüstəm isə "qəssab" döyüşçülər tərəfindən parçalanmış ətləri ağaclardan asdı.

Qalırdı əti bişirmək. Bu isə xeyli riskli idi. Ətin iyi, ocağın tüstüsü ətrafa yayılacaqdı. Bu da düşmənə onların yerini təyin etmək üçün imkan yarada bilərdi. Amma neçə gün fasiləsiz döyüşən, yolların hələ də düşmən tərəfindən nəzarətdə olması səbəbindən ərzaq təminatı çatdırıla bilməyən döyüşçülərə enerji lazım idi. Ətdə isə qida kimi enerji çox olduğundan yemək çox güc verəcəkdi. Elə əti necə bişirəcəklərini düşünürdülər ki, bu zaman otuz beş-qırx yaşlarında hərbi geyimdə bir adamın onlara tərəf gəldiyini gördülər. Yaxınlaşan erməni hərbi qulluqçusunu erməni dilində sorğu-sual etmək istəyəndə o "mənimlə Azərbaycan dilində danışın" deyərək, sözə başladı. Sonra belə davam etdi:

-Mən sizi tanıyıram. Formanizdan bilirəm. Siz Azərbaycanın Xüsusi Təyinatlılarısız. Bakıdan gəlmisiz. Mən də Bakıdanam, Binəqədidə yaşamışam.

Düşmən hərbi qulluqçusundan bu sözləri eşidən kimi Sübhan söhbətə qoşuldu:

-Belə danışırsansa, bizə bu kənddə erməni hərbi birləşmələrinin olub-olmadığını yəqin ki, deyə bilərsən...

Gələn adam isə verilən suallara cavab verməkdən yayınmağa başladı. Nəhayət, onların fikrini yayındırmağa çalışan düşmən kəndin boş olduğunu söylədi. Onun yalan məlumat verdiyi məlum idi. Çünki, qrup müşahidələr nəticəsində kənddə düşmən qüvvələrinin olduğunu artıq təyin etmişdi. Gələn adamın da məqsədi məlum idi. Çox güman ki, bu düşmən hərbi kəşfiyyatçısı idi. Sağ buraxılarsa, burada yerləşən qüvvələr haqqında lazımi yerə mütləq məlumat verəcəkdi. Odur ki, o zərərsizləşdirilməli idi. Ətrafdakı düşməni duyuq salmamaq üçün Sübhan onu soyuq silahla öldürmək qərarına gəldi. Vaxt itirmədən döyüş bıçağını düşmənin boğazına endirdi. İkinci zərbədən adam hərəkətsiz yerə çökdü. Sübhan onun yerdə qalan cansız bədənini çəkib yaxınlıqdakı kolun dibinə atdı. Sonra üzünü döyüş yoldaşlarına tutaraq:

-Bizimlə oyun oynamaq istəyirdi alçaq. Özünü ağıllı bilirdi. Kimlərlə danışdığını gərək yaxşı-yaxşı

götür-qoy edəydi. O dünyada fikirləşməyə vaxtı olacaq.

Bu hadisədən bir-iki saat sonra qrupun mövqeləndiyi yerdə daha bir "qəfil qonaq" göründü. Elyar gələn erməni əsgərini görən kimi:

- Bu mənim ad günümə gələn "sürpriz hədiyyədir", mən onu yalın əllə ovlayacam, - deyərək bir göz qırpımında yerindən qalxaraq onları görüb qaçan erməni əsgərinə tərəf qaçmağa başladı. Özünü itirən düşmən əsgəri qaçıb canını qurtqrmaq istəsə də, buna müvəffəq ola bilmədi. Onun üzərinə atılan Elyar cəld hərəkətlə düşmən əsgərinin əlində olan bıçağı alaraq, özünə endirdi. Bir neçə bıçaq zərbəsindən sonra düşmən yerə yıxıldı.

Düşmənin ardınca silahsız, əliyalın qaçan Elyar az keçmədi ki, zərərsizləşdirdiyi erməni əsgərinin silahını, üzərində olan döyüş bıçağını, rabitə avadanlığını da götürərək geri döndü. Elyarın necə qorxmaz, çevik, cəld döyüşçü olduğunun şahidi olan yoldaşları "Əhsən sənə!", - deyərək onu alqışladılar.

Qrupun döyüşçülərindən bir neçəsi kəsilən dananın ətindən kabab bişirməklə məşğul idi. Həm də bu "təmtəraq"la Elyarın ad gününü qeyd etmək istəyirdilər. Sübhan üzünü Elyara tutaraq:

-Elyar, müharibədə sənin ad gününü ancaq belə qeyd edə bilərik.

-Müharibədə nə ad günü... Bu gün mən ancaq nə qədər düşmən məhv edə biləcəyim haqqında düşü-

nürəm. Düşmən öldürməyəndə əllərim gicişir. İnşallah, müharibədən sonra ad günü haqqında fikirləşərik, - deyərək Elyar cavab verdi.

-İnşallah.

Bişirilən kababı yeyib, bir qədər dincəldikdən sonra qrup hücuma keşməyə hazırlaşdı. Kənddə yerləşən düşmən qüvvələri məhv edilməli idi. Yenə də baş gizir İsmayılov Camal, baş gizir Cəbrayılov Sübhan, gizir Vəliyev Elyar, gizir Quliyev Şəhriyar birlikdə hücum taktikasını hazırlayaraq bütün döyüşçülərə izah etdilər. Bundan sonra qrup hərəkətə keçdi. Düşmən mövqeyinə edilən qəfil basqınla döyüş başladı. Onlara göz açmağa imkan verilmədi. RPK və PK-lardan açılan aramsız atəşlər, atılan qumbaralar düşməni çaş-baş qoymuşdu. Mövqelənib özlərini müdafiə etmək istəsələr də, döyüşçülərimiz buna imkan verməməyə çalışırdı. Yenə də Elyar sərrast atışla düşməni göz açmağa qoymurdu. Sağda aktiv atəş açan iki düşmən hərbçisi də Elyarın gözündən yayınmamışdı. O, yanında mövqelənən Sübhana doğru döndü:

-Sağı gözdən qoyma. İki nəfər oradan dayanmadan atır. Onları nişan al. Sağı susdur!

Sübhan deyilən nöqtəni nişan aldı. Bir neçə dəqiqə içində gələn atəşin kəsilməsinə nail oldu.

-Sübhan, halaldı sənə! İki-üç dəqiqəyə işlərini bitirdin.

-Sənin də gözlərin qartal gözüdür də. Gözlərindən heç nə yayınmır.

-Ova çıxmışıqsa, belə də olmalıdır. Düşməni bir an da olsa gözdən qoymaq olmaz, bir dəqiqə də olsa onlara aman vermək olmaz. Bax, düşmən hərbçiləri arasında qadınlar da var. Çox güman ki, snayperlərdir. Biz kəndə girəndə bizi snayper tüfəngi ilə məhv etsinlər deyə çox güman ki, mövqelənib gözləyəcəklər. Onlara qəti imkan vermək olmaz!

Bir az aralıdan Camalın səsi gəldi:

-Uşaqlar, atəşi dayandırmayın. Hamımız sürətlə irəliləyirik. Bir-iki saata, İnşallah, işlərini bitirəcəyik. Mövqeləri aydın görünür. Aradan çıxa bilməyəcəklər.

-Camal, qadın snayperləri görürsən? Mövqelənmək istəyirlər.

-Heç bir düşmən hərbçisini gözdən qoymaq olmaz.

Elyar xüsusi təyinatlı döyüşçü kimi burada da igidliyi və əldə etdiyi yüksək təcrübəsi ilə fərlənmişdi. O, düşmənin canlı qüvvəsinin arasında qadın hərbçilərinin olduğunu həmin dəqiqədən müəyyən etmişdi. Baxmayaraq ki, hamısı hərbi geyimdə və heç də yaxın məsafədə deyildilər. Elyar döyüş zamanı qadın və kişi döyüşçünün hərəkət manerasının fərqini peşəkarlıqla ayırd edə bilirdi. Hərbçi qadınlar əsasən snayper kimi fəaliyyət göstərirdilər.

Elyar və döyüş yoldaşları onların hücumunun qarşısında duruş gətirə bilməyib qaçmağa çalışan heç bir düşmən hərbçisinin kənddən çıxmasına im-

kan verməmişdilər. 1-ci taborun çox da böyük olmayan bu döyüşçü qrupu düşmənin 150-200 nəfərə yaxın canlı qüvvəsinin bütün zabit-əsgər heyətini iki-üç saat ərzində tamamilə məhv etmişdilər. Bu isə bir daha Xüsusi Təyunatlı Qüvvələrin döyüş əzminin yüksək olmasından xəbər verirdi.

## TƏHVİL VERİLƏN QIRX TAPANÇA

Döyüşün ilk günündən qəhrəmanlıqla, şücaətlə döyüşən Elyar Vəliyev bir-birinin ardınca düşmənin yüksək rütbəli zabitlərini, hərbi döyüş texnikasını məhv etməklə düşmənə ciddi zərbə vurmuşdu. Keçdiyi bu qısa döyüş yolunda artıq məhv etdiyi rütbəli düşmən zabitlərindən götürüb, yuxarı komandanlığa təhvil verdiyi xidməti tapançaların sayı qırxa yaxınlaşırdı. Elyar döyüşlərin birində hətta yeddi düşmən zabitini eyni vaxtda, onları daşıyan hərbi maşını pusquya salaraq, elə təkcə bu gün isə Gorazilli kəndinə basqın nəticəsində daha iki düşmən zabitini məhv etmişdi. Döyüş zamanı ən xırda detallaradək heç nəyi gözdən qaçırmayan qəhrəman döyüşçümüz bu döyüşdə də komanda verən düşmən zabitini gözdən

qoymurdu. İmkan düşən kimi sözsüz ki, onu zərərsizləşdirəcəkdi. Hələlik isə qarşı tərəfdəki düşmənin canlı qüvvəsi vaxt itirmədən mümkün qədər tez məhv edilməli idi. Onlara kömək gəlməsinə imkan vermək olmazdı. Kənddə yerləşən evlərin arasına düşmənin nizamsız o tərəf-bu tərəfə qaçması qəfil basqın nəticəsində yaranan çaşqınlıqdan xəbər verirdi. Nəinki sıravi əsgərlər, hətta zabitlər də canlarını necə qaçıb qurtarmalarının yollarını axtarırdılar. Düşmən qüvvələri döyüşün gedişindən kəndə basqın edənlərin Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrindən olduğunu artıq təxmin etmişdilər. Odur ki, bu döyüşdən sağ çıxaçaqlarına ümidləri qalmamışdı.

Elyar bayaqdan gözündən qoymadığı zabitin Piyadaların Döyüş Maşınına yaxınlaşdığını gördü. Yəqin ki, düşmən zabiti əsgərlərin arasında gizlənərək qaçmaq istəyirdi. Elyar silahini ona tüşlayıb nişan aldı. Zabit maşına minməyə imkan tapmamış, Elyar bir atışla maşının kabinəsinə qalxmaq istəyən zabiti yerə aşırdı. Bunu görən maşına yaxınlaşmaq istəyən başqa bir düşmən zabiti də geri qaçmaq istəyərkən Elyarın açdığı sərrast atəşdən canını qurtara bilmədi. Görünən o idi ki, "Yaşma"nın nə olduğunu çox yaxşı bilən düşmən qarşılarında onları görcək qaçıb canlarını qurtarmaq üçün yer axtarırdılar. Azərbaycanın Xüsusi Təyinatlılarının əlindən qurtarmaq isə elə də asan deyildi.

Artıq bir neçə saat davam edən döyüş səngimişdi. Qarşı tərəfdən atışlar kəsilmişdi. 1-ci taborun qəhrəman döyüşçüləri kənddə mövqelənən düşmən canlı qüvvəsini tamamilə məhv etdiklərindən əmin olduqdan sonra kənddə arama-tarama işinə başladılar. Döyüşçülər kənddəki bütün evləri, ətraf əraziləri nəzərdən keçirtdilər. Elyar da bir az əvvəl məhv etdiyi Piyadaların Döyüş Maşınını yanında düşüb qalan erməni zabitlərinə yaxınlaşdı. Cəld hərəkətlə hər iki zabitin şəxsiyyətlərini təsdiq edən sənədləri, xidməti tapançalarını və döyüş silahlarını götürərək yenidən ərazini kontroldan keçirmək üçün döyüş yoldaşlarına qoşuldu.

Nəhayət, Xüsusi Təyinatlılar kəndin düşmən qüvvələrindən təmizləndiyinə əmin olduqdan sonra əməliyyatın başa çatması barədə yuxarı komandanlığa məruzə edildi. Döyüşçülər təmizlənmiş mövqeni təhvil vermək üçün ordumuzun bura gələcək hərbi qüvvələrini gözləyirdi. Mövqe təhvil verildikdən sonra 1-ci taborun döyüşçüləri Qırmızı Bazar istiqamətində irəliləyəcəkdi.

Elyar Vəliyev apardığı döyüşlərdə ümumilikdə qırx tapança təhvil vermişdi. Bu isə məhv edilən qırx erməni zabiti demək idi.

# GECİKMİŞ TƏBRİK

Bu gün - oktyabr ayının 17-si Elyarın ad günü olduğundan evdəkilər ondan səbrsizliklə zəng gözləyirdilər. Elyarın döyüşdüyü cəbhə bölgəsində qızğın döyüşlərin getdiyi xəbərləri gəlməkdə idi. Hər kəs kimi Arif kişi ilə Səmayə ana da Azərbaycan Televiziyası ilə cəbhədən verilən gündəlik xəbərləri, brifinqləri diqqətlə izləyirdilər. Ordumuzun artıq Hadrut yaxınlığında olduğu, tezliklə, bəlkə də yaxın saatlarda burada həlledici döyüşün olacağı xəbəri verilirdi.

Xüsusi Təyinatlıların bu istiqamətdə irəlilədiyindən evdəkilər də məlumatlı idi. Odur ki, Elyarın valideynləri yenə də canlarını qoymağa yer tapmırdılar. Oğullarının göstərdikləri qəhrəmanlıqlarla dildən-dilə, eldən-elə dolaşmaqda olan "Əfsanəvi tabor"da döyüşməsi onları nə qədər qürurlandırırdısa belə, yenə də  müharibənin amansızlığını, dəhşətini yaxşı anlayır, nigarançılıqdan bilmirdilər neyləsinlər...

Elyar təmtərağı sevməsə də, həmişə doğum günündə adına süfrə açılardı. Ad günü qeyd edilərdi. Bu il isə vəziyyət başqa idi. Nə Elyarla, nə də "Yaşma" şəhərciyində yaşayan həyat yoldaşı və beş övladı ilə bir yerə yığışa bilməmişdilər. Buna səbəb həm müharibə, həm də pandemiya idi.

Elyar hərbçi kimi bəzən ad günlərində də evə gələ bilmirdi. Amma buna baxmayaraq ata-anası nəvələrini, gəlinlərini tək qoymurdular.

Bu il isə onlar da məlum səbəblərdən bir yerə yığıla bilməmişdilər. Lakin həmin gün həm anası, həm həyat yoldaşı çox təmtəraqlı olmasa da onun adına süfrə açmışdılar.

Elyar hələ ki, zəng etməmişdi.

Elyarın həyat yoldaşı Türkanə də uşaqlarına atalarının gələ bilməyəcəyini deyib, onları süfrə başına toplamışdı. Uşaqlar yeməklərə fikir verməyərək masaya qoyulmuş tortun nə vaxt kəsiləcəyini, şamın nə vaxt yandırılacağını, ad günü mahnısının nə vaxt oxunacağının həvəsində idilər. Onların uşaq dünyasına hələ müharibənin dəhşətləri daxil olmamışdı. Hələ evlərindən savaşın soyuq küləkləri əsməmişdi.

Ana və nənə nə qədər cəhd etsələr də, uşaqlara yemək yedirtmək mümkün olmamışdı. Bunu görən ana masadakı tortun üzərinə şam qoyaraq yandırdı:

-Uşaqlar, bir az sakit olun. Hüseyn, Aydə siz bu yana keçin. Qaqaşlar da (artıq üç yaşında olan üçəmləri nəzərdə tutaraq) stulların üzərində ayaq üstə dayansınlar ki, onların da şamı söndürməyə boyları çatsın. Hamı birlikdə ad günü mahnısını oxuyuruq, sonra şamı söndürürük. Danışdıq?

Uşaqların sevincək səs-səsə verərək söylədikləri "mən söndürəcəm" sözləri bir-birinə qarışdı.

-Hamı birlikdə söndürəcək, - deyə anaları əlavə etdi. Mən bir-iki-üç sayacam, hamınız bir yerdə söndürərsiniz. Əvvəlcə, mahnını oxuyaq: "Ad günün mübarək, ad günün mübarək, ad günün mübarək ata, ad günün mübarək!"

Mahnı bitər-bitməz uşaqların əl çalması ilə gülüş səsləri bir-birinə qarışdı.

-Bir-iki-üç!

Ananın bunu deməsiylə eyni anda beş uşağın şamı üfürüb söndürməsi üçün şama tərəf uzanmaları bir oldu. Kimi sevincək qışqırır, kimi əlini torta uzadır, kimi şamı götürməyə çalışırdı. Qarışıqlıqdan başını itirən ana hansı uşağı sakitləşdirəcəyini bilmirdi.

-Yaxşı uşaqlar, sakit olun. İndi də tortumuzu kəsək, yeyək...

Tort kəsiləndən sonra artıq uşaqlar üçün "mərasim bitmişdi", yenidən öz uşaq aləminə dönmüş, başları oyuncaqlarına qarışmışdı.

Ad gününü qeyd etsələr də, gənc ana, evin gənc xanımı hələ də həyat yoldaşından xəbər tuta bilməmişdi. Elyarın ata-anası da bugünki telefon danışığı zamanı onlara da zəng etmədiyini söyləmişdilər. Türkanə isə həyat yoldaşından nigaran qalmasına, yorulmasına baxmayaraq yır-yığışla məşğul idi. Heç ağlına da gəlməzdi ki, bir gün sonra bu gün ad günü qeyd edilən, ad günü şamı söndürülən həyat yoldaşının həyatının şamı da birdəfəlik sönəcəkdi.

Bu gün Elyarın bacıları Şəbnəm, Dürsədəf, Nigar da ata-analarını tək qoymamışdılar. Bilirdilər ki, anası süfrə açmamış deyil. Həm də gündüz telefonla əlaqə saxlayıb Elyarın bu gün zəng etmədiyini öyrənmişdilər. Zəng olmayan gün isə ata-analarının boğazından yenə yemək keçməyəcəyinə, süfrəyə əl uzatmayacaqlarına əmin idilər. Odur ki, Elyarın ad günündə onları tək qoymamaq üçün hər üçü ata evinə gəlmişdi. Artıq gecədən xeyli keçməsinə baxmayaraq heç bir xəbər yox idi. Telefon susurdu. Heç Elçin də bu gün zəng etməmişdi.

Qızlar nə qədər təkid etsələr də, yenə nə ata, nə ana süfrəyə əl uzatmadılar. Süfrə necə açılmışdısa eləcə də qalmışdı. Ortalığa dərin bir sükut çökmüşdü. Təkcə divar saatının əqrəblərinin səsi eşidilirdi.

Sükutu Arif kişi pozdu. Üzünü qızlarına tutub:

-Daha gecdir. Siz gedin. Evdəkilər də sizdən nigaran qalmasın. Zəng edin gəlib sizi aparsınlar. Biz onsuz da ananla alışmışıq baş-başa verib gözləməyə. Bircə bu lənətə gəlmiş müharibə qurtarsaydı.

Arif kişi dərindən ah çəkərək masa arxasından qalxıb balkona çıxdı.

-Müharibədir. Yəqin Elyar imkan tapmayıb, imkan olan kimi zəng edəcək. Ana, özünü bu qədər üzmə, atamı da daha da darıxdırma,- deyərək kiçik qızları Nigar anasına təsəlli verməyə çalışdı.

Gözləri dolmuş ana:

-Can bala, görəsən indi hansı soyuq səngərdəsən?, - deyərək dərindən ah çəkdi.

-Yaxşı ana, bizi də darıxdırma. Dur, bir havaya çıxaq. Bir də gördüz Elyar da zəng elədi.

Qızlar analarını birtəhər dilə tutub otaqdan çıxartdılar. Onlar evə gedənə qədər yenə bir az balkonda gəzişər, bəlkə fikri dağılardı.

Artıq qızlar da getmişdi. Yenə də Arif kişi ilə Səmayə ananın yuxusu qaçmış gözləri masa üzərindəki telefona tikilmişdi. Elyardan isə zəng gəlmirdi ki, gəlmirdi...

Səhəri diri gözlü açdılar.

-Səmayə, saatdan xəbərin var? Yeddiyə on dəqiqə qalır. Dur düşək həyətə. Heç olmasa mal-qaranı, toyuq-cücəni özümüz kimi ac saxlamayaq. Onların nə günahı var. Mal-qara, toyuq-cücə nə bilir müharibə nədir?

-Düz deyirsən, ay Arif.

Bunu deyib, Səmayə ana yerindən qalxdı. Arif kişi ilə birlikdə həyətə çıxdılar.

Arif kişi heyvanları tövlənin həyətindən çıxarıb kəndin otlağa gedən heyvanlarına qatdı. Səmayə ana da toyuq-cücəni yemləyib yenidən balkona çıxdı. Bu zaman masa üzərində qalan telefonun zəng çaldığını eşitdi. Hövləkan özünü içəri atdı. Telefonun ekranında Elyarın adının yazıldığını görcək necə qışqırdısa, səsi kücədə belə eşidildi.

Küçədə rastlaşdığı qonşuyla söhbət edən Arif kişi səsi eşitcək qonşuyla tələsik sağollaşıb özünü həyətə saldı.

Bu zaman əlində telefonu tutan Səmayə ana balkona çıxaraq, yüksək səslə:

-Arif, Elyardı!

-Gəldim.

Qaçaraq balkona çıxan Arif kişi telefonu ondan almağa qıymadı. Başının hərəkəti ilə danış işarəsi verdi.

-Salam, ata.

Xəttin o biri başından Elyarın səsi gəldi.

-Can bala, anandı. Atan həyətdə idi. Ona görə mən açdım telefonu. Necəsən, ay Elyar? Dünəndən gözümüz telefona dikilib. Qulağımız səsdədi, səndən zəng gözləyirik.

-Ana, müharibədir axı. Həmişə imkan olmur zəng etməyə. Necəsiz? Atam neynir?

-Yanımdadı. Gördü telefonu mən götürdüm, növbə gözləyir.

Bunu deyib gülümsəyərək ərinə baxdı. Ad günün də mübarək, ay oğul. Gecikmiş də olsa təbrikimizi qəbul elə. Sağ-salamat gəl, İnşallah, gələn dəfə dünənki ad gününün də əvəzini çıxarıq. Yəqin Türkanə ilə də danışmısan? O da deyirdi adına süfrə açıb.

-Hə, Türkanəyə də zəng etmişdim. Təbrik üçün də çox sağ ol. Ay ana, boş ver ad gününü, özünü darıxdırma. Onsuz da mən ad günü keçirməyi sevmi-

rəm. Bir dəfə ad günü qeyd etməyəndə dünya dağılmayacaq ki? İndi əsas məsələ müharibədə qalib gəlməkdi. Ad günümü qələbədən sonra da qeyd edə bilərik.

-İnşallah, oğul. Telefonu verim bir-iki kəlmə də atanla danış. Birdən qəfildən xətt kəsilər. Dünəndən o da özünə yer tapmır.

Bunu deyib, tələsik telefonu həyat yoldaşına uzatdı.

-Salam, ay oğul. Necəsən? Ad günün də mübarək. 30 illik yubileyini təmtəraqlı keçirmək atanın boynuna. Bircə qələbə çalın gəlin! Gör atan neyləyəcək. Nə qonaqlıqlar verəcək.

-Salam ata, çox sağ ol. Sağlığın bəsdir.

-Sən sağ ol, ay oğul. Həmişə başımızı uca eləmisən, qəhrəman balam. Qəhrəmanlığının səsi-sorağı buralara qədər gəlib çatıb. Haqqımız halalın olsun!

-Az qalıb, ata! Düşmənin artıq belini qırmışıq. İzləri-tozları da qalmayacaq torpaqlarımızda. Özünüzdən muğayat olun. Vaxtım azdı. Hələlik, ata!

Övladlarına çox bağlı olan Arif kişi ilə Səmayə anaya bu telefon danışığından sonra elə bil dünyanı bağışladılar.

-Tez qızlara da xəbər ver. Nigarandılar.

-Düz deyirsən, Səmayə. Dünəndən qızların da qulağı səsdədir.

Bunu deyib Arif kişi bir-bir qızlarının nömrəsini yığıb Elyarın səng etdiyini onlara da xəbər verdi.

## DAĞLARA SƏDA DÜŞDÜ

Səhər yenicə açılırdı. Evlərinin pəncərəsindən görünən dağa sarı baxan Mehman telefonuna gələn zəng səsinə döndü. Telefonu masanın üstündən götürüb açdı. Zəng edən dostu Nurlan idi:

-Salam Mehman.

-Salam Nurlan. Səhər tezdən xeyir ola?

- Heç bilmirəm necə deyim, xeyir xəbər deyil. Elyar və döyüş yoldaşlarının çoxu dünən axşamüstü Xocavənddə, Şuşaya on dörd kilometr qalmış, Qırmızı Bazar ərazisində şəhid olublar. On beş kilometr içəridə qaldıqları üçün hələ onların nəşini oradan çıxarmaq mümkün olmayıb. Nə vaxt çıxarılacaqları da məlum deyil.

Aldığı xəbərin təsirindən özünü itirən Mehman dostunun telefonda daha nə söylədiyini anlamaq iqtidarında deyildi. Bunu hiss edən Nurlan bir qədər uca səslə:

- Mehman, özünü ələ al, yeni bir xəbər olsa deyəcəm sənə. Yəqin çox çəkməz, uşaqların nəşini çıxararlar.

- Srağagün ad günü idi. Amma zəng edə bilməmişdi. Əmimgil çox nigaran idi. Dünən mən soruşanda əmim Elyarın zəng etdiyini dedi. Dedi ki, gec də olsa ad gününü təbrik elədik.

Nurlan daha bir söz deməyib, Mehmanla olan telefon danışığını bitirdi. O, Elyarın şəhid olduğu dö-

yüşün təfərrüatından xəbərsiz idi. Yalnız bu döyüşdə Elyarın da daxil olduğu 1-ci taborun böyük itki verdiyi haqda məlumatlı idi.

Xəbəri eşidən Mehman bir anlığa nə edəcəyini bilmədi. Bu xəbəri əmisinin ailəsinə necə çatdıracaqdı? Hələ ki, bu barədə əmisigilə xəbər verməməyi qərara aldı. İlk yadına düşən adam yaxın dostu Aqil oldu. Tez onun telefon nömrəsini yığdı. Heç bir-iki saniyə keçməmiş dostunun səsi eşidildi:

-Eşidirəm, Mehman. Səhər-səhər xeyir ola?

-Aqil, xeyir deyil, əmim oğlu Elyar şəhid olub.

-Nə danışırsan? Nə vaxt?

-Dünən. Mənə də indi xəbər verdilər. Bilmirəm əmimgilə necə deyim? Bəlkə hələ bir söz deməyim? Gedə bilərsən mənimlə?

-Əlbəttə. Hara getməliyik?

-Dedilər Füzuliyə gətirməlidirlər. Amma hələ döyüş bölgəsindən çıxara bilməyiblər.

-Harada şəhid olub?

-Xocavənddə, Şuşa istiqamətində.

-Gəlirəm indi.

-Gözləyirəm. Heç kimə heç nə demə.

-Arxayın ol.

İki dost tələsik Füzuliyə yola düşdülər.

-Aqil, mən hərbi komissarla əlaqə saxlayım, Elçini də döyüş zonasından arxaya gətirsinlər, heç olmasa qardaşının dəfnində iştirak etsin.

-Hə...Düz deyirsən. İndidən zəng etsən yaxşı olar.

Mehman özü də hərbçi idi. Rayondan çıxmamış hərbi komissarla əlaqə saxlayaraq olanlar haqqında məlumat verdi.

Yol elə bil uzandıqca uzanırdı. Araya ağır bir sükut çökmüşdü. Dostlar susurdular. Onlar artıq Kürdəmiri keçmiş, Füzuliyə doğru uzanan yolun İmişlidən keçən hissəsiylə irəliləyirdilər. Mehmanın telefonuna gələn zəng sükutu pozdu.

Gələn zəng kənddən, evlərindən idi. Arif əmisinə zəng gəldiyini bildirdilər. Deyəsən uşaqlardan birinə nəsə olubmuş.

Bu xəbəri eşidən Mehman tez qonşu kənddə yaşayan əmisinə zəng etdi.

-Salam, əmi. Necəsən? Eşitdim uşaqlardan xəbər gəlib. İnşallah ki, uşaqlar salamatdı?

-Mehman, Elyarın vurulduğunu dedilər.

Bunu deyən Arif kişini qəhər boğdu. Özünü daha saxlaya bilməyib hönkürdü.

- Narahat olma, əmi. Evdən mənə dedilər. Mən də dostlarla əlaqə saxladım. Öyrənib dedilər onların döyüşdükləri yerdə xeyli yaralanan var. Füzuliyə, hospitala gətirəcəklər. Mən artıq yoldayam, gedirəm. Narahat olmayasan deyə sənə demədim. Fikirləşdim ki, özüm gedim görüm necədi, harada yaralanıb, sonra sizə deyim. Sən evdə ol. Çatan kimi sənə vəziyyəti deyəcəm.

-Yaxşı, oğul.

Xəbəri eşidən Sədəfli kəndinin camaatı da Arif kişinin evinə doğru axın etməyə başlamışdi. Artıq həyətdə xeyli adam vardı. Qadınlarsa içəridə idi. Onlar da Səmayə anaya təsginlik verirdilər. Oğlunun tez sağalması üçün dua edirdilər. Mehmanın da ailə üzvləri xəbəri eşidən kimi Bədəlli kəndindən qonşu Sədəfli kəndinə getmək üçün yola çıxdılar. Arif kişinin daha səbri çatmadı. Günortadan keçməsinə baxmayaraq o da Füzuliyə getmək qərarına gəldi.

-Mən burada gözləyə bilmərəm. Məni yəqin ki, başa düşərsiz. Gedim görüm oğlum nə vəziyyətdədir. Yəqin ki, indiyə kimi Füzuliyə gətirərlər. Yaralıları birinci oradakı hospitallara yerləşdirirlər.

Onu hər kəs çox yaxşı başa düşürdü. Arif kişini tək qoymaq istəməyən bir neçə şəxs də onunla getmək qərarına gəldilər. Axşamüstü artıq onlar da Füzuliyə çatmışdılar.

Əmisigil gələnə kimi isə Mehman artıq bir neçə yerlə əlaqə saxlamış, hələ Elyar və şəhid olan digər döyüş yoldaşlarının nəşini çıxarmağın mümkün olmadığını öyrənmişdi.

Mehman əmisinin bir neçə kənd sakini ilə birgə gəldiyini görəndə, Elyarın şəhid olması xəbərini gizlətməyin artıq mənasız olduğunu düşündü. Və Elyarın şəhid olduğunu söylədi. Xəbərdən özünü itirən ata yerə çökdü. Mehman və ətrafda olanlar onu sakitləşdirməyə çalışdılar.

-Özünü ələ al, müharibədir. Görürsən ki, buraya nə qədər yaralı, şəhid gətirilir.

-Elyar belimi qırdı, Mehman.

Bu sözdən sonra Mehman daha özünü saxlaya bilmədi. Göz yaşları içində əmisinə necə təsəlli edəcəyini bilmədi. Dostu Aqil təsəlli vermək istədi:

-Arif əmi, müharibədir, bir az özünü ələ al. Sən evə qayıtsan yaxşıdır.

-Əmi, Aqil düz deyir. Onsuz da biz gözləyirik. Sən evə qayıtsan yaxşıdır. Nəşini gətirənə qədər evdə şəhid olmasını da demə. Deyərsən yaralıdı. Hərbi komissarlıqla əlaqə saxlamışam, yəqin ki, Elçinə də dəfndə iştirak etməsi üçün bir-neçə günlüyə icazə verəcəklər. Mən buradan əlaqə saxlayacam. Yəqin icazə versələr elə bura düşürərlər. Elçin də Füzuli cəbhəsində döyüşür. Heç Elçinə də şəhid olmasını deməyəcəm. Komissarlıqdan da xahiş etmişəm ki, Elçinə Elyarın şəhid olmasını deməsinlər, yaralı olduğunu desinlər.

Belə razılığa gələndən sonra Arif kişi onunla gələn adamlarla birgə yenidən kəndə qayıtdı. Dərdli ata yol boyu bu xəbəri necə gizləyəcəyini düşünürdü. Bəs Elçin Elyarın şəhid olduğunu biləndən sonra necə olacaqdı? Axı hələ müharibə bütün şiddəti ilə davam edirdi. Həm də Elçin hələ hərbi xidmət müddətini başa vurmamışdı. Bundan sonra onun halı necə olacaqdı? Necə döyüşəcəkdi? Bəs ona da bir şey olsa... Arif kişi gözünü yumub, başını silkələyərək

sanki beyninə gələn bu fikirləri qovmağa çalışdı. Dərdi üstünə dərd yüklənən, dərdin ağırlığından qəddi əyilən ata bu düşüncələr içində bütün yol boyu qıvrıla-qıvrıla qaldı.

Onları kəndə yola salan Mehman isə tez-tez həm birbaşa cəbhədə olan, həm də döyüş bölgəsi ilə əlaqəsi olan dostlarının nömrəsinə yığırdı. Aldığı məlumat isə bu idi: Qırmızı Bazar istiqamətindəki döyüşlərdə Elyar və döyüş yoldaşlarından bir çoxu şəhid olublar. Düşmən həmin mövqeləri fasiləsiz atəş altında saxladığından hələ ki, onların nəşini döyüş mövqeyindən çıxarmaq mümkün olmayıb. Mehmanla dostunun gözləməkdən başqa çarəsi qalmamışdı.

Səhərisi gün Mehmana hərbi komissarlıqdan gələn zənglə Elçinin beş-on dəqiqəyə hospitalın həyətinə çatacağı xəbəri verildi.

Mehman təşəkkür edib, özünü ələ alaraq, narahatlıqla gözləməyə başladı. Axı Elyarın şəhid olma xəbərinin dəfnə qədər ondan da gizlədilməsi qərara alınmışdı.

Dostunun həyəcanlı olduğunu görən Aqil:

-Özünü ələ al, Mehman...Elçin bir şey hiss etməsin. Sakitliklə rayona yola sala bilək. O da müharibənin odunun-alovunun içindədir.

-Çalışıram, Aqil.

Elə bu zaman hərbi formada olan Elçin Füzuli Rayon Mərkəzi Hospitalının həyətində göründü. Mehmanı görcək iti addımlarla onlara yaxınlaşdı. Elçin

çatar-çatmaz Mehman onu qucaqlayaraq görüşdü. Sonra eyni səmimiyyətlə Mehmanın dostu Aqil də onunla görüşdü.

-Elyar Xocavənddə, Şuşa istiqamətində ağır yaralanıb, hələ ki, təxliyə edə bilməyiblər. Deyəsən heç bu gün də mümkün olmayacaq. Mənə elə dedilər.

-Görəsən harasından yaralanıb?

-Hələ ki, mənə də dəqiq bir söz deməyiblər. Deyiblər burada gözləyin, bura gətiriləndən sonra bəlkə Bakıya hərbi qospitalların birinə göndərdilər. Belə deməkdə, yəqin ki, yarası ağırdır.

-Təki sağalan olsun.

-Siz hara kimi irəliləmisiz?

-Füzulinin "kruq"una kimi gedib çıxmışdıq. Yenidən hücuma hazırlaşırdıq ki, mənə dedilər səni ehtiyata-arxa cəbhəyə düşürürük. Arxaya düşürəndən sonra Elyarın yaralanması haqqında məlumat verdilər. Ailə vəziyyətinə görə bir həftəlik məzuniyyət veriblər.

-Bəlkə heç sən burada gözləməyəsən? Evinizdə də hər kəs nigarandır. Yenə sən getsən, səni görüb bir az səbirli olarlar, təskinlik taparlar.

Aqil söhbətə qarışdı:

-Getsən yaxşıdır, Elçin. Mehman düz deyir. İkiniz də cəbhədə, müharibədə, ata-ananın nə çəkdiyini bizdən yaxşı bilərsən. Səni görüb yenə bir az sakitləşərlər.

-Məsləhətdirsə gedim.

-Onda mən kəndə xəbər verim, səni qarşılamağa çıxsınlar. Həm müharibə, həm pandemiya get-gəli çətinləşdirib. Yollarda nə qədər postlar var.

Bunu deyib, Mehman qardaşına zəng etdi. Elçini qarşılamaq üçün gəlmək lazım olduğunu söylədi.

Qardaşı isə bacılarının oğlunu da götürüb, vaxt itirmədən yola çıxacağını dedi.

-Yaxşı, onda mən də Elçinlə buradan çıxım, yolda sizə təhvil verərəm.

Bunu deyib telefon danışığını bitirən Mehman üzünü Aqilə tutdu:

-Mən Elçini yola salıb qayıdıram. Sən burada gözlə. Birdən Elyarı gətirərlər. Sonra onu gözləyən olmadığını düşünməsin.

Mehman Elçinə Elyarın yaralı olduğuna inanması üçün Aqilə qəsdən belə deyirdi.

-Yaxşı, Mehman. Sən gələnə kimi gətirsələr, deyərəm Mehman Elçini kəndə yola salmağa getdi. Amma mənə elə gəlir bu tezliklə gətirməzlər. Yaralılar çoxdur deyirdilər.

Mehmanla Elçin Aqillə sağollaşıb hospitalın həyətindən çıxdılar. Maşına əyləşib Qobustan rayonu istiqamətinə yol aldılar. Kürdəmirdə yerləşən Aviasiya hərbi hissəsinin qarşısında Mehman Elçini onu qarşılamağa gələn qardaşı ilə bacısı oğluna təhvil verib geri döndü.

Elçin evlərinə çatanda həyətlərinin adamla dolu olduğunu gördü. Elyarın yaralanma xəbərini eşidib

təsəlli üçün gəldiklərini düşündü. Elə evdə də ona belə dedilər.

İki gün keçməsinə baxmayaraq Elçin hələ də Elyarın yaralı olduğunu düşünürdü. Onun necə peşəkar hərbçi olduğunu bildiyi üçün şəhid olacağını ağlına belə gətirmirdi.

Artıq oktyabrın 23-ü axşamüstü adamların davranışından, qadınların ağlamağından vəziyyətin nə yerdə olduğunu anlayan Elçin Mehmana zəng etdi. Elyarın şəhid olma xəbərini gizlətməyin daha mənasız olduğunu düşünən Mehman həqiqəti açıb deməyə məcbur qaldı. Xəbəri eşidən Elçin həmin anda nə edəcəyini, nə söyləcəyini bilmədi. Özündə deyildi... Bundan sonra Elyarın yoxluğu ilə necə barışacaqdılar... hər tərəfi çarəsizlik bürümüşdü.

Mehman hərbi hospitalın həyətinə qayıdanda Aqil hələ də Elyarın nəşinin gətirilməsindən bir xəbər olmadığını söylədi. Dostlara yenə gözləmək qalırdı.

Üçüncü gün idi ki, dostlar burada gözləməyə davam edirdilər. Mehman üzünü Aqilə tutdu:

-Artıq üç gündür sən də mənimlə gözləyirsən. Bəlkə sən də qayıdasan. Burada ikimizin də gözləməyi mənasızdır. Sənə qıymıram. Neçə gündür mənimlə birlikdə əziyyət çəkirsən. Həm də bəlkə orada burdan daha çox lazım olarsan. Allah bilir əmimgil indi nə haldadır.

-Necə məsləhətdi. Səninlə axıra kimi gözləyə də bilərəm. Yenə sən belə məsləhət bilirsənsə, qayıdaram. Amma yenə lazım olsam çəkinmə xəbər ver. Allah eləsin tez gətirib çıxarsınlar. Sən deyən kimi, kim bilir, Arif əmigil indi nə haldadırlar.

Dostlar razılaşdılar. Aqil oktyabrın 23-ü səhər Qobustan rayonuna qayıtdı.

Mehman isə hələ də gözləyirdi. Nəhayət, günorta saat 11-12 radələrində Elyarın da nəşinin digər şəhidlərlə bərabər döyüş zonasından çıxarılaraq Füzuli Rayon Hərbi Hospitalına yola salındığı barədə məlumat verildi.

Bir neçə saat keçdikdən sonra isə Şəhidlərin qohumlarına morqa daxil olmağa icazə verildi.

Mehman da Elyarın nəşini tanımaq üçün morqa daxil oldu. Morqa yerləşdirilmiş Şəhidlərin nəşi arasında Elyarı görən kimi tanıdı. Elyar neçə gün əvvəl şəhid olmasına baxmayaraq sanki yatıb yuxuya getmişdi. O, ürəyindən aldığı güllə yarasından şəhid olmuşdu. Bunu onun sinəsinin sol tərəfində, ürək nahiyəsində qana boyanmış paltarından da təyin etmək olardı.

Artıq gün batmaq üzrəydi. Mehman Elyarın nəşini başqa bir Şəhidin nəşilə birlikdə yuyulub kəfənlənməsi üçün Füzuli rayon məscidinə apardı. Digər Şəhidin hələ yaxınları gəlib çıxmadığından, Mehman onu da ən əziz doğması kimi məscidə gətirmişdi. Hər iki Şəhidin nəşi yuyulub, kəfənlənib, Dövlət

Bayrağına büküldükdən sonra yenidən ailəsinə təhvil vermək üçün hospitala qaytarılmışdılar. Artıq çox gec olduğundan Şəhidin nəşini rayona sabah səhər aparmağa qərar verilmişdi.

Səhər tezdən Qobustandan gələn Təcili Yardım maşını Şəhid Elyar Vəliyevi doğulduğu kənddə dəfn edilməsi üçün yola düşmüşdü. Kəndə çatanda həyət adamla dolu idi. Artıq üç gün idi gedən-gələnin arası kəsilmirdi. Bir çoxları Elyarın şəhid olduğunu bilsə də, bu xəbəri anasından, ailə üzvlərindən gizlədirdilər. Arif kişi isə oğlunun artıq həyatda olmadığını bilirdi. Oğul itirməyin dərdi bir yana, onun ölümünü, nəşi gəlib evə çıxana qədər ailə üzvlərindən gizlətmək isə başqa bir işgəncə idi.

Təcili Tibbi Yardım maşını həyətə girər-girməz Səmayə ana özünü hövləkan bayıra atdı. Qapısı açılan maşından düşürülən bayrağa bürünmüş tabutu görcək ananın: "Can bala, ölüm mənimdir", - deməsi ilə özündən getməsi bir oldu.

Yaxınlıqda olanlar tez Səmayə ananı yerdən qaldıraraq evə apardılar. Dəfnə kimi onun özünə gəlməsini gözlədilər. Ana isə özünə gəlmək bilmirdi.

Çağırılan həkimin müdaxiləsindən xeyli vaxt keçəndən sonra ananı özünə gətirmək mümkün olmuşdu. Huşu özünə gələn ana çarəsiz baxışlarla ətrafa baxırdı. Otaqda olan qadınların ona dikilən baxışlarından dərdinin nə qədər ağır olduğunu artıq anlamağa başlamışdı. O, Elçinindən daha çox nigaran idi.

Elyarın düşmən gülləsinə tuş gəlməyəcəyinə özünü inandırmışdı. Yavaş-yavaş aldığı xəbərin acısını ruhuyla, cismiylə duyduqca, ahu-naləsi otaqdakı qadınları da ağlatdı.

-Can bala, sənin nə yaşın var ki, indidən bala dərdi çəkəsən?

Kürəyini divara söykəyib, Səmayə ana ilə üzbəüz oturan yaşlı qadının bu sözləri şəhid xəbərini eşidib gələnlərə dərdin böyüklüyünü bir daha xatırlatdı. Qadınların ağlaşma səsi Səmayə ananın fəryadına qarışaraq dağlarda əks-səda verdi.

-Can bacı, dərdinə bacın qurban! Allah necə qıydı sənə, sənin balana? Dərd hamımızındı, xalan ölsün ay Elyar!, - deyərək Sənubər də ahı göylərə bülənd olan bacısına qoşularaq fəryad etdi.

Elyarın həyat yoldaşı Türkanəyə də Elyarın yaralandığı üçün hospitala gətiriləcəyini demişdilər. O da Elyarı hospitalda ziyarət edəcəklərini nəzərə alaraq beş uşaqla birlikdə qayınata evinə gəlmişdi. Türkanə bayrağa bürünmüş tabutun həyətə gətirildiyini görəndə yerindəcə hərəkətsiz qaldı. Əbədi ayrılığın küləyi onun bütün bədənini, ruhunu üşütdü. Həyətdəki mənzərəni görən Türkanənin Elyarın tabutuna baxan gözlərində sonuncu ümid işığı da söndü. Elyarın ölümüylə birlikdə olduqları yeddi illik ailə həyatının da sona çatdığını anladı. Daha nə həyatda Elyarı görə, nə də səsini eşidə biləcəkdi. Birlikdə qurduqları xəyallar, arzular Elyarın həyatı kimi yarım qalmışdı.

Məramı, məqsədi hətta həyatı bahasına olsa da vətəninin işğal altında olan torpaqlarını azad etmək olan gənc həyat yoldaşı ölümüylə, şəhadətiylə sözünün adamı olduğunu bir daha sübut etmişdi.

Gənc qadın müvazinətini itirib yerə çokdü. Bunu görən yaxınlıqdakı qadınlar tez özlərini yetirdilər.

-Can bala, özünü ələ al. Allah düşmənlərimizin kökünü kəssin. Nə qədər qızı-gəlini, ananı-atanı ağlar qoyublar. Ürəyinə dağ çəkiblər. Müharibədir, bala, yenə möhkəm ol. Beş balan var. Onlar görə güclü olmalısan.

Göz yaşları yanaqlarına süzülən Türkanənin ümidsiz baxışları yenidən Elyarın tabutuna dikilmişdi.

O üzünü dərd içində qıvrılan baldızı Şəbnəmə tutaraq:

-Niyə mənə yalan dediz, niyə Elyarın şəhid olması xəbərini mənə demədiniz?

-Biz bilib neyləyə bildik ki? Üç gündür dərd ürəyimi partladır. Dözmək çətindir, çox çətindir, Türkanə. Elyarın dərdi hamımızın belini qırdı. Fikirləşdik ki, heç olmasa bir-iki gün olsa da səni bu dərddən uzaq tutaq.

Türkanə daha bir söz deməyib susdu. Danışmağa heç taqəti qalmamışdı. Onun da ah-nalə dolu səsi ağı deyən qadınların səsinə qarışdı.

Kovid-19 pandemiyası ilə əlaqədar insanların kütləvi şəkildə bir yerə toplaşmasına qadağa qoyulmasına baxmayaraq, bu kiçik ev dolub-dolub boşalır,

gələnlər gah Səmayə anaya təsəlli verir, gah Elyarın həyat yoldaşını, bacılarını sakitləşditməyə çalışır, gah da onlara qoşulub bu qəhrəman şəhidin ölümünə göz yaşı tökürdülər.

Bu xəbəri eşidib-bilib gələn qohum-əqrabadan, dost-tanışdan və kənd camaatından olan, həyətdə toplaşmış kişilər isə Arif kişiyə və Elçinə təsəlli verməyə çalışırdılar.

Şəhid xəbərinə toplaşan insanları nə həyət, nə küçə tuturdu.

Sədəfli kəndinin söykəndiyi dağlar bəlkə də yarandığı gündən belə iztiham görməmişdi. Heç Sədəfli kəndinin sakinləri də hələ belə bir izdiham yaşamamışdılar. Elyarın şəhid olması xəbəri qısa müddətdə ətraf kəndlərə də yayılmışdı. Kənd yolunda görünən hər kəsin səmti Arif kişinin evinə tərəf idi. Bu kiçik evin kiçik həyəti insanlarla dolub-boşalırdı. Oğlunun şəhid olmasını eşitdiyi andan şux qaməti əyilən Arif kişi isə bu xəbərə heç cür inanmaq istəmirdi.

Nəhayət, qəhrəmanlıqla şəhid olan Elyarın Dövlət Bayrağına bürünmüş tabutu dəfn edilmək üçün qaldırıldı. Ailə üzvləri və yüzlərlə insan hərəkətə gəldi.

Dağların ətəyi ilə yol boyu sanki insan seli axırdı. Arif kişinin həyətindən çıxaraq məzarlığa doğru irəliləyən, rayon rəhbərliyindən tutmuş kəndin az yaşlı məktəblilərinə qədər hər kəsin qatıldığı böyük izti-

ham və onların başları üzərində dalğalanan ay-ulduzlu üçrəngli bayraqlar da uğrunda şəhid olan Elyar Vəliyevi son mənzilə yola salırdı. "Şəhidlər ölməz, vətən bölünməz!" şüarları dağlara əks-səda verirdi. Bu ucalan səsləri Elyarın ruhu da duymamış deyildi. O ruh ki, yarandığı gündən vətən, torpaq sevgisiylə yoğrulmuşdu. Elyarı bir evin oğlundan bir elin oğluna çevirmişdi. Onun qəhrəmanlığı təkcə döyüş yoldaşları arasında deyil, bir neçə gün ərzində artıq bütün bölgəyə yayılmışdı. Dəfn zamanı söz söyləyənlər onun keçdiyi həyat yolundan, şəhid olan günə qədər eşitdikləri düşmənlə döyüşdə göstərdiyi qəhrəmanlıqlarından danışırdılar. Dəfndə iştirak edən hərbçilərdən biri çıxışında onun bir döyüşçü kimi qəhrəmanlığını dilə gətirdi:

-Gizir Elyar Vəliyev düşmənə qarşı apardığı döyüşlərində yüzlərlə düşməni, neçə-neçə rütbəli düşmən zabirlərini məhv edib, düşmənin neçə-neçə hərbi texnikasını, silah-sursatını, rabitə sistemini sıradan çıxarıb. Onun döyüşlərdə göstərdiyi böyük qəhrəmanlıqlar bundan sonra da dillərdə dastan olacaq, daim xatırlanacaqdır. Yəqin ki, onun döyüşləri müharibə bitdikdən sonra bütün təfərrüatı ilə açıqlanacaq. Gələcək nəsillər üçün bir örnək olacaq. Vətən üçün belə övlad böyüdüb tərbiyə edən valideynlərin qarşısında, Şəhidimizin ruhu qarşısında baş əyirik. O, Füzulinin, Cəbrayılın, Xocavəndin, Hadrutun azad olunmasında misilsiz qəhrəmanlıqlar göstər-

mişdir. Vətənimizin işğaldan azad olunması uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanımızın fədakarlığını heç vaxt unutmayacağıq. VƏTƏN SAĞ OLSUN!

Ürəyi dərd dolu, bağrı qan olan Arif kişi hələ ki, oğlunun hansı şəraitdə şəhid olmasını öyrənə bilməsə də, qəhrəmancasına şəhid olmasına əmin idi. Ata qəddini əyən dərdə yenilməməyə çalışırdı. Azərbaycan bayrağı təqdim edilən ata bayrağı öpərək gözləri üstünə qoydu, bir ağızdan səslənən "Vətən, sənə canım fəda!" şüarının sədaları altında özünü tolayıb, Şəhid balasının məzarı önündə bu sözləri söylədi:

- Vətən sağ olsun! Elyar kimi oğullar yenə doğular, amma vətənimiz işğalda qala bilməz. Torpaqlarımızı işğaldan azad etmək Elyarın da ən böyük arzusu idi. O, bu arzu ilə hərbçi olmağı seçmişdi, hərb sənətinə yiyələnmişdi. Elə bu arzu ilə də Vətən uğrunda, torpaqlarımızı işğaldan azad etmək üçün müharibənin ilk günündən döyüşə qatılmışdı. Bu gün mən təkcə bir ata kimi deyil, bir Azərbaycan vətəndaşı kimi onun məzarı önündə baş əyirəm, diz çökürəm. İnşallah, onun vətən torpaqlarını düşmənlərdən təmizləmək üçün qatıldığı savaş, qəhrəman ordumuz tərəfindən qalibiyyətlə başa çatdırılar. Onun da ruhu şad olar. Tezliklə bu arzuya bütün xalqımızın çatacağına mən inanıram. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Sözünü bitirən ata qəhrəman oğlunun məzarı önündə yerə çökdü, məzarı üzərindəki torpağı öpərək baş əydi. Oğluna və torpaq uğrunda canından keçən bütün şəhidlərə Allahdan rəhmət dilədi.

Yenidən səslənən "Şəhidlər ölməz, vətən bölünməz!" süarı Qobustan dağlarında əks-səda vermişdi. Vətəninə, millətinə, torpağına sonsuz sevgi ilə bağlı olan Elyar, vətənin düşmən işğalında olan torpaqlarının azadlığı uğrunda tərəddüt etmədən, göz qırpmadan, qəhrəmanlıqla canını fəda etmişdi. O da cəmi 40 döyüşçü ilə Çin sarayını basan Kürşad kimi, təkbaşına Erməni Silahlı Qüvvələrinin zastavasına hücum edərək 5 saatlıq döyüşdə 140 nəfər düşməni məhv edən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov kimi "Əfsanəvi tabor"un iyirmi-iyirmi beş nəfərlik bir qrupu ilə yalnız bir döyüşdə yüzlərlə düşməni məhv etmişdi. Düşmən üzərinə qorxmadan yürümüşdü. Ölümü yataqda deyil, döyüşdə seçmişdi. "Bir Türk bir dünyaya bədəldir" deyimi Elyar kimi qorxmaz, cəsur, cəsarətli, vətən sevgisini hər şeydən üstün tutan oğullar üçün deyilmiş bir deyimdir. Elyar da bir türk övladı, bir Azərbaycan oğlu kimi düşməndən qisasını almışdı. Bu qəhrəmanlığa yer də, göy də alqış deyirdi. Bu igid, qorxmaz türk oğlunun etdikləri türkün qəhrəmanlığının bitmədiyinin, döyüşçü ruhunun ölmədiyinin isbatı idi. Elyar kimi oğulların göstərdiyi qəhrəmanlıq yeni Kürşadların yetişdiyinin təcəssümü idi. Bu savaşın belə igidlərin

cəsurluğu, cəsarəti sayəsində tez bir zamanda qələbə ilə bitəcəyinin xəbərçisi idi. Hələ ki, 2020- ci il, oktyabr ayının 24-ü idi. Düşməni işğal olunmuş torpaqlardan qovmaq üçün aparılan qanlı müharibə isə bütün şiddəti ilə davam edirdi...

## DÖYÜŞ DOSTLARINI SARSIDAN XƏBƏR

Elyarın və digər döyüş yoldaşlarının şəhid olması xəbəri döyüşlərdə yaralanaraq hospitallarda müalicə alan döyüş dostlarını çox sarsıtmışdı. Oktyabr ayının 19-dakı Qırmızı Bazar istiqamətindəki döyüşlərdə bir gündə "Əfsanəvi tabor"un 8 nəfər, onlarla çiyin-çiyinə vuruşan Daxili Qoşunların Xüsusi Təyinatlılarının 5 nəfər şəhid verməsinə taborun yaralanaraq döyüşlərdən kənar qalmış heç bir döyüşçüsü inanmaq istəmirdi. Bu günə kimi ən az şəhid verən tabor necə ola bilərdi ki, bir gündə bu qədər şəhid versin? Yaralı döyüşçülərıin hərəsi bir başqa vaxtda, başqa bir vəziyyətdə bu xəbəri eşitsə də keçirdikləri hisslər eyni idi. Bu qədər döyüş dostlarını itirməyin acısı hər birini çox yandırırdı.

1-ci taborun ilk yaralılarından biri olan Seyidbala bu xəbəri hospitalda eşitdi. Burada müalicə alan Seyidbala hər axşam olduğu kimi oktyabrın 18-i axşam da döyüş dostlarının nömrələrini yığmağa başladı. Heç bir nömrədən ona cavab verən olmadı. Belə olduqda zəng etdiyi bütün döyüş dostlarına mesaj yazdı. Yəqin ki, oxuyanda cavab yazarlar deyə düşündü. Mesajlar da cavabsız qalanda 19-u səhər yenə döyüş yoldaşlarına bir-bir zəng etməyə başladı. Yenə zənglərə cavab verən olmadı. O, qızğın döyüşlərin getdiyini düşünərək axşama kimi birtəhər səbrini basıb gözlədi. Axşama kimi heç kimdən nə mesajlara, nə də zənglərə cavab gəlmədiyini görüb daha da narahat olmağa başladı. Artıq axşam saat 9-dan sonra fasiləsiz nömrələri yığmağa başladı. Neçə saat nömrələri yığmasına baxmayaraq heç bir nömrədən cavab gəlmirdi ki, gəlmirdi. Vəziyyətin belə olduğunu görən Seyidbalanın onsuz da gərgin olan sinirləri bir az da gərildi. Sanki havalanacaqdı. Elə bu zaman döyüş yoldaşlarından biri, Sabit zənginə cavab verdi.

-Salam, komutanım, necəsən?

Sabitin yorğun, xırıltılı səsi eşidildi.

-Sağ ol, yaxşıyam.

-Hardasan?

-Sanitarkada.

-Nə sanitarka?

-Yaralanmışam.

-Bəs qrup hardadı?

-Qrup yoxdur.

Bunu deyən Sabitin hönkürtü ilə ağlaması bir oldu.

-Necə yəni qrup yoxdur? Bir özünə gəl.

Seyidbala onun söylədiklərinə inanmadı. Yaralı olan Sabitin bəlkə şokun təsirindən belə söylədiyini düşündü.

-Qrupa nə oldu? Necə oldu?, - deyərək Seyidbala yenidən suallar verməyə başladı.

Sabitin susduğunu görüb yenidən soruşdu:

-Kimə nə olub?

Yenidən Sabitin xırıltılı səsi eşidildi:

- Camal, Elyar, Kərim, Tərzan, Həmid, Elton...

Seyidbla eşitdiyi xəbərin təsirindən nə deyəcəyini bilmədi:

-Sən nə danışırsan?

- Şəhriyar, Sübhan.

-Nə olub onlara?

-Hamısı şəhid oldu, Seyidbala, hamısı...

-Necə yəni, hamısı?

Seyidbala özlüyündə düşünürdü ki, kimlər də şəhid olsa, ya da yaralansa İsmayılov Camal, Vəliyev Elyar, Cəbrayılov Sübhan, Quluyev Şəhriyar heç vaxr nə yaralanar, nə də şəhid ola bilərdilər.

Həmin an fikrindən ilk keçən Elyar oldu. Axı onun həyatını Elyar xilas etmişdi. Həkimlərin söylədiyinə görə, onun göstərdiyi düzgün ilkin tibbi yardım nəticəsində Seyidbala aldığı müalicədən sonra

yerimə qabiliyyətini yenə bərpa edə biləcəkdi. Bu gün isə döyüş zamanı Elyar özü həyatını itirmişdi. Həmişə Elyardan halallıq alacağını düşünən Seyidbalanı bir daha onu görməyəcəyi düşüncəsi, digər döyüş yoldaşlarının şəhid olması xəbəri çox sarsıtdı. Onsuz da vəziyyəti heç də yaxşı olmayan Seyidbala həmin anda huşunu itirdi. Həkimlər onu çox çətinliklə özünə gətirdilər. Amma olan olmuşdu artıq, şəhid olan döyüş yoldaşlarını geri qaytarmaq mümkün deyildi. Deməli, onlara yazılan tale belə imiş...

Ayar da döyüş zamanı yaralananlardan biri idi. O, oktyabr ayının 17-si Xocavənd istiqamətində yaralanıb arxaya təxliyə edilmişdi. Bir həftəyə yaxın olardı ki, hərbi hospitalda müalicə alırdı. Oktyabr ayının 23-də döyüş yoldaşıyla danışan Ayar da daxil olduğu "Əfsanəvi tabor"dan səkkiz nəfərin, Daxili Qoşunların Xüsusi Qorunlarından beş nəfərin bir gündə şəhid olması xəbərinə inanmadı. Qrup yoldaşı Elyar, otaq yoldaşı Kərim, tikəsini də bölüb yediyi döyüş yoldaşları... Ayağa qalxıb palatadan çıxmaq istəyən zaman özündən gedərək döşəməyə yıxıldı. Eşitdiyi xəbərin şokundan həmin anda komaya düşən Ayar bir də oktyabrın 27-si komadan ayıldı.

Qırmızı bazar istiqamətindəki döyüşlərə Şamil də qatılmışdı. Lakin ayın 18-i günorta saatlarında yaralandıqdan sonra döyüşü davam etdirə bilməmişdi. Arxaya təxliyə edilən Şamil, uzun müddət gözləsə də sanitar maşını atəş altında saxlanılan yolu keçib

ona yaxınlaşa bilməmişdi. O özü Füzuliyə kimi sürünə-sürünə gəlmişdi. Füzuliyə yalnız gecə 4-5 radələrində çata bilmişdi. Buradan o, sanitar maşını vasitəsilə hospitala çatdırılmışdı.

Özü yaralandığından döyüşü davam etdirə bilməsə də, döyüşən yoldaşlarından xəbər tutmağa çalışırdı. Axı onları odun-alovun içində qoyub gəlmişdi. O da yaralanandan 2-3 gün sonra döyüş dostlarının çoxunun şəhid olması xəbərini aldı. Bu xəbər Şamili də çox sarsıtdı. Onun da ilk xatırladığı Elyar oldu. Axı ayın 17-si, döyüşdən bir gün qabaq Elyarın ad gününü qeyd etmişdilər. Müharibə olmasına baxmayaraq xeyli deyib-gülmüşdülər. Hətta Şəhriyarla birgə "qəssablıq" da edərək ərazidə dolaşan bir dananı kəsib kabab da çəkmişdilər. Elyar da "bu günlərimizi müharibədən sonra yada salıb, deyib-gülərik", - demişdi. İndi həmin dostlarının çoxu daha həyatda yox idilər, şəhid olmuşdular. Dostlarını bir daha görməyəcəyini düşünən Şamilin səhhəti pisləşdi. Həkimlər ona sakitləşdirici vurduqdan sonra dərin yuxuya getdi. Əfsanəvi taborun qəhrəman döyüşçüləri bundan sonra təkcə sağ qalan döyüş yoldaşlarının xatirəsində deyil, həm də onların apardığı əfsanəvi döyüşlərlə tarixdə yaşayacaqdılar...

## APREL DÖYÜŞLƏRİNİN XATİRƏSİ

Səxavət eşitdiyi xəbərə heç cür inana bilmirdi. Axı bir gün əvvəl Elyar və digər döyüş yoldaşları ilə görüşmüşdü, söhbət etmişdi. Belə təcrübəli döyüşçülər necə şəhid ola bilərdilər axı? Tələsik əlini telefonuna doğru apardı. 1-ci taborun başqa döyüşçülərindən birinin telefon nömrəsini yığdı. Yığdığı nömrədən cavab gəlməyəndə başqa bir döyüşçü yoldaşının telefon nömrəsini yığdı və zənginə cavab verən yoldaşından eşitdiyi xəbər onu bir daha sarsıtdı. Taborun Elyar Vəliyevin də yer aldığı qrupundan səkkiz nəfərin, Daxili Qoşunların Xüsusi Təyinatlılarından beş nəfərin şəhid olması inanılmaz idi. O, neyləsə də, özünü ələ ala bilmədi. Dostlarının şəhid olması xəbəri onu göz yaşlarına boğdu. Bir gündə bu qədər qəhrəman döyüş yoldaşlarını itirməyin acısı sanki ürəyini parçalayırdı. Özünün döyüşdə aldığı yaranın ağrısı-acısı heç bu qədər dəhşətli olmamışdı. Bu bir başqa, dost itkisi ağrısı idi, həm də özü, canı qədər güvəndiyi, arxa-dayaq bildiyi dostlarının itkisi...Nə edəcəyini, hara gedəcəyini, daha kimlərdən nə soruşacağını bilmirdi. Taborun bu gün şəhid olan hər bir döyüşçüsü ilə xatirələri vardı. Elyar Vəliyevlə isə xatirələri daha çox idi. Kəşfiyyat, döyüş tapşırıqlarına ən çox onunla getmişdi. Aprel döyüşlərində çiyin-çiyinə vuruşmuşdular. Bir anda dünənki görüşləri gözləri önündə canlandı.

Oktyabrın 5-dən özünün müraciəti ilə Aprel döyüşlərinin bir qazisi kimi vaxtilə tərkibində vuruşduğu Xüsusi Təyinatlıların döyüşçülərinə ərzaq, paltar kimi yardımları çatdırmaq üçün fəaliyyətə başlamışdı. Dünən, oktyabrın 18-də, müharibənin 22-ci günü bir neçə qazi yoldaşı ilə 1-ci taborun döyüşçülərinə təminat çatdırmışdılar. Burada 1-ci tabordakı döyüş yoldaşları ilə də görüşmüşdü. Elyarla aralarında belə bir söhbət də olmuşdu:

-Səxavət, yenə də düşmənin başına güllə sıxa-sıxa gedirəm, yenə də mənfur düşmənə göz açmağa aman vermirəm. Aprel döyüşlərində də necə döyüşdüyümüz yadındadır da.

-Sənin necə döyüşdüyünü hamımız bilirik, indi də hamı danışır. Sən indidən Vətən Müharibəsinin qəhrəmanısan. Sənin taktikana, döyüş təcrübənə, vətənpərvərliyinə hamımız bələdik. Hələ mən də daxil olmaqla nə qədər yaralı döyüşçülərimizi ölümün caynağından qoparıb, aldığını demirəm. Elə mən də sənin düzgün ilkin tibbi yardımın sayəsində bu gün həyatdayam.

- Vətənimiz, xalqımız üçün hər birimiz bütün bacarığımızı ortaya qoymalıyıq. Bizim kimi döyüşən oğullar çoxdur. Allah bütün döyüşçülərimizi qorusun.

-Elədir. Mən də bu gün birbaşa döyüşə qatıla bilməsəm də döyüş yoldaşlarımın yanındayam. Bu gün nəyi bacarıramsa əsirgəmirəm.

- Az qalıb. Düşmənin onurğa sütununu artıq qırmışıq. Bu günə kimi şəxsən mən yüzlərlə düşməni məhv etmişəm. Qoymarıq bir qarış torpağımız düşmən əlində qalsın.

-Səni çox yaxşı gördüm. Heç elə bil bu qədər çətin döyüşlərdən çıxan sən deyilsən. Heç yorğun görünmürsən.

-Səxavət, sən nə danışırsan? Biz mənfur düşməni məhv elədikcə, torpaqlarımızı düşmənlərdən azad elədikcə bizə yenidən güc-qüvvət gəlir, döyüşməyə daha da həvəs yaranır. Son hədəfimiz Şuşadır!

-Mən səninlə fəxr edirəm.

Bunu deyib, Səxavət yaxın dostunu bağrına basmışdı. Elyarsa əlindəki kiçik bir hədiyyəni Səxavətə sarı uzatmışdı.

-Bunu özündə saxla. Sağ qayıtsam mənə verərsən, şəhid olsam məndən sənə xatirə.

-Elə danışma. Əlbəttə, sən sağ qalacaqsan. Səndə elə bacarıq var ki, təkbaşına yüzlərlə düşmənlə bacararsan. Sən düşmənə can verən oğul deyilsən! Sən bizim qəhrəmanımızsan!

-İnşallah, hər şey yaxşı olacaq. Torpaqlarımızı düşmənlərdən təmizləyəcəyik. Onların murdar ayağı bir də bizim yerlərə dəyməyəcək.

Bu söhbətdən üç-dörd saar keşmiş komandanlıqdan hücum əmri gəlmişdi. Taborun 30 nəfərə kimi döyüşçüsü Hadrut istiqamətində hücuma keçməyə hazırlaşmışdı. Ərzaq təminatını çatdıran Səxavət Sal-

manov isə onunla gələn yoldaşları ilə geri dönmüşdü. Bu döyüşdə hər şey Elyar Vəliyevin söylədiyi kimi heç də yaxşı olmadı. 1-ci taborun döyüşçülərinin düşmənə qarşı girdiyi qeyri- bərabər növbəti döyüşündə Elyarla bərabər neçə-neçə döyüşçünün qəhrəmancasına şəhid olması xəbəri yayıldı. Bu xəbər təkcə Səxavəti deyil, digər döyüş yoldaşlarını da bərk sarsıtdı.

Səxavət Salmanov Elyarla birgə qatıldığı Aprel döyüşlərindən onun necə qorxusuz bir döyüşçü olduğunu çox yaxşı bilirdi. O, heç vaxt düşmən qarşısında bir addım da geri çəkilməzdi. Onun son güllə-sinə qədər döyüşdüyünə zərrə qədər də şübhəsi yox idi. Səxavət Elyarla birgə qatıldığı Aprel döyüşlərini indi də çox yaxşı xatırlayırdı.

Aprel ayının 1-indən 2-sinə keçən gecə düşmən tərəfindən təxribatın olması, artilleriyadan atəş açması barədə məlumat verilmişdi. Düşmənin bu təxribatının qarşısını almaq üçün əks hücum əmri ilə döyüş başlamışdı.

Barambart meşəsi istiqamətindən döyüşə girən 1-ci taborun döyüşçüləri burada tapşırığın yerinə yetirilməsinin mümküm olmadığını gördükdə əks istiqamətdən, Goranboy-Tərtər istiqamətindən girib, Tapqaraqoyunlu kəndindən keçid edərək düşmənin işğal altında saxladığı Talış kəndi istiqamətində hərəkət etməyə başlamışdılar. Düşmənin bu təxribatına qədər XTQ -nin kəşfiyat qrupları tərəfindən bu yerlə-

rə dəfələrlə keçid olmuş, düşmənin Barambart meşələrindəki mövqeləri aşkarlanmışdı. Onlar buradan Azərbaycan əsgərlərinin mövqelərini müşahidə edir, əmr gələrsə necə hücum etmək planları hazırlayırdılar. Azərbaycan əsgərləri də əks kəşfiyyat nəticəsində düşmənin istifadə etdiyi bütün keşidlərdən, cığırlarlardan, mövqelərdən xəbərdar idi. Odur ki, çiyin-çiyinə irəliləyən Elyar və Səxavət də daxil olmaqla Xüsusi Təyinatlı döyüşçülər hər tərəfə diqqət kəsilərək, bələd olduqları cığırlar, keçidlərlə irəliləyirdilər.

Barambart tərəfdən irəliləməyin mümkün olmadığını görən döyüşçülər Goranboy-Tərtər istiqamətindən giriş etməyi qərara aldılar. Buradan Tapqaraqoyunlu kəndinə, oradan da Talış kəndi istiqamətinə keçid edərək düşmənlə üz-üzə gəldilər. Elə bu zaman düşmənin uzaq məsafəli artilleriya silahlarından atdıqları mərmilər yağış kimi yağmağa başladı. Buna baxmayaraq 1-ci taborun döyüşçüləri irəliləməkdə davam edirdilər. Düşmənin güclü müqaviməti Azərbaycan tərəfinin irəliləməsinə mane ola bilməmişdi. Artıq üçüncü gün idi ki, qızğın döyüşlər gedirdi. Düşmən tərəfindən atılan mərmilərdən biri Səxavətin yanında partlamış və o, həmin anda yerə yıxılmışdı. Ona ilkin tibbi yardım göstərən Elyar Vəliyev olmuşdu. Mərmi səsinə dönən Elyar Səxavətin yerdə qıvrıldığını görmüşdü. Qəlpə onun kürəyindən keçərək ağ ciyərini ağır yaralamışdı. Elyar tez

özünü ona yetirərək qanaxmanı kəsmək üçün cəld sarğı materiallarını və ağrıkəsici çıxarmışdı.

-Qorxma, indi yaranı sarıyacam. Qanaxman var. Əvvəl bir ağrıkəsici də vurum ki, ağrıya dözə biləsən.

Bunu deyərək, Elyar tibbi bacarığı sayəsində qanaxmanın qarşısını almış, sarğını lazım olan qaydada qoyaraq həyati təhlükə olmadan yaralının təxliyəsinə imkan yaratmışdı.

Elyarın sözləri sanki Səxavətin qulağında yenidən eşidildi.

Elyar ona ilkin tibbi yardımı elə peşəkarlıqla etmışdı ki, təxliyə olunan Səxavətdən həkimlər bu sarğını kimin qoyduğunu soruşmuşdular. Həkimlərdən birinin sözü belə olmuşdu:

-Gedib o döyüş yoldaşının əllərindən öpərsən. Ağ ciyər qanaxmasını kəsməyin nə olduğunu sən anlamasan da, biz çox yaxşı bilirik. Onun yaraya düzgün müdaxiləsi nəticəsində səndə daxili qanaxma olmayıb. Yoxsa sən indi həyatda deyildin. Bu gün sən yaşayırsansa, bu onun sayəsindədir.

Səxavət yaralandığı üçün döyüş meydanını tərk etsə də, Elyar atəşkəs anınatək vuruşmuş, döyüşlər zamanı üzərində olan bütün silah və hərbi sursatları sona kimi düşmənə qarşı istifadə edərək onların xeyli canlı qüvvəsini məhv etmişdi. Atəşkəsdən sonrakı günlərdə də yaralıların təxliyəsində, qənimət kimi ələ keçirilmiş düşmən silahlarının çeşidlənməsində yaxından iştirak etmişdi. Bu döyüşlər zamanı El-

yar kimi peşəkar döyüşçülər sayəsində düşmən işğalı altında olan 2000 kvadrat kilometr ərazi azad edilmişdi. Döyüşlərdə fərqlənənlər sırasında Elyar Vəliyev və Səxavət Salmanov da var idi.

Bunları düşünən Səxavət göz yaşlarına sahib ola bilmirdi. Onun həyatını xilas edən dostu düşmən snyperinə tuş gələrək şəhid olmuşdu. O isə artıq dostu üçün heç nə edə bilməzdi.

Axı belə bir döyüşçü ölməməliydi. Dəfələrlə kəşfiyyat tapşırıqlarını, döyüş tapşırıqlarını birgə yerinə yetirdiyi, Elyar kimi cəsur, qorxmaz döyüşçünü itirməyi heç cür qəbul edilməz idi. Onun dilindən bu sözlər qopdu:

-Niyə belə oldu, əziz dostum? Mən sənin verdiyin kiçik hədiyyəni sənə qaytarmaq üçün günləri sayırdım. Müharibənin bitməsinin xəyalını qururdum. Sən, "hər şey yaxşı olacaq!"- demişdin. Niyə əbədi xatirəyə döndün, dostum?! Mənim sənə bir can borcum vardı axı, Elyar!

## İNSANLIQ NÜMUNƏSİ

Elyarın şəhid olması xəbəri tez bir zamanda təkcə Sədəfli kəndinə deyil, yaxın kəndlərə də yayıldı. Elyargilə uzaq qohum olan, qonşu kənddə yaşayan Nəsib Bakıdan kəndə dönəndə bu xəbəri elə onunla kəndə qayıdan kənd sakinlərindən eşitdi. Heç evlərinə dönməmiş maşını birbaşa Arif kişinin həyətinə sürdü. Xəbəri eşidən bütün kənd Arif kişinin həyətinə axın edirdi.

Arif kişi isə sanki şokda idi. Nəsib həyətə daxil olanda ona yaxınlaşan Arif kişinin yaxın qonşusundan Arif kişi və ailəsindən Elyarın səhid olması xəbərinin gizlədildiyini, onlara ağır yaralı olduğunu dediklərini öyrəndi. Odur ki, Nəsib də Arif kişiyə yaxınlaşanda oğluna şəfalar dilədi.

Saatlar bir-birini əvəz edir, hamı nigaranlıqla gözləyirdi. Arif kişi isə Füzuliyə yola düşən qardaşı oğlu ilə tez-tez əlaqə saxlayırdı. Nəhayət, dözə bilməyib oğlunun dalınca Füzuliyə getmək istədiyini bildirdi.

-Mən burada gözləyə bilmərəm. Məni başa düşərsiz yəqin. Mən də Füzuliyə gedəcəm. Artıq səbrim qalmayıb,-deyə üzünü həyətdə toplaşmış camaata tutdu.

Arif kişi çox keçmədi ki, bir-iki yaxın adamla Füzuli rayonuna yola düşdü. Onun getməsinə baxmayaraq gələnlər həyətdən heç yana getməyərək gözləməyə qərar verdilər.

İki-üç gün həyət beləcə adamlarla dolub-boşaldı. Nəhayət, ayın 24 -ü səhər bütün kənd Şəhidini qarşılamaq üçün baş yola qədər gəldi. Bu gün əsən payız mehi sanki burada gözləyənlərin Eiyarla bağlı xatirələrini də oyadırdı.

Nəsib də burada gözləyənlər arasında idi. O, həmin bu yolun Qobustan-Bakı istiqamətində baş verən avtomobil qəzasını və bu qəzaya düşənləri Elyarın necə xilas etdiyini xatırladı. Hadisə belə olmuşdu:

2015-ci ilin yazı idi. Həmişə olduğu kimi Elyar yenə Nəsibə axşamdan telefon zəngi edərək, Bakıya onunla qayıdacağını söyləmişdi. O da Elyara kənddən çıxan zaman xəbər verəcəyini bildirmişdi.

Səhər saatlarında kənddən çıxan Nəsib ilə Elyar Şamaxı-Bakı magistralının Cəngi deyilən ərazisini keçəndən az sonra iki maşının toqquşması nəticəsində avtomobil qəzasının baş verdiyini gördülər. Nəsib avtomobilini yolun kənarına çəkərək saxladı. Elyar tez avtomobildən düşərək qəza baş verən tərəfə qaçdı. Bura yığılmış adamlar avtomobildə sıxışıb qalmış üç sərnişini çıxarmağa çalışırdılar. Amma hələ ki, bunu bacara bilməmişdilər.

Özünü yetirən Elyar üzünü maşının ətrafına toplaşan adamlara tutdu:

-Xahiş edirəm, kənara çəkilin, kiçik bir səhv də onların həyatı bahasına başa gələ bilər.

Bunu deyib cəld hərəkətlə avtomobilin qapısına ayağı ilə zərbə endirərək, açmasına nail oldu. Avtomobilin

ön hissəsinin zərbə nəticəsində oturacaqları sıxması sərnişinlərin də içəridə sıxışıb qalmasına səbəb olmuşdu.

Elyar güclü idmançı qolları ilə oturacağı arxaya itələyərək, əvvəl ön oturacaqda əyləşən, sinəsinin sıxılması nəticəsində güclə nəfəs alan sərnişini çıxararaq avtomobildən uzaqlaşdıraraq yolun kənarına uzatdı. Yenidən geri dönərək arxada qalan bir qadın və bir kişi sərnişini də arxa oturacaqdan çıxardıb, ehtiyatla yolun kənarına qoydu. Təcili Yardım maşını gələnə qədər belə vəziyyətdə qalmağı, qəti tərpətməməyi tapşırdı. Xüsusi Təyinatlı hərbçi kimi ilkin tibbi yardım işini də mükəmməl bilən Elyar, vaxt itirmədən onlara lazım olan ilkin tibbi yardımı da göstərmişdi. Üst-başının qan olmasına, köynəyinin cırılmasına baxmayaraq təcili-tibbi yardım maşını gələnə kimi qəzada yaralananları belə bir vəziyyətdə qoyub getməmişdi. Yardıma gələn tibbi qrup ilə mütəmadi əlaqə saxlayır, yaralıların vəziyyəti barədə onları məlumatlandırırdı.

Nəhayət, Təcili Tibbi Yardım maşını hadisə yerinə çatdı. Yaralılara yaxınlaşan həkim xəstələri müayinə etdikdən sonra, onlara göstərilən yardımın doğru və vaxtında göstərdiyi üçün Elyara xüsusi təşəkkürünü bildirdi.

Hadisə yerinə toplaşan adamlar məhz maşından da yaralıların Elyar tərəfindən çıxarıldıqlarını qeyd etdilər. Hamının, eləcə də xilas edilən sərnişinlərin minnətdarlıq dolu baxışları Elyara dikilmişdi.

Bu hadisədən sonra onsuz da kənddə ağıllı, mərd, qorxmaz, böyük-kiçik yeri bilən biri kimi tanınan Elyar Nəsibin gözündə daha da ucalmışdı.

Müharibənin ilk günlərindən də Elyarın qəhrəmanlığı barədə kəndə xəbərlər gəlirdi. Belə xəbərləri eşidən el-oba onunla qürur duyurdu. Bu günlərdə isə onun qəhrəmanlıqla şəhadətə ucalması xəbəri bütün kəndə yayılmışdı. Belə bir igidin itkisi, nəinki, ailəsi, bütün el-obası, vətəni üçün ağır itki idi. Elyar "evdən deyil, eldən getmişdi".

## GÖRÜŞƏ BİLMƏYƏN QARDAŞLAR

Müddətli hərbi xidmətdə olan Elçin də qardaşı Elyar kimi müharibə başlayan gündən döyüşlərə qatılmış və artıq bir il idi hərbi xidmət göstərirdi. Onların döyüş briqadası yuxarı Abdulrəhmanlı kəndindən döyüşə başlayaraq "Füzulinin kruqu" deyilən əraziyə kimi irəliləmişdi. Oktyabrın 18-də isə əks hücuma keçmək üçün komandanlıq tərəfindən belə bir əmr verilmişdi; qarşıda olan erməni eşalonu məhv edilməlidir. Hücum isə oktyabr ayının 19-u səhər sübh tezdən, hava açılar-açılmaz həyata keçirilməli

idi. Təmizlədikləri erməni səngərində mövqe tutan döyüşçülərə yeni "Hələ gözləmək lazımdır" tapşırığı gəlmişdi. Gözləməyə səbəb isə artıq düşmənlərin mövqelərini tərk etmələri barədə alınan məlumat idi. Nəhayət, iki saat sonra, səhər saat 07:00-da hücum əmri verildi. Döyüş briqadası düşmən eşalonunun tərk etdiyi yerə çatanda, doğrudan da, düşmənin nə bir canlı qüvvəsi, nə də döyüş texnikası gözə dəyirmirdi, bura otluq bir ərazi idi. Yəqin ki, qarşı tərəfin döyüş gücündən xəbərdar olan düşmən çox itki verəcəyini nəzərə alaraq geri çəkilmişdi. Amma çox keçmədən irəliləyən Azərbaycan Ordusunun döyüşçüləri pusquya düşdüklərini anladılar. Əsgərlər otluqların arasında həlqə hissəsindən nazik simə keçirilmiş əl qumbaralarının quraşdırıldığını gördülər. Bu da oradan hərəkət edəcək Azərbaycan Ordusunun əsgərlərinin ayaqlarının ilişməsi ilə qumbaraların partlayaraq onları məhv etməsi üçün hesablanmışdı. Yollara isə düşmən tərəfindən tank əleyhinə minalar döşənmişdi. Bu minalar da mühasirəyə düşən piyadalara köməyə gələ biləcək texnikanı və canlı qüvvəni məhv edilməsi üçün nəzərdə tutulmuşdu. Yenə mənfur düşmən öz çirkin əməlindən əl çəkməmişdi. Amma ayıq-sayıq olan briqadanın əsgərləri bu pusqunu həmən anladılar. İrəliləyən heyət ehtiyatla, itki vermədən bu maneələri keçə bildi. Yaxınlıqdakı çaya yaxınlaşanda isə çayın yatağına belə minaların döşəndiyini gördülər. Bu dəfə düşmən piyada əley-

hinə minaları çayın yatağına döşəmişdi. Elçin və döyüş yoldaşlarının bir post əsgəri kimi ayıq-sayıqlığı nəticəsində minalar aşkarlanaraq komandanlığa xəbər verilmişdi. Özləri isə bu ərazidən ehtiyatla keçərək uzaqlaşmışdılar.

Düşmən tərəfi onların pusquya düşmədiyini görcək atəş açmağa, Elçin və komanda yoldaşları isə onlara əks atəşlə cavab verməyə başladılar. Qızğın döyüşün davam etməsinə baxmayaraq heç kim bir addım belə geri çəkilmirdi. Verilən əmr yerinə yetirilməli idi. Açılan atəş səsləri dağlara əks-səda salmışdı. Şəhid və yaralıların olmasına baxmayaraq verilən əmri yerinə yetirmək üçün bütün əsgərlər əlindən gələni edirdi. Silahlar isə hələ ki, susmaq bilmirdi. Yəqin ki, düşmən daha çox itki vermişdi. Onlar tərəfindən atışların azalması bunu deməyə əsas veririrdi.

-Deyəsən, vəziyyətlərinin heç də yaxşı olmadığını anladılar.

- Onsuz da gec-tez axırlarına çıxacağıq.

-Əlbəttə, az qalıb.

-Onlar məğlub olacaqlarını anlayaraq geri çəkiləcəklər.

-Elə də olacaq.

-Görünür silah-sursatları tükənir, canlı qüvvələri arasında itkiləri artıq.

-Görün neçə texnikalarını məhv etmişik. Hələ canlı qüvvələrini demirəm.

Əsgərlər arasında gedən belə bir söhbət zamanı, doğrudan da, düşmən tərəfdən açılan atəşlər tamamilə səngidi.

İrəliləyən Azərbaycan əsgərləri artıq lazım olan yüksəkliyə yaxınlaşırdılar. Onların yaxında olduğunu görən düşmənin sağ qalan canlı qüvvəsi mövqelərini atıb qaçmağa başlamışdı. Nəhayət, hücum edilən istiqamətdə strateji yüksəklik ələ keçirilmişdi. Yüksəkliyi əldə saxlamaq üçün orada mövqelənmək lazım idi. Düşməndən təmizlənən ərazi nəzərdən keçiriləndən sonra əsgərlər arxada qalan silah-sursatı düşməndən təmizləyərək mövqeləndikləri yerə daşımağa başladılar. Bunun üçün əsgərlər sol tərəfdə yerləşən, çox da dərin olmayan səngərdən istifadə edirdilər. Silah-sursat yeni mövqeyə daşınmalı idi. Əsgərlər gecəylə bütün təchizatı bura daşımağa nail oldular.

Elçin və döyüş yoldaşları artıq yerləşdikləri mövqedə yerlərini almışdılar. Ətrafda nisbi sakitlik idi. Saatlarla dayanmadan döyüşən əsgərlər yenidən irəliləmək üçün yorğunluqlarını atmalı idilər. Bir yandan da soyuq hava əsgərlərin iliklərinə kimi işləmişdi. Odur ki, sakitlikdən istifadə edib dincəlmək lazım idi. Əsgərlərdən kimisi soyuq səngərdə özünə yer edib uzanmış, kimisi silah-sursatına göz yetirərək səliqəyə salır, kimisi də düçüncəyə dalmışdı. Elçin də səngərin bir tərəfində özünə yer edib uzanmışdı. Yorğun olsalar da, belə bir mövqedə əsgərlər yatma-

ğı düşünmürdülər. Kim bilir bu anda onlar nəyi, kimi xəyal edirdilər. Elçin isə evlərini, onunla eyni istiqamətdə döyüşən qardaşı Elyarı düşünürdü. Elyar sonuncu dəfə onunla avqust ayında telefonla danışmışdı. Bir gün əvvəl isə Elyarın 29 yaşı tamam olmuşdu. Zəng edib təbrik etmək istəsə də, bu, müharibə şəraitində mümkün deyildi. Müharibə başlayandan nə bir-birləri ilə danışmışdılar, nə də görüşmüşdülər. Hərb sahəsinin də öz sərt qanunları vardı. Qardaşlar da bu qanundan irəli gələn tələblərə əməl edirdilər. Onların əsas məramı, məqsədi düşmən işğalı altında qalan torpaqların azad edilməsi idi. Qardaşını görməyi çox istəsə də hələ ki, müharibə şəraitində bu mümkün deyildi. O da bütün əsgərlər, bütün ordu, bütün xalq kimi müharibənin bütün torpaqlarımızın düşməndən geri alınmaqla, qələbə ilə tamamlanmasını istəyirdi. Bunun üçün mənfur düşmənin başının dəmir yumruqla birdəfəlik əzilməli olduğunu o da çox yaxşı bilirdi. Elçin bu fikirlər içində uzandığı yerdən göy üzünü seyr edirdi.

Artıq səhər açılmaq üzrə idi. Dünənki qızğın döyüş arxada qalmışdı. Əsgərlər burada mövqelənərək yeni döyüş tapşırığı gözləyirdilər. Növbəti hücum əmrinin nə vaxt olacağı hələ ki, məlum deyildi. Bu gün isə oktyabr ayının 20-si idi. Əsgərlər möhkəmləndikləri yüksəklikdə gözləməkdə idilər. Yəqin ki, yeni hücum əmri özünü çox gözlətməyəcəkdi. Əsgərlər isə həmişə əmrə hazır idilər.

Əsgərlər bu günü də yerləşdikləri yüksəklikdə başa vurdular. Artıq axşam düşmüşdü. Elə bu zaman Elçinə arxa cəbhəyə düşürüləcəyi barədə məlumat verildi. Və səhər açılan kimi Elçin arxa cəbhəyə düşürüldü. Orada isə qardaşı yaralandığı üçün bir həftəlik məzunuyyətə buraxıldığı deyildi. Yaralandığı deyilən qardaşını görmək üçün əvvəlcə Füzuli rayon hərbi hospitalına gələn Elçin, orada qarşılaşdığı əmisi oğlundan Elyarın hələ hosbitala gətirilmədiyini öyrənmişdi. Sonra elə əmisi oğlunun təkidi ilə evlərinə yola düşmüşdü. Və qardaşının şəhid olduğunu yalnız burada, evlərində öyrənmişdi. Həmin anda cox sevdiyi qardaşıyla bir daha görüşə bilməyəcəyi düşüncəsi onu çox sarsıtmışdı. Sarsıntının gücündən Elçin uzun müddət özünə gələ bilmədi.

Qardaşı şəhid olduğu üçün məzuniyyət verilən Elçin yenidən döyüş bölgəsinə qayıdandan sonra yenə də Xocavənd rayonunda yerləşən, tərkibində döyüşdüyü hərbi hissəyə qayıtdı. Amma burada aldığı xəbər də onu bir daha sarsıtdı. Onun başçılıq ettiyi manqanın əsgərlərindən bir neçəsi onun məzuniyyətə göndərilməsi səbəbindən qatıla bilmədiyi döyüşdə yaralanmış, bir neçəsi isə şəhid olmuşdu. Elçin bir daha şəhid olmuş qardaşının və şəhid olmuş döyüş yoldaşlarının ruhu qarşısında onların qisasını almaq üçün düşmənə qarşı daha amansızlıqla döyüşəcəyinə söz verdi. Beləliklə, onlar rəhbərlikdən əmrin gəlməsini gözləyirdilər. O, tez-tez şəhid olmuş qardaşı ilə

keçirdiyi günləri xatırlayırdı. Qayğısız uşaqlıq illəri bir yerdə keşmişdi. Aralarında 10 yaş fərq vardı. O, çox vaxt qardaşını özünə örnək bilirdi. Elyarın idmanla məşğul olması, sonradan hərbi sahəni seçməsi, öz məqsədinə çatmaq üçün yorulmadan çalışması onu da ruhlandırırdı. Elyarın qazandığı hər bir nəaliyyət onu da çox sevindirirdi. Qardaşının prinsipiallığı isə daha çox xoşuna gəlirdi. Başladığı hər bir işi mütləq müvəffəqiyyətlə başa vurardı. Onun bu xarakteri apardığı döyüşlərdə də özünü göstərmişdi. Elyarın göstərdiyi qəhrəmanlıqlar bunu söyləməyə haqq verirdi. O, qardaşının son döyüşünün təfərrüatını bilməsə də, son ana qədər qəhrəmanlıqla döyüşdüyünə əmin idi.

Bir daha qardaşını görməyəcəyi fikri Elçinin canını çox sıxırdı. Bu yoxluğa alışa bilmirdi. Hələ müharibə getdiyi müddətdə onu saran belə hisslərdən qurtula bilmirdisə, sonra bu ayrılığa necə tab gətirəcəyini təsəvvür etməkdə belə çətinlik çəkirdi. Qardaşı şəhid olduqdan sonra bəlkə də döyüşlərin aktiv getdiyi döyüş bölgəsindən bir az arxada hərbi xidmətini davam etdirə bilərdi. Amma bunu onun nə ailəsi, nə özü istədi. Yenidən döyüşlərin getdiyi ön xəttə qayıtmışdı. Müharibə başlayanda atasının ona verdiyi öyüd-nəsihət hələ də qulaqlarında səslənirdi:

-Oğul, Vətən müqəddəsdir. Torpaq namusdur. Düşmənə qarşı bütün iradənizlə, gücünüzlə döyüşün. Bacardığınız qədər irəliləməyə çalışın. Yaralan-

sanız belə arxaya deyil, önə doğru yıxılın. Qoy bir qarış da olsa artıq torpaq azad edilsin. Sizin üzərində olduğunuz hər qarış torpaq bizimdir deməkdir. Elyara da, sənə də tövsiyyəm budur. Mənim bir ata kimi bir də dua etmək əlimdən gəlir. Haqqım sizə halal olsun. Allahın nəzəri də həmişə üzərinizdə olsun.

Elyar artıq vətən uğrunda, torpaq uğrunda qəhrəmancasına həlak olmuşdu. Atası söylədiyi kimi şəhid olana kimi düşmən üzərinə getmiş, bir addım da geri çəkilməmişdi.

Elçin də ona verilən bütün döyüş tapşırıqlarını səhvsiz, sözsüz yerinə yetirməyə çalışırdı. Bundan sonra da müharibənin sonuna kimi bütün baçarığı, qətiyyəti ilə döyüşməyə qərarlı idi.

Nəhayət, bir əsgər kimi onlara növbəti əmr deyil, noyabrin 8-də Şüşanın azad edildiyi və ardından döyüşlərin bitməsi xəbəri gəldi. Bundan sonra Elçin həqiqi hərbi xidmətini sonadək elə Xocavənd rayonunda davam etdirdi. Müharibə şəraiti olduğu üçün həqiqi hərbi xidmətdən üç ay gec tərxis olundu. Elçin də qəhrəmancasına şəhid olan qardaşı Elyar kimi vətənə məhəbbəti, dövlətinə sədaqəti, döyüşlərdə şücaəti ilə seçilən bir əsgər idi. Onun da xidmətləri yüksək qiymətləndirildi. "Vətən Müharibəsi iştirakçısı", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olundu.

Həqiqi hərbi xidməti başa vurub evə dönən Elçin ata-anasının təsəllisi, ümid yeri olmuşdu. Qəhrəmanlığı dillərə düşmüş, vətən uğrunda şəhid olmuş Elyarın da ətrini ondan alırdılar. O da şəhid olmuş qardaşı kimi vətən qarşısında borcunu layiqincə yerinə yetirmiş, Vətən Müharibəsində o da ata-anasının başını uca edəcək səviyyədə döyüşmüşdü. Vətən üçün iki igid, qəhrəman oğul yetişdirən valideynlər hər cür hörmətə, təqdirə layiqdir.

## QƏHRƏMANIN SON DÖYÜŞÜ

Müharibə başlayan gündən, demək olar ki, döyüşlərin səngidiyi gün olmamışdı. Azərbaycan Ordusu bir addım da geri çəkilmədən irəliləyirdi. Bu qələbələrin əldə edilməsində Xüsusi Təyinatlı Qüvvələrin əməyi danılmaz idi. Xüsusi Təyinatlıların 1-ci taboru da müharibənin başladığı gündən verilən döyüş əmrlərini və hərbi tapşırıqları lazımınca yerinə yetirərək, işğal altında olan rayonların azad edilməsində xüsusilə fərqlənirdi. Füzulinin Qaraxanbəyli kəndindən döyüşə başlayan 1-ci tabor Füzulinin, Cəbrayılın, Xocavəndin, Hadrutun bir çox əraziləri-

nin düşmən işğalından azad edilməsi uğrunda qanlı döyüşlərdə iştirak etmişdi. Onların apardığı əfsanəvi döyüşlərdən artıq təkcə hərbçilər arasında deyil, bütün ölkə ərazisində danışılırdı. Kiçik bir qrupla belə girdikləri hər bir döyüşdə böyük düşmən qüvvələrini darmadağın edən bu tabor artıq "Əfsanəvi tabor" adını almışdı. Bu günə kimi qarşısında düşmənin heç bir qüvvəsinin duruş gətirə bilmədiyi, 052-nin Xüsusi Təyinatlılarından təşkil edilmiş, kod adı "Yaşma" olan 1-ci taborun döyüşçülərinin göstərdiyi qəhrəmanlıqlardan düşmən tərəfi də xəbərdar idi. Elyar Vəliyev də ailə üzvləri və bu döyüşə qədər yaralanaraq kənarda qalan döyüş döstları tərəfindən təfərrüatı bilinməyən qəhrəmanlıqla şəhadətə yetdiyi son düyüşünə qədər düşmənə göz açmağa aman verməyərək yüksən peşəkarlıqla döyüşmüşdü.

Qəhrəmanın sonuncu döyüşü yaddaşlara belə həkk olmuşdu: 1-ci tabor heç bir çətinliyə baxmayaraq döyüş tapşırıqlarını layiqincə yerinə yetirməyə davam edirdi.

Növbəti tapşırıq işğaldan azad edilmiş "720 yüksəkliyi" deyilən ərazidə ordumuzun qüvvələrinin möhkəmlənməsini təmin etmək idi. Çünki hərbi qüvvələrimizin növbəti hədəfi Şuşa və Laçın istiqamətinə yol açmağı asanlaşdırmaq idi.

"Əfsanəvi tabor"un 34 nəfərlik bir qrupu təxminən 3-4 saatdan sonra düşmən postuna hücum etməli, postu almalı idilər. Laçın və Şuşa istiqamətinə yol

açmaq üçün taborun döyüşçülərinin Azıx, Tüğ, Axullu, Edilli kəndlərindən keçməklə Böyük Tağlar, Zərdanaşen, Taqaverd kəndlərini bir-bir azad etməklə Şuşa istiqamətinə irəliləməni təmin etmək idi.

Oktyabr ayının 18-də hərəkətə başlayan tabor artıq qaranlıq düşdüyündən yaxınlıqda yerləşən qəbiristanlıqda gecələməli olmuşdu. Verilən tapşırığa görə, buradan Ağbulaq kəndinə doğru keçməliydilər. Ermənilərin sıx məskunlaşdığı bu kəndin əhalisi artıq çıxarılmışdı. Amma kənddə hərbçilər hələ də qalmaqda idi. Düşmən buradan irəliləyən Azərbaycan Ordusuna aid qüvvələri müşahidə edirdi. Bunu onların atdığı minamyot atəşlərindən də anlamaq olurdu.

Düşmən mövqelərinə doğru bir neçə tabor birlikdə irəliləyirdi. Böyük düzənlik əraziyə çıxan 1-ci taborun əsgərləri səngər qazaraq müşahidə aparmağa başladılar. Burada daha ehtiyatla hərəkət etmək lazım gəlirdi.

Düşmənin gediş-gəlişini çətinləşdirmək üçün buradakı yollara pusqu qurulmağa başlanmışdı. Bu işi əsasən "099 taboru" yerinə yetirirdi. Bundan sonra çıxılmaz vəziyyətə düşdüyünü bilən düşmən qüvvələri artıq yuxarılara doğru çəkilirdilər.

Tapşırığı yerinə yetirmək üçün qrupun döyüşçüləri birbaşa Qırmızı Bazar qəsəbəsi istiqamətində irəliləməyə başladılar. Çünki bu ərazini düşməndən təmizləməklə Şuşaya doğru yol açmaq asan olacaqdı. Amma bu istiqamətdə düşmənin şəxsi heyətinin

həddindən artıq çəmləşdiyi məlum oldu. Odur ki, istiqamət Köndələnçayın yanından keçməklə Azıx, Tuğ kəndləri tərəfə dəyişdirildi. Yol daha çətin və uzun olsa da, seçilən bu taktika itkilərin azaldılmasına hesablanmışdı. Buradan isə Edilli və Axullu istiqamətinə hərəkət davam etdirilməli idi.

Qrup burada 2 saata yaxın idi ki, ərazinin kəşfiyyatını aparırdı. Müşahidələr burada çox sayda düşmən qüvvələrinin cəmləşdiyini göstərirdi. Düşmənə qarşı nisbətən dəfələrlə az qüvvə ilə mövqelənmədən döyüşə girmək riskli idi. 1-ci taborun döyüşçülərindən ibarət qrup müəyyən edilən trayektoriya ilə irəliləyən zaman düşmən qüvvələri tərəfindən minamyot atəşinə tutulmağa başladılar. Düşmənin açdığı minamyot gülləsi səngərdə mövqe tutmaq istəyən Şamillə Rafiqin arasına düşdü. Bir anda ətraf tüstüyə büründü. Onlara doğru qaçan döyüş yoldaşları hər ikisinin yaralandığını gördülər. Mərmi dalğası yaxınlıqda olan Kərimi də tutmuşdu. Kərim aldığı kontuziya təsiri altında beyni dumanlandığından özündən biixtiyar düşmən mövqelərinə tərəf qaçmağa başladı. Bunu görən Sübhan Kərimi səsləyərək, tez özünü ona yetirdi və yerləşdikləri mövqeyə qaytardı. Digər yaralı olan Tərzana da ilk tibbi yardım göstərildikdən sonra hər üç döyüşçü təxliyə olunmaq üçün arxa mövqeyə çıxarıldılar. Burada yaralılar təxliyə edilmək üçün sanitar maşınına yerləşdirildilər. Bir az irəliləmişdilər ki, huşu azacıq da olsa aydınla-

nan Kərim yenidən döyüş mövqeyinə qayıtmaq istədiyini bildirdi. Şamillə Rafiq onu nə qədər dilə tutsalar da mümkün olmadı. Kərim sanitar maşınının sürücüsünə maşını saxlamağı təkidlə söyləməkdə davam edirdi. Nəhayət, Kərim maşının dayandığını görən kimi, silahını da götürüb maşından enərək yenidən arxaya, dostlarının döyüşdüyü istiqamətə doğru qaçmağa başladı. Beləliklə, düşmənə qarşı ölüm-dirim savaşı aparan dostlarına qoşuldu.

Döyüş mövqeyindən yaralı halda çıxarılan, üç güllə yarası alan və təxliyə edilənlərdən Tərzan da bundan əvvəl də yaralanmışdı. Amma yaralanmasına baxmayaraq bir neçə gün sonra yenidən Cəbrayıl istiqamətində onlarla birlikdə döyüşlərə qatılmışdı. Bu dəfə isə ölümün pəncəsindən qurtula bilməyən Tərzan təxliyə edilərkən yolda şəhid oldu. Onun qızının adını çəkə-çəkə şəhid olması Şamili də çox sarsıtmışdı. Tərzanın qızının adını təkrarlayan səsi heç vaxt onun qulağından getməyəcəkdi.

Döyüşçü dostlarının yaralanmasına, şəhid olmasına baxmayaraq  qrupun qalan üzvləri döyüşü davam etdirirdi. Düşmən tərəfindən fasiləsiz atəş açıldığını görən Elyarla Camal əllərinin işarəsi ilə irəliləyən əsgərlərə sağa doğru istiqaməti göstərərək, atəş tutmaması üçün qırağa çəkilmələrinə nail oldular. İrəliləyən qrup qarşıdakı səngərdə mövqelənə bildi. Elə bu zaman düşmənin aramsız atəşinə tuş gəldilər. Düşmənin canlı qüvvəsi müqayisə edilməyəcək də-

rəcədə üstün idi. Taborun çox da böyük olmayan bu qrupu düşmənin 1000 nəfərə yaxın canlı qüvvəsi ilə üz-üzə gəlmişdi. Onların istifadə etdiyi silahlar da canlı qüvvəyə qarşı deyil, zirehli texnikaya qarşı istifadə edilən silahlar, hərbi texnikalar idi. Mərmi yağışından isə göz açmaq mümkün deyildi. Bütün bunlara baxmayaraq Elyar və döyüş yoldaşları həmişəki kimi xüsusi peşəkarlıqla, qəhrəmanlıqla döyüşürdü. Onların tutduğu döyüş mövqeyi düşmən tərəfindən aramsız atəşə tutulmasına baxmayaraq, düşmənin çoxlu sayda qüvvəsini məhv etmişdilər. Xüsusi Təyinatlı döyüşçülərin inadlı müqaviməti qarşısında çoxlu itki verən düşmən geri çəkilmək məcburiyyətində qalmışdı.

Belə bir qeyri-bərabər döyüşdə tabor 34 nəfərlik bir qüvvə ilə 1000 nəfərlik düşmənin canlı qüvvəsinin 600-dən çoxunu məhv edə bilmişdi.

Saatlarla davam edən qanlı döyüşlərdən sonra, nəhayət, düşmən qüvvələri geri oturdula bildi. Verilən tapşırıq yerinə yetirilmişdi. Keçirilən döyüş əməliyyatının nəticəsi barədə yuxarı komandanlığa məruzə edilmişdi. Bu ərazini başqa bir qrupa təhvil verərək, döyüşçülər yenidən tərtiblənmək üçün arxaya çəkilməyə başlamışdılar. Döyüşlər çox ağır getdiyindən heyət həm ac, həm yorğun idi. Qrup qida, geyim, silah-sursatla təminatı üçün müəyyən olunmuş yerə çatmışdı. Onların döyüş gücünü bərpa etməsi

üçün heç olmasa bir gün dincəlməkləri nəzərdə tutulmuşdu.

1-ci taborun tərkibində vuruşanlar təminat yerinə çatdıqdan beş-altı saat sonra geri alınan mövqelərdə yenidən düşmən təxribatının artdığı xəbəri gəlmişdi. Döyüşdən yeni çıxan qrup bu istiqamətdə yenidən hücuma keçən düşmən qüvvələrini geri oturtmaqda hərbi qüvvələrimizə yardım edilməsi üçün döyüş mövqeyinə geri dönmək əmri aldı. Elə həmin gün-oktyabrın 18-i axşam radələrindən yenidən geri dönməyə məcbur olan döyüşçülərin sürətlə irəliləməsinə relyefin çətin olması mane olurdu. Onlar həm də çox yorğun olduğundan tələb olunan mövqeyə yalnız səhər saat 5-dən sonra çata bildilər.

Dan yeri artıq sökülmüşdü. Dağların arxasından çıxan günəş ətrafı aydınlatmışdı. Bu isə kalon şəklində irəliləyən qrupun düşmən tərəfindən fərq ediləcəyinə şərait yaradırdı. Quru otlar, tikanlar arası ilə irəliləyən döyüşçülər bunu bilsələr də daldalanmağa imkan yox idi. Artilleriya atəşlərinin səsləri isə yaxınlıqda eşidilirdi. Döyüşçülər yorğun olsalar da, dayanmadan irəliləyirdilər. Bu fiziki yorğunluq idi, mənəvi yorğunluq deyildi. Çünki "Əfsanəvi tabor"un döyüşçülərin ruhunun yüksəkliyi onlara olan etimadın böyüklüyündən irəli gəlirdi. Bütün çətin tapşırıqlar məhz onlara tapşırılırdı. Bu günədək verilən əmr və tapşırıqları ən az heyətlə, qısa zamanda, müvəffəqiyyətlə yerinə yetirmişdilər. İndi də verilən

növbəti tapşırıq üçün irəliləyən qrupun döyüşçüləri düşmən mövqelərindən intensiv atəşə tutuldu. Deməli, düşmən artıq onları görmüşdü. Atəşə atəşlə cavab verən döyüş qrupu qarşıdakı səngərə çatmaq üçün daha sürətlə irəliləməyə başladılar. Onların səsləri bir-birinə qarışmışdı. Kimi "atəşdəstək" deyə qışqırır, kimi "irəli" deyir, başqa bir döyüşçü isə daha irəlidə sürətlə irəliləyən Elyarı səsləyirdi. Elyar isə əlinin hərəkəti ilə "irəli" işarəsi verirdi. Yaxınlıqdakı döyüş yoldaşlarını da diqqətdən kənarda qoymurdu:

-Silahlara diqqət edin, daraqlar dolu olsun. Boş yerə atmayın.

Elyarla bərabər irəliləyən Camalın da səsi eşidildi:

-Yuxarı qaçırlar, gözdən qoymayın.

Döyüşçülər düşmən mövqeyinə yaxınlaşdıqca RPK-lardan, minaatanlardan istifadə etməyə başlamışdı. Vəziyyətin daha da çətinləşdiyini görən Elyar, Camal, Sübhan, Həmid relyefin çətinliyini nəzərə alaraq planlama edərək necə döyüş aparacaqlarını müəyyənləşdirdilər.

Azad edilmiş 720, 618 yüksəkliklərini, Xocavənd ərazisindəki meşəlik olan yüksəklikləri düşmən yenidən ələ keçirmək üçün bu ərazilərə çoxlu canlı qüvvələr və hərbi texnika cəmləşdirmişdi. Tank, BMP, minaatanlar, ağıla gəlməyəcək dərəcədə çox döyüş sursatı cəmləmişdi. Düşmən strateji əhəmiyyəti böyük olan bu yüksəklikləri əldən verməsi ilə barışmaq istəmirdi. Hərçənd, Xüsusi Təyinatlıların düşmənə

qarşı qətiyyətlə döyüşəcəyi birmənalı idi. Düşmənlə əlverişsiz bir ərazidə, düzənlikdə döyüş aparılmasına baxmayaraq qrup döyüşü dayandırmadan, tam şiddəti ilə davam etdirirdi.

Elyar, Camal, Sübhan, Həmid və qrupun digər heyətinin bir amalı var idi: "Nə olursa-olsun geri çəkilmək olmaz! Bizə verilən tapşırığı qanımız, canımız bahasına olsa da, yerinə yetirməliyik! Bizə olan etimadı doğrultmalıyıq!".

Onlar bu döyüşün çox amansız, bəlkə də sonuncu olacağını ehtimal edir, döyüş öncəsi bir-biri ilə halallaşdılar.

Həmid Abbasbəyli qrupunda olan Məhəmmədi döyüşə aparmaq istəmirdi. Səbəbi isə Məhəmmədin müharibə başlayan gün - sentyabrın 27-də dünyaya gələn övladının üzünü belə görməməsi idi. Amma bütün təkidlərə baxmayaraq Məhəmməd də döyüşdə iştirak edəcəyini söylədi. Qrup rəhbərinə hücum qrupunda döyüşə qatılacağını bildirdi. Həmid isə daha israr etmədi. Çünki bu ağır döyüş üçün 22 döyüşçü çox az idi. Bəlkə də özlüyündə Məhəmmədin verdiyi qərara haqq qazandırırdı. Döyüşçülərin hər biri üçün vətən, torpaq sevgisi, döyüşçü şərəfi hər şeydən üstün idi. Bir gün əvvəl, ayın 18-də döyüşə girən qrup düşmənin istər səngərdə, istər mövqelərdə olan bütün canlı qüvvəsini məhv etmişdilər. Bu həm də ordumuzun qüdrətindən, gücündən xəbər verirdi. Bu gün isə onlar 22 nəfərlə döyüşə girəcəkdi. Dünənki

çətin döyüşdə qrup həm şəhid vermişdi, həm də bir neçə döyüşçüsü yaralanmışdı. Odur ki, 1-ci taborun bugünki döyüşə girən qrupunda döyüşçülərin sayı az idi.

Relyefin mürəkkəbliyi görmə məsafəsini azaltdığından qrupda olan görmə cihazları ilə maksimum 800 metr ərazini görmək mümkün idi. Mövqelənmiş, gizlənmə inkanı çox olan bir düşmənlə, səngərin az olduğu, gizlənmə imkanının az olduğu bir ərazidə üz-üzə gəlmək böyük itkilər vermək risqini artırırdı. Buna baxmayaraq belə bir kiçik qrupla böyük canlı qüvvəsi və texnikası olan düşmən üzərinə getmək böyük cəsarətin, qorxusuzluğun təcəssümü idi. Düşmən mövqeləndiyi yerlərdə BMP, tank, minamyotlar yerləşdirmişdi. Erməni hərbi qüvvələrinə qarşı döyüşən qrup isə Azərbaycan Ordusunun yerləşdiyi "Uğurlu" deyilən ərazidən düşmən mövqelərinin içərilərinə doğru çox irəliləmişdi. Belə bir şərtlərin hökm sürdüyü döyüş meydanında düşmən üzərinə hücuma keçilmişdi. Qeyri-bərabər, amansız döyüş yenidən şiddətlənmişdi.

Daldalanacaq olmayan, şumluq, düzən ərazidə sürətlə irəliləmək, manevr etmək çox çətin idi. Buna baxmayaraq qrupun üzvləri inadla düşmən üzərinə yeriyirdilər. Bura 702 yüksəkliyindən Qırmızı Bazar istiqamətində, Xocavənd və Füzuli ərazisinə çox yaxın, Şuşadan 14 km. məsafəsi olan bir ərazi idi.

Düşmən tərəfdən ağır artilleriyadan, minamyotlardan açılan atəşlər göz açmağa imkan vermirdi. Bəlkə də hələ heç bir müharibədə canlı qüvvəyə qarşı bu qədər güclü hərbi texnikadan istifadə edilməmişdi.

Artıq qrupdan yaralananlar vardı. Döyüş meydanında səslər eşidilməyə başlamışdı. Gələn səs Şəhruzun səsi idi:

-Kimsən?, - deyərək yaralıya yaxınlaşıb üzü üstə düşmüş əsgəri yana çevirdi. Bu mayor Qaflanov idi. Güllə səslərindən səsi eşidilsin deyə yenə qışqırmağa başladı:

-Yaralı var, yaralı var! Tez gəlin, yaralını burada qoymayaq! O tərəfə getmə, ağır artilleriyadan atırlar! Kömək elə, yaralını daşıyaq!

Şəhruz var gücüylə qışqırır, yaxınlıqda olan döyüş dostlarını köməyə çağırırdı.

Onun səsini eşidərək yaxınlaşan döyüş yoldaşı Qaflanovun yaralı olduğunu zənn etdi. Şəhruz üzünü dostuna tutaraq:

-Bu artıq şəhiddir.

-Kimdir şəhid?

-Mayor Qaflanov.

-Sahib də şəhiddir.

-Bu bizimkidi, vurmayın, - deyərək Şəhruz yenidən bağırdı.

-Sağdan, soldan atırlar.

-Ceyhun, Ceyhun, denən atəşdəstək dayanmasın.

-Burda da bir yaralı var.

Şəhruz yaralıya yaxınlaşdı:

-Qaqa, güllə harandan dəyib?

-Qolumdan dəyib, kürəyimdən çıxıb.

-Qaqa qorxma, səbirli ol. Tərpənmə, daha çox qan itirərsən, - deyərək Şəhruz yaralını sakitləşdirməyə çalışdı.

-Sanitarlardan kim var? Tez gəlsin!

-Hanı yaralı?

-Sən tez tənzifi çıxar.

-Sola atma, solda bizimkilərdi.

-Üç-dörd şəhidimiz var.

-Gülağa, eşidirsən məni? Çoxlu şəhidimiz, yaralımız var. "Naxçıvan"a de köməyə gəlsin. Bura artilleriya yönləndir.

-"Şimşək" eşidirsən məni? "Şimşək"! Bura kömək göndər!

-Rasim, Rasim, parol ver, "Allahu Əkbər" de.

-Aşağı düş, səngərə düş. Ermənilərdi gələn. Çoxdular, əlli nəfər var.

-Götür yaralını, burda qoymayaq.

-Kərim orda qaldı.

-Ermənilər bizim səngərlərə keçdi.

Döyüşçülərin həyəcan qarışıq səsləri bir-birinə qarışmışdı.

Atəş dəstəyi saxlayan döyüşçülərdən olan, silahının növbəti darağını dəyişən Rüstəm rabitə vasitəsilə atəşdəstək qrupunun köməyə çağırıldığını eşitcək silahını çiyninə alaraq döyüş gedən yerə tərəf qaçma-

ğa başladı. Əgər belə bir çağırış varsa, deməli, vəziyyət çox kritikdir.

Qrupun döyüşdüyü mövqeyə tərəf qaçan Rüstəm Sənanla qarşılaşdı. Ona tərəf gələn Sənanın bənizinin həddindən artıq ağarmasından onun yaralı olduğunu, cox qan itirdiyini anladı. Yaxınlaşdıqca Sənanın qolundan yaralandığını gördü. Sənanın danışmağa belə halı qalmamışdı. O, gücünü toplayaraq:

-Rüstəm, tez özünü uşaqlara yetir, vəziyyət çox pisdir. Düşmən qüvvəsi həddindən artıq çoxdur.

-Səni belə burada qoya bilmərəm. Sakit ol. Danışmaq belə səni haldan salar. Səni arxaya çıxarım sonra.

Bunu deyib, Rüstəm tez sıxacı çıxarıb, Sənanın qolundan axan qanı kəsmək üçün yaralanan qolunu möhkəm bağlayıb, arxaya tərəf çəkməyə başladı. Təxminən ondan 50-60 metr arxada onlara köməyə göndərilmiş “Naxçıvan” alayının döyüşçülərinə təhvil verdi. Özü isə vaxt itirmədən yenidən dostlarının döyüşdüyü tərəfə qaçmağa başladı. Onun istiqamət aldığı tərəfdə isə döyüş bütün şiddəti ilə davam edirdi.

Elyar və bir neçə döyüş yoldaşı bir qədər də irəliləyərək düşmənlə 15-20 metr məsafəyə kimi gəlib çıxmışdılar. Elyar yağan aramsız güllə yağışı altında yerini dəyişərək özünü düşmənlə uzbəuz səngərə atdı. Səngər düşmən güllələrindən qorunmaq üçün elə də əlverişli deyildi. İllərlə küləyin sovurduğu torpaqla, qumla dolmuş köhnə bir səngər idi. Elyar burada mövqelənərək minamyotu işə saldı. Düşməni irəli

buraxmaq olmazdı. Minamyot Elyarın güclü qolları ilə sağa-sola hərəkət etdikcə qarşıdan irəliləyən düşmən əsgərləri bir-birinin yanında yerə düşürdü.

Artıq dörd saata yaxın idi ki, döyüş ara vermədən davam edirdi. Döyüşçülər eyni mövqedən düşməni zərərsizləşdirilməyə çalışırdı. Düşmənlə olan məsafə də çox az idi. Şumlanmış bir ərazidə irəliləməyə çalışan döyüşçülər üzərində olan silah-sursatla sağa-sola çətin manevr etmələrinə baxmayaraq düşmənlə döyüşü bir an belə kəsməyərək, geri çəkilməyi düşünmürdü. Amansız döyüşdə qrupun verdiyi şəhid və yaralılar artırdı. Şəhid və yaralıların döyüş meydanından çıxarılması üçün Həmid və Elyar atəşdəstəyini saxlayaraq yaralıların döyüş meydanından çıxarılmasına şərait yaratmağa çalışırdılar.

-Həmid, sən solu gözlə, mən də sağdan bunları susdurum.

-Oldu! Başladıq.

Bunu deyərək Həmid də Elyarla bərabər atəşdəstək saxlamaq üçün avtomatını yenidən əlinə aldı. Və düşmənin soldan irəliləməsinin qarşısını almaq üçün fasiləsiz atəş açmağa başladılar. Heç beş-on dəqiqə keçməmiş Həmidin avtomatı qəfil susdu. Bunu hiss edən Elyar Həmidin döyüşdüyü tərəfə dönəndə onun yerə yıxıldığını gördü. O, özünü tez Həmidin yanına yetirdi. Həmiz ürəyindən snayperlə vurulmuşdu. Dostunun şəhid olduğunu görərək qəzəbini boğa bilməyən Elyar:

-Alçaqlar, indi sizin payınızı verərəm, - deyərək avtomatını əlinə aldı. Həmidin döyüşdüyü istiqamətdə düşmən üzərinə güllə yağdırmağa başladı.

Kontuziya almasına baxmayaraq, təxliyə olunan zaman maşından düşüb qaçaraq yenidən döyüşən yoldaşlarına qoşulan Kərim də Elyarın döyüşdüyü istiqamətdən yenidən döyüşə girdi.

Bunu görən Elyar:

-Kərim, bəs səni təxliyyə etməmişdilər?

-Sizi tək qoyub gedə bilmədim. Təxliyyə maşınından düşüb qaçdım.

-Səndə ürək var da! Əsl döyüşçüsən! Uzaqdan da olsa bağrıma basıram səni. Görürsən ki, bu alçaqlarlara görə silahı yerə qoya bilmirəm. Başladıq!

Elyar bunu deyib, Kərimi də yenidən döyüşə ruhlandırdı.

Kərimlə birlikdə Elyarın döyüşdüyü səngərə yaxınlaşan Hidayət də onunla çiyin-çiyinə verərək yenidən döyüşə davam etdi.

Dostlar düşmən tərəfdən irəliləyən canlı qüvvələri nə qədər məhv etməyə çalışsalar da, sayca qat-qat üstün olan düşmənin çanlı qüvvəsi azalmaq bilmirdi. Onların döyüşdüyü istiqamətdə ölüm-dirim mübarizəsi gedirdi. Elə bu zaman düşmən tərəfindən açılan atəş Kərimin əvvəl qolunu, sonra isə oma nahiyəsini yaraladı. Bunu görən Hidayət Kərimi çıxarmaq istəyəndə düşmən gülləsi onun burnunun sol tərəfindən girərək sifətinin sağ tərəfindən çıxdı. Aldığı yaradan

Hidayət Kərimi çıxara bilmədi, bayılaraq özü də səngərə düşdü. Onların yaralandığını görən Şəhriyar Elyarın döyüşə-döyüşə onlardan bir az uzaqlaşdığını fərq edən kimi tez özünü yaralı dostlarına yetirdi. Elə Hidayətin yarasına sarğı qoymuşdu ki, birdən iki yüzə yaxın düşmənin canlı qüvvəsinin onlara tərəf gəldiyini gördü. Bunu görən Şəhriyar "töküldülər üstümüzə, çıxmaq lazımdır" - deyərək qışqırmağa başladı. Daha sonra "Bacarırsızsa çıxın burdan" deyərək, yaralanmış dostlarına əli ilə istiqaməti göstərərək, özü yenidən döyüşə qatıldı.

Nisbətən yarası yüngül olan Hidayət Şəhriyarın göstərdiyi istiqamətə doğru sürünərək döyüş mövqeyindən çıxmağa çalışdı.

Kərim isə ağır yaralanmışdı. O üzünü döyüş yoldaşlarına tutaraq:

-Mənim yaram ağırdır, siz kimi çıxara bilirsiz çıxarın.

Səngərdə tək qalan Kərim düşməni bilərəkdən yaxın buraxaraq, onların lap yaxınlaşdığı an əlindəki qumbaranı partladaraq ona yaxınlaşan düşmən əsgərlərini məhv edərək, özü də şəhid oldu.

Yaralı yoldaşlarının döyüş mövqeyindən çıxarması üçün atəşdəstəyi saxlayan Şəhriyar da düşmənlə döyüşdə şəhidlik məqamına yüksəldi.

Ayağından yaralanan Camal İsmayılov isə döyüş yoldaşlarının israrına baxmayaraq ayağını özü sarıyaraq, "bu mənim son döyüşümdür" deyərək, yeni-

dən döyüşə atıldı. Bu dəfə isə o qolundan da ağır yaralanaraq şəhidlik zirvəsinə ucaldı.

Səngimək bilməyən döyüşdə artıq Sübhan da şəhid olmuşdu. Döyüşü planlayan və idarə edən dörd dostdan yalnız Elyar sağ qalmışdı. O, inadla döyüşü davam etdirirdi. Həmişə az danışan, sözünü döyüşü ilə deyən, Elyar çox da dərin olmayan səngərdən düşmənə qarşı dayanmadan atəş açır, tez-tez yerini dəyişərək düşmən tərəfindən yağış kimi yağan güllələrdən yayınmağa çalışırdı. Döyüş sursatının tükənmək üzrə olduğunu görən Elyar döyüş yoldaşlarından götürdüyü qumbaralardan, silahlardan istifadə edərək döyüşü davam etdirirdi. Bir sözlə, döyüşü saxlamaq qəti olmazdı. Onunla birgə döyüşə girən yoldaşlarından artıq bir-ikisi gözə dəyirdi. Ətrafında döyüşən yoldaşları ya şəhid olmuş, ya da yaralanmışdılar. Elyar döyüş meydanında tək qalmışdı. Kömək gələnə kimi düşmənin irəliləməsinə imkan vermək olmazdı. Düşmənin çox sayda canlı qüvvəsini məhv edən Elyarın da, nəhayət, bütün silah-sursatı tükənmişdi. Düşmənə qarşı istifadə edə biləcək yalnız əlində qalan sonuncu silahı əl qumbarası idi. Qəhrəman döyüşçü olmaqla yanaşı, həm də iman əhli olan Elyar "Allahu əkbər" təkbiri gətirərək, əlində olan qumbaranın həlqəsini çəkərək ona tərəf gələn bir neçə düşmən əsgərinə tərəf atdı. Partlayan qumbara düşmən əsgərlərini bir anda yerə sərdi. Elə bu vaxt düşmən snayperi tərəfindən atılan güllə Elyarın

ürəyinə sancıldı. Bir an hərəkətsiz qalan Elyar, sanki heykələ döndü. Yəqin ki, həmin o anda gözləri önündə yaşadığı 29 illik bir həyatın neçə-neçə səhifəsi canlandı.
Bir anlığa gözləri önünə gələn anası, uşaq yaşlarında yıxılıb bir yerini yaralayanda tez özünü yetirər, yarasını sarıyar,- oğlum, bu yaradan sənə heç bir şey olmaz, bir-iki günə yaran sağalacaq. Nə ağrısından, nə yaradan bir şey qalacaq,-deyərdi. Sən mənim ürəkli, qorxmaz balamsan, -deyərək başına sığal çəkərdi. Elyar da anasının bu sözlərindən, saçlarına çəkdiyi sığaldan sonra hər şeyi unudar, yenidən qaçıb oyun oynayan dostlarına qarışardı. Bu dəfə isə onun aldığı yara oyun oynayan zaman aldığı yaraya bənzəmirdi. Düşmən onun ürəyini nişan almışdı. Vətəni üçün, anası-atası üçün, ailəsi, övladları üçün döyünən ürəyini. O, bir anlığa anasının sığal çəkən əllərinin saçlarında gəzdiyini hiss etdi. Aldığı güllə yarasının təsirindən yanan ürəyinə sanki su səpildi. Nə ağrını, nə özünü hiss etdi. Bircə anasının doğma əllərinin hərarətini hiss edirdi. Bir də anasının onu nigaranlıqla izləyən gözləri gözlərinin önündən getmirdi.

Elyarın doğulub böyüdüyü doğma evi, bacı-qardaşların birlikdə qaçıb-oynadıqları həyətləri, işdən dönərkən qarşısına qaçdıqları atasıyla birgə keçirdiyi anlar da gözləri önündə canlandı. Cəbhənin barıt qoxuyan havasında beş övladının ətrini də hiss etdi.

Onların anaları ilə bərabər ona sarı qaçdıqları bir ilğım kimi gözləri önündə canlandı.

Nəhayət, onun bədəni müvazinətini itirərək cansız halda uğrunda qəhrəmanlıqla döyüşdüyü torpağa düşdü. Yol açmaq istədikləri Şuşaya tərəf baxan iti, kəskin baxışlı gözləri əbədi yumuldu. Özünün bir neçə gün əvvəl döyüş dostlarına söylədiyi kimi, Elyar ona dəyən ilk düşmən gülləsindən döyüş meydanında qəhrəmancasına həlak oldu.

Rüstəm döyüş mövqeyinə yaxınlaşanda qızğın döyüş nəticəsində artıq yoldaşlarının çoxunun şəhid olduğunu eşitdi. O, döyüş meydanından yaralıları çıxarmaq istəyən yoldaşlarından eşitdiklərinə inanmaq istəmirdi.

Daxilində böyük iman və inad hissi olan, peşəkarcasına döyüşən Elyar axı necə düşmən gülləsinə tuş gələ bilərdi? Döyüş yoldaşları hətta döyüş zamanı onunla bir yerə düşəndə sevinirdilər. Belə bir döyüşçünün yanlarında olması onlarda çox böyük döyüş ruhu verirdi. Qorxu hissini unutdururdu.

Hər iki ayağından yaralanan Kərim isə döyüş meydanından təxliyə olunmasına imkan verməmiş, son gülləsinə qədər döyüşmüş, sonda isə qumbaranı partladaraq özüylə bərabər necə düşmən əsgərini də məhv etmişdi. Onun da belə şəhadəti əsl qəhrəmanlıq nümunəsi idi.

Həmin tarixə kimi ən az şəhid verən 1-ci taborun bu gün Daxili Qoşunların Xüsusi Təyinatlılarının da

qatıldığı sözün əsl mənasında apardıqları ölüm-dirim savaşında 13 nəfər: Vəliyev Elyar, İsmayılov Camal, Cəbrayılov Sübhan, Quliyev Şəhriyar, Abbasbəyli Həmid, Qaflanov Şıxəmir, Əliyev Kərim, Məmmədov Sahib, Mehdiyev Surxay, Qəmbərli Elton, Həşimov Tərzan, Ələsgərzadə Sənan, Əliyev Ramiz şəhid oldular.

Belə bir mənzərəni görmək sağ qalan döyüşçülər üçün çox ağır idi. Buna baxmayaraq, onlar şəhid olmuş butun döyüş yoldaşlarını döyüş meydanından çıxarmağa çalışirdılar. Bu zaman sanki onları bir görünməz qüvvə qoruyurdu. Yağan güllə yağışının heç biri onlara dəymirdi. Onlar yaralı və şəhidlərin bir neçəsini arxa mövqeyə qədər çıxarmağa nail ola bilmişdilər. Döyüş gedən ərazi düşmən tərəfindən hələ də fasiləsiz atəşə tutulduğundan Şəhidlərin çoxunu döyüş mövqeyindən çıxarmaq heç cür mümkün olmamışdı.

Bütün bu baş verənlərə baxmayaraq 1-ci taborun döyüşçüləri böyük itgilər versələr də, vaxt baxımından bir az gecikmə olsa da verilən döyüş tapşırığını yerinə yetirə bilmişdilər. Bu taborun "Əfsanəvi tabor" adı alması da belə əfsanəvi döyüşlərin nəticəsi idi.

## ACININ ARTIRDIĞI NİFRƏT

Qırmızı Bazar istiqamətindəki döyüşlərdə şəhid olmuş 1-ci taborun döyüşçülərinin nəşinin döyüş zonasından çıxarılması heç də asan olmadı. Düşmənin aramsız atəşi altında Şəhidlərin nəşinin qaldığı yerlərə yaxınlaşmaq mümkün deyildi. Düşmən qüvvələri hələ də o mövqeləri tərk etmək istəmirdi. Bir neçə gün həmin mövqelər ordumuz tərəfindən həm aviasiya, həm ağır artilleriya vasitəsilə fasiləsiz vurduqdan sonra, nəhayət, düşmən geri çəkilməyə məcbur edildi.

Oktyabrın 19-dakı Qırmızı Bazar istiqamətində gedən döyüşlərdə çoxlu şəhid vermiş 1-ci taborun snayperi Rüstəm ərazidə üç gün idi ki, müşahidə aparırdı. Yalnız düşmən geri otuzdurulduqdan sonra döyüş gedən yerə yaxınlaşmaq mümkün oldu. O bura kapitan Əhmədov Gülağa ilə birlikdə gəlmişdi. Ətrafı dolaşan kapitan Əhmədov və gizir Məhsimov düşmən səngərinə yaxınlaşanda silah-sursatların səngərdə qaldığını gördü. Həm döyüş yoldaşlarının silahlarından, həm də düşmən əsgərlərinin silahlarından səngərlərdə qalanlar vardı. Görünən o idi ki, düşmənlə əlbəyaxa döyüş getmişdi. Amma nə bir düşmənin, nə də döyüş yoldaşlarının nəşi gözə dəymirdi. Şəhid olmuş yoldaşlarının nəşini görməyəndə yenidən çaşqın vəziyyətdə ətrafı dolaşmağa başladılar. Bir anda Rüstəmin ağlından düşmənin həlak

olan döyüşçülərimizin nəşini də özləri ilə aparması fikri keçdi. Yenidən ətrafı dolaşmağa başladı. Birdən səngərdən bir az kənarda Quliyev Şəhriyarın və Qəmbərli Eltonun torpağa düşüb qalmış nəşini gördü. Rüstəm ondan bir az aralıda ətrafı dolaşan Kapitan Əhmədovu səslədi:

-Kapitan, bura gəlin.

Rüstəmin səsini eşitcək kapitan Əhmədov tez o tərəfə gəldi.

Onlara bu mənzərəni görmək çox ağır idi. Buna baxmayaraq şəhid olmuş döyüş yoldaşlarından ikisinin nəşini görəndə digər dostlarınınkını da tapacaqlarına ümid etdilər. Yenidən birlikdə ətrafı dolaşmağa başladılar. Ətrafda Şəhriyarla Eltonun nəşindən başqa heç kimin nəşi gözə dəymirdi. Ərazini dolaşarkən bir az aralıda olan dərəyə təzə torpağın töküldüyü Rüstəmin nəzərindən qaçmadı. O, qaçaraq tez həmin dərəyə yaxınlaşdı. Tökülən torpağı kənarlaşdırmağa bir şey tapmayan Rüstəm yerə çökərək əlləri ilə dərəyə tökülən torpağı kənara atmağa başladı. Birdən əlinin insan əlinə dəydiyini hiss etdi. Torpağı daha sürətlə kənara atan Rüstəm toxunduğu əlin Camalın əli olduğunu gördü. Göz yaşlarına hakim ola bilməyən Rüstəmin gördüyü mənzərədən, sanki ürəyi dayanacaqdı. Gənc döyüşçünün yorğun, yuxusuz gözlərində insan əzabının və qəzəbinin dözülməz ifadəsi vardı. Get-gedə içində yaranan acının artması ilə düşmənə olan nifrətinin də böyüməsi onun gözlə-

rindəki ifadənin dəyişməsindən görünürdü. Şəhid olmuş döyüş yoldaşlarının ruhu qarşısında onların intiqamını almaq üçün daha amansızlıqla döyüşəcəyinə dönə-dönə söz verirdi. İllərlə bir yerdə olduğu, döyüşə birlikdə başladığı say-seçmə igid döyüş yoldaşlarını itirməyin, özü də belə bir çətin döyüşdə itirməyin acısını yaşayan Rüstəm torpağı durmadan yalın əllə qazmağa çalışırdı. Onun hönkürtüsü ətrafa yayılırdı.

Kapitan Əhmədov Rüstəmin özündə olmadığını görüb ona lap yaxın gəldi:

-Rüstəm, özünü ələ al. Bilirəm çox ağırdır, hamımız üçün ağırdır. Amma müharibədir. Çox alçaq, insanlığın nə olduğunu bilməyən məkrli bir düşmənlə döyüşürük. Xocalıda nələr etdiklərini unutdunmu? Onlardan insanlığa sığmayan hər hərəkəti gözləmək olar. Bu da etdikləri daha bir alçaqlıq, daha bir şərəfsizlikdir. Belə bir intiqam almaq, həm də döyüş meydanında, savaşda qəhrəmanlıqla həlak olan döyüşçülərdən! Bunu ancaq bəxtimizə yazılmış cəllad düşmənlərimiz edə bilər. Lap az qalıb. Başlarını bu dəfə birdəfəlik əzəcəyik. Bir az sakitləş, səbrli ol.

Kapitan Əhmədov əllərini Rüstəmin çiyninə qoyaraq astaca sirkələdi. Bu sözlərdən sonra Rüstəmin düşmənə nifrətlə dolu qəzəbli baxışları kapitanın gözlərindən də yayınmadı.

Kapitan Əhmədov Rüstəmlə birlikdə torpağı qazdıqca, üst-üstə atılmış döyüş yoldaşlarının, Şəhid dostlarının nəşi bir-bir üzə çıxırdı.

Ən üstə Camalın nəşi idi. Onlar birlikdə göz yaşları içində İsmayılov Camalın nəşini torpaq altından çıxarıb kənara qoydular. Daha sonra digər döyüş yoldaşları Sübhanın, Kərimin, Şıxəmirin, Sahibin, Həmidin, Elyarın nəşini çıxardılar. Hər birinin buza dönmüş bədənlərinə toxunduqca Rüstəmin, sanki nəfəsi dayanacaqdı. O, illərlə bir yerdə olduğu, birgə hərbi təhsil aldığı, müharibə başlayan gündən birlikdə döyüşdüyü dostlarını bu halda görməyə dayana bilmirdi. Düşmən bəlkə də sonra fürsət tapıb bura dönməyə ümid edərək onların nəşini də aparmaq məqsədilə belə bir alçaq hərəkətə əl atmışdı. Çünki onların adı belə çəkiləndə qorxuya düşdükləri "Yaşma"ya xüsusi nifrətləri sonsuz idi.

Rüstəmlə Gülağa şəhid olmuş dostlarının nəşini arxaya - Füzuli hospitalına aparılacaqdılar.

Nəhayət, şəhid olduqdan üç gün sonra Elyar da daxil olmaqla döyüşdə həlak olmuş Şəhidlərin nəşi kapitan Gülağa Əhmədov və gizir Rüstəm Məhsimovun müşayəti ilə arxa mövqeyə gətirildi. Fizüliyə 17:00-18:00 radələrində çatdılar. Onlar Şəhidlərin gətirilən nəşini yaxınlarına təhvil verilmək üçün hər birinin adını, soyadını qeydə aldıraraq Füzulidə yerləşən hərbi hospitalın morquna təhvil verdilər. Geri dönəndə isə yaralandığı üçün hospitalda müalicə

alan döyüş yoldaşı Niftəliyev Mehrab döyüş mövqeyinə qayıtmaq istədiyini Rüstəmə bildirdi. Rüstəm hələ yarası tam sağalmayan Mehrabı aparmaq istəməsə də, onun israrından sonra Mehrabı da özüylə götürüb döyüş mövqeyinə geri döndü. Mehrabla birlikdə Xocavəndə qayıdan Rüstəm ayın 24-də yenidən döyüşə qatıldı. Buradan isə Rüstəmin və qrupdan sağ qalan döyüşçülərin döyüş yolu belə olacaqdı: Xocavəndin Azıx, Tuğ, Edilli kəndləri, Sığınaq, Çanaqçı, Böyük Tağlar, Kiçik Tağlar, Laçın Koridoru, Şuşa!

## QARŞIDA ŞUŞADIR

"Əfsanəvi tabor"un döyüşçüləri Qırmızı Bazar qəsəbəsi istiqamətindəki döyüşdə yoldaşlarının çoxunun itirmələrinə, zaman baxımından bir az gec olmasına baxmayaraq tapşırığı yerinə yetirmişdilər. 18-19 oktyabr döyüşlərində baş verənlər qalan döyüşçülərin döyüş əzmini qıra, onları ruhdan sala bilməmişdi. Onlar Şuşanın 14 kilometrliyində şəhid olan döyüş yoldaşlarının da qisasını almaq, onların

da Şuşanı azad etmək kimi ən əsas arzularını yerinə yetirmək üçün Şuşa istiqamətində yenidən döyüşə davam edəcəkdilər.

Süşa istiqamətində döyüşə hazırlaşan qrupun sağ qalan döyüşçüləri silah-sursat, ərzaqla təmin olunduqdan sonra döyüş əmrini gözləməyə başladılar. Rüstəm də şəhid olmuş döyüş yoldaşlarının nəşini Füzuli hospitalına təhvil verib, yenidən döyüş mövqeyinə qayıtmışdı. Əmr verilənə qədər düşmənin müşahidəsindən yayınmaq lazım idi. Havanın sərt şaxtası adamın iliklərinə işləyirdi. Rüstəm soyuqdan qorunmaq üçün mövqeləndikləri yerdə barnak*[3] qurmağa başladı. Bu həm onları düşməndən gizlənməsini saxlayacaqdı, həm də sərt şaxtalı gecədə söyuqdan qorunmağa kömək edəcəkdi. Rüstəmlə bərabər döyüş yoldaşlarından bir neçəsi çöldən kol-kos kimi görünən barnakın içinə yerləşdilər.

Qaş qaralana yaxın artıq yuxarı komandanlıqdan döyüş tapşırığı gəldi. Qrupun sağ qalan döyüşçüləri Laçın dəhlizi istiqamətində irəliləməyə başlamışdı. Artıq görünən Laçın yolundan TIR-ların Şuşaya doğru irəlilədiyini müşahidə etmək olurdu. 1-ci taborun döyüşçüləri dar cığırla yoxuşa doğru qalxmağa başlamışdılar. Onların irəlilədiyi bu dolama cığır təxminən 3 km yüksəklikdə yerləşən Laçın dəhlizinə apa-

---

[3] barnak*- komufulyaj olunmuş, ağac və kol-kosdan hazırlanan daldanacaq.

rırdı. Birdən düşmən minamiyotları cığırla irəliləyən heyətə atəş açmağa başladı. Həm yuxarıda-əlverişli mövqedə dayanan düşmənin mərmi atəşindən yayınmaq, həm atəşə atəşlə cavab vermək üçün döyüşçülər dayanmağa məcbur oldular. Onlar üzərlərinə yağan güllə yağışından yayınmaq üçün cığır kənarındakı qayalara, ağaclara söykənərək düşmənlə döyüşürdülər. Əlverişsiz mövqedə olduqları üçün taborun döyüşçüləri arasında yenidən şəhid olanlar, yaralananlar vardı. Yaralıların hamısına ağrıkəsici vurmağa belə imkan yox idi. Bunu görən Ramiq yaralıları düşdükləri psixoloji vəziyyətdən çıxarmaq üçün onlara ağrıkəsici iynə vurduğunu deyir, iynə vururmuş kimi hətta əlini kəskin hərəkətlə yaralanan əsgərlərin əzələsinə vurur, sonra yerini ovxalayırmış kimi simulyasiya edərək onların şoka düşməsinin qarşısını almağa çalışırdı. Doğrudan da, yaralılar bundan sonra, sanki ağrıkəsici qəbul etmiş kimi davranır, özlərini toplarlaya bilirdilər.

Ermənilərin atdığı mərmilərin isə ardı-arası kəsilmirdi. İrəliləyən taborda yaralıların sayı artmaqda davam edirdi. Artıq Laçın dəhlizinə çatan döyüşçülər yaralıları təxliyə etməyin çətin olacağını anlayaraq, yanlarına şəxsi heyətdən nümayəndə qoyur, irəliləməyə davam edirdilər. Taborun döyüşçülərindən bir neçəsi dərəyə enərək Şuşaya doğru irəliləməkdəydi. Dan yerinin sökülməsinə az qalırdı. Vaxt itir-

mək olmazdı. Əks halda yüksəkliklərdə yerləşən düşmənin atəşindən yayınmaq olmayacaqdı.

Artıq bir neçə tabor: mayor Səfərli Gündüzün, Polkovnik-leytinant Həsənov Salehin taborları Xankəndi yolunu nəzarətdə saxlamağa nail olmuşdular.

Şuşaya hücum bir neçə istiqamətdə planlaşdırılmışdı. Qoşun birləşmələrindən biri artıq 30 oktyabrda Daşaltı istiqamətində, Şuşanın üç kilometrliyində yerləşəndən sonra Şuşada həyəcan siqnalı verilməyə başladı. Düşmən artıq mülki əhalini Şuşadan çıxarmağa başlamışdı. Eyni zamanda Daşaltı yüksəkliyində yerləşən Azərbaycan qoşun birləşməsindən geri almaq üçün oranı da dayanmadan müxtəlif tipli artilleriya vasitələrindən və tanklardan atəşə tuturdu. Düşmənlər bu yüksəkliyi geri alarlarsa aşağıda olan, Sığınaq kəndi istiqamətindən gələn Azərbaycan hərbi qüvvələrini məhv edə biləcəklərini düşünürdülər. Məqsədlərinə çatmaq üçün iki gün əks həmlə etmələrinə baxmayaraq düşmən hərbi qüvvələri buna nail ola bilmədi.

Azərbaycan qoşun birləşmələrindən Daşaltı istiqamətində və Şuşi kənd istiqamətində aldadıcı manevrlər etmək üçün hərbi qüvvələr də cəlb olunmuşdu. Məqsəd Laçın istiqamətindən irəliləyən və düşmənin ağlına gəlməyən istiqamətdən-Daşaltı üzərindəki qayalardan Xüsusi Təyinatlıların Şuşaya daxil olmasına şərait yaratmaq idi.

Noyabr ayının 5-i səhər saat 10:00-a kimi yaxın, uzaq dazorlar, yaxın, uzaq pusqu qrupları artıq lazım olan istiqamətdə yerləşmişdi. Axşama doğru aşağı pusqu qrupu Xankəndi istiqamətindən tankların, BMP-lərin gəldiyini xəbər verdi. Düşmən əsas qüvvəsini Xankəndi istiqamətində cəmləmişdi. O sürətlə irəliləyən Azərbaycan ordu birləşmələrini Xankəndi istiqamətindən gözləyirdi. Həmin yola yaxın yerləşmiş qrup onlara sarı gələn bu hərbi texnikaları sıradan çıxarmaq üçün düşmən hərbi texnikasını mərmi atəşinə tutmağa başladı. Lakin mərminin uçuş məsafəsi qısa olduğu üçün güclü partlayış effekti verə bilmirdi. Bu boşuna tank əleyhinə mərmi itkisi demək idi. Bu vəziyyəti qiymətləndirən komandanlıqdan atışı saxlamaq əmri gəldi. Amma bununla yanaşı şəxsi heyətin Şuşaya sızmasını təmin etmək üçün istənilən güllə keçirən texnika zərərsizləşdirilirdi. Digər döyüş qrupları da artıq Xankəndi yolunu və Şuşanı da daimi atəş altında saxlayırdı.

Gecə saat 02:00 radələrində Xankəndi istiqamətindən bir BMP- nin gəldiyi göründü. Rüstəm yanındakı könüllülərdən olan döyüş yoldaşına uzaqdan gələn BMP-ni göstərərək:

-Bunu vurmaq lazımdır. Sən məni mühafizə et, mən BMP-ni vuracam.

Onlar birlikdə hərəkət edərək asfalt yola çıxan zaman Şuşa tərəfdən daha bir maşının onlara doğru irəlilədiyini gördülər. Bu şəxsi heyətin Kamaz-ı idi.

Əgər bu Kamaz-ın gəldiyi barədə sağda yerləşən atəşdəstək qrupuna istiqamət verilsəydi həmin an sıradan çıxarıla bilərdi. Odur ki, Rüstəm Kamaz-ı nişan alaraq, 4-5 atəş etdi. Dəyən güllənin çıxardığı qığılcım onun yerini bəlli etdi və həmin an atəşdəstək qrupu onu vurmağa nail oldu. İşlək halda olan Kamaz çevrilərək yolu bağlamış oldu.

Bunu görən düşmən BMP-sindən atəş açmağa başlandı. Açılan atəş Rüstəmi yaraladı. Yaralanan zaman Rüstəmin ilk xatırladığı qəhrəmancasına şəhid olmuş döyüş yoldaşı Elyar Vəliyev oldu. Vaxtında peşəkarlıqla göstərdiyi ilkin tibbi yardım nəticəsində Elyar çox döyüş dostunun həyatını xilas etmişdi. İndi onun yeri çox görünürdü. Bir də döyüş dostlarını ağrıdan, sarsıdan o idi ki, göstərdiyi ilkin tibbi yardımla onlarla döyüş yoldaşının həyatını xilas edən Elyar snayper gülləsindən elə həmin andaca şəhid olmuşdu.

Rüstəmin yaralandığını görən qrupun döyüşçülərindən Xəyyamla Ramiq tez özlərini yetirərək Rüstəmi döyüş mövqeyindən çıxararaq arxaya təxliyə etdilər.

Vəziyyətin gərginləşdiyini görən komandanlıq noyabr ayının 6-da tankları məhv edə biləcək güclü vasitələrin - Spayk tipli, Konet tipli mərmilərin gəlməsinə ehtiyac olduğunu yuxarı komandanlığa xəbər verdi. Əks halda Şuşanın düşmənlərdən təmizlənməsi gecikə bilərdi.

Nəhayət, tankı məhv edə biləcək mərmilər və təxliyə qrupu gəlib çıxdı. Tankı vurmaq üzrə ixtisaslaşan Hə-

sənli Ziya silahını düşmən tankına tərəf yönləndirdi. Dağların üzərini alan duman da getdikcə sıxlaşırdı. Nəhayət, əraziyə qatı duman çökdü. Göz-gözü görməsə də, dumanın çökməsi irəliləyən ordunun xeyrinə idi.

Noyabr ayının 6-da səhər saat 06:00-da Azərbaycan Silahlı Qüvvələri Şuşa şəhərinə hücuma keçdi. Düşmən tankları, BMP-ləri bir-bir vurularaq sıradan çıxarılırdı. Düşmən qüvvələrinin şəhərdən sıxışdırılıb çıxarılmasına başlandı. Artıq günorta radələrində Daşaltı yolu açılaraq arxadan təminatlar gəlməyə başladı. Elə bu zaman təxliyə qrupu da yaralılara yaxınlaşa bildi. Buradakı yaralılar təcili yardım maşınlarına yerləşdirilərək arxaya - Xocavəndə doğru istiqamət aldı. Şuşaya atılan İsgəndər raketinin dalğa gücündən Təcili Yardım Maşını belə güclü silkələnməyə məruz qaldı. Yolsuzluq şəraitinə, düşmənin güclü atəşinə baxmayaraq yaralılar lazım olan yerə təxliyə edilə bildi. Yaralılar arasında "Əfsanəvi tabor"un döyüşçüsü Rüstəm də vardı.

"Əfsanəvi tabor"un digər sağ qalan döyüşçülərindən Əzizov Xəyyam, Tağıyev Ramiq və taborun bir neçə döyüşçüsü isə başladığı döyüş yoluyla Şuşaya kimi irəliləyə bilmişdilər. Noyabr ayının 6-da Şuşa uğrunda artıq küçə döyüşləri gedirdi. Azərbaycan Ordusu həm Laçın yolu, həm Daşaltı istiqamətindən artıq şəhərə daxil olmuşdu. Xəyyamla Ramiq də küçə döyüşlərinə qatılmışdı. Şuşaya daxil olmazdan əvvəl düşmənin atdığı minamyot Xəyyamı ayağından

yaralamışdı. Amma buna baxmayaraq, o təxliyə olunmağa razılıq verməyərək döyüşü davam etdirmiş, Şuşaya kimi irəliləmişdi. Şuşa uğrunda ölüm-dirim savaşı gedirdi.

O, yaxın dostu Ramiqlə birlikdə burada gedən qızğın döyüşlərdə iştirak edirdi. Onlar bu haqq yolunda şəhid olmuş və yaralanaraq Şuşaya kimi döyüş yolunu davam etdirə bilməyən yoldaşlarının da intiqamını almaq, arzularını yerinə yetirmək üçün döyüşürdülər.

Və noyabrın 8-i. Şuşa uğrunda döyüşlər davam edirdi. Düşmənin açdığı atəş yenidən Xəyyamı ağır yaralamışdı. Dostunun yaralandığını görən Ramiq özünü Xəyyama yetirdi. Yarasını sarıyaraq yaxınlıqdakı ağacın altına çəkdi. Özü isə "tez qayıdacam" deyərək, yenidən döyüş mövqeyinə qayıtdı.

Çox keçmədi ki, Ramiq də düşmən gülləsinə tuş gəldi. O, aldığı ağır yaradan yerindəcə şəhid olmuşdu. Ramiq həyatında bəlkədə birinci dəfəydi ki, verdiyi sözü tuta, dostu Xəyyamın yanına qayıda bilmədi. Xəyyam dostunu çox gözləsə də o bir daha qayıtmadı. Həm tibb, həm kəşfiyyat sahəsində, həm döyüşdə bacarığı ilə seçilən, çevik qərar verə bilən Xəyyam çoxlu qan itirdiyindən indi gücsüz, hərəkətsiz qalmışdı. Çox döyüş yoldaşını motivasiya edən, hətta tibbi ləvazimat çatmasa belə yardım edirmiş kimi simulyasiya edən Xəyyam özünün gücünün tamam tükəndiyini, heç bir şeylə özünə kömək edə bilməyəcəyini hiss edirdi. O, son dəfə gözlərini açaraq şəhid

olduğu, yaralandığı üçün döyüşlərdən kənarda qalmış bütün döyüş dostlarının gözüylə hamısının ən böyük arzusu olan, can atdıqları "Azad Şuşa"ya baxaraq gözlərini əbədi yumdu.

"Əfsanəvi tabor"un müharibənin ilk günündən qəhrəmanlıqla döyüşərək neçə-neçə şəhid və çoxlu sayda yaralı bahasına başlanan döyüş yolu, nəhayət, Şuşa şəhərində başa çatdı.

Elə həmin gün Şuşa şəhərində qalan düşmən qüvvələri də məğlubiyyətləri ilə barışdıqlarını etiraf etdilər. Artıq Xankəndində, Ağdamda, Şuşada mühasirəyə düşən düşmən məğlubiyyətin qaçılmazlığını görərək, noyabrın 10-da bu məğlubiyyəti rəsmiləşdirən sənədi imzalamağa məcbur oldu.

## İKİ İL SONRA QARAXANBƏYLİDƏ

Artıq müharibədən iki il keçmişdi. Elyarla birgə buradan döyüşə başlayan döyüş dostlarından ikisi, Şamil Məmmədov və Ayar Abbasov döyüşdükləri yerlərə səfər etmişdilər. Bu yerlərin hər qarışı uğrunda döyüş getmişdi. Hər iki döyüşçünün bu yerlərlə

bağlı çoxlu xatirələri vardı. Bu yerləri gəzdikcə gah gözləri dolur, gah üzlərinə təbəssüm qonur, gah da baxışları uzaqlara dikilirdi.

Şamil "Sarı komutan"ının - qrupun komandiri kapitan Kamil Şirinovun vurulduğu yerdə dayanmışdı. Gözləri dolaraq onun nəşini necə döyüş bölgəsindən çıxartdığını xatırladı. Təkcə komandiri kapitan Kamil Şirinovu deyil, "Əfsanəvi tabor"un neçə-neçə igid qəhrəmanını da döyüşlər zamanı itirmişdi. Ən çox itkini 19 oktyabrda Hadrutda vermişdilər. Bu döyüşdə on üç döyüş yoldaşı qəhrəmancasına şəhid olmuşdu. Bütün Şəhidlər bir-bir gözləri önündən keçdikcə Şamil udqunaraq qəhərini boğmağa çalışırdı.

Bu döyüşdən bir gün öncə Elyarın ad gününü qeyd etmişdilər. Yenə döyüşçülərdən biri zarafatyana video çəkmişdi.

Günəşli bir payız günü idi. Tabor ağaclıq bir ərazidə yerləşmişdi. Elyarın ad günü idi. Ərazidən əldə etdikləri dananı artıq kəsib, doğramışdılar. Ocaq yandıraraq kabab çəkməyə hazırlaşırdılar. Əhval-ruhiyyələri yüksək idi. Müşahidəçiylə də zarafatlarından qalmırdılar:

-Sən yaxşı müşahidə elə. Gör yenidən danadan-zaddan görmürsən?

-Var, körpə danalar görünür ərazidə.

Müşahidəçinin bu sözlərinə hamısı ürəkdən gülmüşdü.

Bir az aralıda isə məhv edilmiş bir erməni kəşfiyyatçısının meyidi qalmışdı. Bu onlar barədə məlumat ötürmək istəyən erməni hərbçisinin nəşi idi. Onu öldürən Sübhan telefonla çəkiliş edən döyüşçü yoldaşına üzünü tutaraq belə demişdi:

-Səhər bu ermənini şəxsən mən əlimdəki bu bıçaqla öldürmüşəm. Bunu da çək.

Elə bu an düşmən səngərində bir düşmən əsgəri də görünmüşdü. Onları görən əsgər qaçmağa başlayanda bunu görən Elyar:

-Bu deyəsən mənim üçün ad günü hədiyyəsidir, - deyib ildırım sürətilə əsgərin dalınca qaçmış və çox keçmədən əlində qanlı bıçaqla geri dönmüşdü. Düşmən əsgərini elə öz döyüş bıçağı ilə qətlə yetirmişdi.

Elyarın həmin sözlərini elə olduğu kimi xatırlayırdı:

-Hər şey yaxşı olacaq, narahat olmayın, İnşallah, qalib gələcəyik. Sonralar bu çətin günlərimizi, əziyyətimizi yaxşı günlərdə, yeyib-içəndə yada salarıq ki, bizim belə günlərimiz də olub.

Bir neçə gün sonra isə artıq Elyar döyüşdə qəhrəmancasına şəhid olmuşdu. Silah-sursatı tükənmiş, döyüş meydanında tək qalmış, buna baxmayaraq sona kimi düşmənə müqavimət göstərən bu əfsanəvi döyüşçü düşmənin snayper atəşi ilə düz ürəyindən vurulmuşdu. Daha heç vaxt o günləri Elyarla birgə xatırlaya bilməyəcəkdi.

Şamil köks ötürərək yenidən udqundu. Bütün şəhid olmuş dostları bir daha gözləri önündə canlandı: Kamil, Elyar, Camal, Kərim, Şəhriyar, Həmid, Elton, Tərzan, Xəyyam, Sübhan ...

Özü də elə həmin Hadrut uğrunda döyüşlərdə yaralanmışdı. Yol düşmən tərəfindən daimi atəş altında saxlanıldığından təxliyələri də sona kimi mümkün olmamışdı. Gecə on ikinin yarısı yaralanmasına baxmayaraq, yalnız gecə birdə birtəhər çox çətinliklə arxa əraziyə çıxa bilmişdi. Təxliyə olunmasını gözləməyin mənasız olduğunu görüb yaralı-yaralı Füzuli istiqamətinə üz tutmuşdu. Yalnız səhərə yaxın gecə dörddə Füzuli ərazisinə çata bilmişdi.

Bu döyüşə qədər yalnız üç şəhid verən, minlərlə düşmən əsgərini məhv edən 1-ci taborun qarşısında heç bir düşmən qüvvəsi duruş gətirə bilmədiyindən onu "Əfsanəvi tabor" adlandırırdılar. Həqiqətən də, taborun hər bir döyüşçüsü bir başqa əfsanə idi. Əfsanəvi döyüşləri ilə tarix yazmışdılar.

Bu gün onunla bir yerdə Qaraxanbəyliyə gələn döyüş yoldaşı Ayarın da çox xatirələri vardı. Yolun kənarında dayanıb ətrafa göz gəzdirdikcə döyüş yoldaşları ilə müharibədə keçirdiyi hər günü, hər hadisəni xatırlayırdı...

Təxliyə qurupunun komandiri Şəhid Qəzənfər Mütəllimov yadına düşdü. Qaraxanbəylidə döyüşlərin dörd günlük mühasirədə davam etməsinə baxmayaraq Mütəllimovun 39 yaralı və bir şəhidi güllə yağışı altın-

da necə təxliyə etdiyi gözləri önündə canlandı. Azərbaycan döyüşçülərinə gələn təminatın qarşısını almaq üçün düşmən Mütəllimov Qəzənfəri aradan götürmək üçün çox çalışırdı. Bu məqsədlə onu neçə gün izlədikdən sonra, düşmən tərəfindən Azərbaycan bayrağı qaldıraraq onu pusquya salaraq vurmuşdular.

Ayar acılı-şirinli müharibə xatirələrinin heç birini unutmamışdı. Buradakı hər bir daşa, hər bir xarabalığa dönmüş uçuq divarlara baxdıqca gözü önundə müharibə zamanı burada keçirdikləri döyüşlər canlanırdı.

Döyüş yoldaşlarını videoya çəkdiyi günü xatırladı..

Üzünü Kərimə tutaraq zarafatla:

-Kərim, səni ayrıca çəkirəm, - demişdi.

Düşmən səngərində uzanmış Kərimin cavabı isə belə olmuşdu:

-Gör nə deyirəm, ay brat. Bu erməni səngəridi. Bu da erməni PK -sıdı, qalıb burda. Qaçanda bütün silah-sursatlarını, hətta şəxsi əşyalarını da atıb gediblər. Mən də erməni səngərində uzanıb istirahət edirəm. Eşidirsən məni? Bir söz deyim?

-Hə, de.

-Hər dəfə video çəkiləndən sonra biri gedir.

-Çəkən gedir, çəkilən gedir?

-Çəkilənlərdən biri gedir, - deyərək, Kərim gülərək Ayara cavab vermişdi.

Döyüşdə kontuziya alan və dostlarının israrına məhəl qoymayaraq təxliyə olunmaqdan imtina edə-

rək yenidən döyüş meydanına qayıdan Kərimi necə xatırlamamaq olardı.

Həmişə üzü gülən, son dərəcə zarafatçıl Kərimlə olan bu söhbəti yadına düşdükcə, Ayarın göz yaşları içində dodağında xəfif təbəssüm də göründü.

Ayar Elyarın xarabalıqdakı hamıya ürək-dirək verən sözlərini də xatırlayıb köks ötürdü. Döyüşlərdə qorxmazlığı, qəhrəmanlığı ilə seçilən, birlikdə ən ağır döyüşlərdən keçdiyi, döyüşlərdə çox vaxt qorxmadan ayaq üstə irəliləyən, ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı kimi ən yüksək ada layiq görülən əfsanəvi döyüşçü Elyar Vəliyev də artıq həyatda yox idi. Amma Elyarla olan xatirələri həmişə onunla idi. Hadrut qəsəbəsində gedən döyüşlərdən sonra Elyar və döyüş dostları ilə birlikdə ərzaq topladıqları, topladıqları ərzağı gətirdikləri QAZ-53-ü sonra Elyarla aparıb düşmən keçən yolda necə yandırdıqları, Aviasiya qurğusunu necə məhv etdikləri, qurğunun idarəetmə pultunu Elyarın necə sıradan çıxardığını, bu kimi daha neçə-neçə gələcək nəsillərə nümunə olacaq Elyarın qəhrəmanlıqlarını necə unuda bilərdi? Belə bir qəhrəmanla birlikdə döyüş yolu keçməsinin qürurunu yaşayacaqdı həmişə.

Xüsusi zarafatı olan Zülfüqarov İlkini gözlərində kədər, üzündə təbəssüm xatırladı. Başına narahat olan kaskasını görcək ona sataşardı:

-Yenə səni bu kaska ilə göndərdilər?

-Hə e, məni yenə bu kaska ilə yola saldılar.

-Qayıdanda sənə mütləq bir kaska təşkil edərik.

Ayar müharibədə şəhid olan döyüş yoldaşlarını bir-bir xatırladı: kapitan Şirinov Kamil, Qaflanov Şıxəmir, Vəliyev Elyar, Abbasbəyli Həmid, Əzizov Xəyyam, Qəmbərli Elton, İsmayılov Camal, Cəbrayılov Sübhan, Quliyev Şəhriyar, Həşimov Tərzan, Əliyev Kərim, Tağıyev Ramiq, Zülfüqarov İlkin, Feyzullayev Beyrək, Məmmədov Kamil, Qurbanov Yusif, Mütəllimov Qəzənfər, Məmmədov Sahib, Ələsgərzadə Sənan, Ağayev Ramiz, Mehdiyev Surxay...

Bütün bu şəhid olmuş döyüş yoldaşlarını xatırladıqca, onların da ruhlarının döyüşdükləri bu torpaqlarda gəzdiyini hiss edirdi. Bu qəhrəmanları xatırladıqca kədər hissi qürur hissinə qarışırdı, onu qəhər boğurdu.

Hər iki döyüşçü nəhayət, Qaraxanbəylidə dalğalanan uğruna döyüşdükləri müqəddəs bayrağımız önündə ehtiramla əsgər salamı verərək şəhid olmuş döyüş yoldaşlarını yad etdilər.

## ŞƏHİDLƏRİN RUHLARI RAHATLIQ TAPDI

Vətən Müharibəsində qazanılan zəfərdən üç il keçirdi. Üçtərəfli 10 noyabr bəyannaməsini imzalamasına baxmayaraq, məğlub tərəf olan Ermənistan bu illər ərzində öz öhdəliklərini yerinə yetirməkdən hələ də müxtəlif bəhanələrlə boyun qaçırır, təxribatlardan əl çəkmirdi. Qarabağda qalan hərbi kontingenti çıxarmaq yerinə havadarlarının köməyi ilə yeni hərbi qüvvələri Qarabağda yerləşdirməyə davam edirdi. Hətta torpaqlarımıza yeni minalar basdırmaqdan da əl çəkmirdi. Ölkə səviyyəsində dəfələrlə rəsmi xəbərdarlığa baxmayaraq, bu xəbərdarlıqlara da məhəl qoyulmurdu. Azərbaycan Respublikası isə bütün ərazilərində öz konstitutsion hüquqlarını bərpa eləməkdə qərarlı idi. Ali Baş Komandan dəfələrlə "Dəmir Yumruq" yerindədir ifadəsini işlədərək, düşmənlərə ciddi xəbərdarlıq etmişdi. Və bir gün bu yumruq uduzan tərəf olmasına baxmayaraq imzaladığı bəyannaməyə məhəl qoymayan düşmənin başına enməli idi.

Sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən hələ də çıxarılmayan hərbi birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəq-

liyyat vasitələri sıradan çıxmış və mülki şəxslər həlak olmuşdu. Terrorun baş verdiyi yerə doğru gedən DİN əməkdaşları da həmin gün saat 04:30-da Xocavənd rayonunun Taqaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda ermənilər tərəfindən quraşdırılmış minaya düşmüş və nəticədə DİN- nin əməkdaşlarından yaralanan və həlak olan olmuşdu. Ümumilikdə bir gecədə Azərbaycan tərəfi erməni terroru nəticəsində 11 itki vermişdi.

Bu terror hadisələri antiterror əməliyyatının başlanmasına səbəb oldu. Artıq düşmənə yerini göstərməyin zamanı gəlmişdi.

Elə həmin gün Ermənistan Kütləvi İnformasiya Vasitələri Azərbaycan Ordusunun Xankəndi ətrafında əməliyyat keçirdiyi barədə xəbərlər yaymağa başlamışdı. Separatçıların "keçmiş dövlət naziri" Ruben Vardanyan da kütləvi atəşə tutulduqları barədə məlumat yaydı.

Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal antiterror tədbirlərinə başlanıldığını bəyan etdi. Beləliklə, 2023-cü il sentyabr ayının 19-da Azərbaycan Ordusu antiterror əməliyyatına başladı. Mülki əhalinin yerləşdiyi yerlər istisna olmaqla Ermənistanın Qarabağ ərazisində hələ də mövcud olan hərbi hissələrini və qoşun birləşmələrini, silah-sursat anbarlarını məhv etmək üçün ordumuz hərəkətə keçdi. Keçirilən bu əməliy-

yatın nəticəsində Azərbaycan Ordusunun qarşısında tab gətirməyəcəyini anlayan düşmən əməliyyatın başlanmasından heç bir sutka keçməmiş "ağ bayraq" qaldıraraq təslim olduğunu elan etdi. Separatçılar bildirdilər ki, "Ermənistan Respublikası Silahlı Qüvvələrinin qalan hissələrinin və hərbi heyətinin Rusiya sülhməramlı kontingentinin yerləşdirilmə zonasından çıxarılması və "Dağlıq Qarabağın Müdafiəsi" adlı silahlı birləşmələrinin buraxılması və tam tərksilah edilməsi barədə razılıq əldə olunub. Çıxarılması mümkün olmayan ağır texnika və silahların yerindəcə məhv edilməsi nəzərdə tutulur".

Sentyabrın 21-də isə separatçı qurumun nümayəndələri Azərbaycan tərəfi ilə razılığa gəldilər. Vaxtilə "Azərbaycanlıları Yevlaxdan Kürə tökəcəyik" deyənlər, indi təslimçilik danışığı üçün Yevlaxa getməyə məcbur olmuşdular. Və onların məlumat qərargahından belə bir mətn yayımlandı:

"1.Dağlıq Qarabağda yerləşən Rusiya sülhməramlı kontingentinin komandanlığının vasitəçiliyi ilə 20 sentyabr 2023-cü il saat 13:00-dan etibarən hərbi əməliyyatların tam dayandırılması barədə razılıq əldə olunub.

2.Ermənistan Respublikası Silahlı Qüvvələrinin qalan hissələrinin və hərbi heyətinin Rusiya sülhməramlı kontingentinin yerləşdirilmə zonasından çıxarılması və "Dağlıq Qarabağ Müdafiə Ordusu" və

ağır texnika və silahların tezliklə zərərsizləşdirilməsi məqsədi ilə Dağlıq Qarabağ ərazisindən çıxarılması.

3.Azərbaycan tərəfindən reinteqrasiya, Dağlıq Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qaldırdığı məsələlər, habelə Azərbaycan konstitusiyasına uyğun olaraq Dağlıq Qarabağ əhalisinin güzəranının təmin edilməsi məsələləri. Əldə edilmiş razılaşma 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində yerli erməni əhalisinin nümayəndələri ilə Azərbaycan Respublikasının mərkəzi hakimiyyət orqanlarının nümayəndələri arasında keçiriləcək görüşdə və sonrakı görüşlərdə müzakirə olunacaq.”

Beləliklə, bir günlük antiterror əmiliyyatının nəticəsi olaraq, erməni-separatçı rejimi Azərbaycanın şərtləri ilə razılaşaraq təslim olduqlarını bəyan etdilər. Elə həmin gün Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən belə bir rəsmi məlumat yayıldı:

1.Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

2.Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

3.Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilsin.

Bundan sonra separatçılar orada qalmağın mümkün olmayacağını bildiklərindən arxivləri yandırmağa başlamış, həm də erməni əhalisini oranı tərk etməyə təhrik etmişlər. Qarabağın erməni əhalisinin yaşayış yerlərini tərk etməsinə səbəb təkcə bu deyildi. Onlar Azərbaycan ordusunun gücünü çox yaxşı bilirdilər. Bilirdilər ki, bu güclü ordu separatçıları məhv edəcəkdir. Digər tərəfdən isə separatçılarla yanaşı onların da bəzilərinin separatçılara uyaraq vaxtilə Azərbaycanlılara tutduqları divanın, dinc əhali arasında kütləvi qətliyamın, Xocalıda törətdikləri soyqırım əməllərinin vahiməsi altında Qarabağı kütləvi surətdə tərk etməyə başladılar. Əks halda vaxtilə ağlagəlməz işgəncələr verərək doğma yurd-yuvalarından qovduqları insanlarla, qətl etdikləri insanların yaxınları ilə bir yerdə yaşamalı olacaqlar. Həm də Azərbaycan Respublikasının konstitutsiya qanunları çərçivəsində. Onların Azərbaycan konstitusiyası çərçivəsində bütün hüquqlarının qorunacağı haqqında dövlət səviyyəsində təminat verilsə də, bu köç dayanmadı. Onlardan öz çirkin məqsədlərində istifadə edən separatçılar da Qarabağı tərk erməyin yollarını aramağa başladılar. Çünki separatçılara, cinayətdə əli olanlara güzəşt edilməyəcəyini onlar özləri də

yaxşı bilirdi. Canilərin həbsinə Azərbaycan tərəfindən çoxdan sanksiyalar verilmişdi. Bu həbs-qəti imkan tədbiri, sözsüz ki, icra olunacaqdı.

Nəhayət, sentyabrın 28-də xalqımızı terrorla hədələyən qondarma "Dağlıq Qarabağ Respublikası"nın dövlət naziri vəzifəsində çalışan Ruben Vardanyan Azərbaycan Dövlət Təhlükəsisliyi Orqanlarının əməkdaşları tərəfindən sərhədi keçərkən saxlanıldı. Və onun barəsində cinayət işi başlandı. Daha sonra xalqımıza qarşı cinayət törədən separatçılardan Davit Manukyan, David Babayan, Ararat Melkumyan, Araik Arutunyan, Bako Saakyan, Arkadi Qukasyan kimi qatı cinayətkarlar həbs olunaraq Bakıya gətirildilər. Həbs olunanlar arasında 2017-ci ildə Cıdır düzündə ayağını ayağı üzərinə aşırdaraq, əda ilə oturub Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələrinin elit xüsusi təyinatlıları olan "Yaşma"nı məhv etdiklərini deyən Qondarma qurumun "müdafiə naziri" general Levon Mnatsakanyan da vardır. Vaxtilə törətdikləri çirkin, insanlıqdan uzaq əməllərilə öyündükləri, bu gün isə "Yaşma" Xüsusi Təyinatlılarının adı gələndə gizlənməyə yer axtaran düşmənin Qarabağda qalan tör-töküntüləri də yerlə-yeskan edilmişdi.

Nəhayət, 31 il sonra Xankəndi və Xocalıda da Azərbaycan Dövlət Bayrağı dalğalandırıldı. İllər uzunu bu torpaqlarda düşmənin işğalçı siyasəti nəticəsində həlak olmuş dinc mülki əhalinin, həmiçinin

ərazilərimizin azadlığı uğrunda canlarını fəda etmiş Şəhidlərimizin narahat ruhları hüzur tapmış oldu. Doğma Vətənimizin bu azad günlərini xalqımıza, bizlərə yaşadan Elyarların, Sübhanların...bütün Şəhidlərimizin igidlik örnəyi əbədi olaraq yaddaşlara həkk edildi və bundan sonra da onların əziz xatirəsi həmişə böyük minnətdarlıqla xatırlanacaqdır.

# EPİLOQ

Arif kişi ilə Səmayə ana övladları Elyarın ad gününü və ad günündən bir gün sonrakı anım gününü qeyd etməyə hazırlaşırdılar. Əvvəllər yalnız ailə üzvlərinin yığışıb qeyd etdikləri Elyarın ad gününü bu dəfə bütün el-oba ilə, bir sözlə, dövlət səviyyəsində keçirəcəkdilər. 17 oktyabrdan, yəni doğum günündən başlayan mərasimlər üç gün - şəhadətə yetdiyi 19 oktyabr tarixinə kimi davam edirdi. Kiçik bir rayonun kiçik bir kəndinin kiçik bir evində doğulan vətən boyda böyük bir oğulun doğum və anım günü, əlbəttə, günlərlə qeyd edilirdi. Bu üç əziz gündə ölkənin hər yerindən insanlar bu balaca kənddəki məzarlıqda uyuyan böyük qəhrəmanı ziyarət etmək üçün axın edirdilər.

Elyar 29 illik qısa bir müddətə qəhrəmanlıqla dolu şərəfli bir ömür sığdıra bilmişdi. Azərbaycan Respublikasının Prezidentiini sərəncamları ilə 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə "Vətən Müharibəsi Qəhrəmanı" kimi yüksək ada layiq görülmüş, "Vətən Uğrunda" medalı, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə","Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdu. Xatirəsi əbədiləşdirilən qəhrəmanın adı həm də Qobustan şəhər 2 nömrəli tam orta məktəbə verilmişdir. Hazırda rayon mərkəzindəki küçələrin biri Elyar Vəliyevin adını daşıyır.

Yenə də qəhrəmanımızın valideynləri Arif kişi və Səmayə ana bu illər ərzində ev muzeyi halına gətirdikləri Elyarın otağına çəkilmişdilər. Ata-ananın xəyala dalan gözləri önündə xatirələr bir-bir çözələnirdi. Otağın yarı açıq pəncərəsindən qəfil içəri dolan külək jurnal masasının üzərinə qoyulmuş Vətən Müharibəsi Qəhrəmanı Elyar Vəliyevin 44 günlük Vətən Müharibəsində bir döyüşçü kimi göstərdiyi böyük qəhrəmanlıqdan və keçdiyi həyat yolundan bəhs edən kitabın vərəqlərini sürətlə çevirməyə başladı. Ata ilə ananın ətrafında dövrə vuran külək içəri dolduğu kimi anidən də pəncərədən geri əsdi. Küləyin vərəqlərini çevirdiyi kitabın açıq qalmış səhifəsindəki rəsmindən qəhrəman övladları onlara gülümsəyirdi.

Otağı dolaşan bəlkə də külək deyildi, ata-anasının ürəyini ovutmağa çalışan Elyarın ruhu idi...



# MÜNDƏRİCAT

Müəllifdən ........ 3
Sükutu pozan zəng ........ 7
Təsəlli ........ 11
Beş övladın qoxusu ........ 20
Xüsusi təyinatlılar - "Yaşma" ........ 26
Qəpik əməliyyatı ........ 41
Gözlənilməyən əks həmlə ........ 55
Sürətlə irəliləyən tabor ........ 65
Horadiz stansiyasında döyüş ........ 106
İstiqamət Cəbrayıladır ........ 113
Riskli addım ........ 125
Növbəti tapşırıq : Xocavəndə sızmaq ........ 131
2015-də Xocalıda ........ 135
Hadrut uğrunda döyüş ........ 142
Aviasiya qurğusunun məhv edilməsi ........ 155
Pusquya salınan düşmən ........ 162
Məhv edilən muzdlu diversant ........ 169
Cəbhədə ad günü ........ 173
Təhvil verilən qırx tapança ........ 179
Gecikmiş təbrik ........ 182
Dağlara səda düşdü ........ 189
Döyüş dostlarını sarsıdan xəbər ........ 206
Aprel döyüşlərinin xatirəsi ........ 211
İnsanlıq nümunəsi ........ 218
Görüşə bilməyən qardaşlar ........ 221
Qəhrəmanın son döyüşü ........ 229

Acının artırdığı nifrət............................................................ 249
Qarşıda Şuşadır ...................................................................... 253
İki il sonra Qaraxanbəylidə.................................................... 261
Şəhidlərin ruhları rahatlıq tapdı ........................................... 268

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

Dizayner**: Zahid Məmmədov**
Texniki redaktor: **Elnarə Malikqızı**

Çapa 02 10.10.2025
Şərti çap vərəqi 17,5. Sifariş № 100
Kağız formatı 84x108 1/16. Tiraj 200

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4